NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİ

# NAXÇIVAN BEYNƏLXALQ TİCARƏT VƏ LOGİSTİKA MƏRKƏZİ KİMİ

## MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSININ

# MATERİALLARI



NAXÇIVAN - 2023

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

# NAXÇIVAN BEYNƏLXALQ TİCARƏT VƏ LOGİSTİKA MƏRKƏZİ KİMİ

**RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI**

*Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 29 dekabr 2022-ci il tarixli 05 saylı qərarı ilə nəşr edilib.*

**NAXÇIVAN - 2022**

**BAŞ REDAKTOR**

**Elbrus İSAYEV** – *Naxçıvan Dövlət Universitetinin rektoru*

**ELMİ REDAKTOR**

**Teymur ABBASOV** – *Naxçıvan Dövlət Universitetinin "Mühasibat və maliyyə" kafedrasının müdiri, iqtisad elmləri doktoru, dosent*

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ**

**Əşrəf ƏLƏKBƏROV** - *iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Cavadxan QASIMOV** - *iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Nuriyyə İBRAHİMOVA** - *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

***"Naxçıvan beynəlxalq ticarət və logistika mərkəzi kimi" Respublika elmi konfransının materialları,***
*Naxçıvan Dövlət Universiteti Nəşriyyatı, Naxçıvan, 2022, 145 səh.*

*Konfrans materiallarında Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olaraq, Naxçıvan Muxtar Respublikasının malik olduğu təbii, iqtisadi və coğrafi resursların düzgün qiymətləndirilməsi, onlardan davamlı makroiqtisadi inkişaf məqsədilə daha səmərəli istifadə olunmasına dair aparılmış tədqiqat nəticələri nəşr olunmuşdur.*

© NDU, Nəşriyyatı, 2022

# I BÖLMƏ BEYNƏLXALQ İQTİSADİYYATA İNTEQRASİYA VƏ DAVAMLI İQTİSADİ İNKİŞAF

**ELBRUS İSAYEV**
*Naxçıvan Dövlət Universiteti*

## QİTƏLƏRARASI İNTEQRASİYANIN TƏMİN EDİLMƏSİNDƏ İPƏK YOLUNUN ƏHƏMİYYƏTİ

Eramızdan əvvəl II əsrdən başlayaraq eramızın XVI əsrinə qədər mövcud olmuş Böyük İpək yolu şaxəli şəkildə şərqdən qərbə uzanan Şərqi Çin dənizi sahillərindən, Sinan şəhərindən başlamış Lançjoudan keçərək Dunxuana qədər uzanmışdır. Türk xalqlarından uyğurların yaşadığı ərazidə iki yerə haçalanan Böyük İpək yolunun cənub qolu Turfan çökəkliyinə cənubdan söykənmiş dağların ətəklərindən keçərək Pamir dağlarını aşmış, Fərqanə vadisinə daxil olduqdan sonra Səmərqənd şəhərinə, Buxaraya, Xarəzmə doğru getmişdir. Bu şaxənin bir qolu İrana və oradan Hindistana, digər qolu isə Kopetdağın şimal ətəyi ilə Xəzər dənizinin cənub hissəsindən keçərək Azərbaycana daxil olmuşdur. Çin dövlətinin Dunxuan şəhərindən başlamış Böyük İpək yolunun ikinci şaxəsi Lobnor gölünün şimal sahilləri boyu uzanaraq Təklə-Məkan səhrasının şimal hissəsindən ötərək Qazaxıstana keçmiş, oradan isə Xəzər dənizinin şimalından ötərək onun qərb sahilləri boyu Dərbənd-ŞamaxıGəncə-Batumi-İstanbul istiqamətində uzanaraq Balkan yarımadası vasitəsilə Apennin yarımadasının mərkəzinə doğru istiqamətlənmişdir. Bir qol isə Həştərxandan, Şimalı Qafqazdan və Krımdan keçərək Balkan yarımadasına irəliləmişdir.

Bu yol ilə hərəkət edən karvanların daşıdığı yüklər içərisində çoxluq təşkil edən və üzərində ən qiymətli məhsulun ipək olduğunu nəzərə alaraq bu məşhur karvan yolunun adını 1870-ci ildə tanınmış alman fotoqrafı Fon Rixtofen “İpək yolu” qoymuşdur. Vaxtilə bir sıra ölkələrdə, xüsusilə zəmanəsinin ən qüdrətli dövlətlərindən biri olan Roma imperiyasında ipək qızıla bərabər səviyyədə götürülür və saray əhli üçün çox qiymətli mal hesab olunurdu. Bunun bir səbəbi bu parçanın başqa parçalara nisbətən yüngül, bərk, gözəl olması idisə, digər mühüm bir səbəbi isə bu malın çox böyük tibbi əhəmiyyətə malik olması idi. Yəni o vaxtkı antisanitariya və xəstəliklərin qarşısının alınmasında bu parçalardan istifadə olunurdu. Xəstəliklərin əsas daşıyıcıları olan həşaratların bu parçaya yaxın düşə bilməmələri bir çox hallarda yoluxucu xəstəliklərin qarşasısnı alırdı. Baramaqurdu sapının bu cür gigiyenik xüsusiyyətə malik olması qərbdə böyük heyrətlə qarşılanır və hər vəchlə bu qiymətli mala olan marağı artırırdı.

Böyük İpək yolunun məşhurlaşmasında türk dövlətlərinin də böyük rolu olmuşdur. Həmin dövlətlər tərəfindən təşkil olunmuş karvanlar bu yolla Şərqdən Qərbə və əksinə müxtəlif mallar daşıyırdılar. Türklərin bu yolla nə qədər yüksək dəyər verməsi bir özbək atalar sözündə belə ifadə olunmuşdur: “Kainatda iki böyük yol vardır: Göy üzündə Samanyolu, Yer üzündə İpək yolu”.

Min səkkiz yüz ilə qədər fəaliyyətdə olmuş Böyük İpək yolunun müxtəlif şaxələrinin təxminən

20 min kilometri türk xalqlarının məskunlaşdığı ərazilərdən keçmişdir. Deməli, Böyük İpək yolu türk xalqlarının Çin, Qafqaz, Rusiya, Hindistan ölkələrinin xalqları, eləcə də ərəb ölkələrinin xalqları ilə iqtisadi əlaqələrin yaranmasında və genişlənməsində mühüm rol oynamışdır. Bundan başqa, bu yol türk xalqlarının yeni-yeni ərazilərdə məskunlaşmasına o böyük təsir göstərmişdir.

Böyük İpək yolu adlanan və tarixən ölkələr və xalqlar arasında iqtisadi, ticarət və mədəni əlaqələrin həyata keçirilməsində müstəsna əhəmiyyəti olan bu yolun keçdiyi ərazilərdən biri də şərqlə qərb arasında mühüm məntəqə sayılan və Azərbaycanın qədim zamanlardan inkişaf etmiş mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən olan Naxçıvan ərazisidir. Bu ərazi Avropa və Yaxın Şərq ölkələrinin həyatında hələ qədim dövrlərdən çox mühüm siyasi, strateji və iqtisadi rol oynayırdı. Eyni zamanda Şərqlə Qərb arasında tranzit yolları ayrıcında yerləşmiş Naxçıvandan İrana, Hindistana, Orta Asiyaya, Çinə uzanan karvan yolu Naxçıvanın iqtisadi və mədəni inkişafına əhəmiyyətli təsir göstərmişdir. Şərqin ən qədim

mədəniyyət mərkəzlərindən biri sayılan Naxçıvan şəhərinin meydana gəlməsi də məhz bu önəmli hadisənin – ticarət iqtisadi əlaqələrin inkişafı nəticəsində mümkün olmuşdur. Belə ki, Yaxın Şərq ölkələri ilə Azərbaycanı, eləcə də bütün Cənubi Qafqazı əlaqələndirən əsas ticarət yollarının kəsişdiyi əlverişli mövqedə yerləşən bu ərazidə iri tayfa ittifaqları yarandı və iqtisadi, mədəni cəhətdən yüksək inkişaf tapdı, nəticədə Naxçıvan bölgəsində şəhərlər meydana gəldi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra reallığdırdığı bır sıra regional və qlobal layihələr içərisində Tarixi İpək yolunun bərpasına verdiyi əhəmiyyətli töhvə xüsusi vurğulanmalıdı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakı şəhərində 9 ölkənin dövlət başçısı, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirildi. Bu konfransın yekununda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanıb və Bakı Bəyannaməsi qəbul edilib. TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alındı və beləliklə, Azərbaycan tarixi İpək Yolunun bərpa edilməsinə öz töhfəsini verməklə, əsas inkişaf trayektoriyalarının müəyyənləşdirilməsində mühüm rol oynamağa başladı.

Hazırda Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən "İpək Yolu iqtisadi kəməri" layihəsinin iştirakçısıdır. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviq edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb.

2017-ci il oktyabrın 30-da istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Trans-Avropa və TransAsiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etməklə, qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır. Bakı-Tbilisi-Qars dəmir yolu Çindən Avropaya yüklərin çatdırılması müddətini dəniz daşımalarına nisbətən iki dəfədən çox azaldır.

"Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasında fəal rol oynayır. Bununla ölkə hər iki transkontinental dəhlizin kəsişməsində, Avrasiya coğrafiyasının mərkəzində mühüm nəqliyyat-logistika qovşağına çevrilir. Şimal-Cənub nəqliyyat dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcək.

İkinci Qarabağ müharibəsində əldə edilən Qələbədən sonra ölkəmiz öz nəqliyyatkommunikasiya, logistika imkanlarını genişləndirməsi baxımından çox əlverişli imkanlar əldə etmişdir. Belə ki, Vətən müharibəsinin sonunda Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları birgə üçtərəfli Bəyanatın 9-cu bəndi və 2021-ci il 11 yanvar tarixində Moskvada imzalanmış 4 bəndlik Bəyanat Zəngəzur dəhlizinin reallaşması üçün hüquqi zəmin yaradır. Zəngəzur dəhlizinin bərpa olunması ölkəmiz üçün yeni iqtisadi, ticarət və logistik perspektivlər yaradacaqdır. Ölkə başçısı cənab İlham Əliyevin də vurğuladığı kimi: "Bizim əsas rəqibimiz zamandır. Çünki dəmir yolunun, avtomobil yolunun çəkilişi vaxt tələb edir. Ona görə bütün güclər səfərbər olunub ki, bu layihə icra edilsin. Beləliklə Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır... Bu baxımdan Zəngəzur dəhlizinin yaradılması Azərbaycanın milli, tarixi və gələcək maraqlarına tam cavab verir".

Bu gün respublikamız Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında önəmli rola malikdir. Belə ki, Tarixi İpək Yolu üzərində yerləşən Azərbaycan Bakı-Tbilisi-Qars dəmiryolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, "Şimal-Cənub" beynəlxalq nəqliyyat və Trans-Xəzər tranzit dəhlizləri vasitəsilə qitələrarası inteqrasiyada mühüm rol oynayır.

**ZƏHMƏT ŞAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

# XIX ƏSRDƏ NAXÇIVAN QƏZASINDA İPƏK İSTEHSALI VƏ TİCARƏTİ

*Məqalədə XIX əsrin ikinci yarısında Naxçıvan, Ordubad (1867-ci ilə qədər) və ŞərurDərələyəz rayonlarında ipəkçiliyin tarixi, Azərbaycan torpaqlarının zəbt edilməsindən əvvəlki və sonrakı illərdə bu bölgədə barama istehsalının vəziyyəti araşdırılmağa cəhd edilir. Rusiya tərəfindən istehsalın genişləndirilməsi və bu məhsulların payının artırılması istiqamətində görülən tədbirlərdən bəhs edilir. Məqalədə 1870-1900-cü illərdə yerli və xaricdən gətirilən ipəkqurdlarının məhsuldarlığı və istehsal olunan barama həcmi haqqında müqayisəli məlumatlar da verilmişdir. Bundan əlavə, burada təqdim olunan materialın təhlili, göstərilən bölgədə bu sahədə kapitalist münasibətlərinin inkişafı ilə bağlı nəticələrin ümumiləşdirilməsi və tərtibi var.*

***Açar sözlər:*** *kapitalist, istehsal, barama, sənaye, təsərrüfat,* toxuculuq

XIX əsrin 60-cı illərində həyata keçirilmiş kəndli islahatı özünün bir sıra məhdud cəhətlərinə baxmayaraq, Rusiyanın daxili quberniyalarında kapitalizmin surətli inkişafını təmin etmək üçün Qafqaza ilk növbədə kapitalist sənayesinin əsasını təşkil edən ucqarların, o cümlədən Azərbaycanın ticarət əkinçiliyinə daha çox nüfuz edirdi. V.İ.Lenin özünün “Rusiyada kapitalizmin inkişafı” adlı klassik əsərində bu münasibətlə yazır: “İslahatdan sonrakı dövrdə Qafqaz qızğın surətdə müstəmləkələşdirilirdi...” “Rusiya kapitalizmi Qafqazı dünyada əmtə tədavülünə cəlb edirdi, onun yeni xüsusiyyətlərini qədim mədərşahi qalıqlarını aradan qaldırır və öz fabrikləri üçün özünə bazar yaradırdı” (1, s.579-580).

Hələ 1850-1860-cı illərdə çar hökuməti Mərkəzi Rusiya fabriklərin tələbatını ödəmək üçün Qafqazın kənd təsərrüfatını və sənayesini inkişaf etdirmək məqsədilə bir sıra tədbirlər planı hazırlamışdır. Bu məsələ ilə əlaqədar olaraq Qafqaz canişinliyi şurasının üzvü Baran Nikalay hazırlamış olduğu məlumatında yazırdı: “Qafqazda kənd təsərrüfatı və sənayenin inkişaf etditilməsi məsələsi bir tərəfdən yerli əhalininin iqtisadi həyatında mühüm rol oynadığı kimi, digər tərəfdən də Rusiyanın özü üçün əsas məsələ olacaqdır” (2, s.130).

Bu məqsədlə hələ 1889-cu ildə “Qafqaz ipəkçilik stansiyası”nın Azərbaycanda bir sıra şöbələri açılmış və buradan yerlərə mütəxxəssislər göndərilərək yerli əhali arasında ipəkçiliyin inkişaf etdirilməsinin üsulları haqqında mühazirələr oxutdurulur və yeni daha məhsuldar barama qurdları nümayiş etdirilirdi. Məsələn, 1899-cu il dekabrın 21-də bu cür müşavirələr Naxçıvan şəhərində də keçirilmiş ipəkçiliyin inkişafına təkan vermək üçün müxtəlif mövzularda müşavirələr keçirilmişdir.

XIX əsrin 90-cı illərində ipəkçiliyi inkişaf etdirmək üçün tutdan araq çəkilməsini məhdudlaşdırmağa yönəldilmiş aksiz sisteminin həyata keçirilməsi tədbirində (3, s.36) barama qurdlarının bəslənilməsi işini xeyli yaxşılaşdırmışdır. Dövlətin köməkliyi ilə Yaponiyadan gətirilmiş (4, s.171) barama toxumu bir müddət ipəkçiliyi dirçəltdi. Sonralar yerli əhalinin xüsusən Ordubad dairəsinin Aşağı-Əylis kəndinin iri ipək sahibkarlarının Fransadan aldıqları sarı cins adlı barama növü (5, s.172) toxumunun da gətirilməsinə köməklik göstərmiş yerli hakimiyyət orqanlarının gördüyü tədbirlərin sahəsində ipəkçiliyin gələcək inkişafına böyük təkan vermişdir.

1884-cü ilin martında isə Kavkaz kənd təsərrüfatı cəmiyyətinin təşəbbüsü ilə Ordubad əyalətinin Aşağı Əylis ipəkçilərinin təkidi ilə də olsa, hökumət xəzinə vəsaiti hesabına Fransanın məşhur Leris ipəkçilik firmasından barama toxumu alaraq onu yarı qiymətinə Ordubad əyalətinin ipəkçi təsərrüfatına paylamışdır. Fransız və italyan mütəxxəssislərinin hazırladığı başqa bir barama növünü toxumunun bir hissəsini isə sınaq məqsədi ilə pulsuz paylamışdılar. Bundan başqa dövlətin təşəbbüsü ilə daha başqa bir italyan barama növünün - Suzani barama qurdunun, Fransız BarqeMarion, Felks və Dediye kimi ipək qurdlarının Ordubada gətirilməsi təşkil edilmişdir.

Məhz bu kimi tədbirlərin nəticəsi idi ki, xarici ipək mütəxxəssisləri təkcə Ordubada öz ölkələrindən barama toxumu göndərməklə kifayyətlənməyib, onlar Zaqafqaziyada ipəkçiliyin inkişafı üçün daha böyük

təbii imkana malik olan Naxçıvan qəzasının Ordubad əyalətində yeni ipək qurdu növlərini yetişdirmək məqsədi ilə öz vəsaitləri hesabına sınaq təcrübə stansiyası xarakterində olan sahələr yaradırdılar.

Məsələn, 1895-ci ildə Fransa alimi E.Jozefidie Ordubad şəhərində bu cür sınaq mərkəzi təşkil etmiş və məşhur fransız akademiki Paster metodu ilə Bağdad ipək qurdundan yeni daha məhsuldar toxum olaraq (6, s.169) onu istehsalata tədbiq edib müsbət nəticə qazanmışdır.

Həmin toxumdan əldə edilmiş baramanın 20 pudu isə /onun hər pudu 22 manata satılmışdır/ Mareel ipəkçilik firmasına satılmışdır. Bundan başqa, Ordubada yeni barama növlərindən "Bağdad payası", "İtalyan" /sarı rəngdə/, "Yapon" /yaşıl rəngdə/ və "Kərbala baraması" /sarı rəngdə/ kimi barama növlərindən də istifadə olunurdu (7, s.25).

İpəkçiliyin inkişaf etdirilməsi üçün həyata keçirilən tədbirlərdən biri də təbiyyat elmlərinin nəzarəti altında 1889-cu ildə Yerevan müəllimlər seminariyasında yaradılmış baramaçılıq şöbəsidir (8, s.36-37). Həmin şöbədə təhsil alan şagirdlər ipəkçilik elmlərinin sirləri ilə təmin olub onun təbliğatını yerlərdə genişləndirməklə məşğul olurdular.

Dölət idarə orqanlarında məhz bu kimi tədbirlərinin həyata keçirilməsinin nəticəsi idi ki,

Azərbaycanın başqa qəzalarında olduğu kimi, Naxçıvan qəzası, Ordubad və Şərur əyalətlərində də kənd təsərrüfatının başqa sahələri ilə yanaşı daxili və xarici bazarlarda böyük mənfəət gətirən ipəkçilik xeyli inkişaf etməlidir. İpəkçilikdə Naxçıvan qəzasının Naxçıvan şəhərində, Təzə kənddə, Yamxanada, Cəhridə, Şıxmahmudda, Kültəpədə, Yarımcada, Tumbulda, Ordubad şəhərində və onun ətraf kəndlərində, eləcə də Şərur Dərələyəz qəzasının Şərur əyalətində daha çox məşğul olurdular. Məsələn, hələ ipəkçiliyin kifayət qədər inkişaf etdirilməməsi dövründə-yəni 1850-ci ildə Naxçıvan qəzasında 50 (9, s.31) pud barama hasil edilərək 75 manat gəlir əldə olunmuşdur. Tədqiq etdiyimiz ərazilərdən ipəkçilik Ordubad əyalətində daha geniş yayılmışdır. Mənbələrin birində bu münasibətlə deyilir: "Ordubad şəhər sakinlərinin əksəriyyəti ipəkçiliklə məşğul olur. Burada həddən artıq tut ağaclarının olması bunu sübut edir ki, bu da nə vaxtsa şəhərdə ipəkçiliyin hökmüran rol oynadığını göstərir. Hal-hazırda isə Ordubadlılar ipəkçilikdə hələ çox əvvəllərdən təcrübəyə arxalanaraq Kərbəla əyalətindən, xüsusən Şəki və Şirvandan aldıqları baramadan daha keyfiyyətli ipək hazırlayıb onları müxtəlif rənglərlə boyayaraq İran, Moskva və Niji-Novqorod kimi iri şəhərlərdə satırlar. Məsələn, 1850-ci ildə qəza rəisinin qubernatora göndərdiyi hesabatında göstərilir ki, həmin il qəzada 27500 manat dəyərində 550 (10, s.32) pud ipək istehlak olunmuşdur.

XIX əsrin 60-cı illərindən başlayaraq Rusiyanın inkişaf etməkdə olan toxuculuq sənayesinin tələbatı nəticəsində ipəkçilik məhsulu genişlənərək ticarət xarakterinə çevrilmişdir. 1865-ci ildə Ordubad qəzasında həmin məhsulun artmasının nəticəsidir ki, Ordubad ipəyinin bazara çıxarılması üçün həmin əyalət sakinlərinin 12 nəfərinə öz məhsullarını satmaq üçün vəkalətnamə verilmişdir (11, s.148). 1862-ci ildən Ordubad qəzasının cənub və cənubi-qərb ərazilərində, Naxçıvan qəzasının qərb hissələrində-Əlincəçay sahillərindən başlayaraq Qıvraq kəndinə qədər olan ərazilərdə Şərur əyalətinin aran rayonlarında ipəkçilik məqsədi ilə yeni tut ağacları əkilib becərilirdi.. (12, s.136). Məhz bu kimi yeni tədbirlərin həyata keçirilməsi nəticəsində 60-cı illərin əvvəllərində barama hasilatı xeyli artırılmışdır. 1862-ci il məlumatına görə tədqiq etdiyimiz qəzalarda 20000 puda qədər bu cür məhsul toplanılmışdır. 1870-ci ildə başlıca olaraq Rəşt və Xorasan barama qurdları hesabına Naxçıvan qəzası, Ordubad dairəsi və Şərur əyalətlərində 7075 pud barama toplanılmışdır ki, bundan da 937 pud xam məhsul əldə olunmuşdur (13, s.136).

Yeni şitilliklərin salınması hesabına tut ağaclarının əkin sahələri ildən ilə artırdı. Belə ki, əgər

1850-ci ildə çəkil plantasiyalarının sahəsi 183,3 desyatinə bərabər idisə 1875-ci ildə 333,3 desyatinə, 1884-cü ildə isə 3840 desyatinə çatdırılmışdı (14, s.186). Daha doğrusu, 34 il müddətində tut plantasiyalarının sahəsi 3656,7 desyatin genişləndirilmişdir. Hətta başqa sözlə əgər bir desyatin sahədə 5500 tut ağacının yerləşdiyini nəzərə alsaq (15, s. 255) 1884-cü ildə təqribən 21120000 tut ağaclarının ipəkçiliyə xidmət etdiyinin şahidi olarıq. Tədqiq etdiyimiz qəzalarda, hətta belə onların daxil olduğu quberniyada ipəkçiliyin əsas mərkəzi Ordubad sayılırdı. XIX əsrin 80-ci illərində də bu əyalətin 62 məntəqəsində yaşayan 22 (16, s. 171-181) min əhalinin əmək qabiliyyətinə malik olan hissəsinin əksəriyyəti ipəkçiliklə məşğul olurdu.

Əgər XIX əsrin 70-ci illərinə qədər tut ağaclarından başlıca olaraq qurudulmuş meyvə və ya ondan araq çəkmə məqsədi ilə istifadə olunurdusa, sonrakı illərdə isə Mərkəzi Rusiya toxuculuq sənayesinin

tələbatı ilə əlaqədar olaraq, kənd təsərrüfat plantasiyalarından ipəkçilikdə istifadə olunmasına daha çox yer verilmişdir. Hər cavan tut ağacından 5-6 girvəngə, 7-8 illik ağacdan isə 1015 girvəkə yarpaq yığmaq mümkün idi. Hər bir misral barama qurdunun böyüdülməsi üçün ona 7 pud (17, s. 167) tut yarpağı lazım gəlirdi. Adətən, qurdların birinci və ikinci yuxu keçirmə mərhələsində çəkisi 1 pud olan yarpaqlı tut ağacının budaqları 60 qəpiyə satıldığı halda qurdların 5ci yuxu mərhələsindən sonra 0,1 manat 30 qaziyə qədər çıxırdı (18, s.170). Ordubad əyalətində tut plantasiyalarından əldə olunan gəlir aşağıdakı kimi izah olunurdu. Hər desyatin sahədə 5500 tut ağacının əkildiyini, hər ağacdan orta hesabla 10 girvəngə yarpaq toplandığını nəzərə alsaq, cəmi 1300 pud məhsul yığıldığının şahidi olaraıq ki, bu da həmin əyalətdə təqribən bağçılıqdan götürülən təmiz gəlirə, yəni 150 manata bərabər deməkdir (19, s.170).

İpəkçilikdə məhsul əldə etmək üçün ikinci mərhələ barama qurdlarının əldə olunub bəslənməsidir. 1878-ci ildə Ordubadın Aşağı Əylis kənd sakinləri, ipəkçilikdə xüsusi ilə tanınan Nüsnüsov qardaşları Fransız alimi akademik Pasterin metodu ilə yetişdirilmiş sağlam barama qurdlarını fransadan almaq yolu ilə bu əyalətdə ipəkçiliyi yenidən bərpa etmiş olurdular. XIX əsrin 70-ci illərindən başlayaraq yeni ipək qurdlarının xüsusən Fransadan alınan toxumun hesabına ipəkçilikdə irəliyə doğru dönüş əmələ gəldiyindən onun məhsuldarlığı xeyli çoxalmışdır.

Onu da qeyd edək ki, Naxçıvan və Şərur Dərələyəz qəzalarında eləcə də onların daxil olduğu quberniyada istər barama istehsalı, istərsə də ipək emalı başlıca olaraq Ordubad əyalətində istehlak edildiyi üçün sənədlərdə göstərildiyi kimi /əksər hallarda məhsulun ümumi hasilatı Ordubadın timsalında verilməsidir/ bura ipəkçiliyin mərkəzi sayılırdı. Məhz buna görə Naxçıvan və Şərur əyaləti ümumi ipəkçilik məhsulunun xüsusi çəkisində cüzi yer tutduqlarından bu rayonlarda əldə edilmiş məhsulu Ordubad əyalətinin ümumi məhsuluna əlavə etməyi məsləhət bilmişik. Beləliklə, tədqiq etdiyimiz illərdə ipəkçiliyin bərpa olunub inkişaf etdirilməsi barədə aydın təsəvvür yaratmaq üçün tədqiq etdiyimiz qəzalara dair aşağıdakı cədvələ müraciət edək:

| İllər | Barama istehsalı | İllər | Barama istehsalı |
|---|---|---|---|
| /pud hesabı ilə/ | | /pud hesabı ilə/ | |
| 1870 | 75937 | 1891 | 9950 |
| 1875 | 8067 | 1892 | 10150 |
| 1883 | 6000 | 1893 | 12750 |
| 1884 | 36000 | 1894 | 17500 |
| 1885 | 34063 | 1895 | 13250 |
| 1887 | 18000 | 1898 | 19000 |
| 1888 | 20625 | 1899 | 13600 |
| 1889 | 14000 | 1900 | 5400 |

Cədvəldən göründüyü kimi, 1870-1875 və 1883-cü illərdə barama istehsalı 1866-cı ilə nisbətən orta hesabla 2845 pud artmışdırsa da, lakin XIX əsrin 80-ci illərinə qədər ən çox barama istehsal olunmuş il hesab olunan 1892-ci il səviyyəsinə yenə də çata bilməmişdir. Daha doğrusu, həmin illə müqayisədə 17155 pud az məhsul toplanmışdır. Bunun başlıca səbəbi 1862-ci ildən barama qurdlarının xəstəliyə tutulması nəticəsində 1868-ci ildən başlayaraq xaricdən gətirilmiş yeni barama qurdlarının hələlik kifayət qədər məhsul verməməsi və onların da yoluxucu xəstəliklərə məruz qalması ilə xarakterizə olunmasıdır. Cədvəldən göründüyü kimi, 1884-cü ildə barama istehsalı nəinki 1892-ci il səviyyəsinə çıxmış, hətta belə onu 16000 pud ötüb keçmişdir.

Tədqiq etdiyimiz qəzalarda cədvəldə göstərilən illər üzrə hər il orta hesabla 14956 puddan artıq barama istehsal edilmişdir. Baramanın bir pudunun 16 manat 65 qəpiyə (20.səh 190) satıldığını nəzərə alsaq, hər il 249017 manat gəlir əldə edildiyini görəcəyik.

Təkcə belə bir faktı göstərmək kifayətdir ki, əgər ipəkçiliyin inkişaf etdirilməsində dönüş ili sayılan 1870-ci ildə tədqiq etdiyimiz qəzalarda cəmi 937 pud barama istehsal olunmuşdursa bütün illərdə ən az

barama istehsal olunmuş il hesab olunan 1900 cu ildəkində nisbətən yenə də 4453 pud az idi. Nəinki tədqiq etdiyimiz qəzalarda, hətta onların daxil olduğu quberniyada ən çox barama istehsal edən Ordubad əyaləti idi. 1862 ci ildə Ordubad və onun ətraf kəndlərində 2000 (21, s. 183) pud, 1866-cı ildə 2157, (22, s.186)1870-ci ildə 723, 1884-cü ildə 6436 min pud, 1886-cı ildə 8050 pud, 1898-ci ildə 9000 pud barama istehsal olunmuşdur (23, s. 5). Ümumiyyətlə, 10 il müddətində yeni 1884-1894 cü illərdə tədqiq etdiyimiz qəzalardan cəmi 73038 pud barama istehsal olunmuşdursa bunun 66,6 % və ya 115262 pudu Ordubad əyalətinin payına düşürdü. Göstərilən müddətdə həmin əyalətdə barama istehsalının orta illik xüsusi çəkisi isə 11526 pud olmuşdur ki, bu da hər il 191907 manat gəlir əldə etmək deməkdir.

Ordubad əyaləti hələ çox əvvəllərdən ipəkçilikdə ixtisaslaşdığı üçün onun əksər kəndlərində barama istehsal olunurdu. XIX əsrin 80-90 cı illərdə həmin əyalətin ipəkçiliklə məşğul olan 46 kəndinin 41-də (24, s. 187) barama istehslı geniş yayılmışdır. Barama və ipək emalı üçün Ordubad şəhərinin özündə Aşğı və Yuxarı Əylis kəndlərində, Azad, Cənnəbdə, Vətəndə, Danakirdə, Əndəmiçdə, Dırnısda, Gənzədə (25, s. 24) və b. kəndlərdə iri tut plantasiyaları salınması hesabına barama istehsalı ildən-ilə çoxaldılmışdır. İstər barama istehsalı, istərsə də ipək emalı başlıca olaraq K.Babayevlərin, Nüsnüsov qardaşlarının, Məşədi-Nəsin, Kazım bəy Əsgərxanov və Kərbalayı Bağır kimi iri mülkiyyət sahibkarlarının əlində cəmləşdiyi üçün onlar kənd burjasiyası kimi formalaşaraq, nəinki Mərkəzi Rusiyanın iri toxuculuq sənaye müəssisələri ilə, habelə, İtaliya, Fransa, Avstria, Macarıstan kimi Avropa dövlətləri, eləcə də Yaponiyada, Rəşt, Xorosan kimi ipəkçilik sahəsində şöhrət tapmış iri dövlət və şəhərlə də sıx əlaqə saxlayıb onlarla geniş ticarət əlaqələri aparırdılar. Onlar öz məhsullarını başlıca olaraq Rusiyanın Moskva, Niji-Novqorod kimi şəhərlərinə göndərib, Avropa ölkələrindən isə sağlam və keyfiyyətli ipək qurdları almaqla ipəkçiliyi daha da genişləndirirdilər. Məsələn, (1884-cü ildə) ipəkçilik sahəsində tanınmış mahir ustalar 12 pud, o cümlədən 5 pud Fransadan, 4 pud Xorasandan, 2 pud Yaponiyadan və 1 puda qədər Kərbala vilayətindən barama qurdu alaraq öz aralarında bölüşdürmüşdülər.

Ordubad əyalətinin 2856 təsərrüfatında 6436 pud barama istehsal olunmuşdur, bu hər təssərrüfata 38 manat gəlir düşmək deməkdir. Lakin yuxarıda göstərdiyimiz iri tut plantasiyalarının və ondan əldə olunmuş külli miqdarda barama məhsulu bir qrup Babayev və Nüsüsov kimi iri mülkiyyət sahibkarlarının əlində toplandığı üçün əhalinin əksəriyyətini təşkil edən yoxsul kəndlilər onların on minlərlə desyatin tut plantasiyaları sahəsində, barama qurdlarının yemlənməsində öz işçi qüvvələrini satmağa məcbur olduqlarına görə daimi yarı ac yaşamış və iri ipək ticarəti ilə məşğul olanlardan asılı vəziyyətə düşmüşdülər.

Ordubad dairəsinə nisbətən Naxçıvan qəzası və Şərur əyaləti ipəkçilikdə geri qalırdılarsa da Rusiyanın mərkəzi toxuculuq sənayesinin təsiri altında bu yerlərdə də barama istehsalı XIX əsrin 50ci illəri ilə müqayisədə həmin əsrin 80-90 cı illərində xeyli artmışdır. Belə ki, əgər 1850- ci ildə

Naxçıvan qəzasında cəmi 50 pud (26, s. 8) barama istehsal edilmişdirsə 1884-cü ildə isə ağranom Şimanovskinin verdiyi məlumata görə bu rəqəm 6000 pud (27, s. 254) olmuşdur.

Yuxarıdakı faktlardan göründüyü kimi tədqiq etdiyimiz qəzalarda XIX əsrin 70-ci illərindən Rusiya sənaye müəsissələrinin tələbatını ödəmək məqsədi ilə ipəkçiliyin bərpa edilib inkişaf etdirilməsi sayəsində barama istehsalı xeyli artırılmışdırsa o, Azərbaycanın ayrı-ayrı qəzalarında toplanılmış həmin məhsulun xüsusi çəkisi ilə müqayisədə xeyli geridə qalırdı. Məsələn, 1870-ci ildə Nuxa və Şuşa qəzalarında 14500 pud, 1875-ci ildə isə 142718 pud (28, s. 36) barama istehsal olunduğu halda həmin illərdə tədqiq etdiyimiz qəzalarda ondan 148214 pud az barama istehsal olunmuşdur ki, bu da 1901-ci ildə Nuxa qəzasında hasil edilmiş baramaya bərabərdir. Və ya başqa bir misal, əgər 1891-1894 və 1897 ci illərdə Yelzavetpol quberniyasında 611713 pud (29, s.178-182) barama istehsal olunmuşdursa 1891-1895 ci illərdə tədqiq etdiyimiz qəzalarda istehsal olunun baramanın xüsusi çəkisi 63600 pud təşkil edirdi. Daha doğrusu, Naxçıvan və Şərur Dərələyəz qəzələrında hasil edilmiş barama məhsulu həmin qəzada toplanılmış ümumi məhsulun 10,39%-ni təşkil etmişdir.

Yuxarıdakı faktlardan görünür ki, tədqiq etdiyimiz qəzalar istər tut plantasiya sahələrinin həcminə, istərsə ondan hasil edilmiş barama istehsalına görə Azərbaycanın başqa qəzaları ilə müqaisədə geridə qalırdı. Bu heç də o demək deyildir ki, Naxçıvan və Şərur-Dərələyəz qəzalarında ipəkçiliyin inkişafına şərait yoxdur və ya təsərrüfatın bu sahəsi əhalinin əsas iqtisadi göstəricisi deyildir. Əksinə, Naxçıvan qəzası,

xüsusən onun Ordubad əyaləti bağçılıq sahəsində nəinki Azərbaycanda, hətta bütün Qafqazda tanınmışdır. Burada ipəkçiliyi genişləndirilib məhsuldarlığı artırmaq üçün hər cür təbii imkan vardır və bağçılıq xüsusən onun ən gəlirli sahəsi olan ipəkçilik bu yerlərin başlıca iqtisadi göstəricisi sayılırdı.

Nəhayət, barama istehsalının geri qalmasına başqa bir səbəb ayrı-ayrı vaxtlarda iqlim şəraitinin əlverişsiz keçməsi və çəyirtkə kimi ziyanvericilərə qarşı mübarizənin lazımi səviyyədə aparılmasına imkanın olmamasıdır. 1883 və 1891 ci illərdəki yaz ayının əvvəllərində yəni tut plantasiyalarının yarpaqlanma dövründə soyuqların qəflətən düşməsi onları ləğv etdiyindən barama qurdlarını kifayyət qədər yemləmək mümkün olmamışdır. Çəyirtkənin kənd təsərrüfatı bitkilərinə böyük ziyan verdiyindən bəhs edən Naxçıvan qəzası rəisinin 1891-ci il mart-aprel aylarında qubernatora yazdığı məlumatında bildirilir ki, Təzəkənd, Yamxana və Qızıl-Vəng əkin sahələri və tut plantasiyalarının olduğu yerlərdə 500, Ordubadda 4500 desyatin sahəni tamamilə çəyirtkə örtmüşdür. Bununla əlaqədar olaraq, bütün əhali səfərbərliyə alınaraq 4760 pud çəyirtkə məhv edib basdırılmışdır (30, s.172-176). Başqa bir arxiv sənədində isə bu münasibətlə göstərilir ki, 1891-ci il aprelin 10-12 arasında çəritkə yenidən güclənmiş və barama tamamilə məhv olmaq üzrədir. Əhalinin köməkliyi ilə iki gün ərazidə 378 pud çəritkə məhv edilmişdirsə də bu iş davam etdirilir (31, s. 31). Beləliklə, yuxarıda göstərilən səbəblərin və digər amillərin nəticəsi idi ki, Naxçıvan və ŞərurDərələyəz qəzalarında tədqiq etdiyimiz illərdə barama istehsalı kifayyət qədər inkişaf etməmiş və bu sahə Azərbaycanın başqa ərazilərindən geridə qalırdı. Lakin bu geriliklərə səbəb olan amillərə baxmayaraq, XIX əsrin ikinci yarısında tədqiq etdiyimiz qəzaların əsas iqtisadi göstəricilərindən biri olan barama istehsalı ölkə toxuculuq sənayesinin tələbatı altında əvvəlki dövrlərə nisbətən xeyli irəli gedib, artıq məhsul yaratdığına görə ev təsərrüfat dairəsindən çıxaraq əmtəə xarakterinə çevrilib, ipəkçilikdə 3-cü mərhələ olan ipək emalı işinin genişlənməsinə böyük təkan vermişdir.

## ƏDƏBİYYAT

1. V.İ.Lenin Əsərləri 3-cü cild. Bakı:1988.
2. Акты Кавказской Археографической комисии. Тифлис:1904.
3. Сворник материалов для описаний местностей и племен Кавказа. Тифлис: 1898.
4. Сборник материалов для описания местностей и племен Кавказа 25-buraxılış. Тифлис: 1898.
5. Риштути. Крестиянкая реформа в Арминии, в 1870 года. Yerevan: 1947.
6. Труды Кавказского обшества селъского хозяйства. Тифлис: 1885 года № 2,3
7. Труды Кавказского обшества селъского хозяйства. Тифлис: 1885 года № 2,3
8. Сборник сведение о Кавказе. Том 2. Тифлис: 1872.
9. Ə.S.Sumbatzadə XIX əsrdə Azərbaycanın kənd təsərrüfatı. Bakı: 1958.
10. Naxçıvan MR MDA. F. 24. Siyahı 1, Iş 783.

**SUMMARY**

**Zahmat Shahverdiyev**

**SİLK PRODUCTİON AND TRADE İN THE NAKHCHİVAN DİSTRİCT İN THE 19TH CENTURY**

Measures taken in the silkworm breeding field in Nakhchivan in the II half of the XIX century and the situation of silkworm production.

In the article has been investigated the history of silkworm breeding in the Nakhchivan, Ordubad (till 1867) and Sharur – Daralayaz regions in the second half of the XIX century. It also studies the factors like the situation of silkworm breeding after the invasion of these areas by Russia and during the following years, the measures for expanding this field product and increasing specific weight of the product.

The article also deals with productivity comparison of local and foreign brought to the mentioned regions, scientific analysis of the silkworm produced in 1870 – 1900 years on the basis of its weight and the table drown up and their results and finally, the development of capitalist relations on this field in the region.

***Key words:*** *Capitalist, production, cocoon, industry, economy, weaving*

**РЕЗЮМЕ**

**Захмат Шахвердиев**

**ШЕЛКОВОЕ ПРОИЗВОДСТВО И ТОРГОВЛЯ В НАХЧЫВАНСКОМ УЕЗДЕ В XIX ВЕКЕ**

В статье делается попытка исследовать историю шелководства в Нахчыванском, Ордубадском (до 1867 года) и Шарурско – Даралаязском уездах во второй половине XIX века, состояние производства кокона в этом регионе в годы до и после захвата азербайджанских земель со стороны России, мероприятия, осуществляемые в направлении расширения производства и увеличения удельного веса указанной продукции.

В работе также представлено сравнительные данные по производительности местных и импортируемых шелковичных червей и объем кокона, производимого в 1870-1900 годах. Далее она содержит анализ представленного материала, обобщение и формулирование выводов по развитию капиталистических отношений в этой сфере в указанном регионе.

***Ключевые слова:*** *Капиталист, производство, кокон, промышленность, хозяйство, ткачество.*

**RƏSUL BALAYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti*

# BEYNƏLXALQ LOGİSTİKA ŞƏBƏKƏSİNDƏ RƏQƏMSAL TEXNOLOGİYALARDAN İSTİFADƏ PERSPEKTİVLƏRİ

*Azad edilmiş ərazilərin milli və dünya iqtisadiyyatına reinteqrasiyası, Zəngəzur dəhlizinin açılması üçün ali dövlət rəhbərliyi tərəfindən yaradılmış real imkan bu ərazidə beynəlxalq logistika şəbəkəsinin formalaşması və inkişafı perspektivlərinin qiymətləndirilməsi məsələsini gündəliyə çıxarır. Tədqiqatın məqsədi – beynəlxalq logistika şəbəkəsində rəqəmsal texnologiyalardan istifadə perspektivlərini araşdırmaqdır. Tədqiqat prosesində müşahidə, təhlil, elmi abstraksiya və məntiqi ümumiləşdirmə üsullarından istifadə edilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti - əldə edilən nəticələr beynəlxalq logistika şəbəkəsində rəqəmsal texnologiyalardan istifadə perspektivlərinin qiymətləndirilməsində istifadə oluna bilər. Tədqiqatın nəticəsi – beynəlxalq logistika şəbəkəsində rəqəmsal texnologiyaların tətbiqinin iqtisadi mühitində baş verən meyillərin aşkar edilməsidir.*

***Açar sözlər:*** *logistika, beynəlxalq şəbəkə, rəqəmsal texnologiyalar, platforma, idarəetmə, perspektiv.*

Müasir şəraitdə rəqəmsallaşma logistika sahəsinə güclü və davamlı təsir göstərməkdədir. Rəqəmsal mühitin və onun texnoloji nüvəsi olan texnologiyaların malların hərəkəti, malgöndərmələrin formatı və proseslərin idarə edilməsini dəyişdirməsi göz qabağındadır. İlkin təcrübə göstərir ki, malgöndərmələrə olan tələblər, o cümlədən: operativlik, çoxkanallılıq, dəqiqlik və şəffaflıq rəqəmsal mühitdə daha yaxşı təmin oluna bilər. Odur ki, beynəlxalq logistika şəbəkəsində rəqəmsal texnalogiyalardan istifadə vəziyyəti və inkişafı prespektivləri nəinki logistik operatorların, həmçinin tədqiqatçıların diqqət mərkəzindədir. Sürətlənən və genişlənən iqtisadi inteqrasiya şəraitində, bu diqqət həmçinin rəqəmsal platformalara yönəlir. “Milli iqtisadiyyatların getdikcə birbirinə qovuşması, ayrı-ayrı korporasiyalar arasında əlaqələrin artması həm də keyfiyyətcə yeni texniki baza - rəqəmsal platformalar - yüksək texnoloji məhsullar tələb edir ki, onların vasitəsilə istehlakçıların və təchizatçıların, malların və xidmətlərin qarşılıqlı təsiri baş verir” (1, s.8).

Qloballaşma şəraitində beynəlxalq logistik sistemlərin inkişafı ölkənin və regionun rəqabət qabiliyyətinin təmin edilməsinin mühüm amilidir. “Yeni şəraitdə ölkənin iqtisadi rəqabət qabiliyyəti, mövcud müəssisələrin fəaliyyəti əsasən intellektual nəqliyyat və logistika sistemlərinin mövcudluğu ilə müəyyən ediləcək, çünki ekspertlərin fikrincə, hər bir son məhsulda logistika komponenti 20%-dən 60%-ə qədərdir” (2).

Qloballaşma proseslərinin intensivləşməsi beynəlxalq logistik sistemlərə təsir göstərməkdədir. Belə ki, həmin sistemdə şəbəkə effekti özünü göstərir və regionların qovuşması sürətlənir. Müasir logistik qurumlar öz kommersiya təklifləri və qiymətlərini genişlənən məkan tələblərinə uyğunlaşdırırlar. Ticarətdə distribüsiya sistemində dəyişiklik edilir. Həmin dəyişikliklər satış kanallarının şaxələndirilməsində və bu məqsədlə investisiya siyasətinə yenidən baxılmasında ifadə olunur (3).

Vətən müharibəsində zəfər çalmış Azərbaycanın iqtisadi inkişafı üçün yeni imkanlar açılır. Avrasiyanın əsas və etibarlı logistika mərkəzlərindən birinə çevrilməsi həmin imkanlar qismində xüsusi olaraq qeyd edilir. “Azərbaycan son illərdə Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Zəngəzur dəhlizinin reallaşması regionun nəqliyyat sektorunda yeni imkanlar yaradacaq” (4). Bu istiqamətdə aparılan işlər, o cümlədən “yeni logistik xətlərin, dəhlizlərin və zonaların açılması, o cümlədən Zəngəzur dəhlizinin artıq beynəlxalq sənədlərdə, münasibətlərdə əhəmiyyətinin qeyd olunması ciddi məsələdir. Gələcəkdə həmin dəhlizə daha çox ölkələrin qoşulması prespektivləri” (5) realdır.

Azərbaycanın qeyri-neft sektorunun yüksək inkişaf tempini dəstəkləməklə, ixrac imkanlarını genişləndirmək və rəqabət qabiliyyətini yüksəltmək, elektron ticarətin hüquqi və infrastruktur bazasını

beynəlxalq tələblərə uyğunlaşdırmaq, regional əhəmiyyətli rəqəmsal ticarət qovşağı kimi Azərbaycan Respublikasının aparıcı mövqeyini bu əsasda daha da gücləndirmək məqsədilə Azərbaycan Respublikası

Prezidenti "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 22 fevral 2017-ci il tarixli Fərman imzalamışdır (6). Fərmanda ölkənin biznes subyektlərinin xarici biznes tərəfdaşları arasında sənədlərin elektron formada tərtibi və imzalanmasına, real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verən Rəqəmsal Ticarət Qovşağının (RTQ) yaradılması barədə qarşıya qoyulmuş vəzifələrin icrasına başlanmış, 2017-ci ilin 30 iyun tarixində qovşağın təqdimatı keçirilmişdir.

Ötən dövr ərzində davamlı və böyük miqyaslı işlər görülür. Təkcə onu demək kifayətdir ki, "RTQ yerli sahibkarlar üçün yeni bazarlar da açmaqdadır. Belə ki, insan orqanizmi ilə birbaşa təmasda olan qida, kosmetika, tekstil, tibbi cihazlar, gigiyenik vasitələr və s. məhsulların ixracı zamanı tələb olunan Sərbəst Satış Sertifikatı (Free Sales Certificate) Azərbaycanda ilk dəfə olaraq RTQ vasitəsilə yerli sahibkarlara təqdim olunur. Azərbaycan MDB məkanında bu tip sertifikatı təqdim edən üçüncü ölkədir" (7).

Beynəlxalq logistika şəbəkəsində rəqəmsal texnologiyalardan istifadə imkanlarının müəyyən edilməsi, həmin imkanların reallaşdırılması perspektivləri iqtisadi və texnoloji mühitin xarakteristikaları ilə əlaqədardır. Haqqında danışılan mühitin yaxşılaşdırılması logistik sistemlərin şəbəkə rejiminin üstünlüklərindən yararlanması üçün innovasiyalı idarəetməyə üstünlük verilməsi, dövrümüzün tələbidir. Odur ki, ölkədə müasir telekommunikasiya və rəqəmsal arxitektura quruculuğunun idarə olunması, eləcə də müxtəlif sahələrdə rəqəmsal xidmətlər və həllər üzrə platformanın inkişaf etdirilməsi sahəsində işlərin effektiv əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti "Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 27 aprel 2021 tarixli Fərman imzalamışdır (8). Azad edilmiş ərazilərin reinreqrasiyası və bu baxımdan formalaşmaqda olan logistik şəbəkənin rəqəmsallaşmasına hazırlıq üçün müəyyən işlərə başlanmışdır. Rəqəmsal transformasiya sahəsində idarəetmə sisteminin qurulmasının prioritetliyi təbii ki, təmin ediləcəkdir.

Rəqəmsal texnologiyalar və ümumiyyətlə rəqəmsal mühitin üstünlüklərinin reallaşdırılması logistik şəbəkədə malların çatdırılması üzrə imzalanmış xarici və yerli müqavilələr üzrə tərəflərin müvafiq öhdəliklərinin, xərclərin və risklərin müəyyənləşdirilməsi ilə əlaqədar fəaliyyətin beynəlxlaq satandartlara uyğunlaşma proseslərini sürətləndirəcəkdir. Rəqəmsallaşma logistik sistemlərin idarə edilməsində transaksiya xərclərinin minimumlaşdırılması, milli iqtisadiyyatın müxtəlif sahələrinin xammalla təminatında keyfiyyətə nəzarətin təşkilati təminatının yaxşılaşdırılması baxımından əlverişli mühit formalaşdıracaqdır.

## ƏDƏBİYYAT


1. Григорьев М.Н., Максимцев И.А., Уваров С.А.Цифровые платформы как ресурс повышения конкурентоспособности цепей поставок//Известия Санкт-Петербургского государственного экономического университета, 2018, №2(110), с.7-11
2. Пастухова А.Д. Цифровизация логистики – инновационный подход к организации логистических процессов// https://yandex.ru/ search/?text
3. Новости грузоперевозок от reartek.2020. Tallinn// https://www.reartek.com/ mezhdunarodnielogisticheskie-sistemy
4. Əliyeva J. Azərbaycan Avrasiyanın əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib//https://ikisahil.az/post/267511- 29112021
5. Rüstəmli B. Gələcəyin astanasında: "Zəngəzur dəhlizi" artıq beynəlxalq sənədlərdə...//https:/ /qaynarinfo.az
6. "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2017-ci il tarixli Fərmanı
7. Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı. Oktyabr 2019 //https://vergiler. az/news/economy/ 4754. html

8. “Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 27 aprel 2021
9. Цифровизация - главный тренд логистики. 2019 // https:// www.retail.ru/articles

**SUMMARY**

**Rasul Balayev**

**PROSPECTS FOR THE USE OF DIGITAL TECHNOLOGIES IN THE INTERNATIONAL LOGISTICS NETWORK**

The reintegration of the liberated territories into the national and world economy, a real opportunity created by the government to open the Zangezur corridor, raises the question of assessing the prospects for the formation and development of an international logistics network in this area. The purpose of the study is to study the prospects for the use of digital technologies in the international logistics network. The research used methods of observation, analysis, scientific abstraction and logical generalization. The practical significance of the study - the results obtained can be used to assess the prospects for using digital technologies in the international logistics network. The result of the study is to identify trends in the economic environment for the use of digital technologies in the international logistics network.

***Key words:*** *logistics, international network, digital technologies, platform, management, perspective.*

**РЕЗЮМЕ**

**Расул Балаев**

**ПЕРСПЕКТИВЫ ИСПОЛЬЗОВАНИЯ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В МЕЖДУНАРОДНОЙ ЛОГИСТИЧЕСКОЙ СЕТИ**

Реинтеграция освобожденных территорий в национальную и мировую экономику, реальная возможность, созданная правительством для открытия Зангезурского коридора, поднимает вопрос оценки перспектив формирования и развития международной логистической сети в этом районе. Цель исследования - изучить перспективы использования цифровых технологий в международной логистической сети. В процессе исследования использовались методы наблюдения, анализа, научной абстракции и логического обобщения. Практическая значимость исследования - полученные результаты могут быть использованы для оценки перспектив использования цифровых технологий в международной логистической сети. Результатом исследования является выявление тенденций в экономической среде применения цифровых технологий в международной логистической сети.

***Ключевые слова:*** *логистика, международная сеть, цифровые технологии, платформа, управление, перспектива.*

**CEYHUN MAHMUDOV**
*Naxçıvan Dövlət Universiteti ceyhun.ilhamoglu@gmail.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI MODERN İPƏK YOLUNUN LOGİSTİKA MƏRKƏZLƏRİNDƏN BİRİ KİMİ

*İki min il ərzində Qərblə Şərqi birləşdirən Böyük İpək Yolu öz tarixi əhəmiyyətini yenidən bərpa etməklə min il bundan əvvəl olduğu kimi müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında körpü yaratmaq imkanındadır. Böyük İpək Yolunun əsas ticarət və nəqliyyat qovşaqlarından biri olan Azərbaycan bu günə qədər öz coğrafi və geostrateji mövqeyini itirməmişdir. Əlverişli coğrafi vəziyyəti ona həm özünün sahib olduğu zəngin karbohidrogen resurslarının, həm də qonşu Asiya ölkələri neft-qaz məhsullarının Avropa bazarlarına daşınmasında çox vektorlu logistik imkanlar yaradır. Belə bir halda həyata keçiriləsi ortaq layihələr meydana gəlir. Belə layihələrdən biri Böyük İpək Yolunun bərpası məqsədinə xidmət edən TRACECA layihəsidir. TRACECA nəqliyyat dəhlizinin Asiya-Avropa əlaqəsini təmin edəcək başlıca qol Bakı-Tbilisi-Qars dəmiryolu xəttidir. Azərbaycanın müəllifi olduğu qlobal mahiyyətli, müasir dünyanın 100 layihəsi siyahısına daxil olan "Bakı-TbilisiQars dəmiryolu xətti" layihəsi Avropa ilə Asiya arasındakı daşınmalarda yekun bənd kimi çıxış edir. Bu layihənin tarixi İpək Yolu üzərində qurulması Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan*

*Naxçıvan Muxtar Respublikasının dünyaya inteqrasiyasında mühüm rol oynayır.*

***Açar sözlər:*** *Böyük İpək Yolu, TASİS, TRACECA, Bakı-Tbilisi-Qars dəmiryolu xətti, iqtisadi inteqrasiya, iqtisadiyyatın diversifikasiyası*

Azərbaycanı uzaq ölkələrlə birləşdirən, inkişafın, tərəqqinin simvolu rolunu oynayan tarixi İpək Yolu termini ilk dəfə 1877-ci ildə alman coğrafiyaşünası Ferdinand fon Rixthofen tərəfindən işlədilmişdir. Ferdinand fon Rixthofenin Böyük İpək Yolu adlandırdığı marşrut eramızın I minilliyindən başlayaraq II minilliyin ortalarına qədər Avropa və Asiyadan çarpaz şəkildə keçən marşrutlar şəbəkəsini əks etdirirdi. Qitələrarası mədəni mübadiləyə imkan yaradan minlərcə kilometr uzunluğundakı karvan yolu – Böyük İpək Yolu Asiyanı Avropaya bağalayan ticarət yolu olmaqla bərabər iki min ildən artıq bölgədə yaşayan mədəniyyətlərin, dinlərin və irqlərin izlərini özündə əks etdirməkdədir. Qeyd edək ki, İpək Yolu sadəcə ticarət yolu olmamış, eyni zamanda, şərqdən qərbə və qərbdən şərqə elmi-texnoloji innovasiyaların, dinlərin və mədəniyyətlərin axını yolu olmuşdur. Belə ki, barıt, maqnit kompası, çap dəzgahı, musiqi alətləri, ipək, keramika və boyalı məmulatlar kimi yeniliklər bu məmulatların yaranması haqqında təsəvvürü olmayan Qərbə Şərqdən ötürülmüşdür.

Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm rol oynayan Böyük İpək Yolunun *birinci qolu* Kopetdağın şimal ətəyi ilə Xəzərin cənub hissəsindən keçib Azərbaycan vasitəsilə, *ikinci qolu* Təklə-məkan səhrasının şimalından ötüb Dərbənd, Şamaxı-Gəncə, Batumi-İstanbula uzanaraq Balkan yarımadası vasitəsilə Avropanın mərkəzinə istiqamətlənirdi. Çin diplomatı və səyyahı Çyan Syanın məlumatlarına görə eramızdan 4-5 əsr əvvəl fəaliyyətə başlayan Böyük İpək Yolu başlanğıcını Koreyadan götürüb Çin, Monqolustan, Mərkəzi Asiya, Azərbaycandan keçərək Aralıq və Qara dəniz sahilləri boyunca Avropaya gedib çıxırdı. Karvan yolu adını yuxarıda qeyd etdiyimiz istiqamətlərdə daşınan çin ipəyindən götürməsinə baxmayaraq artıq X – XI əsrlərdə Azərbaycan ipəyi onu bazardan sıxışdırıb çıxarmağa müvəffəq olmuşdu. Ticarət əlaqələrinə imkan yaradan Böyük İpək Yolunun ilk şaxəsi Cənubi Azərbaycan ərazisindən keçdiyindən bu ərazi ilə geniş əlaqəsi olan Dərbənddə, Şirvanda, Şəkidə, Gəncədə, Naxçıvanda, Beyləqanda, Qəbələdə, Təbrizdə ipəkçiliyin inkişafına güclü təkan yaranmış, onların hər birinin ipəkçilik ticarət mərkəzinə çevrilməsinə səbəb olmuşdur. Bu marşrutla Şərqdən Mərkəzi Avropa ölkələrinə əvvəlcə ipək, daha sonra ədviyyat, qızıl, gümüş, mirvari və s. daşınmışdır. Avropadan Şərq ölkələrinə isə tacirlər qalay, sink, civə, mahud parça və s. aparmışlar. Bu baxımdan Azərbaycanın Bakı, Naxçıvan, Dərbənd, Şamaxı, Şirvan bölgələrində tacirlərin rahatlığını təmin etmək məqsədilə karvansaralar salınmışdır.

Qeyd edək ki, XV əsrin sonunda (1492-ci ildə Amerika qitəsinin kəşfindən sonra) Amerikaya və Hindistana dəniz yolunun kəşfi ilə öz əhəmiyyətini itirməyə başlayan Böyük İpək Yolu XVI əsrdə tamamilə süquta uğramışdır.

İki min il ərzində Qərblə Şərqi birləşdirən Böyük İpək Yolu öz tarixi əhəmiyyətini yenidən bərpa etməklə min il bundan əvvəl olduğu kimi müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında körpü yaratmaq imkanındadır. Hələ o vaxtlar Böyük İpək Yolunun əsas ticarət və nəqliyyat qovşaqlarından biri olan Azərbaycan bu günə qədər öz coğrafi və geostrateji mövqeyini itirməmişdir. Böyük İpək Yolunun Azərbaycan ərazisindən keçən hissəsi ən qısa yol olmaqla yanaşı, əlverişli iqlim şəraiti bu yolun ilboyu fəaliyyət göstərməsinə zəmin yaradır. Böyük İpək Yolunun Azərbaycan ərazisindən keçən hissəsi digər dəhlizlərdən 2000 km qısa olmaqla bərabər, həm də yüklərin təhlükəsiz daşınması cəhətdən çox sərfəlidir. Bu baxımdan Böyük İpək Yolunun bərpası Avropa, Qara dəniz, Qafqaz, Xəzər dənizi və Asiya regionlarında təbii ehtiyatlardan istifadəyə, ticarətin inkişafına və qarşılıqlı faydalı əməkdaşlığa kömək edəcəkdir.

Tədqiqat predmetindən irəli gələrək, qeyd edək ki, Naxçıvan-Culfa-Bakı dəmiryolu marşrutunun bir hissəsi Ermənistan tərəfindən işğal olunduğu üçün hazırda işlək deyildir. 44 günlük “Vətən” müharibəsi nəticəsində müzəffər ordumuzun əldə etdiyi qələbə və bağalnılmış üçtərəfli müqavilə ilə əlaqədar bu problemin həlli bir tərəfdən Naxçıvan Muxtar Respublikasının mövcud blokadadan çıxmasına, digər tərəfdən muxtar respublika iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına imkan verəcəkdir. Məhz bu baxımdan Naxçıvan Muxtar Respublikasının beynəlxalq ticarət və logistika mərkəzinə çevrilməsi iki yolla – Astara şəhərindən İranın Rəşt şəhərinə, Türkiyənin Qars şəhərindən Naxçıvan Muxtar Respublikasına dəmiryolu xətti çəkilişi ilə mümkündür. Burada hər iki variantın üstün cəhətləri yetərincədir və Azərbaycan üçün bu marşrutlar mühüm əhəmiyyət daşıyır. Əlbəttə hər iki marşrutun eyin zamanda mövcudluğu daha səmərəlidir. Lakin bu variantlardan bu gün həyata keçirilməsi daha real olanı Qarsdan Naxçıvana çəkilməsi planlaşdırılan dəmiryolu xəttidir. İlkin əsaslandırmalara görə Qarsdan Naxçıvana dəmiryolu xətti Türkiyə-Azərbaycan sərhədinə kimi təxminən 230 km-dir. Layihənin bu hissədəki dəyəri 1 milyard dollar hesablanır. Bu marşrut Azərbaycan üçün xüsusi önəm daşıdığı üçün Azərbaycan Türkiyəyə bu istiqamətdə münasib kredit xətti aça bilər. Naxçıvan hissəsində isə buradakı Sədərək məntəqəsindən Türkiyə-Azərbaycan sərhədinə kimi 10 km yolun inşası nəzərdə tutulur. Bütün bunlarla yanaşı, Naxçıvan ərazisindəki mövcud dəmiryolunda təxmini 230 km xəttin rekonstruksiyasına və lokomotiv-vaqon parkının təzələnməsinə ehtiyac vardır ki, bu da təqribi hesablamalara görə ümumilikdə 700 milyon dollar vəsait tələb edir.

Bu layihə ilə yanaşı, Türkiyə-İran razılaşmasına görə Qarsdan İranın Culfa şəhərinə kimi dəmiryolu xəttinin çəkiliş planı da vardır. Bu xəttin tranzit potensialı illik 3-4 milyon ton yük həcmində hesablanır. Burada daha iki faydalılıq nəzərə çarpır. Birincisi, Qars-Sədərək xətti ilə QarsCulfa (İran Culfası) xəttinin hər ikisinin Türkiyənin İqdır şəhərindən keçməsidir. Bu isə layihələrin bu məntəqədə birləşməsi ilə Türkiyəyə hər iki istiqamətdə çəkilişin eyni xətt üzərində qurulmasına imkan yaradır. İkincisi, Azərbaycanın Culfa şəhəri ilə İranın Culfa şəhəri arasındakı mövcud dəmiryolu xəttindən istifadə Türkiyə ilə Azərbaycanın dəmiryolu xətlərinin birləşməsi üçün digər bir alternativdir. Hər iki layihənin reallaşmasına “Bakı-Tbilisi-Qars dəmiryolu xətti” layihəsi çərçivəsində yanaşdıqda, Avro-Asiya dəmiryolu marşrutundakı diversifikasiyanın daha bir neçə bənd genişlənəcəyi aydın görünür.

“Bakı-Tbilisi-Qars dəmiryolu xətti” layihəsinin məntiqi nəticəsi olaraq Qars-Naxçıvan dəmiryolu xəttinin reallaşması Naxçıvan Muxtar Respublikasına dəmiryolu vasitəsilə beynəlxalq nəqliyyat dəhlizlərinə birbaşa çıxış əldə edərək tranzit daşımaların mühüm mərkəzinə çevrilməsinə səbəb olacaqdır. Layihənin həyata keçirilməsi ilə Naxçıvan Muxtar Respublikası Londondan Şanxayadək açılmış olan Şərq-Qərb koridorunun bir nöqtəsinə çevriləcəkdir. Bu da muxtar respublikanın ixrac potensialının yüksəlməsinə, yeni yaradılan sənaye sahələri mallarının, kənd təsərrüfatı məhsullarının dünya bazarlarına çıxarılmasına imkan yaradır. “Bakı-Tbilisi-Qars dəmiryolu xətti” layihəsinin həyata keçirilməsi və məntiqi nəticəsi olaraq Qars-Naxçıvan dəmiryolu xəttinin çəkilməsi muxtar respublikada tənəzzülə uğramış

dəmiryolu nəqliyyatının canlanması, yeni iş yerlərinin açılması, işsizlik probleminin həll olunması, əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi, nəticə etibarilə maddi rifah səviyyəsinin yaxşılaşması ilə yanaşı, "Yoxsulluğun aradan qaldırılması" haqqında Dövlət Proqramına da öz bəhrəsini verəcəkdir.

Araşdırmamızın məntiqi nəticəsi olaraq qeyd edək ki, iki min il ərzində Qərblə Şərqi birləşdirən Böyük İpək Yolu öz tarixi əhəmiyyətini yenidən bərpa etməklə min il bundan əvvəl olduğu kimi müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında körpü yaratmaq imkanındadır. Böyük İpək Yolunun əsas ticarət və nəqliyyat qovşaqlarından biri olan Azərbaycan bu günə qədər öz coğrafi və geostrateji mövqeyini itirməmişdir. Əlverişli coğrafi vəziyyəti ona həm özünün sahib olduğu zəngin karbohidrogen resurslarının, həm də qonşu Asiya ölkələri neft-qaz məhsullarının Avropa bazarlarına daşınmasında çox vektorlu logistik imkanlar yaradır. Bu istiqamətdə səmərəliliyi artırmaq, tranzit potensialından daha dolğun bəhrələnmək və başlıcası Azərbaycanın dünya okeanına birbaşa çıxış məhdudluğu amilini mülayimləşdirmək üçün bütün dəmiryolu infrastrukturunda sistem dəyişiklikləri yaradan layihələrin həyata keçirilməsi zərurəti yaranmışdır. Müasir məqamda belə strateji hədəflərin önündə "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsi dayanır. Bu layihənin reallaşmasında Azərbaycanın mənfəətləri olduqca əvəzsizdir. Burada, ilk növbədə, Sovetlər İttifaqının dağılması və Ermənistanın təcavüzü nəticəsində itirilən və sərtləşən nəqliyyat kommunikasiyalarına alternativlərin təmin edilməsi, qardaş Türkiyə ilə genişlənən iqtisadi əlaqələrin möhkəmləndirilməsi, çox strateji əhəmiyyət kəsb edən Azərbaycandan ərazicə ayrı düşmüş Naxçıvan Muxtar Respublikası ilə yeni və əlverişli bağlantıya nail olunması strategiyası dayanır.

"Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin əhəmiyyətinə yaxın zamanlarda Bosfor boğazı altı ilə keçəcək dəmiryolu tuneli – "Mərməray" layihəsi daha bir effektivlik qatacaqdır. Bununla da Asiyanın ən ucqar şərqindən dəmir relslər üzərindən Avropanın bütün nöqtələrinə yetişəcək tarixi bir nəqliyyat marşrutu gerçəkliyə çevriləcəkdir.

Bütün bu qeyd olunanları nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, Böyük İpək Yolunun bərpası, TRACECA nəqliyyat dəhlizi təkcə iqtisadi yox, həm də mədəni əlaqələrin inrensivləşməsinə şərait yaradacaqdır. O, Qafqazda münaqişə ocaqlarının söndürülməsində əvəzsiz rol oynayacaq, ölkəmizin mövcud kommunikasiyalarının müasir tələblərə uyğun qurulmasına kömək edəcək, sosialiqtisadi problemlərin, o cümlədən işsizliyin azaldılmasında irəliləyişlər əldə etməsinə səbəb olacaq, Azərbaycanın dünya miqyasında nüfuzunu və gücünü artıracaqdır.

"Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin həyata keçirilməsi Azərbaycanın ümummilli lideri Heydər Əliyevin "bir millət iki dövlət" prinsipindən irəli gələn bitməyən inteqrasiyanı daha da möhkəmləndirəcək, Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilənin reallaşmasının əyani bir təzahürü olacaqdır.

## ƏDƏBİYYAT


1. İsakov H.V. Azərbaycan Respublikasının "Böyük İpək yolu"nun bərpasında iştirakı: 19912005-ci illər. Bakı: Şərq-Qərb, 2011.
2. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 2006.
3. E.İsayev. V-XV əsrlərdə beynəlxalq ticarət və Azərbaycan. Naxçıvan: 2012.
4. Dr.Gökçe Mustafa. Sovyet sonrası dönemde Nazar çevresinde yaşanan rekabet. Uluslararası Sosyal Araştırmalar Dergisi. Cilt 1/3, Bahar, 2008.
5. http: // www. ulasim 2023. org
6. http:// www.kugm.gov.tr
7. Бжезинский З. Выбор: мировое господство или глобальное лидерство. Москва: Международные отношения, 2004.

**SUMMARY**

**Ceyhun Mahmudov**

**NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AS ONE OF THE MODERN SILK ROAD LOGISTIC CENTERS**

It is in opportunity of to create bridge between different cultures and civilizations thousand the east years ago as with restoring the historical importance of "Great Silk Way" connecting during two thousand years anew by west. One of joints of basic trade and transport lose Azerbaijan being geographical and geostrategic position of the "Great Silk Way" up to this day. Of rich carbo-hidrogen resources it’s possessed to it and neighbor creates very vector logistic opportunities in being carried to European market of the harvests of oil and gas of Asia countries. Companion projects which should be implemented in such circumstance occur. One of such projects is the project of TRACECA serving to the purpose of restoration of the "Great Silk Way". The transport corridor of TRACECA AsiaEurope connection of it will secure basic way is railway of Baku-Tbilisi-Kars. Author of Azerbaijan takes part project of "Baku-Tbilisi-Kars railway" modern world was as entered list total 100 projects of the global essential, item be carried in the between Asia and Europe. The project which building on historical "Great Silk way" plays the important role of Azerbaijan his composition part of Nakhchivan Autonomous Republic integration to the world.

***Key words:*** *the Great Silk Road, TACIS, TRACECA, the Baku-Tbilisi-Kars railway, economic integration, economic diversification*

**РЕЗЮМЕ**

**Джейхун Махмудов**

**НАХЧЫВАНСКАЯ АВТОНОМНАЯ РЕСПУБЛИКА КАК ОДИН ИЗ СОВРЕМЕННЫХ ЛОГИСТИЧЕСКИХ ЦЕНТРОВ ШЕЛКОВОГО ПУТИ**

Соединяющий два тысячелетия Запад с Востоком Великий Шёлковый Путь, восстанавливая своё былое историческое значение, как и тысяча лет назад имеет возможность создания моста между различными цивилизациями и культурами. Азербайджан, являющийся основным торговым и транспортным узлом Великого Шёлкового Пути, до сегодняшнего дня сохранил своё географическую и стратегическую позицию. Благоприятное географическое положение создаёт многовекторные логистические возможности для транспортирования и принадлежащих ему богатых углеводородных ресурсов, и нефтегазовой продукции соседних Азиатских стран на Европейский рынок. В таком случае появляются претворяемые в жизнь совместные проекты. Одним из этих проектов является проект TRACECA, служащая цели восстановления Великого Шёлкового Пути. Основной ветвью, обеспечивающей связь транспортного коридора TRACECA Азия-Европа, является железнодорожная линия БакуТбилиси-Карс. Имеющий глобальное значение, входящий в список 100 современных мировых проектов, проект «Железнодорожная линия Баку-Тбилиси-Карс», автором которого является Азербайджан, выступает заключительным пунктом в транспортировании между Европой и Азией. Построение этого проекта по историческому Шёлковому Пути играет большую роль в интеграции Азербайджана и её составной части Нахчыванской Автономной Республики в мировую экономику.

***Ключевые слова:*** *Великий Шелковый Путь, ТАСИС, ТРАСЕКА, железная дорога БакуТбилиси-Карс, экономическая интеграция, диверсификация экономики*

**MÜSLÜM CABBARZADƏ**
*Naxçıvan Dövlət Universiteti muslum_cabbarzade@yahoo.com*

# REGİONLARIN İNKİŞAFINDA İNNOVASİYA POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏ MƏSƏLƏLƏRİ

*Məqalədə ölkəmizin regionlarında iqtisadiyyatın inkişafı və innovasiyaların tətbiqi məsələləri təhlil olunmuşdur. Rəqabətədavamlı iqtisadiyyatın qurulması istiqamətində aparılmış irimiqyaslı, kompleks və sistemli işlərin innovasiyaların genişlənməsinə təsiri ilə bağlı araşdırmalar aparılmışdır. İnnovasiya layihələrinin məqsədyönlü axtarışı və reallaşdırılmasına təsir göstərən amillər müəyyən edilərək qiymətləndirilmişdir.*

***Açar sözlər:*** *region iqtisadiyyatı, innovasiyalar, kreativ iqtisadiyyat, startap layihələri.*

Ölkəmizin müstəqillik əldə etməsindən ötən 30 il ərzində iqtisadi situasiyanın davamlı olaraq yaxşılaşması iqtisadiyyatda yeni imkanlar və perspektivlər yaradır. Eyni zamanda dünyada informasiya cəmiyyətinin yaranması prosesi sürətlənir. Ona görə dünya iqtisadiyyatına sürətlə inteqrasiya olunan respublikamızda yeni tipli iqtisadiyyatın formalaşdırılması, kreativ əməyin və innovasiyaların səmərəli istifadə edilməsi olduqca vacib istiqamətlər hesab edilir.

Bu gün artıq şübhə yoxdur ki, texnoloji inkişaf və innovasiyalar iqtisadi artımın uzunmüddətli hərəkətverici qüvvələrinə çevrilmişdir. Ölkəmizin iqtisadi və sosial inkişafında bu amilin nəzərə alınması son illərdə qəbul edilmiş mühüm dövlət proqramları və sənədlərində aydın şəkildə ifadə olunur.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə 29 noyabr 2011-ci il tarixli Sərəncamında deyilir: "Hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır" [1].

İnformasiya cəmiyyətinin və rəqabətə davamlı yüksək texnologiyalı milli iqtisadiyyatın yaradılması bir sıra dövlətlərin iqtisadi siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Hazırda dünyanın iqtisadi cəhətdən inkişaf etmiş bütün ölkələri, o cümlədən Avropa dövlətləri öz iqtisadiyyatlarında əldə edilmiş yüksək göstəricilərin stabil saxlanması və perspektiv iqtisadi inkişaf üçün innovasiyaların imkanlarından istifadəni olduqca əhəmiyyətli hesab edirlər [8].

Bütün bunlar iqtisadiyyatda innovasiyaların rolunun və əhəmiyyətinin yüksəlməsini təsdiq edən faktorlardır. Hesab edirik ki, iqtisadiyyatımızın inkişafının müasir mərhələsində regional inkişaf proqramları tərtib edilərkən, regionların tarazlı inkişaf etdirilməsi imkanları sırasında onların innovasiya potensialından səmərəli istifadə edilməsi məsələlərinin nəzərdən keçirilməsi də vacib rol oynayır. Regional inkişaf proqramlarının hazırlanması zamanı müxtəlif ölkələrin təcrübəsinin təhlili və tətbiq edilmiş regional innovasiya proqramlarına nəzər salınması həmin proqramların icrasının səmərəli olacağı ehtimalını yüksəldir.

Hazırkı şəraitdə ölkəmizdə və onun regionlarında innovasiyalar üçün maneələr xarici və daxili hissələrə bölünür. Xarici maneələr kifayət qədər inkişaf etməmiş infrastrukturdan, mövcud sahədəki biliklərin çatışmazlığından, onlara yiyələnmək üçün imkanların olmamağından, köhnəlmiş qanunvericilikdən, cəmiyyətdəki istedadlara ümumi etinasızlıqdan ibarətdir. Daxili maneələrə ciddi təşkilati tələblər və prosedurlar, konservatizm, dünyagörüşünün çatışmazlığı, köhnə qaydanın saxlanmasına maraq, başqa insanların ideyalarını qəbul etməkdən imtina, riskə getmək üçün arzunun və motivasiyanın olmamağı daxildir.

Regional innovasiya proqramlarının hazırlanması zamanı nəzərə alınmalıdır ki, yaradıcı işçilər və onların fəaliyyətinin nəticələri yalnız uzunmüddətli perspektivdə qiymətləndirilə bilər. İnnovasiya fəaliyyətini idarə edən menecerlər ciddi, ətraflı nəzarətə arxayın olmamalıdır. Təkrar olunan, mühafizəkar əməliyyatlar üçün tətbiq olunan metodlar yaradıcılığı fəaliyyəti üzərində nəzarət zamanı tamamilə qeyri-

adekvat ola bilər. Ona görə də innovasiya siyasətinin uğurlu icrasına nail olmaq üçün prioritetlik, komplekslilik, səmərəlilik, ekoloji təhlükəsizlik, regional yanaşma prinsiplərinə əməl olunması vacibdir.

İnnovasiyaların idarə olunmasında məqsəd bütün təşkilat miqyasında yeni ideyaları irəli sürmək, generasiya etmək, nəzarət etmək və qiymətləndirməklə alınmış nəticələri bazara çıxarmaqdan ibarətdir [4]. İnnovasiyaların idarə olunmasının əsasında novatorların və təşkilatın fəaliyyət nəticələrinə cavabdehlərin balanslaşdırılmış əməkdaşlığı durur. Yaradıcılıq proseslərinin səmərəli idarə olunması üçün menecerlər innovasiyaların istifadəsi yolundakı maneələri tapmalı və aradan qaldırmalı, eləcə də şəxsi, qrup şəkilli innovasiya təşəbbüslərini müdafiə edərək innovasiya yönündə əməkdaşlıq münasibətlərini təşkilatda yaratmalıdır. Bu baxımdan hazırlanacaq proqramların milli innovasiya sisteminin regional səmərəlilik göstəriciləri və innovasiyaların dayanıqlı inkişafının indikatorlar sistemi vasitəsilə işlənilməsi və yoxlanılması ciddi nəticələr əldə etməyə imkan verə bilər.

İnnovasiyalaşdırma - yeni ideyaların yaradılması və tətbiqi hesabına müəssisənin iqtisadi və ya sosial potensialında məzmunlu, məqsədyönlü dəyişikliklərin həyata keçirilməsi cəhdidir [3]. İnnovasiyalar məhsullarda və proseslərdəki tələbatların, mövcud uyğunsuzluqların, iqtisadiyyatın ayrı-ayrı sahələrindəki və ümumiyyətlə bazardakı dəyişikliklərin, demoqrafik inkişafın və yeni biliklərin nəticəsi olaraq meydana çıxa bilər. Ona görə də regional innovasiya proqramının dayanıqlı inkişafa təsir göstərə bilən bütün prioritet istiqamətləri müəyyən edilməli və həyata keçirilməsi zəruri hesab edilən tədbirlər proqramda nəzərdə tutulmalıdır.

Bilik iqtisadiyyatının inkişafı ilə əlaqədar olan qlobal çağırışlar, ali məktəblərin ölkənin və regionların innovasiyalı inkişafının aktiv subyektlərinə çevrilməsini tələb edir. Ali məktəblərin ənənəvi sferalarda fəaliyyətindən - təhsil və elmi tədqiqat işləri, habelə onların iqtisadiyyatda tətbiqindən başqa müasir dövrdə daha bir məsuliyyəti, başqa sözlə universitetlərin “üçüncü missiyası”, müasir innovasiya infrastrukturunun formalaşdırılması zərurətindən irəli gəlir.

Müasir dövrdə dünya universitetləri kadr hazırlığının həyata keçirilməsi, elmi-tədqiqat işlərinin yerinə yetirilməsi kimi ənənəvi funksiyaları ilə yanaşı innovasiyaların yayılması funksiyasını da yerinə yetirirlər. Bunu nəzərə alaraq innovasiya fəaliyyətinin aktivləşdirilməsində ölkəmizin universitetləri, eləcə də regionlarda yerləşən universitetlərin üzərinə mühüm vəzifələr düşdüyünü qeyd etmək vacibdir. Doğrudan da müasir universitetlər innovasiya layihələrinin məqsədyönlü axtarışı və reallaşdırılması; ali məktəblərin elm işləmələri əsasında kiçik innovasiya müəssisələri zolağının yaradılması; elmi nailiyyətlərin və yeni texnologiyaların ölkə müəssisələrinə ötürülməsi; ölkəyə beynəlxalq və yerli vençur kapitalın cəlb edilməsi üçün cəlbedici layihələr hazırlamaq; innovasiya fəaliyyətini dəstəkləyən infrastrukturun yaradılmasına elmi və ideya köməyi göstərilməsi; innovasiya fəaliyyətinin kadr təminatı kimi funksiyaları da yerinə yetirməlidirlər.

Ölkəmizdə fəaliyyət göstərən qabaqcıl ali məktəblər mərkəzdə və regionlarda innovasiyaların yaradılması və tətbiqi istiqamətində aktiv şəkildə fəaliyyət göstərməlidir. Universitetlərin geniş maddi-texniki bazası və böyük elmi potensialı artıq fundamental elmi-tədqiqat işlərini yüksək keyfiyyətlə yerinə yetirməyə imkan verir. Təhsildə və texnologiyalarda olan ən son nailiyyətlər auditoriyalarda tətbiq olunur. Bir sözlə, universitetlərdə innovasiya mühitinin inkişafı kreativ düşüncəli yeni nəslin formalaşmasında mühüm rol oynayır ki, bu potensialdan da regional innovasiya proqramlarının hazırlanmasında istifadə edilməsi mümkündür.

Fikrimizcə, son illərdə ölkənin iqtisadi, sosial və intellektual potensialının möhkəmləndirilməsi, informasiya və biliklərə əsaslanan, rəqabətə davamlı iqtisadiyyatın qurulması, informasiya və bilik bazarının yaradılması və inkişaf etdirilməsi istiqamətində ölkədə aparılmış irimiqyaslı işlər innovasiyaların genişlənməsi üçün möhkəm baza formalaşdırmışdır. İnnovasiyaların iqtisadiyyatın dövlət və özəl sektorlarında geniş tətbiq olunmasının stimullaşdırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər, o cümlədən innovasiya proqramlarının elmi əsaslarının yaradılmasına xidmət edən metodik vəsait, tövsiyə və göstərişlərin hazırlanması iqtisadiyyatın yeni, innovasiyalı strukturunun formalaşmasına təkan verə bilər.

## ƏDƏBİYYAT

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci il tarixli Sərəncamı.
2. İsgəndərov R.K. Elmi-texniki tərəqqi: sosial-iqtisadi aspektlər. Dərslik. Bakı: Elm və təhsil, 2010, 636 s.
3. Инновационный менеджмент: основные понятия. http://innovationmanagement.ru/osnovnye-ponyatiya
4. Инновационный менеджмент: Учебное пособие/Под ред. П. Н. Завлина, А. К. Казанцева, Л. Э. Миндели. СПб.: Наука, 2000, 431 с.
5. Конференция ООН по торговле и развитию. Доклад об информационной экономике, 2007/2008 год. Наука и техника на службе развития: новая парадигма ИКТ. Нью-Йорк и Женева, 2007, 37 с.
6. Стратегии экономического развития государства в информационную эпоху. *Информационный документ подразделения Microsoft в* странах Европы, Ближнего Востока и Африки (*EMEA)*. https://msdb.ru/Downloads/docs/government/analytics/EconomicDevelopment.doc
7. Фатхутдинов Р. А. Инновационный менеджмент. Учебник, 4-е изд. СПб.: Питер, 2003, 400 с.
8. Шумпетер Й. Теория экономического развития. Капитализм, социализм и демократия / предисл. В. С. Автономова. М.: ЭКСМО, 2007, 864 с.

## SUMMARY

**Muslum Jabbarzadeh**

### ISSUES OF EFFECTIVE USE OF INNOVATIVE POTENTIAL IN REGIONAL DEVELOPMENT

The article analyzes the issues of economic development and implementation of innovations in the regions of the country. A study was conducted of the impact of large-scale, complex and systematic work to build a competitive economy on the diffusion of innovations. The factors influencing the targeted search and implementation of innovative projects have been identified and evaluated.

***Key words:*** *regional economy, innovation, creative economy, start-up projects.*

## РЕЗЮМЕ

**Муслум Джаббарзаде**

### ВОПРОСЫ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ ИННОВАЦИОННОГО ПОТЕНЦИАЛА В РЕГИОНАЛЬНОМ РАЗВИТИИ

В статье анализируются вопросы экономического развития и внедрения инноваций в регионах страны. Было проведено исследование влияния масштабной, комплексной и систематической работы по построению конкурентоспособной экономики на распространение инноваций. Выявлены и оценены факторы, влияющие на целенаправленный поиск и реализацию инновационных проектов.

***Ключевые слова:*** *региональная экономика, инновации, креативная экономика.*

**NAZİM ƏHMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

# ZƏNGƏZUR DƏHLİZİNİN İŞƏ DÜŞMƏSİ NAXÇIVAN İQTİSADİ RAYONUNUN XARİCİ TİCARƏTİNİ GENİŞLƏNDİRƏCƏK VƏ GÜCLÜ LOGİSTİKA MƏRKƏZİNƏ ÇEVİRƏCƏK

*Məqalədə Ermənistanın 1988-1992-ci illərdə Azərbaycan torpaqlarının 20 faizinin işğal etməsini və 1 milyondan çox azərbaycanlının qaçqın və köçkün vəziyyətə salmasından söhbət açılır. Habelə qeyd olunur ki, Azərbaycanın işğal olunmuş torpaqlarını 44 gün ərzində işğaldan azad etməsi, Zəngəzur dəhlizinin açılması, Naxçıvanın 30 il ərzində blokada şəraitində yaşamasından və eyni zamanda muxtar respublikanın gələcək illərdə logistika mərkəzinə çevriləcəyindən bəhs olunur.*

***Açar sözlər**: Azərbaycan, Heydər Əliyev, İlham Əliyev, Zəngəzur, Qarabağ, işğal, blokada*

Məlum olduğu kimi 90-cı illərin əvvəllərində Azərbaycan öz müstəqilliyini əldə edərək yeni bir iqtisadi sistemə - bazar iqtisadiyyatı sisteminə transformasiya olunmuşdur.

Keçmiş SSRİ-nin dağılması, buraya daxil olan respublikalar arasında müqavilə münasibətlərinin pozulması, yeni iqtisadi sistemə keçidlə əlaqədar olaraq mülkiyyət münasibətlərinin dəyişməsi, idarəetmə sistemində olan dəyişikliklər və s. amillər böhranın başlanmasına və sonrakı illərdə daha da dərinləşməsinə gətirib çıxarmışdır.

Ən başlıca məsələ isə xalqımızın zorla müharibəyə cəlb olunması olmuşdur. Belə ki, Azərbaycan-Ermənistan-Dağlıq Qarabağ müharibəsinin başlanması nəticəsində iqtisadiyyatımız ciddi sarsıntılara məruz qalmışdır. 1988-1992-ci illəri əhatə edən dörd il ərzində Azərbaycanın ümumi ərazisi 31,6 min kv.km olan 26 inzibati rayonunda müharibə getmişdir. 1988-ci ilin məlumatına görə Azərbaycan əhalisinin 26,8 faizi, istehsal olunan sənaye məhsulunun 11 faizi, kənd təsərrüfatı məhsulunun isə 40 faizə qədəri müharibə bölgəsi rayonlarının payına düşmüşdür.

Ölkəmizin düşdüyü dərin böhran vəziyyətindən çıxmaq üçün belə bir həqiqəti aydın dərk etmək lazımdır ki, bu böhranın ana xətlərinin uzun illərdir ki, düzgün aparılmayan daxili və xarici iqtisadi siyasət, müharibə, dağıntı və tənəzzül, xalqın ideya-siyasi birliyinin parçalanması təşkil etmişdir.

İqtisadiyyatın dağılması və tənəzzülə son qoymaq üçün möhkəm və intizamlı ordu, düzgün daxili və xarici siyasət, xalqın ideya-siyasi birliyinə nail olmaq və bu birliyi böhran vəziyyətindən çıxarmaq üçün vahid mərkəzdən idarə olunan fəaliyyət formasının yaradılması, hər şeydən əvvəl respublika üçün düzgün inkişaf yolu seçilməsindən, xalqı parçalayan deyil, birləşdirən iqtisadi siyasət yeridilməsindən asılıdır. Məhz bu məsələlər alimləri, ziyalıları daim düşündürürdü. Xalqa elə bir lider lazım idi ki, bu qeyd olunan məsələləri tez bir zamanda həll edə bilsin.

Bu dövrdə ölkəni bürüyən dərin böhran cəmiyyət həyatının bütün sahələrini iflic vəziyyətə salmışdı. 1988-ci ildən başlanan hərc-mərcilik, hakimiyyətsizlik Azərbaycan müstəqillik əldə etdikdən sonra da 1993-cü ilin ortalarına kimi davam etdi və daha da gücləndi. Ölkə iqtisadiyyatının bütün sahələrində istehsal həcmi 3-4 dəfə azalmış və hətta 1990-cı il səviyyəsindən xeyli aşağı düşmüşdü. Xarici iqtisadi əlaqələr ya tamamilə dayanmış və ya zəifləmişdi. Ölkəni bürüyən inflyasiya prosesləri yüksəlmiş, siyasi sabitlik pozulmuş, işsizlik və yoxsulluq səviyyəsi daha da artmışdır. Bu dövrdə ölkə ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuş bir milyondan çox insanlarımız qaçqın və köçkün vəziyyətə düşmüşdür. Azərbaycan Respublikası vətəndaş müharibəsi vəziyyətinə düşmüş, parçalanmaq və müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdır.

Keçid dövründə ölkəmiz siyasi, iqtisadi, sosial və mənəvi-psixoloji çətinliklərlə üzləşmişdi. Bu baxımdan Azərbaycana elə bir güclü lider lazım idi ki, bütün problemləri aradan qaldıra bilsin. Məhz o dövrdə ölkənin ən qabaqcıl ziyalıları bir araya gələrək və razılaşaraq belə qərara gəldilər ki, bu işin öhdəsindən yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev gələ bilər.

Beləliklə xalqın təkidli tələbi ilə Ulu öndər hakimiyyətə gəldi və bu çətin missiyanı öz üzərinə götürdü. Heydər Əliyev hakimiyyətə gələn kimi ilk növbədə ölkədə hakimiyyət boşluğunun aradan qaldırılması, dövlətçiliyin qorunub saxlanması və möhkəmləndirilməsi, iqtisadiyyatın sabitləşdirilməsi, vətəndaş müharibəsinə son qoyulması və s. məsələlərin həlli üçün tədbirlər gördü.

Qeyd etmək lazımdır ki, 90-cı illərin əvvəllərində Azərbaycanı bürüyən böhran öz dağıdıcı təsirini Naxçıvanda xüsusilə büruzə verirdi. Naxçıvan tamamilə Azərbaycandan təcrid olunmuş şəkildə yaşayırdı. Dəmir yolu Ermənistan tərəfindən kəsilmiş, Naxçıvan tam blokada vəziyyətinə düşmüşdü. Çörək, elektrik enerjisi, yanacaq və s. çatışmırdı.

Ümumiyyətlə, bir məsələni xüsusi olaraq vurğulamaq lazımdır ki, 1993-cü ildə ulu öndəri Azərbaycan xalqının təkidli tələbi ilə Naxçıvandan Bakıya qayıtdı, oktyabr ayında Prezident seçildikdən sonra ölkənin iqtisadi inkişaf strategiyasını müəyyənləşdirdi, 1996-cı ildə makroiqtisadi sabitlik yarandı və inkişaf başladı.

Naxçıvan Azərbaycandan təcrid olunmuş şəkildə olduğuna görə Heydər Əliyev Naxçıvan iqtisadiyyatının inkişafına xüsusi diqqət yetirməsini bir çox çıxışlarında qeyd edirdi. Ayrı-ayrı Nazirliklərə tapşırıqlar verirdi. Buraya hər bir nazirin xüsusi diqqət yetirməsini tələb edirdi.

Heydər Əliyev Naxçıvanın vəziyyətini həmişə diqqət mərkəzində saxlayırdı, buraya xüsusi qayğı olmalıdır deyirdi və dediklərini də əməli işi ilə yerinə yetirirdi.

XX yüzilliyin axırlarında Naxçıvana gələn və burada böyük dəyişikliklərin olmasını görən ulu öndər Heydər Əliyev deyirdi: "Naxçıvanın siması gündən-günə dəyişir. Amma bunlar hələ azdır... Görülməsi işlər çoxdur və görüləcəkdir. Güman edirəm ki, siz bu qayğıdan, köməkdən, yardımdan səmərəli istifadə edəcəksiniz" [1, s.91].

Heydər Əliyev ölkə iqtisadiyyatını böhrandan çıxarmaq üçün yollar axtarırdı. Məhz bununla əlaqədar 1994-cü il sentyabrın 20-də 30 ölkənin iştirakı ilə Bakıda, Gülüstan sarayında "Əsrin müqaviləsi" imzalandı. Hələ o illərdə Heydər Əliyev çox uzaqgörənliklə başa düşürdü ki, güclü iqtisadiyyata malik olmaq lazımdır. O, deyirdi ki, "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".

Bu qeyd olunanlar qısa vaxt ərzində həyata keçirildi. İqtisadiyyat inkişaf etdi, valyuta ehtiyatlarımız artırıldı. Bu imkanlar hesabına da hərbi sənayemizi inkişaf etdirərək, ordumuzu yeni silahlarla təchiz etmişik. Məhz bunun nəticəsidir ki, işğal olunmuş torpaqlarımızı 44 gün ərzində geri ala bilmişik.

Beləliklə, Azərbaycan yeni bir tarix yazmışdır ki, dünya durduqca bu tarix həmişə yad olunacaq, Azərbaycan dövləti və Azərbaycan xalqı yaşadıqca 44 günlük qələbə heç vaxt yaddaşlardan silinməyəcəkdir.

Azərbaycan prezidenti təklif edir ki, 6 dövlətin – Azərbaycan, Türkiyə, Gürcüstan, Rusiya,

Ermənistan və İranın iştirakı ilə yeni bir platforma yaradılsın. Hesab edirəm ki, belə bir platformanın yaradılması beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun artırılmasında müstəsna rol oynayacaqdır. Həm də müharibə qurtardıqdan sonra 10 noyabr 2020-ci il Bəyanatının imzalanması Zəngəzur dəhlizinin açılması ilk növbədə türk dünyasını birləşdirəcək və eyni zamanda qlobal layihələrin reallaşmasında həlledici rol oynayacaqdır.

Yuxarıda vurğulandığı kimi, Zəngəzur dəhlizinin açılması və işə düşməsi Naxçıvan Muxtar Respublikasını ilk növbədə blokadadan çıxaracaq və logistika mərkəzinə çevirəcək. Logistik sistemlər inkişaf edəcək.

Tədqiqatlar göstərir ki, material axınlarının ümumi müddətinin 94%-i məhsulların müxtəlif bölgü və satış kanallarında saxlanılmasına, 6%-ə qədəri isə məhsulların daşınmasına sərf edilir. Malmaterial resurslarının tədavül kanallarında ləngimədən təkrar istehsalın növbəti mərhələsinə operativ keçidinin təmin etməsi həlledici əhəmiyyətə malikdir. Belə ki, bu halda, ərzaq məhsullarının keyfiyyətində və kəmiyyətində itkilər azalır, istehlakçı sifarişləri vaxtında yerinə yetirilir.

Qeyd olunan problemlərin həlli üçün logistik sistemlər beynəlxalq təcrübədə özünü demək olar ki, həmişə doğrultmuşdur.

Hazırki şəraitdə logistik sistemlər aşağıdakı problemlərin həllinə xidmət etməlidir:

- məhsul istehsalının həcmi, onların daşınması və saxlanılması imkanları arasında nisbətlərin optimallaşdırılması;

- istehsal kommersiya fəaliyyətinin ahəngdarlığının təminatı, mövsimilik, boşdayanmalar və s. səbəblərdən irəli gələn fasilələrin neqativ təsirinin aradan qaldırılması və minimuma endirilməsi;
- istehsal, saxlama və nəqletmə sistemlərinin inteqrasiyasına yönəlik kooperasiyanın inkişafı və s.

Logistik sistemlər istehsal, tədarük, nəqliyyat, anbar, ehtiyatlar və satış kimi elementləri əhatə edir [4, s. 201].

İnformasiya axınlarının xarakteristikası və onların yaxşılaşdırılması imkanları ərzaq təsərrüfatında logistik sistemin inkişafının törəmə amilləri rolunda çıxış edir. Başqa sözlə, logistikanın inkişafında informasiya-kommunikasiya innovasiyalarının artan rolu müvafiq infrastrukturun modernləşdirilməsinin obyektiv imkanlarını reallaşdıra bilər. O cümlədən, həmin yeniliklər mal-material yeridilişi ilə əlaqədar əsas və köməkçi proseslərə nəzarətin səmərəliliyini yüksəltməyə xidmət edir.

Məhsul göndərənlərlə istehlakçılar arasında kifayət qədər formalaşmış sərbəst iqtisadi əlaqələrin müqavilə münasibətləri üzərində qurulması, logistik sistemin optimal fəaliyyət rejiminin qurulması və dəstəklənməsi, aqrar-ərzaq təsərrüfatının inkişafı meyarları nəzərə alınmaqla həyata keçirilməlidir.

Əhalinin əsas ərzaq məhsulları ilə etibarlı təminatına xidmət edən logistik sistemin inkişafı məqsədilə ölkənin müxtəlif regionlarında taxıl və taxıl məhsullarının saxlanması üçün ixtisaslaşdırılmış anbarlar şəbəkəsinin yaradılmasına başlanmış və bu istiqamətdə xeyli iş görülmüşdür.

Respublikamızın bütün rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasının bütün inzibati rayonlarında meyvə və tərəvəzin saxlanması üçün ümumi tutumu 4000 tondan çox olan soyuducu anbarlar tikilib istifadəyə verilmişdir.

Muxtar respublikada istehsal olunan kənd təsərrüfatı məhsullarının əhalinin tələbatından artıq hissəsinin soyuducu anbarlarda saxlanması və qış mövsümündə ixrac edilməsi xarici ticarətin daha da artmasına gətirib çıxarmışdır.

Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrinin son 17 ildəki dinamikasına nəzər saldıqda məlum olur ki, 2003-cü ildə ticarət dövriyyəsi cəmi 37,0 milyon ABŞ dolları təşkil etmişdir ki, bunun da 4,2 milyon ABŞ dolları ixracdan, 32,8 milyon ABŞ dolları isə idxaldan ibarət olmuşdur. Bu proses 2008-ci il də daxil olmaqla mənfi (-) saldo ilə başa çatmışdır.

Statistik təhlillər də göstərir ki, artıq 2009-cu ildən başlayaraq bu günə qədər (2020-ci il) muxtar respublikanın ticarət dövriyyəsi müsbət saldoya malikdir.

2020-ci ilin statistik məlumatlarının təhlili göstərir ki, muxtar respublikanın dinamik inkişafı, ən əsası yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir.

2020-ci ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 510 milyon 517 min ABŞ dolları təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 428 milyon 520 min ABŞ dollarını ixrac, 82 milyon 27 min ABŞ dollarını idxal təşkil etmiş və 346 milyon 493 min ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və modernləşdikcə xarici iqtisadi əlaqələrimiz artır və daha da genişlənir. Artıq bu gün muxtar respublikamız dünyanın 70-dən çox ölkəsi ilə ticarət əlaqələrinə girmişdir. Hesab edirəm ki, Zəngəzur dəhlizi işə başladıqdan sonra xarici ticarət əlaqələrimiz daha da genişlənəcəkdir.

## ƏDƏBİYYAT

1. Əhmədov N.H. Sürətlə inkişaf edən və modernləşən Naxçıvan iqtisadiyyatı. Naxçıvan: Əcəmi, 2019. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı: Elm, 2005, 312 s.
2. Əhmədov N.H. Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf. Bakı: Elm və təhsil, 2010, 148 s.
3. Quliyev E.A. Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri. Bakı: Elm, 2013.
4. Naxçıvan MR Statistika Komitəsinin materialları

## SUMMARY

**Nazim Ahmadov**

**THE LAUNCH OF THE ZANGAZUR CORRIDOR WILL EXPAND THE FOREIGN TRADE OF THE NAKHCHIVAN ECONOMIC REGION AND TURN IT INTO A STRONG LOGISTICS CENTRE**

The article discusses Armenia's occupation of 20 percent of Azerbaijani lands in 1988-1992 and the displacement of more than one million Azerbaijanis as refugees and IDPs. It also talks about the liberation of the occupied territories of Azerbaijan in 44 days, the opening of the Zangazur corridor, the blockade of Nakhchivan for 30 years and the fact that the autonomous republic will become a logistics center in the coming years.

***Key words**: Azerbaijan, Heydar Aliyev, Ilham Aliyev, Zangazur, Karabakh, occupation, blockade*

## РЕЗЮМЕ

**Назим Ахмедов**

**ОТКРЫТИЕ ЗАНГЕЗУРСКОГО КОРИДОРА РАСШИРИТ ВНЕШНЮЮ ТОРГОВЛЮ НАХЧЫВАНСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА И ПРЕВРАТИТ ЕГО В СИЛЬНЫЙ ЛОГИСТИЧЕСКИЙ ЦЕНТР**

В статье обсуждается оккупация Арменией 20 процентов азербайджанских земель в 1988-1992 годах и превращение более 1 миллиона азербайджанцев в положение беженцев и вынужденных переселенцев.

Также говорится об освобождении оккупированных территорий Азербайджана в течение 44 дней, открытии Зангезурского коридора, о жизни Нахчывана в течение 30-ти летней блокады, и в то же время о том, что автономная республика в ближайшие годы станет логистическим центром.

***Ключевые слова:** Азербайджан, Г.Алиев, И.Алиев, Зангезур, Карабах, оккупация, блокада.*

**DİLSUZ QASIMOV**
*Naxçıvan Dövlət Universiteti dilsuzqasimli@gmail.com*

# NAXÇIVAN MR-DƏ LOGİSTİKANIN YARANMASI ÜÇÜN GÖRÜLƏN İŞLƏR VƏ ZƏRURİ ŞƏRTLƏR

*Logistika xidmətlər, mal axınının tənzimlənməsi və bu prosesin davamlılığının təmin edilməsi baxımından ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyətə malikdir. İnkişaf etmiş ölkələr logistika sektorunun önəmini dərk edir və logistika sektorunun səmərəli inkişafı üçün lazımi addımlar atır. Azərbaycan Respublikası əlverişli coğrafi mövqedə yerləşməsinə baxmayaraq, logistika sektoru lazım olduğu səviyyədə inkişaf etməmişdir. Ölkəmizdə kompakt xidmətlər göstərən logistik mərkəz yox səviyyəsindədir. Azərbaycan Respublikasının 06 dekabr 2016-cı ildə qəbul edilmiş "Strateji Yol Xəritəsi" ndə bu kimi problemlər araşdırılması nəzərdə tutulmuşdur. Tədqiqatın məqsədi regiondakı logistika mərkəzlərinin yaranması problemlərini öyrənib həll yolları təklif etmək və inkişaf etdirməkdir. Logistika, xam maddə, material, ehtiyat parça və bitmiş məhsulların satıcılardan istehlakçı, istifadəçi və ya alıcılara doğru hərəkət etdirilməsi ilə bağlı strategiyaların tətbiq edilməsi ilə fəaliyyətlərin idarəedilməsi prosesi olaraq da göstərilir. Logistika tədarük nöqtəsindən başlayıb müştəriyə qədər davam edən kanal içində məhsul və xidmətlərin axını ilə bağlı bir çox fəaliyyəti əhatə edir. Məhz bu baxımdan tədqiqat işində logistika anlayışı və Naxçıvan MR-də logistikanın yaranması üçün zəruri şərtlər araşdırılmışdır.*

***Açar sözlər:*** *Strateji Yol Xəritəsi, Naxçıvan MR, logistika anlayışı, logistik mərkəz.*

Qloballaşan dünyada ticarətin tədricən sərbəstləşdirilməsi ilə birlikdə rəqabətin artması və qlobal miqyasda təşkilatların artması ilə yanaşı, daşıma yollarının uzanması sürət amilini önə çıxarmışdır. Bu vəziyyət, xammal və işlənmiş məhsulların alıcılara aşağı xərclə və vaxtında çatdırılmasının, başqa sözlə, logistika xidmətlərin əhəmiyyətini artırmışdır. Logistika xidmətlər mal axınının tənzimlənməsi və bu prosesin davamlılığının təmin edilməsi baxımından ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyətə malikdir. İnkişaf etmiş ölkələr logistika sektorunun önəmini dərk edir və logistika sektorunun səmərəli inkişafı üçün lazımi addımlar atır. Azərbaycan Respublikası əlverişli coğrafi mövqedə yerləşməsinə baxmayaraq logistika sektoru lazım olduğu səviyyədə inkişaf etməmişdir. Ölkəmizdə kompakt xidmətlər göstərən logistik mərkəz yox səviyyəsindədir. Azərbaycan Respublikasının 06 dekabr 2016-cı ildə qəbul edilmiş "Strateji Yol Xəritəsi"ndə bu kimi problemlər araşdırılmışdır [1].

Tədqiqatın məqsədi regiondakı logistika mərkəzlərinin yaranması problemlərin öyrənib həll yolları təklif etmək və inkişaf etdirməkdir. Əsas məqsədlərdən biri də inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə etməklə logistika sektorunun yaradılması ixrac və idxal prosesində olan çətinliklərin aradan qaldırılaraq ticarət həcmini artırmışdır.

Logistika haqqında anlayış. Logistika nədir? "Logistika, xidmət göstərilən hər bazarda istifadə olunacaq təsislərin sayı, miqdarı, zaman və quruluş yerinin seçilməsi ilə bərabər, markalanacaq məhsul və xidmətlərin seçimi və ya təşkilat yolu ilə tədarük nöqtələrindən istehlakçılara doğru hərəkət etdirilməsi ilə bağlı hər növ fəaliyyəti əhatə edir" [2].

Logistika, xam maddə, material, ehtiyat parça və bitmiş məhsulların satıcılardan istehlakçı, istifadəçi və ya alıcılara doğru hərəkət etdirilməsi ilə bağlı strategiyaların tətbiq edilməsi ilə fəaliyyətlərin idarəedilməsi prosesi olaraq da göstərilir. Logistika tədarük nöqtəsindən başlayıb müştəriyə qədər davam edən kanal içində məhsul və xidmətlərin axını ilə bağlı bir çox fəaliyyəti əhatə edir. Logistika məhsulların və ya xidmətlərin axını sırasında, tədarük qaynağından başlayıb müştəriyə çatdrırılmasına qədər bir çox fəaliyyətləri həyata keçirir. İdarəetmə metodlarındakı və texnologiyalarındakı inkişafın sürətlənməsilə bərabər logistik fəaliyyətlərin əhatə dairəsi də inkişaf etmişdir. Logistik fəaliyyətləri aşağıdakı kimi göstərə bilərik:

Müştəri xidmətləri, daşıma və paylama, anbarlama, material handling, qablaşdırma, satın alma və tədarük, gömrük xidmətləri, tələbin planlanması, sifarişlərin idarəolunması, material və stokun idarəolunması, satış sonrası xidmətlər, anbar üçün yer seçimi, material daşıma, tərsinə logistika.

Naxçıvan MR-də, əsasən, Naxçıvan (qızılvəng), Culfa, Şahtaxtı (Başbaşı) depoları sovet dönəmindən fəaliyyət göstərir. Bu ərazi 30 kilometrdən artıq olmaqla 100 hektarlarla boş sahəni əhatə edir. Fikrimizcə, əlverişli yol əlaqəsi terminaldan əsas yol nəqliyyat marşrutlarına birbaşa keçid etməyə və hədəfə tez bir zamanda çatmağa imkan verər. Müasir texnologiyalarla zəngin əməliyyat qabiliyyəti, güclü infrastruktur qurğuları və zamanın tələbinə uyğun yüksək xidmət keyfiyyəti ilə təchiz edilmiş təhlükəsiz, sürətli və davamlı logistik xidməti yaradılmalıdır. Muxtar Respubilkada bu yöndə bir sıra işlər görülmüşdür. Regionda davamlı iqtisadi inkişafın əsası elm-texniki tətbiqi və yeni modern texnologiyalarla silahlanmaya əsaslanır. Bunun üçün praktiki təcrübənin genişləndirilməsi, yüksək ixtisaslı, peşəkar kadrların və intellektual qabiliyyətli insanların yetişdirilməsini zəruri edir.

Muxtar respublikada keçən il əldə edilmiş iqtisadi və sosial nailiyyətlər qeyri - neft sektorunun davamlı inkişafı istiqamətində bir çox sənaye müəssisələri yaradılmış və bu proses davam etdirilməkdədir. Çünki sənaye iqtisadiyyatın lokomotividir. Regionda yaradılmış çoxsaylı müəssisələr hesabına 383 növdə məhsul istehsal olunur ki, bundan da 350 adda məhsula olan tələbat yerli məhsullar hesabına ödənilir [3].

Hazırda Naxçıvan Muxtar Respubilkasında yüzlərlə növdə məhsul istehsal edilsə də, bu məhsulların xarici bazarlara çıxışı məhdud çərçivədədir. Bunun da əsas səbəbi Naxçıvanın blokada şəraitində olması və beynəlxalq bazarlara çıxışının olmamasıdır

Azərbaycan Respubilkasının nəqliyyat sahəsində böyük nailiyyətləri var. Birlikdə həyata keçirdiyi Bakı-Tbilisi-Qars dəmir yolu uğurla fəaliyyət göstərir. Bu yolun gələcək fəaliyyəti haqqında bu gün də danışılır. 2020 ci ilin fevralın 25-də Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası bu qədim diyarın əhalisinin yaddaşında daim qalacaqdır [5].

Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Qarsİğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu”nun imzalanması, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətlənməsində olduqca böyük rol oynayacaqdır. Çünki Naxçıvanın 30 ilə yaxındır Ermənistan Respublikası tərəfindən blokadaya alınması muxtar respublikada istehsal olunan yüzlərlə çeşiddə və növdə məhsulların xarici ölkələrin bazarlarına ixrac olunmasına imkan vermirdi. Bu da muxtar respubilkada kiçik və orta sahibkarlığın inkişafına, eləcə də xarici investisiyanın cəlb olunmasına mane olurdu, həmçinin maddi resurslardan səmərəli istifadə etməyə mane olurdu. Türkiyədən Naxçıvana dəmir yolu xəttinin çəkilməsi isə bu problemləri aradan qaldıracaq və muxtar respublikası özünün mövcud potensialından səmərəli istifadə etməklə, xarici ölkələrlə beynəlxalq iqtisadi əlaqələri genişləndirməklə yeni inkişaf mərhələsinə qədəm qoyacaqdır.

Planlaşdırılan dəmir yolu xətti Asiya - Avropa qitələri arasındakı mövcud dəmir yolu şəbəkəsinin mühüm hissəsini təşkil edəcəkdir. Layihəsinin həyata keçirilməsi təxminən 1,0 milyard dollara başa gələcək Susuz Qars-Naxçıvan-Dilucu dəmir yolu layihəsi Naxçıvan regionunu Qars bölgəsində beynəlxalq dəmir yoluna qoşulmaqla Avropa və Yaxın Şərqi əhatə edən 16 min kilometrlik dəmir yol xəttinə birləşdirəcəkdir.

Naxçıvan dəmir yolu Şimali Gürcüstan, Azərbaycan və Türkiyənin iş birliyi ilə açılan BakıTbilisi-Qars (BTK) dəmir yolu xəttinə inteqrasiya olunacaq. Asiya, Avropa BTQ Dəmir Yolu ilə Türkiyə, Gürcüstan, Azərbaycan, Rusiya, Türkmənistan, Özbəkistan, Tacikistan, Qırğızıstan, Qazaxıstan, Çin, arasında Mərmərəylə birlikdə mərkəzi keçidin ən vacib halqalarından birini təşkil edir.

Çin-Avropa marşrutu ilə, Qars-İqdir-Naxçıvan dəmir yolu xəttinə İran, Əfqanıstan, Hindistan və Pakistanda daxil ediləcəkdir. Artıq bu marşurut üzrə yüklər daşınmağa başlanmışdır [5].

Avropadan Türkiyiyə və buradan Azərbaycanın Bakı–Ələt limanına və buradan Qazaxıstanın limanina oradan isə Çin və Asiyanın digər ölkələrinə daşınır və əks istiqamətdə də Asiyadan – Avropaya daşınır.

Naxçıvan MR Dövlət Statistka Komitəsinin məlumatına əsasən Naxçıvan Muxtar Respublikasında 2020-ci ildə 2.9 milyard manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrünə nisbətən 2,4-% çoxdur. Bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,7 % artaraq 6310 manata çatmışdır. 2020-ci ilin ötən dövründə nəqliyyat sektorunda yük daşımanın həcmi 16757,6 min ton təşkil etmişdir. Bu yükün 133 min tonu və ya 0,8 faizi dəmir yolu 1,9 min tonu və ya 0,1faizi hava yolu 16622,7 min tonu və ya 99,1 faizi avtomobil yolu xətti ilə daşınmışdır. Muxtar respublikanın xarici ticarət dövriyyəsi 450 milyon 839 min Amerika Birləşmiş Ştatları dolları təşkil etmişdir. Ticarət əməliyyatlarının 86 faizi, yaxud 387 milyon 540 min Amerika Birləşmiş Ştatları dolları ixracın payına düşmüş, müsbət saldo yaranmışdı. 2020-ci ildə muxtar respublikada dəmir yolu nəqliyyatı ilə 133 min tondan artıq yük və 96 minə yaxın sərnişin daşınmışdır. Türkiyə hökümətinin qərarı ilə Naxçıvanda istehsal olunan 40dan artıq məhsul qardaş ölkəyə rüsumsuz ixrac edilir [3].

Beynəlxalq ticarət əlaqələrinin genişləndirilməsi üçün ictimai-siyasi sabitlik lazımdır. Azərbaycan Respubilkasının prezidenti İlham Əliyevin dediyi kimi əgər Ermənistan işgalçılıq, faşizm ideologiyasından əl çəkərsə Azərbaycan Türkiyə, Rusiya, Gürcüstan, İran və Ermənistani əhatə etməklə altılıq formatı üzrə bir qurum yaradıla bilər. Bu faktor Naxçıvanın iqtisadi imkanlarını daha da genişləndirəcəkdir.

Yaranmış sabitlik bölgədə bir çox təşəbbüs və investisiyalar üçün açılacaqdır. Bu layihənin gerçəkləşməsi Türkiyə-Azərbaycan qardaşlığını daha güclü və strateji tərəfdaşlığa çevrəcəkdir. Layihədə gələcəkdə Naxçıvana ildə 500 milyon kubmetr təbii qaz istehlak etdilməsi əksini tapır. Qeyd etmək lazımdır ki, Türkiyəni Azərbaycanla birləşdirən quru yolu 11 kilometrlik Naxçıvan ərazisindəndir. Bu yol Türkiyəni bütün türk dünyası ilə birləşdirir.

Qars-İğdır-Naxçıvan dəmir yolunun tikintisi bu problemi aradan qaldıracaq və beləliklə, Azərbaycanla Türkiyə arasında yeganə quru sərhədi olan Naxçıvan Muxtar Respublikasının inkişafı, rifah halı daha da yaxşılaşacaqdır.

İqtisadiyyat və turizm sahələrində əlaqələr baxımından yeni bir dövrün qapısı olan Naxçıvan dəhlizinin açılması, Bakı-Tbilisi-Qars marşrutuna güclü dəstək yaratmaqla tarixi İpək Yolunun dirçəlməsinə töhfə verəcəkdir. Qarsdan Naxçıvan istiqamətində dəmir yolu xəttinin çəkilməsinin sahibkarlara, istehsalçılara, ixrac şirkətlərinə yaratdığı fürsətləri ən yaxşı şəkildə dəyərləndirmək lazımdır. Dəhlizin açılması ilə türk cümhuriyyətləri əlaqənin qurulacağı və ticarətin artacağı gözlənilir.

**Nəticə**

Nəzəri araşdırmalar və təcrübi araşdırma ilə əldə edilən logistikaya aid aşağıdakı kimi həll təklifləri vermək olar

1. ***Savadlı kadr çatışmazlığını*** aradan qaldırmaq üçün universitetlər ilə logistik mərkəzlər, logistik firmalar, gömrük orqanları ilə qarşılıqlı əlaqədə olmalı, logistika ixtisaslı tələbələr qeyd edilən yerlərdə təcrübə keçməli və tələbələr üçün iş fürsətləri yaradılmalıdır.
2. ***Logistik sektorda rəqabətin olmaması***. Logistika sektorun əsas problemlərindən biri rəqabətin olmamasıdır. Logistik mərkəzlərin logistika sektorunun əsasını təşkil etdiyini nəzərə alsaq və Azərbaycanda 3-4 logistik mərkəzin olması, rəqabətin olmamasından xəbər verir. Sektorda rəqabət yaratmaq üçün xarici firmaları dəvət etmək olar.
3. ***Logistik infrastrukturun müasir vəziyyətdə olmaması***. Yaradılacaq Logistik mərkəzlərdə innovativ avadanlıqlardan istifadə olunmalıdır. Məsələn, anbarlarda WMS sistemi tətbiq olunmalıdır və s.
4. ***Məlumatlandırmanın olmaması***. Logistik mərkəzlərin məlumatlandırma sistemi yoxdur.

Bunun üçün marketinq addımları atılmalıdır. Sahibkarlar logistik mərkəzlərin fəaliyyətləri barədə məlumatları olmalı, idxal və ixrac zamanı logistik mərkəzlərə müraciət edə biləcəyini bilməlidir

5. ***Logistika və ticarət sahəsində xarici ekspertlərlə əməkdaşlıqların mütəmadi olaraq aparılmaması***. Logistik sektorun inkişafı üçün xarici təcrübədən istifadə edilməsi mütləqdir. Bunun üçün ölkəyə xarici ekspertlər dəvət olunmalı, təlimlər keçirilməli və xarici təcrübə mənimsənilməlidir.

Naxçıvan MR-də logistika sektoru inkişaf göstərən, gələcək vəd edən sektorlar arasında yer almaqda və gündən günə inkişaf etməkdədir. Xüsusilə Naxçıvan MR-in coğrafi mövqeyi və logistika sektoru üçün

əhəmiyyətli bir üstünlük olaraq görülür. Ancaq logistik bünövrəyə dair problemlər, sektora lazımi əhəmiyyətin verilməməsi kimi problemlər, sərhədlərin bağlı olması logistika sahəsində lazım olan uğuru əldə edə bilməməsinə və sahib olduğu bu üstünlükləri logistik baza olma yolunda kifayət qədər istifadə edə bilməməsinə gətirib çıxarır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının 06 dekabr 2016-cı ildə qəbul edilmiş "Strateji Yol Xəritəsi"
2. Dr. Melih Başkol (2010). "Lojistik ve Lojistik Yönetimi", Bartın Üniversitesi İ.İ.B.F Dergisi, s 47-81
3. Azərbaycan Respublikası Dövlət Statistka Komitəsinin məlumatlar;
4. Copyright © 2011 Naxçıvan MR Ali Məclisi. All rights reserved 5. http://www.yap.org.az/az/view/news/41041/


## SUMMARY

**Dılsuz Kasumov**

## WORK AND NECESSARY CONDITIONS FOR THE ESTABLISHMENT OF LOGISTICS IN NAKHCHIVAN AR


Logistics services are of great importance for the country's economy in terms of regulating the flow of goods and ensuring the sustainability of this process. Developed countries understand the importance of the logistics sector and are taking the necessary steps for the effective development of the logistics sector. Despite the favorable geographical location of the Republic of Azerbaijan, the logistics sector has not developed to the required level. There is no logistics center providing compact services in our country. The "Strategic Road Map" of the Republic of Azerbaijan adopted on December 6, 2016 provides for the study of such problems. It is also described as the process of managing activities by implementing strategies to move products from sellers to consumers, users or buyers. Logistics covers many activities related to the flow of products and services within a channel from the point of supply to the customer. The concept of logistics and the necessary conditions for the emergence of logistics in the Nakhchivan Autonomous Republic were studied in the study.


***Key words:*** *Strategic Road Map, Nakhchivan AR, logistics concept, logistics center.*

**РЕЗЮМЕ**

**Дилсуз Гасымов**

**РАБОТА И НЕОБХОДИМЫЕ УСЛОВИЯ ДЛЯ СОЗДАНИЯ ЛОГИСТИКИ В НАХЧИВАНСКОЙ АР**

Логистические услуги имеют большое значение для экономики страны с точки зрения регулирования товарных потоков и обеспечения устойчивости этого процесса. Развитые страны понимают важность сектора логистики и предпринимают необходимые шаги для эффективного развития сектора логистики. Несмотря на выгодное географическое положение Азербайджанской Республики, сектор логистики не развит до необходимого уровня, в нашей стране нет логистического центра, предоставляющего компактные услуги. «Стратегическая дорожная карта» Азербайджанской Республики, принятая 6 декабря 2016 года, предусматривает изучение таких проблем. Она также описывается как процесс управления деятельностью путем реализации стратегий по перемещению продуктов от продавцов к потребителям, пользователям или покупателям. Логистика охватывает многие виды деятельности, связанные с потоком товаров и услуг в рамках канала от точки поставки до покупателя.В исследовании изучались концепция логистики и необходимые условия для возникновения логистики в Нахчыванской Автономной Республике.

***Ключевые слова:*** *Стратегическая дорожная карта, Нахчыванская АР, концепция логистики, логистический центр*

**SARA HACIYEVA**
*AMEA Naxçıvan Bölməsi hacyevasara@ yahoo.com*

# NAXÇIVANDA TOXUCULUQ VƏ XALÇAÇILIĞIN İNKİŞAFININ TİCARƏT ƏLAQƏLƏRİNİN GENİŞLƏNMƏSİNƏ TƏSİRİ

*Məqalədə Naxçıvan bölgəsində istehsal olunan toxuculuq və xalçaçılıq sənəti məhsullarından bəhs olunmuşdur. Qeyd edilmişdir ki, hələ orta əsrlər dövründən bu bölgədə əhalinin vacib tələbatını təmin etmək üçün pambıq, yun, ipək və s. kimi materiallardan müxtəlif növ geyimlər, xalça, palaz, kilim, pərdə, süfrəlik və digər əşyalar hazırlanırdı. Təbii ki, bu sənət sahələrinin inkişafı daxili və xarici ticarətin genişlənməsinə də mühüm təsir göstərirdi. Bu baxımdan da Azərbaycanın Naxçıvan bölgəsi hələ orta əsrlər dövründən dünya dövlətləri tərəfindən tanınmış və diqqəti cəlb edən bir region kimi xüsusi əhəmiyyətə malik olmuşdur.*

***Açar sözlər:*** *Naxçıvan bölgəsi, iqtisadiyyat, ticarət əlaqələri, xalçaçılıq*

Məlumdur ki, Naxçıvan hələ orta əsrlər dövründən inkişaf etmiş sənətkarlıq sahələrinə malik olan bir bölgə idi. Burada bir çox sənət sahələri hələ qədim dövrlərdən meydana gəlmiş və orta əsrlər dövründə yüksək inkişaf mərhələsinə çatmışdır. Belə sənət növlərindən biri də toxuculuq və xalçaçılıq sənəti idi. Tarixi qaynaqların verdiyi məlumatlara görə, buranın sənətkarlıq məhsulları istehsalında toxuculuq və onunla bağlı olan sahələr - zərif örtük, xətai parçası, xalça, keçə, çuxalıq yun parça, hamam fitələri üçün nazik şal, pambıq və ipək parça istehsalı mühüm rol oynamışdı [1, s.149]. Naxçıvanın təbii coğrafi şəraiti ilə əlaqədar olaraq burada əhalinın əksər hissəsi kəndlərdə məskunlaşmış və məşğuliyyət sahələri də ilk olaraq əkinçilik və heyvandarlıq məhsullarının istehsalına yönəldilmişdir. Lakin kənd təsərrüfatının inkişafı həm də yeni təsərrüfat sahələrinin yaranmasına gətirib çıxarmışdır. Bölgədə heyvandarlığın inkişafı, həmçinin sənətkarlıq növlərindən olan toxuculuq, xalçaçılıq, gön-dəri işləmə kimi sənət sahələrinin meydana gəlməsinə də bir növ şərait yaratmışdır. Əhalininin məşğuliyyətində qoyunçuluq təsərrüfatının inkişafı əhalinin ət-süd məhsullarına olan tələbatını ödəməklə yanaşı, həmçinin toxuculuğun inkişafında əsas xammal ehtiyatının ödənilməsinə də təsir etmişdir.

Hələ orta əsrlər dövründən dəvə və qoyun yunundan, keçi qəzilindən, ipək və pambıqdan müxtəlif toxuculuq məhsulları, o cümlədən də xalça, palaz və s. kimi məişət əşyaları hazırlanırdı. Deməli, kənd təsərüfatının mühüm sahəsi olan heyvandarlıqdan yeni bir sənət növü toxuculuq və xalçaçılıq yaranmış və bu sahələr həm də əhalinin ticarət həyatının zənginləşməsində əhəmiyyətli rol oynamışdır. Bu da daxili və xarici ticarətin genişlənməsinə mühüm təsir göstərmişdi. Təbii ki, Böyük İpək yolunun Naxçıvan diyarından keçməsi də bölgədən aparılan və bu bölgəyə gətirilən toxuculuq məhsullarının ticarətində önəmli rol oynamışdır.

X əsrdə yaşamış ərəb müəllifləri Müqəddəsi və Məsudi yazırlar ki, Azərbaycan sənətkarları satış üçün yun, pambıq, ipək parçalar və paltarlar hazırlayırdılar. Gəncədə hazırlanan yun paltarlar, Naxçıvanın məşhur çuxaları, Təbrizdə istehsal edilən gözəl atlaz, kişi üst geyimləri, Xoyda nazik kətandan hazırlanan paltarlar bu dövrdə çox məşhur idi [8, s.11].

Qeyd etmək olar ki, təkcə Naxçıvandan dünyanın bir çox bölgələrinə deyil, başqa ölkələrdən də Azərbaycana və Naxçıvana toxuculuq məhsulları gətirilirdi. Buna misal olaraq Orta Asiyadan Azərbaycana dairəciklərlə naxışlanmış "şana" adlanan xüsusi parçaların gətirilməsini göstərmək olar. Naxçıvanda satılan mallar içərisində yaxşı toxunmuş Çin parçalarının da olduğu haqda məlumatlar var. Həmin məlumatlardan birində qeyd edilir ki, X əsrdə (983-cü ildə) Muğan özünün çuval və palazları ilə, Naxçıvan şəhəri, Xoy və Səlmas zili xalçaları, Ərdəbil və Şirvan əlvan ipək və yun parçaları ilə şöhrət tapmışdır [3, s. 232].

Naxçıvanda toxunan xalçaçılıq və toxuculuq məhsulları heyvandarlıq təsərrüfatında ən çox saxlanılan mazıx və balbas cinsli qoyunların yunundan alınırdı. Mazıx cinsli qoyunların yunu bir qədər qaba olub, qızılı və qəhvəyi rəngə çaldığından yerli əhali onu “qızıl qoyun” adlandırırdı. Mazıx qoyunlardan fərqli olaraq, balbas cinsli qoyunların yunu ağ rəngdə olub, xalça toxuculuğu üçün daha yararlı hesab edilirdi [4, s.246]. Bu amilin özü isə qoyunçuluq təsərrüfatına üstünlük verilməsinə və onun inkişafına səbəb olurdu.

XIX-XX əsrlərdə toxuculuq və xalçaçılıq məmulatlarına tələbatın artması ilə əlaqədar olaraq Naxçıvan diyarında qoyunçuluğun inkişafına daha ciddi diqqət göstərilirdi.

Azərbaycan, o cümlədən də Naxçıvan xalçalarının Avropaya çıxarılması hələ XIV əsrdən başlamışdır. XIII əsrdən başlayaraq, monqolların Azərbaycanı istilasından sonra Azərbaycan iqtisadiyyatı və mədəniyyəti dirçəlir və Avropa ilə sıx ticarət əlaqələri yaradılırdı. XIII əsrin ikinci yarısında Azərbaycanda olmuş venetsiyalı səyyah Marko Polo Şamaxıda və Bərdədə yerli ipək məmulatlarının gözəlliyini qeyd etmişdir [12, s.19]. Azərbaycanda səyyahın diqqətini daha çox cəlb edən gerçəklik ipəyin və ipək məmulatlarının bolluğu olmuşdur. Onun Azərbaycanda ipəkçiliyin inkişafına dair qiymətli məlumatları ölkəmizin ipəkçiliyin mərkəzlərindən biri olduğunu sübut edir. Tarixi qaynaqların verdiyi məlumata görə, monqolların Azərbaycana gəlişi dövründə tərəzinin bir gözünə ipək, digərinə isə qızıl qoyulurmuş. Hətta, tarixin yaddaşında belə bir fakt qalır ki, monqollar ilk dəfə Azərbaycana gələndə gəncəlilər onları başlarından etmək üçün onlara çoxlu daş-qaş versələr də, əl çəkməyiblər, yalnız xeyli ipək alandan sonra çıxıb getmişlər [9, s.26]. Monqol hücumları ipəkçiliyə ciddi ziyan vurmasına baxmayaraq, onlar Azərbaycanda hakimiyyətdə möhkəmləndikdən sonra bu sahə sürətlə inkişaf etməyə başlamışdı. Xalça və xalça məmulatları isə bu ticarətdə mühüm rol oynamışdı.

XVI əsrdən Səfəvilər dövlətinin hökmdarları xalça ixracının xəzinə üçün mühüm gəlir mənbəyi olduğunu yüksək qiymətləndirmiş və əhalidən alınan vergilərin bir qisminin də yüksək bədii səviyyəli xalçalarla ödənməsinə başlamışlar. Dünyada ən zəngin monarx sayılan və deyildiyinə görə özü xalça toxumağı xoşlayan I Şah Abbas (XVI əsrin sonları - XVII əsrin əvvəlləri) əmr etmişdi ki, bir çox mərkəzlərdə təsdiq olunmuş eskizlər və kompozisiyalar üzrə xalçalar toxunan dövlət xalça emalatxanaları yaradılsın. Həmin dövrdən “kənd xalçaçıları şah torpaqlarından istifadəyə görə icarə haqqını çox zaman xalçalarla ödəyirdilər”. Vergilərin xalçalarla ödənilməsi sonrakı əsrlərdə də davam etmişdir. Yerli xanlar XVIII əsrin sonları-XIX əsrin əvvəllərində vergiləri xalçalarla alır, sonra həmin xalçaları ixrac edirdilər [2, s.12, 21].

Naxçıvanın xarici ticarət əlaqələrində ipəkçilik sənətinə aid olan toxuculuq məhsullarının alqısatqısının həcmi daha geniş idi. Yerli istehsaldan başqa ticarət əlaqələrinin inkişafında əhəmiyyətli rol oynayan ipək alveri naxçıvanlı tacirlərin əsas gəlir mənbələrindən biri olmuşdur. Burada Culfa tacirlərinin rolu xüsusi vurğulanmalıdır. XVI əsrin ikinci yarısından etibarən onlar beynəlxalq ipək ticarətindən xeyli gəlir əldə etmişlər. Bu haqda səfəvişünas-alim O.Əfəndiyev müxtəlif mənbələrə əsasən göstərir ki, Culfa tacirləri xamnanı (xam ipəyi), onun istehsal olunduğu yerlərdən – Şamaxı, Ərəş və Gilandan alır, sonra isə Venesiya, Amsterdam, Marsel kimi Qərbi Avropa şəhərlərində, həmçinin Suriya, Osmanlı Türkiyəsi və Hindistan şəhərlərində satırdılar [8, s.211]. Azərbaycanın inkişaf etmiş ticarət şəhərləri içərisində Naxçıvan, Ordubad, Culfa şəhərləri xüsusilə fərqlənirdilər. İqtisadi inkişafın əsas istiqamətlərindən birini təşkil edən xarici ticarət nəinki iqtisadi, həmçinin sosial-siyasi və mədəni əlaqələrin genişləndirilməsində də mühüm rol oynayırdı. Yerli iş adamları ilə yanaşı xaricdən gələn ticarətçilərin də çalışdığı xarici ticarət ölkədən kənarda istehsal olunan məhsullara və qarşılıqlı mal mübadiləsinə olan tələbatı ödəyirdi.

Naxçıvana səyahət etmiş səyyahların yazılarından məlum olur ki, orta əsrlər dövründə Naxçıvanda yerli əhali həm daxili, həm də xarici bazarlar üçün külli miqdarda yüksək keyfiyyətli ipək və kətandan müxtəlif parçalar, xalça, palaz, kilim və sair sənət nümunələri toxuyurdular.

Xüsusilə, Naxçıvan şəhərində və Ordubadda ipək parçalar istehsalı geniş yayılmışdır. Mahir ustalar yüksək keyfiyyətli və gözəl parçalar toxuyurdular. Qadın üst paltarları keyfiyyətli, zərif naxışlı ipək yaylıqlar, baş örtükləri toxuculuq sənətinin ən gözəl nümunələri kimi indi də muzeydə saxlanılır. İpək və atlas parçalardan tikilmiş paltarlar, geyimlər Naxçıvan əhalisi üçün xarakterik idi. Zamanəmizə qədər gəlib çatmış parça tikələri göstərir ki, onların toxunma üsulu və bədii tərtibatı öz dövrünə görə çox yüksək səviyyədə olmuşdur.

Ordubadda Naxçıvandan fərqli olaraq qadınlar ev şəraitində ipək parça toxuyur və ipək saplar hazırlayırdılar. Toxuculuq sənətində Ordubadın xalçaçıları və bez parça hazırlayanları ustalıq baxımından heç də Naxçıvan sənətkarlarından geridə qalmırdılar. Ordubad və ümumiyyətlə, Naxçıvan diyarında

toxunan parçalara xarici bazarda da böyük ehtiyac duyulurdu [3, s. 26]. Burada, əsasən, xalça, ipək və bez parçalar toxunurdu. Naxçıvan diyarında toxunan və xarici bazarda ən çox satılan parçalardan qırmızı rəngli bez parça olmuşdur. Bez parça çox zaman daha artıq ehtiyac duyulan Qarabağ və İrəvan xanlıqlarına satmağa aparılırdı. Naxçıvan diyarında toxunmuş pambıq və ipək parçaları yerli tacirlər Osmanlı dövlətinin şəhərlərinə, o cümlədən Qarsa, Bəyazidə, habelə Gürcüstana aparırdılar. Əldə olunan məlumata görə, bir ildə Qars və Bəyazid şəhərlərinə Naxçıvan diyarından 15 min puda qədər pambıq parça aparılmışdı. Ordubad şəhərində pambıq parçalarla yanaşı, xarici bazara ən çox ehtiyac duyulan ipək parçalar da ixrac edilirdi [7, s.26-27].

Ordubaddan Moskvaya, Nijninovqorod bazarına xam və boyadılmış ipək aparılırdı. Bölgə ərazisində Ordubadla yanaşı, Culfa və Əylis də ipək ixracatında əsas mərkəzlərdən sayılırdı. Ümumiyyətlə, Naxçıvan bölgəsi xam ipəyin istehsalına görə Azərbaycanın bir sıra qabaqcıl bölgələri ilə eyni sırada dururdu. Təbriz, Marağa, Gəncə və digər bölgələrlə yanaşı, Naxçıvan iqtisadiyyatında da xamnanın (işlənməmiş ipək) geniş istehsalı böyük əhəmiyyət kəsb edirdi. XVI əsrdən başlayaraq Naxçıvanda, xüsusən Ordubadda yerli əhali həm daxili, həm də xarici bazarlar üçün külli miqdarda yüksək keyfiyyətli ipəkdən müxtəlif parçalar, xalça, cecim və s. sənət nümunələri toxumuşlar [11, s. 48]. Aparılan araşdırmalar göstərir ki, hələ orta əsrlər dövründən Naxçıvandan Təbrizə barama, xam ipək, pambıq və s. aparır, Təbrizdən isə zərli ipək parçalar, şallar, qadın bəzək şeyləri, ayaqqabı, xalıxalça və s. gətirirdilər [6, s. 48].

Ölkənin digər yerlərində olduğu kimi Naxçıvan şəhərində də alver pərakəndə və topdansatış ticarəti şəklində aparılırdı. Topdansatış ticarətlə əsas etibarilə iri və gəlmə tacirlər məşğul olurdular.

O dövrdə Naxçıvan özünün məhsuldar bazarları ilə də şöhrət tapmışdı. Naxçıvan bazarları böyük və izdihamlı olurdı. Burada müxtəlif ölkələrdən gəlmiş tacirlərə təsadüf edilirdi. Bazarda Çindən, Misirdən, İrandan, Türkiyədən, Hindistandan, İraqdan, Orta Asiyadan gətirilmiş müxtəlif növlü mallarla yanaşı, azərbaycanlı sənətkarlar tərəfindən yüksək zövqlə hazırlanmış əşyalar – saxsı və mis qablar, xalçalar, parçalar, zərgərlik məmulatları və s. satılırdı. Yuxarıda da qeyd edildiyi kimi yerli ustaların hazırladıqları zərif parçalar, o cümlədən qanovuz, atlas, zərbaft, tafta, cavahir, çit, silah, bəzək əşyaları ilə yanaşı, xarici tacirlərin gətirdikləri mallar da satılırdı.

Naxçıvan xanlığında sənətkarlıq Naxçıvan və Ordubad şəhərlərində daha çox inkişaf etmişdi.

Digər bölgələrdə olduğu kimi, burada da xalça həm şəxsi istifadə, həm də satış üçün hazırlanırdı. Xalçaçılıqla əlaqədar olaraq xanlıqda boyaqçılıq sənəti də xeyli inkişaf etmişdi. Boyaqxanalarda müxtəlif təbii boya bitkilərindən istifadə edərək yun sapları müxtəlif rənglərdə boyayırdılar. Naxçıvan xanlığında 5 boyaqxana emalatxanası var idi. Xanlıqda bez toxumaqla da məşğul olurdular. Təkcə şəhərin özündə 40 bez toxucusu var idi. İnqilabdan əvvəlki müəlliflərdən biri yazır ki, "buradakı sənətkarlar içərisində toxucular ən böyük silki təşkil edirdilər. Hər bir ailənin özünün toxucu dəzgahlarında özlərinin ehtiyacları üçün pambıq ipdən bez toxuyurlar. Pambığı qadınlar evlərində əyirirdilər". Naxçıvan xanlığında mindən çox toxucu qadın var idi [5, s. 92] Naxçıvanın ticarət həyatı haqqında aparılan tədqiqatlar göstərir ki, Naxçıvan bölgəsi ticarətin inkişafı baxımından Azərbaycanın digər bölgələrindən geridə qalmamış və xeyli irəli gedərək, Şərqlə Qərbi birləşdirən karvan yollarının kəsişmə nöqtələrindən biri üzərində mühüm bir məntəqə rolunu oynamışdır.

Qeyd etmək olar ki, XX əsrin 70-ci illərində də Ordubad Baramaaçan Toxuculuq fabrikinin istehsal etdikləri məhsulların nəinki ölkəmizdə, hətta ölkəmizdən çox-çox uzaqlarda-Yaponiyada, İtaliyada və başqa xarici ölkələrdə məşhur olduğu barədə məlumatlar var. Bu fabrikdə hazırlanan ipək sapların 50-60 % birinci növ ipək kimi qəbul olunurdu. Ordubad ipəyinin sorağı hər zaman yaxın-uzaq ellərdən–İrandan, Suriyadan, Venetsiyadan, Fransadan və başqa ölkələrdən gəlmişdir. Hətta dünyanın bir çox yerlərində qədimdən Azərbaycanı Qafqazda ipəkçiliyin vətəni. Ordubadı isə Azərbaycan ipəkçiliyinin beşiyi adlandırmışlar [10].

Nəticə olaraq qeyd etmək olar ki, Naxçıvan diyarında toxuculuq və xalçaçılıq müəyyən istisnalar nəzərə alınmaqla yüksək səviyyədə inkişaf etmişdi. İnkişaf etmiş bu sahədən isə həm yerli əhali, həm dövlət qurumları, həm də sənətkar və tacirlər yararlanmışlar. Ümumiyyətlə toxuculuq və xalçaçılığın inkişafı həm ölkənin inkişafına, həm də insanların yaşam tərzinə müsbət təsir göstərmişdi.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi üzrə qaynaqlar. S.Əliyarovun və Y.Mahmudovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1989, 328 s.
2. Azərbaycan tarixi: 7 cilddə, I c. Bakı: Elm, 1998, 476 s.
3. Azərbaycan tarixi: 7 cilddə, III c. Bakı: Elm, 1999, 584 s.
4. Azərbaycan etnoqrafiyası. 3 cilddə, I c., Bakı: Şərq-Qərb, 2007, 544 s.
5. Ağamalı F. XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarında sosial-iqtisadi münasibətlər. Dərs vəsaiti. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2007, 280 s.
6. Baxşıyev Ə. Ordubad Səfəvilər dövründə // “Elm və həyat” jurnalı, 1990, № 11-12, s. 48
7. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı – XIX əsrin I qərinəsi). Bakı: Elm, 2008
8. Əfəndiyev R. Azərbaycan dekorativ-tətbiqi sənəti. Bakı: İşıq, 1976, 190 s.
9. Əzimli D. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı – XVII əsrin I yarısı). Bakı: Təhsil, 2012, 282 s.
10. Məmmədova A. “Ordubad ipəyi: keyfiyyəti ön plana” Şərq qapısı 31 may 1987
11. Гейдаров М. Ремесленное производство в городах Азербайджана в XVII в. Баку: Издво АН Азерб. ССР, 1967, 200 с.
12. Поло М. "Книга Марко Поло". Перевод состарофранцузского текста И.П.Минаева. Москва: Географгиз, 1956, 376 с.

## SUMMARY

**Sara Hajiyeva**

### THE EFFECT OF THE DEVELOPMENT OF WEAVING AND CARPETING IN NAKHCHIVAN ON THE EXPANSION OF TRADE RELATIONS

The paper discusses the products of weaving and carpet weaving produced in Nakhchivan region. It was noted that since the Middle Ages, cotton, wool, silk, etc. have been used to meet the important needs of the population in this region. Various types of clothes, carpets, rugs, carpets, curtains, tablecloths and other items were made from such materials. Of course, the development of these arts had a significant impact on the expansion of domestic and foreign trade. It also created conditions for the Nakhchivan region to be recognized by the world community since the Middle Ages and to have a special significance as a region that attracts attention.

***Key words:*** *Nakhchivan region, weaving, carpet weaving, trade relations*

## РЕЗЮМЕ

**Сара Гаджиева**

### ВЛИЯНИЕ РАЗВИТИЯ ТКАНИ И КОВРА НА РАСШИРЕНИЕ ТОРГОВЫХ ОТНОШЕНИЙ В НАХЧИВАНЕ

В статье рассматриваются изделия ткачества и ковроткачества, производимые в Нахчыванском районе. Было отмечено, что со времен средневековья хлопок, шерсть, шелк и др. Использовались в регионе для удовлетворения важных потребностей населения. Из таких материалов изготавливали различные виды одежды, ковры, коврики, ковры, шторы, скатерти и другие предметы. Конечно, развитие этих искусств также оказало значительное влияние на расширение внутренней и внешней торговли. Это также создало условия для того, чтобы Нахчыванский регион был признан мировым сообществом со времен средневековья и имел особое значение как регион, привлекающий внимание.

***Ключевые слова:*** *Нахчыванский район, ткачество, ковроткачество, торговые отношения.*

**YAŞAR RƏHİMOV**
*AMEA Naxçıvan Bölməsi yasarrahimov@yahoo.com*

## ŞƏRUR RAYONUNUN SƏNAYESİ 1950-1980-Cİ İLLƏRDƏ

*Şərur rayonu 8 avqust 1930-cu ildə təşkil edilmişdir. 1930–1964-cü illərdə Noraşen rayonu, 1964–91-ci illərdə İliç rayonu adlandırılmışdır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra rayonun adı yenidən özünə qaytarılmış və Şərur rayonu adlandırılmışdır. Rayonda 1 şəhər, 65 kənd yaşayış məntəqəsi var. Mərkəzi Şərur şəhəridir. Şərur rayonu Sovetlər dönəmində Naxçıvan MR-in ən böyük rayonlarından biri olmuşdur. Xüsusilə II Dünya müharibəsindən sonra-1950-1980-ci illərdə rayon iqtisadi və mədəni həyatın bütün sahələrində irəliləyişə nail olmuşdur. Həmin illərdə rayonun sənaye şəbəkəsi daha genişləndirilmişdir. Xüsusilə dağ-mədən, pambıqtəmizləmə, tikiş sənayesi və b. sahələrdə uğurlar əldə edilmişdir. Ötən əsrin 50-60-cı illərində Şərur rayonunda əhaliyə məişət xidməti sahələrində də bir sıra işlər görülmüş, 70-ci illərdə yeni yeyinti sənayesi sahələri yaradılmışdır. Naxçıvan Muxtar Respublikasında və onun ayrılmaz tərkib hissəsi olan Şərur rayonunda iqtisadi quruculuq fəaliyyəti 70-ci illərin ilk ilindən sürətlə başladı. 80-ci illərdə mövcud müəssisələrdə yenidənqurma işləri aparılmışdı.*

*Məqalədə belə bir nəticəyə gəlinmişdir ki, Sovetlər Birliyi dağıldıqdan sonra muxtar respublikanın blokada şəraitinə düşməsi ilə əlaqədar olaraq Şərur rayonundakı sənaye müəssisələrinə, mövcud olan konserv zavoduna ciddi ziyan dəymiş və o öz fəaliyyətini dayandırmışdır.*

***Açar sözlər:*** *Şərur, sənaye, iqtisadi, sənaye müəssisələri, iqtisadi quruculuq, yeyinti sənayesi və s.*

1950-ci illərdə Şərur rayonunda sənayenin şəbəkəsi genişləndirildi. 1951-1955-ci illərdə rayonda elektrik şəbəkəsi, Gümüşlü dağ-mədən sənaye müəssisələri və b. sənaye müəssisələri tikilib istismara verildi.

Muxtar respublikada yerləşən dağ-mədən sənaye müəssisələrindən biri də Gümüşlü qurğuşun-sink yataqlarıdır. Gümüşlü dağ-mədən sənayesi Naxçıvan MR Şərur rayonunda Zaqafqaziya dəmir yolundan 18 km, Şərqi Arpaçayın sol sahilində çox əlverişli bir sahədə yerləşir.

Bu mədən müharibədən sonrakı illərdə istifadəyə verilmişdir. Keçmiş SSRİ Əlvan Metallurgiya Sənaye Nazirliyinin göstərişilə 1952-ci ildən Gümüşlü dağ-mədən yataqlarında çox da böyük olmayan bir fabrik tikilmişdi (2, s. 31). Şərti olaraq 4 hissəyə bölünən yatağın birinci sahəsində filizli damar 130 dərinlikdə və 300 metrlik şaxtada, ikinci lay isə ondan 100 m aralıda yerləşir (5, s.145). 1954-1955-ci illərdə burada aparılmış tədqiqat işlərindən sonra məlum olmuşdur ki, qeyri filiz materiallarından kvars, barıt, dolomit, ankerit, kalsit və s. vardır. Gümüşlü polimetal yatağında filizdə qurğuşun 4,5%, sink isə 0,5%-dir. Yataq 1954-cü ildən istifadəyə verilmişdir (4, s.172).

Gümüşlü dağ-mədən idarəsinin kollektivi 1955-ci ildə olduğu kimi, sonrakı illərdə də plan tapşırıqları artıqlaması ilə yerinə yetirmişlər. Yeni texnika ilə təhciz olunmuş Gümüşlü dağ-mədən idarəsinin kollektivi 1958-ci ildə daha böyük nailiyyətlər qazanmışdı. Həmin il mədən istehsalat planını 119% yerinə yetirmiş, məhsulun maya dəyərini 12% aşağı salmışdı (6, s.31). Kollektivin bu qələbəsi yüksək qiymətləndirilmiş və ona Azərbaycan SSR Xalq Təsərrüfatı Şurası və Azərbaycan SSR həmkarlar təşkilatının ikinci pul mükafatı və keçici qırmızı bayrağı verilmişdi (7, s.135). 1969cu ildə məhsul satışı planını 102% yerinə yetirən Gümüşlü dağ-mədən sənaye müəssisəsində istehsalın artım sürəti 1968-ci ilə nisbətən 80% olmuşdu (9, 8 fevral 1970-ci il). Bu sənaye müəssisəsinin inkişafı 1988-ci ilədək yüksələn xətlə getmişdir.

Beşinci və altıncı beşillik illərində ermənilər öz məkrli niyyətlərinə sadiq qalaraq muxtar respublikamızın o cümlədən Şərur rayonunun təsərrüfatına müxtəlif zərbələr vurmuşlar. Ermənilərin Naxçıvan MR təsərrüfatına vurduğu ən böyük zərbələrdən biri Arpaçay suyunun Göyçə gölünə axıdılması idi. Naxçıvan MR-in əsas kənd təsərrüfatı istehsalı mərkəzi olan Şərur rayonunda kəskin su qıtlığı yaratmaqla ermənilər muxtar respublikanın istehsal sənaye müəssisələrini xammaldan məhrum etməyə çalışırdılar ki, gələcəkdə yerli əhali məcbur olub, muxtar respublikanı tərk etsin. Bu çox təhlükəli siyasət və cinayət idi (2, s.36).

Pambıqtəmizləmə sənaye müəssisəsi muxtar respublikanın Şərur rayonunda yerləşirdi. Şərur pambıqtəmizləmə sənaye müəssisəsi muxtar respublikada olan yüngül sənayenin ən iri müəssisələrindən biri idi. Naxçıvan MR-də istehsal olunan bütün pambıq bu zavodda emal edilirdi. 1926-cı ildə istifadəyə verilmiş bu zavod başqa pambıqtəmizləmə müəssisələri kimi pambıq lifi və çiyid istehsal edirdi. Şərur pambıqtəmizləmə zavodunun istehsal etdiyi yüksək keyfiyyətli sənaye məhsulları təkcə keçmiş Sovet İttifaqının bir çox şəhərlərində olan fabriklərə deyil, eyni zamanda xarici ölkələrdə yerləşən fabriklərə də göndərilirdi. İstehsal prosesində orta hesabla hər bir ton xam pambıqdan 34% pambıq lifi, 63% çiyid və 3% liflik istehsal edən Şərur pambıqtəmizləmə zavodunun kollektivi beşinci beşillik (1951-1955-ci illərdə) plan tapşırıqlarının yerinə yetirilməsi sahəsində böyük əmək nümunələri göstərmişdi (2, s. 47).

Zavodun kollektivi 1950-ci ilə nisbətən 1951-ci ildə yüngül sənaye üçün 1.992 ton artıq mahlıc istehsal etmişdi. 1952-ci ildə, 1951-ci ilə nisbətən 231 ton, 1953-cü ildə 1952-ci ilə nisbətən

1.343 ton artıq mahlıc istehsal etmişdi (10, 24 mart 1954-cü il). Qeyd etmək lazımdır ki, 1956-cı ildə bölgədə pambıq əkin sahələri azaldığından istehsal və satış da aşağı səviyyəyə düşmüşdü. Növbəti illərdə pambıq əkilən sahələr artırıldığı üçün dövlətə pambıq tədarükü planı artıqlaması ilə yerinə yetirilmişdi. Belə ki, pambıqtəmizləmə zavodu 1957-ci ildə 6,3 min ton mahlıc (lif), 1629 ton çiyid toxumu istehsal etmişdi (8, s.77).

Zavoda xam pambıq gətirmək mümkün olmadığı üçün pambıqtəmizləmə zavodunda məhsul istehsalının həcmi azalmışdır. Belə ki, 1965-ci ildə 6122 ton natural şəkildə pambıq lifi istehsal edildiyi halda, 1970-ci ildə 5841 ton lif istehsal edilmişdi. Ermənilər Şərur pambıqtəmizləmə zavoduna zərbə vurduqları kimi Naxçıvan MR pambıq əkin sahələrinə də ən böyük zərbə vurmuşlar. Onlar Arpaçay suyunun Göyçə gölünə axıdılması ilə Şərur rayonunda pambıqçılıq təsərrüfatını sıradan çıxardılar. Naxçıvan MR-in əsas kənd təsərrüfat istehsal mərkəzi olan Şərur rayonunda kəskin su qıtlığı yarandı... 70-ci illərin əvvəllərində muxtar respublikada pambıq əkilmədiyinə və tədarük edilmədiyinə görə Şərur pambıqtəmizləmə zavodu fəaliyyətini dayandırmışdır. Görünür ki, Şərur pambıqtəmizləmə zavodunun fəaliyyətinin dayandırılmasında ermənilərin məqsədi ondan ibarət olmuşdur ki, Naxçıvanda sənaye sahələri inkişaf etməsin, Ermənistandan aşağı vəziyyətə düşüb, gələcəkdə onun əyalətlərindən birinə çevrilsin (2, s. 49).

Başqa sənaye sahələri kimi, Şərur rayonun iqtisadiyyatında tikiş sənayesi də müəyyən əhəmiyyətə malik olmuşdur. Belə ki, beşinci beşilliyin üçüncü ili olan 1953-cü ilin istehsal planını Şərur rayonunda yerləşən artel 164% yerinə yetirmişdi (11, 18 mart 1954-cü il).

Rayonun iqtisadiyyatının inkişafında tikinti materiallarından, o cümlədən mərmər, əhəng, çınqıl, qum, travertin və s. geniş istifadə edilməsinin müstəsna əhəmiyyəti vardır. Şərur rayonunun Dizə kəndi yaxınlığında Arpaçayın sağ sahilindəki Qara təpə, Oğlanqala kəndinin yaxınlığında mərmər yataqlarının tükənməz ehtiyatları vardır. Dizə kəndi yaxınlığındakı Qaratəpədə olan qara mərmər təbəqələrinin qalınlığı 0,8-1 metrə çatır. Ən yaxşı üzlük materialı hesab olunan qara mərmər yataqlarından hazırda da geniş istifadə olunur. Bu mərmərə təkcə Vətənimizin müxtəlif şəhərlərində deyil, həmçinin xaricdə də böyük maraq göstərilir (1, s.191). Rayonun Oğlanqala kəndindən 3 km aralıda yerləşən Qaratəpə mərmər yatağı tükənməz ehtiyata malikdir. Mərmər ehtiyatı B kateqoriyası üzrə 11.500, C kateqoriyası üzrə isə 22100 $m^3$ -dir (4, s.129).

Şərur rayonun (indiki Kəngərli rayonu) Şahtaxtı kəndində yerləşən travertin yatağı Şahtaxtı dəmir yolu stansiyasının 12-13 km-dir. Travertin ehtiyatı B kateqoriyası üzrə 1.609.000 $m^3$-dir. Bu travertinlər bir çox ölkələrə, xüsusən Yaponiyaya göndərilmişdi (2, s.56).

50-60-cı illərdə əhaliyə məişət xidməti sahələrində də bir sıra işlər görülmüş, müxtəlif məişət avadanlıqları sexləri genişləndirilmişdi. Belə ki, Şərur rayonunda yeni sexlər tikilib istifadəyə verilmişdir. Lakin texnikadan zəif istifadə olunması, və müəssisələrdə texniki rəhbərlərin istehsalat prosesinə nəzarətsizlyi üzündən buraxılan məhsulun keyfiyyəti lazımi səviyyədə olmamışdı. Şərur yerli sənaye kombinatının buraxdığı məhsulların keyfiyyəti alıcıları qane etməmişdi (2, s. 60). Şərur rayonunun sənayesi 50-60-cı illərdən əsasən, kənd təsərrüfatı məhsullarının emalı və tikinti materialları istehsalı üzrə

ixtisaslaşdırılmışdır. Sovetlər dönəmində Şərur rayonunda konserv zavodu, 3 şərab zavodu (Sədərəkdə, Xanlıqlarda və Düdəngədə), quşçuluq fabriki, sənaye kombinatı, Gümüşlü dağ mədəni, Şahtaxtı daş karxanası rayonun əsas sənaye müəssisələri sırasında olmuşlar. Bakı-İrəvan dəmiryolu, Naxçıvan-İrəvan avtomobol magistralı rayonun ərazisindən keçir. Vaxtilə ümumittifaq şəbəkəsinə daxil olan dəmiryol və avtomobil xətləri Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində 1992-ci ildə öz fəaliyyətini dayandırmışdır.

1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə ölkəmizin hər yerində olduğu kimi, Şərur rayonunun xalq təsərrüfatının bütün sahələrində, o cümlədən sənayedə də əsaslı dönüş baş verdi. Rayonun tamamilə yenidən qurulan sənayesinin maddi-texniki bazası möhkəmləndirildi.

Sənaye sahəsi üzrə ixtisaslı mütəxəssislərin sayı artırılmağa başladı. IX beşillik planı təsdiq edən

Sov.İKP XXIV qurultayı ölkənin iqtisadi, siyasi və mədəni tərəqqisi sahəsində qarşıya yeni vəzifələr qoydu. Naxçıvan Muxtar Respublikasında və onun ayrılmaz tərkib hissəsi olan Şərur rayonunda iqtisadi quruculuq fəaliyyəti 70-ci illərin ilk ilindən sürətlə başladı. Bu illərdə Şahtaxtı daş karxanası tikilib istifadəyə verilmiş, Şərur konserv zavodunun yeni dəmir-beton məmulatı müəssisələrinin tikintisinin başa çatdırılması həyata keçirilmişdi.

Gümüşlü qurğuşun-sink dağ-mədən sənaye müəssisəsinin 70-80-ci illərdə də nailiyyətləri olmuşdur. Azərbaycan SSR Nazirlər Sovetinin Əlvan Metallurgiya Birliyinin məlumatına əsasən beş il müddətində 1968 1972-ci illərdə Gümüşlü dağ mədənində təkmilləşdirilmiş texnologiyanın tətbiqi ilə minlərlə ton filiz istehsal olunmuşdur. Bu nailiyyətlər sonrakı illərdə də olmuşdur (2 , s.74). Şərur rayonunun çoxsahəli sənaye sahələrindən biri də yeyinti emalı sənayesidir. 1970-1985ci illərdə rayonda şərab zavodları tikilib istifadəyə verilmişdir-1973-cü ildə Sədərək üzümçülük sovxozunda gücü 10 min ton, İbadulla kəndi Dimitrov adına üzümçülük sovxozunda gücü 10 min ton olan şərab zavodları tikilib istifadəyə verildi, mövcud müəssisələrdə yenidənqurma işləri aparıldı. Şərur rayonunun Şahtaxtı kəndində istehsal olunan yüksək keyfiyyətli travertin üzlük plitələri metro, kinoteatr, inzibati binaların tikintisində və s. yerlərdə işlədilir. Bu keyfiyyətli və qiymətli tikinti sənaye materialı təkcə Azərbaycanda deyil, həm də keçmiş SSRİ-nin başqa rayonlarında və xarici ölkələrdə yüksək qiymətləndirilmişdir. Misal üçün, təkcə 1983-cü ildə istehsal olunmuş 27,6 min kub metr travertinin, 10 min kub metri Moskva, Leninqrad, Minsk, Daşkənd və Soçi şəhərlərinə ixrac olunmuşdu. 1985-ci ildə 47,7 kub metr istehsal olunmaqla, həmin şəhərlərə travertin bloku ixracı daha da artmışdı (3, s.38).

Sovetlər Birliyi dağıldıqdan sonra muxtar respublikanın blokada şəraitinə düşməsi ilə əlaqədar olaraq Şərur rayonundakı sənaye müəssisələrinə, mövcud olan konserv zavoduna ciddi ziyan dəymiş və o öz fəaliyyətini dayandırmışdır.

Sonda qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli Şərur Sənaye Məhəlləsinin yaradılması və "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Fərmanına uyğun olaraq Şərurda sənaye məhəlləsinin yaradılmasına başlanmışdır. 13 sentyabr 2019-cu ildə bu fərmana müəyyən dəyişikliklər edildikdən sonra mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədi ilə Şərur Sənaye Məhəlləsinin ərazisində qeyri-neft sənaye sahələri üzrə məhsul istehsalı müəssisələri, habelə xidmət müəssisələri yaradılması nəzərdə tutulmuşdur. Mütəxəssislərin fikrinə görə, Sənaye məhəlləsinin yaradılması sosial-iqtisadi inkişaf üçün təsirli bir vasitə olaraq önəmli imkanların ortaya çıxmasına mühüm töhfələr verəcəkdir.

## ƏDƏBİYYAT


1. Babayev S.Y. Qədim diyarın təbiəti. Bakı: Azərnəşr, 1970, 210 s.
2. Hüseynov X. Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı (1950-2004-cü illər). Dərs vəsaiti, Bakı: 2012, 158 s.
3. Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, 104 s.
4. Naxçıvan Muxtar Respublikası (Akademik Quliyev C.B. redaktorluğu ilə). Bakı: Elm, 2002, 596 s.
5. NMRDA, f.1, siy.4, iş 416, bağ.34, vər. 145.
6. NMRDA: f.1, siy.1, iş 569, bağ.44, v.31.

7. NMRDA: f.1 , siy.1, iş 569, bağ.44, v.135.
8. NMRDA: f.1, siy.1, iş 516, bağ.40, v.77
9. “Şərq qapısı” qəz., 8 fevral 1970-ci il.
10. “Şərq qapısı” qəz., 24 mart1954-cü il.
11. “Şərq qapısı” qəz., 18 mart 1954-cü il.

**SUMMARY**

**Yashar Rahimov**

**INDUSTRY OF SHARUR DISTRICT IN 1950-1980**

Sharur district was organized on August 8, 1930. In 1930-1964 it was called Norashen district, in 1964-91 it was called Ilich district. After the restoration of Azerbaijan's independence, the name of the region was restored and renamed Sharur district. There is 1 city and 65 villages in the district. The center is the city of Sharur. Sharur district was one of the largest districts of Nakhchivan AR during the Soviet period. Especially after the Second World War - 1950-1980, the region has made progress in all areas of economic and cultural life. In those years, the industrial network of the region was further expanded. Especially mining, ginning, sewing industry, etc. Successes have been achieved in the fields. In the 50s and 60s of the last century, a number of works were carried out in the field of household services in Sharur region, and in the 70s, new areas of food industry were created. Economic construction activity in the Nakhchivan Autonomous Republic and its integral part in the Sharur region began rapidly in the first year of the 70s. In the 80s, the existing enterprises were reconstructed.

The article concludes that due to the blockade of the Autonomous Republic after the collapse of the Soviet Union, the industrial enterprises and the existing cannery in the Sharur region were severely damaged and ceased operations.

***Key words:*** *Sharur, industry, economy, industrial enterprises, economic construction, food industry*

**РЕЗЮМЕ**

**Яшар Рагимов**

**ПРОМЫШЛЕННОСТЬ ШАРУРСКОГО РАЙОНА В 1950-1980 ГГ.**

Шарурский район был организован 8 августа 1930 года. В 1930-1964 годах он назывался Норашенский район, в 1964-91 - Ильичский район. После восстановления независимости Азербайджана название района было восстановлено и переименовано в Шарурский район. В районе 1 город и 65 сел. Центр - город Шарур. Шарурский район был одним из крупнейших районов Нахчыванской АР в советское время. Особенно после Второй мировой войны 1950-1980-х годов регион добился прогресса во всех сферах экономической и культурной жизни. В те годы производственная сеть региона еще больше расширилась.

Особенно горнодобывающая, хлопкоочистительная, швейная промышленность и т. д. Достигнуты успехи на полях в 50-х и 60-х годах прошлого века в Шарурском районе был проведен ряд работ в сфере бытовых услуг, а в 70-х годах были созданы новые направления пищевой промышленности. Экономическая строительная деятельность в Нахчыванской Автономной Республике и ее неотъемлемой части в Шарурском районе началась быстрыми темпами в первый год 70-х годов. В 80-е годы действующие предприятия были реконструированы.

В статье делается вывод о том, что из-за блокады Автономной республики после распада Советского Союза промышленные предприятия и действующий консервный завод в Шарурском районе были серьезно повреждены и прекратили свою деятельность.

***Ключевые слова:*** *Шарур, промышленность, экономика, промышленные предприятия, хозяйственное строительство, пищевая промышленность.*

**BƏHRAM HƏSƏNOV**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN MR-İN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİ VƏ STRATEJİ HƏDƏFLƏRİ

*Müasir dövrdə hər bir ölkəni və regionu xarici iqtisadi əlaqədən ayrı təsəvvür etmək mümkün deyil. Bu baxımdan Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respunlikası da istisna təşkil etmir və regionumuz xatici ticarət sahəsində də dinamik inkişafa nail olmuşdur. Muxtar respublikada dünya standartlarının tələblərinə cavab verən məhsul istehsalı və xidmətlər göstərilməsi sahəsində xeyli uğurlara imza atılmışdır.*

*Naxçıvan Muxtar Respulikasının əldə etdiyi uğurları davam etdirməsi üçün çox böyük potensial imkanları vardır, yeraltı və yerüstü sərvətlərdən, tələblərə cavab verən yüksək bilikli kadrlardan istifadə etməklə strateji hədəflərə nail olmaq mümkündür. Zəngəzur dəhlizinin açılaraq regionun blokadasının aradan qaldırılması isə bu sahədə muxtar respublika qarşısında geniş imkanlar açır.*

***Açar sözlər:*** *xarici ticarət, iqtisadi inteqrasiya, tədiyyə balansı, ixrac, idxal, xarici ticatət dövriyyəsi, turizm*

Muxtar respublikanın sosial-iqtisadi inkişafının məntiqi nəticəsi olaraq hər il ixracın həcmi idxalı üstələyir, xarici ticarət əlaqələri genişlənir. Artıq Naxçıvan Muxtar Respublikası dünyanın 60dan çox ölkəsi ilə ticarət əməliyyatları aparır. Qonşu İran və Türkiyənin gömrük xidmətləri ilə mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri ticarət və gömrük münasibətlərinin inkişafına öz müsbət təsirini göstərir.

Müasir şəraitdə, xarici ticarət, hər bir ölkənin və bütünlükdə, dünya iqtisadiyyatının inkişafının mühüm tərkib hissəsidir, çünki qloballaşma prosesləri kontekstində digər ölkələrin iqtisadiyyatı ilə iqtisadi əlaqələrin qurulmaması ilə bir dövlət inkişaf edə bilməz. Beynəlxalq iqtisadi münasibətlər kontekstində milli iqtisadiyyatlar ayrı-ayrı iqtisadi sistemlər deyil, dünya bazarında sahibkarlıq subyektlərinin qarşılıqlı əlaqələrinin sistemli bir dəstəsi kimi qiymətləndirilir, beləliklə ölkənin milli iqtisadiyyatının inkişafında xarici ticarətin rolu əhəmiyyətli dərəcədə artmaqdadır.

Xarici ticarətin inkişafı müasir şəraitdə iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiya prosesində xüsusi rol oynayır. Azərbaycan bunun üçün hazır olan bütün xarici ölkələrlə qarşılıqlı faydalı ticarətin davamlı inkişafı siyasətini həyata keçirir. Xarici iqtisadi fəaliyyətin inkişafı həm ölkə daxilində, həm də hər bir müəssisə üçün ayrı-ayrılıqda vacibdir.

Azərbaycanın dünyanın 100-dən çox ölkəsi ilə ixrac-idxal əlaqələri var. Bu gün xarici iqtisadi fəaliyyətdə iştirak etmədən bir böyük müəssisənin fəaliyyətini təsəvvür etmək mümkünsüzdür. Xarici iqtisadi fəaliyyət sahəsində mövcud olan hər bir müəssisənin səmərəliliyi birbaşa xarici iqtisadi əlaqələr istiqamətinin səmərəliliyindən asılıdır.

Azərbaycanda xarici ticarətin vəziyyətinin araşdırılması, xarici ticarətdə əsas və prioritet sahələrin öyrənilməsi və xarici ticarətin milli iqtisadiyyatın dayanıqlı inkişafına olan təsirlərinin araşdırılması mühüm məsələ kimi qarşıda durur. Bu məqsədlərə çatmaq üçün aşağıda göstərilən vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

- Xarici ticarət prosesinin araşdırılması;
- Xarici ticarətin ölkə iqtisadiyyatının inkişafında olan rolunun öyrənilməsi;
- Azərbaycanın xarici ticarət dinamikasının araşdırılması və əsas ixrac və idxal mallarının xarici ticarətdəki payının dəqiqləşdirilməsi;
- Azərbaycanın əsas xarici ticarət partnyorlarının və həmin ölkələrlə ticarət əlaqələrinin araşdırılması;
- Azərbaycanın ÜTT-yə üzv olma prosesinin və ÜTT-yə üzv olmanın müsbət və mənfi cəhətlərinin öyrənilməsi;
- Azərbaycanda qeyri-neft sektorunun prespektiv sahələrinin qiymətləndirilməsi;
- Xarici ticarət inkişaf etdirilməsi barədə dövlət siyasətinin araşdırılması;  Azərbaycanın əsas ticarət prespektivlərinin öyrənilməsi.

Bir dövlət olaraq Azərbaycan müstəqilliyi qazandıqdan dərhal sonra öz xarici iqtsadi siyasətini milli iqtisadi idarəetmə çərçivəsində müəyyənləşdirməyə çalışmışdır. Azərbaycanın Avropa və Asiyanın kəsişdiyi çox uyğun bir coğrafi mövqeydə yerləşməsi onun bu siyasətinin çox daha uğurlu olmasına səbəb olmuşdur.

Müstəqil Azərbaycan Respublikasında müxtəlif əmlak növlərinin inkişafı, iqtisadiyyatın yüksək logistik bazaya sahib olması, əmək bölgüsü və kooperasiyanın böyük əhatə dairəsi və s. səbəblər beynəlxalq əməkdaşlıqda ölkənin mövqeyinin daha da güclənməsinə səbəb olur.

Hazırda dünya bazarında Azərbaycanda istehsal olunan mallara böyük maraq vardır. Hazırda Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 180 dən çox ölkəsindəki partnyorları ilə ticarət əməliyyatları aparmışlar. Bundan əlavə rəsmi statistik məlumatlara görə 2020-ci ildə 109 ölkəyə məhsullarımız ixrac olunmuş, 173 ölkədən isə ölkəyə müxtəlif məhsullar idxal olunmuşdur. Keçmişdə Azərbaycanın əsas ticarət partnyorları MDB ölkələri olduğu halda, günümüzdə bu hal Avropa Birliyi ölkələri leyhinə dəyişmişdir. MDB ölkələri arasında Azərbaycan ilə ən çox ticarət dövriyyəsi həcminə sahib olan Rusiya Federasiyasıdır. Rusiya Federasiyasının ticarət payı ümumi MDB ölklərinin Azərbaycan ilə ticarətinin 50% nə bərabərdir. Digər MDB ölkələri ilə müqayisədə

Rusiyanın bu qədər böyük paya sahib olmasının səbəbi Azərbaycan kənd təsərrüfatı məhsulları üçün Rusiyanın böyük bazara sahib olmasıdır. Azərbaycan-Rusiya arasında keçmişdə də mövcud olan iqtisadi və ticarət əlaqələri də bu payın böyüməsində rol oynamışdır.

Azərbaycan Dövlət Gömrük komitəsinin açıqlamasına görə 2020-ci ildə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsi 22593,6 milyon ABŞ dolları olmuşdur. İdxal həcmi isə 8782,0 milyon ABŞ dolları, ixracın həcmi isə 13811,6 mln ABŞ dolları təşkil etmişdir. Bu müddətdə Azərbaycan 185 ölkə ilə ticarəti həyata keçirmiş və 5029,6 mln ABŞ dolları müsbət saldoya nail olmuşdur. İxracatda birinci yerdə 6 219 861,1 ABŞ dolları ilə İtaliya qərarlaşıb. İdxalda isə 1 885 164,6 ABŞ dolları ilə Rusiya Federasiyası qərarlaşmışdır.

Əmək bölünməsi sayəsində yüksək məhsuldar istehsal vasitələrindən geniş istifadə olunur, elm və texnologiyanın son nailiyyətləri istehsala gətirilir və sosial əmək məhsuldarlığı artır.

• Beynəlxalq əmək bölgüsü bölünməsi bütün ölkələri əhatə edir və onların dövlətlərin əhalisinin uyğunluğu (fərqli ölkələrin əhalisinin fərqləndirilməsi və tarixi istehsal bacarıqları).

• milli iqtisadiyyatların uyğunluğu (iqtisadi inkişaf səviyyəsi və müəyyən dövlətlərin iqtisadi ixtisaslaşması).

Təsir faktoru - maddi malların istehsal üsulu və ən başlıcası, istehsal münasibətləri xarakteri, çünki beynəlxalq iqtisadi münasibətlər istehsal əlaqələri sahəsinə aiddir.

Ümumiyyətlə, əmək qabiliyyətinin beynəlxalq səviyyədə bölünməsi cəmiyyətin ehtiyaclarını təmin etmək üçün dövlətlərin əməkdaşlığı sayəsində, elmi əmək qabiliyyətinin artırılması ilə yanaşı, ən son elmi və texnoloji nailiyyətlərə əsaslanaraq istehsal məhsuldarlığın artması ilə əldə oluna bilər. İnteqrasiya mükəmməl, sabit iqtisadi münasibətlər və əməyin bölüşdürülməsinə kömək edir, bərabər sosial-iqtisadi sistemə malik olan ölkələrin iqtisadi inkişaf səviyyələri baxımından oxşar beynəlxalq iqtisadi komplekslərin yaradılmasına gətirib çıxarır. İqtisadi inteqrasiya fərdi müəssisə və sənaye arasında mövcuddur. İnteqrasiya proseslərinin tənzimlənməsində xüsusi rol dövlətlərarası təşkilatlara məxsusdur. İnteqrasiya ölkələrin iqtisadiyyatında dərin struktur dəyişikliklər ilə əlaqədardır, bunun əsasında yeni iqtisadi nisbətlər yaranır və əmək məhsuldarlığının artmasına səbəb olur. Xarici iqtisadi əlaqələr dövlətin inkişafında böyük rol oynayır. Xarici iqtisadi fəaliyyət dövlətlərə iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlıq etməyə imkan verir. Ölkənin daxili problemləri və müasir dünyanın tendensiyaları xarici iqtisadi əlaqələrin əsaslı yeni bir rolu olduğunu göstərir: daha fəal, məqsədyönlü xarici iqtisadi siyasətin həyata keçirilməsinin vacibliyi - əmək qabiliyyətinin beynəlxalq bölünməsinin dərinləşməsi, ölkələr arasında iqtisadi kommunikasiyanın inkişafıdır.

Ölkəmizin ümumi iqtisadi mənzərəsi fonunda həmişə ayrıca diqqət yetirilən Naxçıvan Muxtar Respublikasında 2020-ci ildə iqtisadiyyatın pandemiyanın təsirlərindən qorunması üçün tədbirlər davamlı

olub. Muxtar respublikada çoxşaxəli iqtisadiyyatın formalaşdırılması və sosial sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər 2020-ci ildə də davam etdirilmişdir.

2020-ci ildə inkişafı xarakterizə edən əsas göstərici kimi ümumi daxili məhsul istehsalı 2 milyard 907 milyon 810 min 500 manat olmuşdur ki, bu da bir il öncəki göstəricidən 1,1 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilə nisbətən 1,8 faiz artaraq 6310,4 manat olmuşdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27,6 faizlik payla sənaye sahəsi tutmuş və maddi istehsalın payı 59,3 faiz təşkil etmişdir.

2019-cu illə müqayisədə 2020-ci ildə sənaye məhsulu 1,4 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,1 faiz, kənd təsərrüfatı məhsulu 4,6 faiz, informasiya və rabitə xidmətləri 5,2 faiz artmışdır.

**Makroiqtisadi göstəricilər**

| Müqayisə predmeti | 2020-ci il, faktiki | 2019-cu ilə nisbətən, faizlə |
|---|---|---|
| Ümumi daxili məhsul, min manat | 2 907 810,5 | 101,1 * |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manat | 6 310,4 | 101,8 |
| Sənaye məhsulu, min manat | 1 040 475,9 | 101,4 * |
| Əsas kapitala yönəldilən vəsaitlər, min manat | 1 041 017,7 | 101,1 |
| Kənd təsərrüfatı məhsulu, min manat | 537 584,8 | 104,6 * |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 16 757,6 | 98,8 |
| İnformasiya və rabitə xidmətləri, min manat | 55 491,3 | 105,2 |
| o cümlədən mobil rabitə, min manat | 43 345,6 | 101,4 |
| Pərakəndə əmtəə dövriyyəsi, min manat | 1 737 755,2 | 99,8* |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat | 243 489,3 | 99,5* |
| Xarici ticarət dövriyyəsi, min ABŞ dolları | 510 547,4 | 102,7 |
| o cümlədən ixrac | 428 520,4 | 100,7 |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manat | 531,7** | 111,9 |

*) müqayisəli qiymətlər üzrə

**) yanvar-noyabr ayları göstəricisi.

Muxtar respublikanın dinamik inkişafı, ən əsası yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir.

2020-ci ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 510 milyon 547 min ABŞ dolları təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 428 milyon 520 min ABŞ dollarını ixrac, 82 milyon 27 min ABŞ dollarını idxal təşkil etmiş və 346 milyon 493 min ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

Bank sektorunun inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikasında 9 avqust 2019-cu il tarixində təsdiq olunmuş "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrası muxtar respublikada elektron ödəniş infrastrukturunun inkişafına, maliyyə vəsaitləri dövriyyəsinin sürətləndirilməsinə, nağd ödənişlərin azalmasına səbəb olmuşdur.

1 yanvar 2021-ci il tarixə muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1410-a çatdırılmışdır. 2020-ci ildə internet və POS-terminallar vasitəsilə həyata keçirilən nağdsız ödənişlərin həcmi 89 milyon 398 min manat təşkil etmişdir.

1 yanvar 2021-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 92338-ə çatmışdır ki, bunun da 80436-sı və ya 87,1 faizi aktiv hesablardır. 2020-ci ildə açılmış 36544 bank hesabının 36519-u aktiv hesablar olmuşdur.

2020-ci ildə muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 179 milyon 473 min manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 25,3 faiz çoxdur. Verilmiş kreditlərin 18 milyon 893 min manatı və yaxud 10,5 faizi qısamüddətli, 160 milyon 580 min manatı və yaxud 89,5 faizi uzunmüddətli kreditlər olmuşdur.

Naxçıvan Muxtar Respublikasında ölkənin digər iqtisadi rayonları ilə müqayisədə bank sektoru üzrə verilən kreditlərin ən aşağı orta faiz dərəcəsi tətbiq edilir ki, bu da özəl sektorun inkişafında ciddi amillərdən biridir. Muxtar respublikada bank - kredit sisteminin müasir tələblər səviyyəsində qurulması xarici ticarət əlaqələrinin sürətlənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Muxtar respublikada turizmin inkişafı istiqamətində tədbirlər davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikasının potensial imkanları araşdırılarkən aydın olur ki, regionun xarici ticarət əlaqələri üçün geniş imkanlar mövcuddur və bu strateji hədəflərə nail olmaq iqtisadi siyasətin başlıca məqsədidir. 44 günlük Vətən müharibəsində ölkəmizin parlaq qələbəsi Zəngəzur dəhlizinin açılmasını zərurətə çevirmişdir və bu dəhlizin açılması regionun blokadasının aradan qaldırılması ilə muxtar respublikaya xarici iqtisadi əlaqələr sahəsində daha yaxşı imkanlar yaradacaqdır.

## ƏDƏBİYYAT

1. Elşad Qəribov. Azərbaycanda xarici ticarətin iqtisadi və statistik təhlili. Bakı: Sabah, 2019.
2. Azər Pənahov. Beynəlxalq iqtisadi siyasət. Bakı: Azərbaycan, 2016.
3. Arif Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti: reallıqlar və prespektivlər. Bakı: Azərbaycan, 2009.
4. Qəribov Asəf, Əzizov Anar, Əhmədova Sədaqət. Beynəlxalq ticarət əməliyyatları. Bakı: Azərbaycan, 2017.
5. A.M.Məhərrəmov, H.H.Aslanov. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Bakı: Azərbaycan, 2008.
6. Naxçıvan Statistika Komitəsinin materialları. Naxçıvan: 2020

## SUMMARY

**Bahram Hasanov**

### FOREIGN TRADE RELATIONS AND STRATEGIC OBJECTIVES OF THE NAKCHIVAN AUTONOMOUS REPUBLIC

In modern times, it is impossible to imagine every country and region separately from foreign economic relations.From this point of view, the Autonomous Republic of Nakhchivan, which is an integral part of the Republic of Azerbaijan, is no exception, and our region has achieved dynamic development in the field of foreign trade. He has made great strides in the production of products and services meeting the requirements of world standards in the Autonomous Republic.

There are great potential opportunities to continue the successes achieved by Nakhchivan Autonomous Republic, it is possible to achieve strategic goals by using underground and surface resources, highly educated personnel meeting the requirements. The opening of the Zangazur corridor and overcoming the blockade of the region open wide opportunities for the Autonomous Republic in this area.

***Keywords:*** *foreign trade, economic integration, balance of payments, export, import, foreign trade turnover, tourism.*

## РЕЗЮМЕ

**Бахрам Гасанов**

## ВНЕШНЕТОРГОВЫЕ СВЯЗИ И СТРАТЕГИЧЕСКИЕ ЗАДАЧИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В современную эпоху невозможно представить каждую страну и регион отдельно от внешнеэкономических связей. В этом плане Нахчыванская Автономная Республика, являющаяся неотъемлемой частью Азербайджанской Республики, не является исключением, и наш регион достиг динамичного развития и в сфере внешней торговли. В Автономной республике достигнуты значительные успехи в производстве продукции и оказании услуг, отвечающих требованиям мировых стандартов.

Нахчыванская Автономная Республика имеет очень большие потенциальные возможности для продолжения достигнутых успехов, можно достичь стратегических целей, используя подземные и надземные ресурсы, высококвалифицированные кадры, отвечающие требованиям. Открытие Зангезурского коридора и снятие блокады региона открывает перед Автономной Республикой широкие возможности в этой области.

***Ключевые слова:*** *внешнеторговый оборот, экономическая интеграция, платежный баланс, экспорт, импорт, внешнеторговый оборот, туризм.*

**MAYİSƏ ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti abbasovaruziya@gmail.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DAVAMLI VƏ DAYANIQLI İNKİŞAFINDA BEYNƏLXALQ TİCARƏTİN ROLU

*Məqalədə ötən əsrin 90-cı illərində Naxçıvan MR-in ağır günlərindən və bu ağır vəziyyətdən çıxmasında, xarici dövlətlərlə əhəmiyyətli əlaqələr yaradılmasında, dövlət xadimi Heydər Əliyevin rolundan söhbət açılır. Qeyd olunmuşdur ki, muxtar respublikada iqtisadiyyatın dayanıqlı və davamlı inkişafını təmin etmək üçün ölkələr arasında iqtisadi münasibətlər ən yüksək səviyyəsinə çatması böyük əhəmiyyətə malikdir.*

*Eyni zamanda məqalədə xüsusi ilə qeyd edilmişdir ki, ölkələr beynəlxalq iqtisadi əməkdaşlıq və eləcə də elmi-texniki əməkdaşlıq etmək yolu ilə öz milli iqtisadiyyatın dirçəldilməsi üçün istehsalın səmərəliliyinin artırılmasına, iqtisadiyyatın davamlı və dayanıqlı inkişaf etməsinə, elm və texnikanın daha da inkişaf etdirilməsinə nail ola bilərlər.*

***Açar sözlər**: beynəlxalq ticarət, iqtisadi münasibətlər, xarici iqtisadi əlaqələr, əmtəə dövriyyəsi, əmtəə istehsalçıları, milli dövlətçilik, iqtisadi əməkdaşlıq, elmi-texniki əməkdaşlıq.*

Beynəlxalq ticarətin həyata keçirilməsi dünya dövlətləri qarşısında belə bir məsələ qoyur ki, hər hansı bir ölkə istehsal edə bildiyi bütün əmtəələri deyil, ən az xərclə daha çox əldə edilən əmtəənin istehsalı ilə məşğul olsun. Ölkə daxilində ucuz başa gələn məhsulları istehsal etməli, baha başa gələn məhsulları isə xaricdən gətirməlidir.

Naxçıvanın inkişafı Ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Çətinliklərlə qarşılaşan, erməni təcavüzünə məruz qalan, blokada vəziyyətində yaşayan Naxçıvan Muxtar Respublikasının əhalisinin tələbi və təkidi ilə Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdir. Dünya şöhrətli siyasətçinin Naxçıvanda olması və yaşaması Naxçıvan Muxtar Respublikasını gözləyən təhlükələrdən və bəlalardan xilas etdi. Heydər Əliyev müdrikliyi, xalqa inamı, Heydər Əliyev-xalq birliyi Naxçıvanı xilas etdi.

Böyük dövlət xadimi Heydər Əliyev Ali Məclisin Sədri seç olduqdan sonra Naxçıvan Muxtar Respublikası Azərbaycanın ictimai-siyasi həyatında mühüm və əhəmiyyətli rol oynamağa başladı. Muxtar respublikada həyata keçirilən tədbirlər, demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı qəbul edilən qərarlar Azərbaycanın müstəqilliyini möhkəmləndirmək yolunda atılan məqsədyönlü tədbirlər idi.

Ulu öndər Heydər Əliyev Naxçıvanda Ali Məclisin Sədri işlədiyi dövrdə muxtar respublikanın iqtisadi maraqlarının və mənafelərinin qorunması, gömrük xidmətinin formalaşdırılması məqsədilə kompleks tədbirlər həyata keçirib. Həmin illərdə İran ərazisindən keçməklə Azərbaycanın digər bölgələri ilə nəqliyyat əlaqəsinin qurulması, Sədərək-Dilucu və Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqələrinin yaradılması blokadada olan Naxçıvanın böhranlı vəziyyətdən çıxarılmasında, gömrük və ticarət əlaqələrinin inkişafında mühüm rol oynayıb. Dövlətin gündəlik qayğısı nəticəsində də, ötən dövrdə muxtar respublika gömrük sistemi böyük inkişaf yolu keçib, qonşu Türkiyə Respublikası və İran İslam Respublikası ilə imzalanmış sazişlər, həyata keçirilən rəsmi səfərlər sayəsində xarici əlaqələrin əhatə dairəsi xeyli genişlənib.

Müasir dövrdə beynəlxalq aləmdə ölkələr arasında iqtisadi münasibətlər özünün ən yüksək səviyyəsinə çatmışdır. Dünya iqtisadiyyatının formalaşması, dünya bazarının təşəkkülü, eyni zamanda qlobal problemlərin kəskinləşməsi və onların həllinin yalnız ümumbəşəri səviyyədə mümkünlüyü beynəlxalq iqtisadi münasibətlərin bir sistem halında bərqərar olmasına gətirib çıxarmışdır. Dünya bazarında qiymətlərin dinamikası, ayrı-ayrı ölkələrin ixrac potensialında və idxal tələbatında baş verən dəyişikliklər, dünya iqtisadiyyatında struktur irəliləyişlər və beynəlxalq inhisarların fəaliyyəti hər bir ölkənin mənafeyinə toxunur, onun sosial-iqtisadi inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.

Bu gün beynəlxalq aləmdə xarici iqtisadi əlaqələrin hər bir iştirakçısı öz maraqlarını müdafiə etmək və xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsini həyata keçirmək məqsədi ilə müəyyən hərəkətlər etməyə çalışır, yəni danışılan sahədə müəyyən siyasat həyata keçirir. Xarici iqtisadi siyasətin həyata keçirilməsi bütovlükdə beynəlxalq iqtisadi münasibətlərdə və ayrı-ayrı ölkələr və ölkə qrupları ilə xarici iqtisadi əlaqələrdə dövlətin strateji məqsədlərinin müəyyənləşdirilməsini, həmçinin qarşıya qoyulmuş məqsədlərə çatmağı təmin edəcək üsul və vasitələrin işlənib hazırlanmasını və sonda əldə olunmuş nəticələrin qorunub saxlanmasını nəzərdə tutur.

Xarici iqtisadi siyasət bütövlükdə beynəlxalq iqtisadi fəaliyyətin məcmusunu tənzimləyir. Hazırkı dövrdə dövlətlərin əksəriyyətində mövcud olan xarici iqtisadi siyasət vasitələrinin geniş arsenalı onlara həm öz xarici iqtisadi əlaqələrinin strukturunun formalaşmasına və inkişaf istiqamatlərinə, həm də digər dövlətlərin xarici iqtisadi əlaqələrinə və xarici iqtisadi siyasətlərinə fəal təsir göstərmək imkanı verir. Dövlətin xarici iqtisadi siyasəti onun daxili iqtisadi siyasəti ilə ayrılmaz surətdə bağlıdır və real bazar münasibətlərinin təşəkkül tapdığı bir ölkədə daxili və xarici iqtisadi siyasat dialektik vəhdətdə formalaşdırılmalıdır. Ən ümumi formada demək olar ki, xarici iqtisadi siyasətin başlıca vəzifəsi ölkə daxilində geniş təkrar istehsal üçün əlverişli xarici iqtisadi şəraitin yaradılmasıdır.

Beynəlxalq iqtisadi münasibətlər təkcə iştirakçı ölkələrin resurslar və satış bazarları ilə təmin olunmasını, milli təsərrüfat strukturların bir-birini qarşılıqlı tamamlamasını, sahibkarların firmalarının xarici iqtisadi fəaliyyətini deyil, həm də hökumətin və beynəlxalq təşkilatların ticarətsiyasi tədbirlərini nəzərdə tutur. Dövlət xarici iqtisadi fəaliyyətin müəyyən ayrı-ayrı sfera və obyektlərinə məqsədyönlü təsir göstərmək yolu ilə bu fəaliyyətin inkişafında fəal surətdə iştirak edir.

Beynəlxalq iqtisadi münasibətlərin böyük hissəsini, daha dəqiq desək 80%- dən çoxunu isə məhz onun ənənəvi forması olan beynəlxalq ticarət münasibətləri təşkil edir. Buna görə də beynəlxalq iqtisadi münasibətlərin tarixən ən qədim, mühüm və ən çox inkişaf etmiş forması kimi xarici ticarətə xüsusi diqqət verilməli, onun inkişaf istiqamətləri və problemləri dərindən araşdırılmalı, dinamika və meyilləri, tənzimlənməsi istiqamətləri təhlil olunub, öyrənilməlidir. Beynəlxalq ticarət müxtəlif ölkələrin əmtəə istehsalçıları arasında beynəlxalq əmək bölgüsü əsasında yaranan əlaqə formasıdır və onların qarşılıqlı iqtisadi asılılığını əks etdirir. Elmi-texniki tərəqqinin təsiri altında ölkələrin iqtisadiyyatında baş verən struktur dəyişiklikləri, sənaye istehsalının ixtisaslaşması və kooperasiyalaşması milli təsərrüfatların qarşılıqlı təsirini gücləndirir. Bu isə xarici ticarətin genişlənməsinə təkan verir.

Ümumiyyətlə, dünya miqyasında xarici ticarət istehsala nisbətən daha yüksək templərlə artır. Belə ki, xarici ticarət dövriyyəsinin tədqiqatlarına əsasən dünya üzrə məcmu istehsalın həcminin hər 10%-lik artımına qarşı dünya ticarətinin həcmi 16%-lik artım nümayiş etdirir. Bununla da xarici ticarətin inkişafı üçün daha münbit şərait yaranır. Ticarətdə böhranlar baş verdikdə isə, istehsalın da inkişafında ləngimələr olur. XX əsrin ikinci yarısından başlayaraq xarici ticarət nisbətən yüksək templərlə inkişaf etməyə başlamışdır ki, bu da bir sıra amillərin təsiri ilə əlaqədardır. Bu artım ilk növbədə məhz dünya iqtisadiyyatının ümumi vəziyyətinə və bilavasitə beynəlxalq ticarətin artımına təsir edən amillərin fəaliyyəti nəticəsində baş vermişdir. Bu amillərin təsiri ona gətirib çıxarmışdır ki, Qərb ölkələrində iqtisadi artımın ümumi templəri əsrin I yarısına nisbətən əhəmiyyətli dərəcədə yüksəlmişdir, tsiklik böhranlar isə o qədər də dərin və uzunmüddətli olmamışdır.

Müasir inkişaf mərhələsində xarici ticarət münasibətləri arzu edilən səviyyədə formalaşa bilməsi bir tərəfdən real bazarın hələ təşəkkül mərhələsində olması, digər tərəfdən onun ümumiqtisadi siyasətin tərkib hissəsi kimi çıxış etməsi ilə bağlıdır.

Beynəlxalq ticarət ölkədə istehsalı genişləndirmək, bununla da ölkənin gəlirini artırmağa imkan verir. Sənaye cəhətdən inkişaf etmiş ölkələrin iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrlə ticarət aparması xüsusilə əlverişlidir. Bunun əsas səbəbi odur ki, iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrə göndərilən sənaye məhsulları nisbətən yüksək qiymətlə satılır, həmin ölkələrdəki xammallar isə aşağı qiymətlə alınır. Beynəlxalq ticarətdə əsas məqam ondan ibarətdir ki, əksər hallarda hansısa bir anda xidmətin satıcısı və alıcısı arasında fiziki kontakt olmalıdır. Yalnız bu halda ticarət üzrə saziş başlana və ya həyata keçirilə bilər.

Bildiyimiz kimi xidmətlərlə beynəlxalq ticarətin sürətli inkişafına aşağıdakı amillər əhəmiyyətli təsir göstərmişdir:

- dünyanın əksər ölkələrində uzunmüddətli iqtisadi yüksəliş işgüzar aktivliyin, əmək məhsuldarlığının, şirkətlərin gəlirlərinin və əhalinin ödəmə qabiliyyətinin artmasına gətirib çıxarmışdır;
- elmi-texniki tərəqqi istehsalın həcminin genişlənməsinə, xidmətlərin yeni növlərinin və onların tətbiqi sferasının genişlənməsinə səbəb olmuşdur;
- ölkələrin beynəlxalq iqtisadi əlaqələrinin və BİM formalarının inkişafı təmin olunmuşdur;
- xidmətlərlə ticarətin inkişafında insan faktoru, ehtiyacların daim artması qanunu özünəməxsus rol oynamışdır;
- insanın intellektual və fiziki imkanlarının təkmilləşdirilməsinə, onun mədəni və sosial ehtiyaclarının təmin olunmasına yönəldilmiş xidmətlər sektoru genişlənmişdir.

Beynəlxalq ticarətin sürətlə artımı həmçinin əmtəə dövriyyəsi və sərmayələr arasında qarşılıqlı əlaqənin güclənməsi, dünya bazarının qloballaşması, milli iqtisadiyyatların “açıqlığı”nın genişlənməsi ilə əlaqədardır. Beynəlxalq ticarətin coğrafi strukturu ərazi və ya təşkilati əlamətlərinə görə formalaşdırılmış ayrı-ayrı ölkələr və ya onların qrupları arasında əmtəə və xidmət axınları bölgüsünü əks etdirir.

Dünya ticarətinin ölkələr üzrə bölgüsündə sənayecə inkişaf etmiş ölkələr üstünlük təşkil edir. Bir ölkənin tənzimləmə tədbirləri digər dövlətlərin iqtisadiyyatına birbaşa təsir göstərir ki, bu dövlətlər də öz növbəsində istehsalçılarını və istehlakçılarını müdafiə etmək üçün cavab tədbirlər görürlər. Bu tənzimlənmənin dövlətlərarası səviyyədə həyata keçirilməsi zəruriliyini ortaya çıxarır.

Ölkələr beynəlxalq iqtisadi əməkdaşlıq və eləcə də elmi-texniki əməkdaşlıq etmək yolu ilə öz milli iqtisadiyyatın dirçəldilməsi üçün qarşıya çıxan problemləri həll etməklə istehsalın səmərəliliyini artırmaq, elm və texnikanı daha da inkişaf etdirmək yollarını axtarırlar. Bütün bunlara nail olmaq üçün ölkəmiz beynəlxalq iqtisadi və o cümlədən ticarət əlaqələrinin genişləndirilməsinə və inkişafına çalışmaqla beynəlxalq əmək bölgüsünün üstünlüklərindən yararlanmalıdır.

Sonda qeyd edək ki, muxtar respublikanın dinamik inkişafı, ən əsası yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir.

## ƏDƏBİYYAT

1. Abbasov T.A. Naxçıvan: Aqrar sektorun resurs potensialı, aqrar bazar və iqtisadi inkişaf. Bakı: 2018, 584 s.
2. Əhmədov N.H. Sürətlə inkişaf edən və modernləşən Naxçıvan iqtisadiyyatı. Naxçıvan: 2019, 394 s.
3. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: Elm, 2003, 411 s.
4. Əliyev A.Y. Azərbaycanın iqtisadi siyasəti. Bakı: Qanun, 2003, 264 s.
5. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində. Bakı: 1996, 135 s.

## SUMMARY

**Maisa Abbasova**

## THE ROLE OF İNTERNATİONAL BUSİNESS İN THE STABLE AND CONSTANT DEVELOPMENT OF NAKHCHİVAN AUTONOMOUS REPUBLİC

İn this article deal with passed centries 90s years of Nakhchivan Autonomous Republic heavy days and to save from this heavy condition to establish important relations by vigorous statesman Haydar Aliyev’s role. It is noted that in order to ensure a stable and sustainable economy of the autonomous republic, it is important to bring economic relations between the countries to the highest level.

On the same time it is noted in the article the countries by doing economic as well as scientific and technique cooperation to revive own national economy to ensure efficiency and to be stable and sustainable can achieve development of sicience and technique.

***Key words:*** *international business, economic attitudes, foreign economic relations, commodity turnover, commodity producers, national statehood, economic cooperation, scientific and technical cooperation.*

**РЕЗЮМЕ**

**Маиса Аббасова**

**РОЛЬ МЕЖДУНАРОДНОЙ ТОРГОВЛИ В ДЛИТЕЛЬНОМ И УСТОЙЧИВОМ РАЗВИТИИ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ**

В статье рассказывается о тяжелых днях Нахчыванской Автономной Республики в 1990-е годы и о роли влиятельного государственного деятеля Гейдара Алиева в преодолении этой сложной ситуации, налаживании важных отношений с зарубежными странами. Было отмечено, что для обеспечения длительного и устойчивого экономического развития в автономной республике важно, чтобы экономические отношения между странами достигли наивысшего уровня.

В то же время в статье подчеркивается, что страны могут повысить эффективность производства, длительное и устойчивое экономическое развитие, дальнейшее развитие науки и технологий для возрождения своей национальной экономики посредством международного экономического сотрудничества, а также научно-технического сотрудничества.

***Ключевые слова:*** *международная торговля, экономические отношения, внешние экономические связи, товарооборот, производители товара, национальная государственность, экономическое сотрудничество, научно-техническое сотрудничество.*

**ƏBDÜLHÜSEYN ZAMANOV**
*Naxçıvan Dövlət Universiteti ebdul@gmail.com*

# NAXÇIVAN MR-DƏ XARİCİ TİCARƏT VƏ LOGİSTİKANIN MÜASİR VƏZİYYƏTİ VƏ PROBLEMLƏRİ

*Məqalədə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yüksəldilməsi, özünün əlverişli coğrafi üstünlüklərindən və mövcud potensialından səmərəli istifadə etməklə xarici ölkələrlə beynəlxalq iqtisadi əlaqələri genişləndirməklə, ticarət dövriyyəsinə cəlb edilməsinə nail olunması önəmindən bəhs edilmişdir.*

*Tədqiqat işində muxtar respublikada xarici ticarət və logistik sektoru və logistik mərkəzlərin yaradılmasının müasir vəziyyətinin tədqiqi problemlərin öyrənilməsi və bu istiqamətdə işlərin aparılması bir məqsəd kimi qarşıya qoyulmuş və araşdırılmışdır. Həyata keçirilən siyasətin başlıca məqsədlərindən biri də budur ki, xammal və işlənmiş məhsulların tranzit yükdaşımalar vasitələri ilə alıcılara aşağı xərclə və vaxtında çatdırılması, istehlakçı məmnuniyyətinin təmin edilməsidir.*

*Elmi məqalədə logistik sektorunun inkişafı istiqamətində reallaşan kompleks və sistemli tədbirlərin, özəl bölmənin inkişafını sürətləndirməsi, bölgdə sahibkarlığın inkişafına əlverişli şəraitin, biznes mühitinin yaradılması, ixrac potensialının artırılması məsələləri də araşdırılmışdır.*

***Açar sözlər:*** *Naxçıvan MR, logistik sektoru, logistik mərkəzləri, idxal -ixrac, dəmir yolu, tranzit yük daşımaları.*

Qloballaşmanın hökm sürdüyü müasir dünyada ticarətin tədricən sərbəstləşdirilməsi rəqabətin artması və xarici ticarət əlaqələrində təşkilatların sayının artması ilə yanaşı, daşıma yollarının uzanması sürət amilini önə çıxarmışdır. Bazar iqtisadiyyatına keçid şəratində material axınının ilk təhcizat mənbəyindən son istelakçıya qədər ümumi hərəkətinin yeni metod və texnologiyalarla idarə edilməsinin həyata keçirən yeni sistemin aşkar edilməsinə ehtiyac vardır [1].

Müştəri məmnuniyyətini artırmaq üçün xammal və işlənmiş məhsulların alıcılara aşağı xərclə və vaxtında çatdırılmasını, başqa sözlə, logistika xidmətlərin əhəmiyyətini artırmışdır. Bunun üçün mal axınının tənzimlənməsi və bu prosesin davamlılığının təmin edilməsi baxımından logistika xidmətlərinin ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyəti vardır. Logistika sektorunun beynəlxalq bazarlarda önəmini onun inkişafını və gələcək persepektivlərini anlayan İEÖ-lər logistika sektorunun təkmilləşdirilməsi istiqamətində lazımı təbirlər həyata keçirir.

Respublikamızın əlverişli coğrafi mövqedə yerləşməsinə baxmayaraq ticarət və logistika sektoru müasir dövrün tələbləri səviyyəsində inkişaf etməmişdir. Ölkəmizdə logistika sektoru və logistik mərkəzlər və onların göstərdiyi xidmətlər çox cüzi səviyyədədir. Bu səbəbən Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə logistika sektoru və logistik mərkəzlər və onların göstərdiyi xidmətlər kimi problemlər araşdırılmışdır [2].

Ümumiyyətlə, ölkəmizin əlverişli coğrafi mövqedə yerləşməsi istər Şərq-Qərb, istərsə də Şimal-Cənub dəhlizindəki coğrafi mövqe üstünlükləri hesabına həm idxal-ixrac əməliyyatlarından, həm də tranzit yükdaşımalardan yüksək pay əldə etmək imkanına malikir. Respublikamızda son illərdə istər ÜDM-in artımında, istərsə də xarici ticarət fəaliyyətində özəl sektorun iştirak səviyyəsinin xeyli artırılması, logistika infrastrukturlarının yaradılması, tranzit ticarətindən gələn gəlirin daha da artırılması və ticarət həcminin artırılması məqsədi ilə bir sıra addımların atılmasını nəzərdə tutur. Bu məqsədlə bir sıra müəssisələr, anbarlar, liman, dəmir yolları, logistik layihələr və s. bu kimi mühüm infrastruktur layihələr artıq yekunlaşıb.

Azərbaycan Respublikası DSK-nin məlumat bültenində, 2020-ci ildə nəqliyyat sektoru vasitəsi ilə 188,629 milyon ton yük daşınmışdır. Bu yükün də 7.8 faizi dəmir yolu, 3,2 faizi dəniz yolu, 0,2 faizi hava yolu, 29,7 faizi boru kəməri, ondan 18,4 faizi neft kəməri, 11,3 faizi qaz kəməri,

59.1 faizi isə avtomobillə daşınan yüklərin payına düşür [4]. Burdan da göründüyü kimi, Azərbaycan ərazisində dəmir yolu xətti ilə daşınan yüklərin ümumi həcmində tranzit yükdaşımaların həcmi xeyli aşağıdır. Lakin qonşu Gürcüstan Respublikasında ümumi yükdaşımaların ümumi həcmində tranzit yükdaşımalarının həcmi 70 faiz təşkil etmişdir [5].

Ticarət həcminin gedikcə artması, ən gəlirli marşrutların əksəriyyəti rəqabətin güclü olduğu Çin Xalq Respublikası ilədir. Azərbaycanın da bu marşrutlarda iştirakı, xarici ticarət əlaqələrinin həcminin artımı baxımından böyük imkanlar aça bilər.

Ölkəmizin logistika sektorundakı hədəfi xarici ölkələrlə güclü ticarət və logistik əlaqələr yaratmaq və logistik mərkəzlər hesabına regionun önəmli logistika və ticarət mərkəzinə çevrilməkdir. Bunun üçün çoxlu investisiya lazımdır. Mövcud olan üstünlüklərə dayanaraq, 2025-ci ilə qədər infrasturukturun yaxşılaşdırılması və tənzimləyici addımların atılması vasitəsilə, regionda Azərbaycanın logistika sektoruna xarici və yerli investisiya qoyuluşları cəhətdən ən cəlbedici bölgəyə çerilməsi əsas məqsəddir. Bu məqsədlərə çatmaq üçün beynəlxalq bazarlara sərfəli əlaqə yarada bilən logistik mərkəzlər formalaşdırmaq zəruridir.

İqtisadiyyatın bütün sahələrində səmərəliliyin artırılması, rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində qeyri-neft sektorunun inkişafı dövlətin əsas prioritetlərindən biridir.

Azərbaycan Respublikası Prezidentinin "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 18 yanvar 2016-cı il tarixli sərəncamı [5], "Qeyri-neft məhsullarının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 01 mart 2016-cı il tarixli fərmanı bu sahənin inkişafının yeni mərhələsinə qədəm qoymuşdur [7].

Prezident İlham Əliyev 17 aprel 2017-ci ildə Yevlaxda qeyri-neft ixracatçıların respublika müşavirəsində dediyi kimi: "Son illər ərzində Azərbaycanda ciddi islahatlar aparılıb, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları qəbul edilib, sahibkarlara dövlət tərəfindən böyük dəstək göstərilib və göstərilir. Beləliklə, biz qeyri-neft ixracının artırılasına nail ola bilmişik".

Müasir dövrdə, logistika istehsal və istehlak nöqtələri arasında zəncirboyu idarə edilməsinin ən dinamik və səy tələb edən əməliyyat sahələrindən biridir. Bu proses sifarişin alınması, məhsulun anbarlanması, işlənməsi, paketlənməsi, daşınmasını özündə birləşdirən və sürətlə inkişaf edən bir iş intizamıdır. Beynəlxalq tədarük zəncirində paylama və təslimat əməliyyatları gedərək daha qarışıq hal alır.

Naxçıvan MR-də, əsasən, Naxçıvan (Qızılvəng), Culfa, Şahtaxtı (Başbaşı) depoları sovet dönəmindən fəaliyyət göstərir. Bu xətt 30 kilometrdən artıq olmaqla 100 hektarlarla boş sahəni əhatə edir [9]. Fikrimizcə, əlverişli yol logistikanın düzgün təşkil olunması və logistik xərclərin, itkilərin azaldılması ilə bu uğura nail olmaq mümkündür. Müasir texnologiyanın və innovativ avadanlıqlarla modernləşməsini həyata keçirməklə, sürətli və davamlı logistik xidməti yaradılmalıdır. Logistika məlumatlarının hərəkəti zənciri istiqamətində muxtar respublikada bu yöndə bir sıra işlər görülmüşdür. Regionda davamlı iqtisadi inkişafın əsası elm-texniki tətbiqinin və yeni modern texnologiyalarla silahlanmaya əsaslanır. Bunun üçün praktiki təcrübənin genişləndirilməsi, yüksək ixtisaslı, peşəkar kadrların və intellektual qabiliyyətli insanların yetişdirilməsini zəruri edir.

Naxçıvan MR-in logistika mərkəzinə çevrilməsi üçün zəruri şərtlərdən biri də Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Qars-İğdır-AralıkDilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması, Naxçıvan MR-in sosial-iqtisadi inkişafının sürətlənməsində olduqca böyük rol oynayacaqdır [10]. Çünki, Naxçıvanın Ermənistan Respublikası tərəfindən blokadaya alınması bu bölgədə istehsal olunan yüzlərlə çeşiddə və növdə məhsulların xarici ölkələrin bazarlarına rahat şəkildə ixrac olunmasına imkan vermirdi. Bu da muxtar respublikada kiçik və orta sahibkarlığın inkişafına, eləcə də xarici investisiyanın cəlb olunmasına, maddi resurslardan səmərəli istifadə etməyə mane olurdu. Türkiyə-Naxçıvan dəmir yolu xəttinin çəkilməsi isə bu problemləri aradan qaldıracaq və muxtar respublika özünün mövcud potensialından səmərəli istifadə etməklə xarici ölkələrlə beynəlxalq iqtisadi əlaqələri genişləndirməklə yeni inkişaf mərhələsinə qədəm qoyacaqdır [8].

İran İslam Respublikasının da Naxçıvan dəmir yol xəttindən istifadə etməsi bu bölgənin yük axınını daha da artıracaqdır.

Beynəlxalq ticarət əlaqələrinin genişləndirilməsi üçün ictimai-siyasi sabitlik lazımdır. Əgər Ermənistan öz çirkin əməllərinən əl çəkərsə, altılıq formatı üzrə bir qurum yaradıla bilər. Bu faktor da iqtisadi rayonun iqtisadi imkanlarını daha da genişləndirməklə bir çox investisiyalar üçün açılacaqdır.

Fikrimizcə, Qars-Naxçıvan dəmir yolu xəttinin çəkilməsini sahibkarlarımız və ixrac şirkətlərimiz ən yaxşı şəkildə dəyərləndirəcək. Qloballaşmanın və rəqabətin artdığı müasir dövrdə, müştəri məmnuniyyətini təmin edə bilmək üçün müəssisələr tədarük zənciri yaratmaq məcburiyyətindədirlər.

Fikrimizcə, Naxçıvanı müasir və effektiv logistika mərkəzinə çevirməklə bölgədə: saxlama terminalları şəbəkəsin yaratmaq, Daşınmanın planlanması və idarə edilməsi, Keyfiyyətli anbarlama, Keyfiyyətə nəzarətin təmin olunması, Logistik idarəetmə, Tədarük, Çatdırma və daşıma, Tərsinə logistika Əlaqəli zəncirvarı idarə olunma yaradılmalıdır.

Son illərdə muxtar respublikada həyata keçirilən təbirlər nəticəsində müasir texnologiyalara əsaslanan logistik mərkəzlərin formalaşmasına hesablanan bir sıra xidmələr yaradılmışdır. Regionda davamlı iqtisadi inkişafın əsası elm-texniki tətbiqi və yeni modern texnologiyalarla silahlanmaya əsaslanır. Bunun üçün praktiki təcrübənin genişləndirilməsi, yüksəkixtisaslı, peşəkar kadrların və intellektual qabiliyyətli insanların yetişdirilməsini zəruri edir.

Muxtar respublikada keçən illər ərzində qeyri-neft sektorunun davamlı inkişafı istiqamətində bir çox sənaye müəssisələri yaradılmış və bu proses davam etdirilməkdədir. Çünki sənaye iqtisadiyyatın lokomotividir. Regionda yaradilmış çox saylı müəssisələr hesabına 383 növdə məhsul istehsal olunur ki, bundan da 350 adda məhsula olan tələbat yerli məhsullar hesabına ödənilir [6]. Bütün bunların nəticəsində daxili bazarda yerli məhsulların xüsusi çəkisi əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi isə genişlənibdir. Hazırda əsas məqsəd regionda qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək üçün innovasiyalı,yeni texnologiyalara və kommunikasiyalara əsaslanan rəqabət qabiliyyətli və ixrac yönümlü nəhəng sənaye məhələsini yaratmaqla mikro, kiçik və orta sahibkarlığı dəstəkləmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir [11].

Hazırda Naxçıvan Muxtar Respubilkasında istehsal olunan yüz növ və çeşiddə olan məhsulun xarici bazarlara çıxışı məhdud çərçivədədir. Bunun da əsas səbəbi Naxçıvanın blokada şəraitində olması və beynəlxalq bazarlara çıxışının olmamasıdır.

Zəngəzur dəhlizinin açılması, Türkiyə-Naxçıvan dəmir yolu xəttinin çəkilməsi bu problemləri aradan qaldıracaq və muxtar respublika özünün mövcud potensialından səmərəli istifadə etməklə xarici ölkələrlə beynəlxalq iqtisadi əlaqələri genişləndirməklə yeni inkişaf mərhələsinə qədəm qoyacaqdır [8].

Türkiyə Cümhuriyyətinə birbaşa yolun olması həm xammalın asanlıqla qəbul edilməsinə, həm də ixracl olunan məhsulun asanlıqla göndərilməsini təmin edə biləcəyik.

Azərbaycanın xarici ticarət dövriyyəsi getdikcə artmaqdadır. Ticarət dövriyyəsinin artan dinamikasında muxtar respublikanın da özünəməxsus payı vardır. Belə ki, Naxçıvan DSK-nın məlumatına əsasən Naxçıvan Muxtar Respublikasında 2020-ci ildə 2.9 milyard manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrünə nisbətən 2,4-% çoxdur. 2020-ci ilin ötən dövründə nəqliyyat sektorunda yük daşımanın həcmi 16757,6 min ton təşkil etmişdir. Bu yükun 133 min tonu və ya 0,8 faizi dəmir yolu 1,9 min tonu və ya 0,1faizi hava yolu 16622,7 min tonu və ya 99,1 faizi avtomobil yolu xətti ilə daşınmışdır. Muxtar respublikanın xarici ticarət dövriyyəsi 450 milyon 839 min ABŞ dolları təşkil etmişdir. Ticarət əməliyyatlarının 86 faizi, yaxud 387 milyon 540 min ABŞ dolları ixracın payına düşmüş, müsbət saldo yaranmışdı. 2020-ci ildə muxtar respublikada dəmir yolu nəqliyyatı ilə 133 min tondan artıq yük və 96 minə yaxın sərnişin daşınmışdır [6].

Hal-hazırda bazar şərtləri kəskinləşməkdədir. Bu şərtlər daxilində müəssisələr maliyyəyə qənaət edilməsi və maliyyə itkilərinin minimuma endirilməsi üçün səy göstərirlər. Bundan əlavə, onlar texnologiya ilə ayaqlaşmalı və digər əməkdaşlarla birlikdə yaradılan tədarük zənciri vasitəsilə məhsul və xidmətlərin müştərilərə çatdırılmasını təmin etməlidirlər.

Bununla əlaqədar olaraq, tədqiqatda aşağıdakı vəzifələrin gələcək perspektivdə yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Naxçıvanı Azərbaycanla birləşdirən Zəngəzur dəhlizinin açılması qonşu ölkələrlə yeni dəmir yollarının çəkilməsi kimi vacib bünövrə (infrastruktur) layihələrinin reallaşdırılması;
- Naxçıvan Muxtar Respubilkasının strateji coğrafi mövqeyindən maksimum istifadə etməklə, tranzit yüklərinin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb etmək, rayonlarda logistik mərkəzlər yaratmaq, yerli və xarici investisiya qoyuluşlarını təşviq etmək, yeni biznes üçün cəlbediciliyini artırmaq;
- Ölkə qanunvericiliyində logistika sektorunun inkişafı üçün (gömrük, sərhəd keçid məntəqələri və s.) sadələşdirilməklə güzəşt mexanizmlərinin işlənməsi;
- müəssisələrin zəncirboyu mal axını ilə bütünləşməsi üçün yeni texnologiyanın və innovativ avadanlıqlarla modernləşməsini həyata keçirmək;
- Logistika sektorunda beynəlxaq təcrübədən istifadə etməklə logistikanın müasir infrastrukturunu və logistika sektorunda rəqabəti yaratmaq.

Bütün bunlar isə Naxçıvan Muxtar Respubilkasının iqtisadiyyatının inkişaf yolunda olduğunu göstərir. İqtisadiyyatın şaxələndirilməsi sosial iqtisadi inkişafa müsbət təsir göstərməklə bölgə əhalisinin rifahının yüksəlməsinə, əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşmasına töhfəsini verməklə bərabər, prioritet məsələlərin həllində də öz əhəmiyyətini bir daha yaxşı istiqamətdə göstərməkdədir.

## ƏDƏBİYYAT


1. T.İ.İmanov. Logistikanın əsasları. Bakı: Təhsil, 2005.
2. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”.
3. Dr. Melih Başkol (2010). “Lojistik ve Lojistik Yönetimi”, Bartın Üniversitesi İ.İ.B.F Dergisi, s. 47-81.
4. Azərbaycan Respublikası Dövlət Statistka Komitəsinin m'lumatlar.
5. Azərbaycan Respublikası Prezidentinin “Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” 18 yanvar 2016-cı il tarixli Sərəncamı
6. Copyright © 2011 Naxçıvan MR Ali Məclisi. All rights reserved
7. “Qeyri-neft məhsullarının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” 01 mart 2016-cı il tarixli fərman
8. http: www.yap.org.az/az/view/nevs/41041/
9. http://serqqapisi.az/index.php/iqtisadiyyat/29062
10. http://anl.az/down/meqale/azerbaycan/2020/fevral/711525.htm
11. https://azertag.az/xeber/Naxchivan elverisli biznes muhiti neticesinde sahibkarliq inkisaf edir ixracin hecmi artir-1052395


## SUMMARY

**Abdulhussein Zamanov**

### CURRENT SITUATION AND PROBLEMS OF FOREIGN TRADE AND LOGISTICS IN NAKHCHIVAN AR.


The article highlights the importance of improving the social-economic development of the Republic of Nakhchivan by expanding international economic relations with foreign countries, attracting and achieving trade cycles by making good use of its favorable coral advantages and existing potential.

This resaerch focused on the study of the current state of foreign trade and logistics sectors and logistics centers in the Autonomous Republic of Nakhchivan and on the development of work in this direction. One of the main goals of the policy is to ensure that raw materials and processed products are delivered to buyers at low cost and time through transit cargo, ensuring consumer satisfaction.

The scientific article also investigates the complex and systemic measures taken to develop the logistics sector, accelerating the development of the private sector, creating favorable conditions for entrepreneurship in the region, creating a business environment, increasing export potential.


***Key words:*** *Nakhchivan AR, logistics sector, logistics centers, import-export, railway, transit freight, etc.*

**РЕЗЮМЕ**

**Абдулгусейн Заманов**

**СОВРЕМЕННОЕ ПОЛОЖЕНИЕ И ПРОБЛЕМЫ ВНЕШНЕЙ ТОРГОВЛИ ИЛОГИСТИКИ В НАХЧЫВАНСКОЙ АР.**

В статье обсуждается важность ускорения социально-экономического развития Нахчыванской Автономной Республики, привлечения ее к торговле за счет расширения международных экономических связей с зарубежными странами, эффективного использования ее выгодных географических преимуществ и имеющегося потенциала.

Целью исследования является изучение текущего состояния внешнеторгового и логистического сектора и создания логистических центров в автономной республике, изучение проблем и работа в этом направлении.Одной из основных целей проводимой политики является обеспечение недорогой и своевременной доставки сырья и продуктов переработки покупателям транзитными грузовыми перевозками, для удовлетворения потребностей потребителей.

В научной статье также рассмотрены комплексные и системные меры, принимаемые для развития сектора логистики, ускорения развития частного сектора, создания благоприятных условий для предпринимательства в регионе, создания бизнес-среды, увеличения экспортного потенциала.

***Ключевые слова:*** *Нахчыванская АР, логистический сектор, логистичес кий центр, импорт-экспорт, железная дорога, транзитные грузовые перевозки и т.д.*

**NƏSRİN ƏLİYEVA**
*Naxçıvan Dövlət Universiteti nesrin.lyv06@gmail.com*

## NAXÇIVAN NƏQLİYYAT-LOGİSTİKA MƏRKƏZİ KİMİ

*Məqalədə son illərdə Naxçıvanda nəqliyyat sektorunun sürətli və hərtərəfli inkişafı, onun əhəmiyyəti, nəqliyyat infrastrukturunun yaxşılaşdırılması, müasirləşdirilməsi, nəqliyyatın Naxçıvanın sürətli inkişafında rolundan bəhs olunmuşdur. Həmçinin məqalədə Zəngəzur dəhlizinin Naxçıvan üçün strateji əhəmiyyəti, dəhlizin yaradılmasından sonra Naxçıvanın blokadadan çıxarılması, onun logistik mərkəzə çevrilməsi, bu dəhlizin Naxçıvan və Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyəti ön plana çəkilmişdir.*

***Açar sözlər:*** *nəqliyyat, Naxçıvan, logistika, inkişaf, Zəngəzur dəhlizi, inteqrasiya*

Nəqliyyat dövlətin və cəmiyyətin həyat fəaliyyətinin ilkin tələbatını təmin etməklə sosial, iqtisadi, xarici siyasət və digər dövlət prioritetlərinə nail olunmasında mühüm rol oynayır. Nəqliyyat sektoru məhsul və xidmətlərin istehsalı, paylanması və istehlakı sahəsində fəaliyyət növlərini əhatə edir. Nəqliyyat yalnız sərnişin və yükdaşımaları həyata keçirmir, eyni zamanda əhalinin məskunlaşmasında, ərazi üzrə optimal yerləşdirilməsində mühüm rol oynayır. Ölkələr yerləşdikləri coğrafi mövqedən asılı olmayaraq, çalışırlar ki, öz məhsullarını daha sərfəli yollarla dünya bazarlarına çıxarsınlar və daha çox səmərə əldə etsinlər [1]. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bütün sahələr kimi, nəqliyyat infrastrukturunun da inkişafı dövlətin əsas prioritet məsələlərindən biridir və əlbəttə ki, şərqin qapısı hesab olunan Naxçıvanımızın bugünkü sürətli və hərtərəfli inkişafında nəqliyyat sektorunun xüsusi yeri var. Tarixə nəzər salsaq görərik ki, Naxçıvanın əlverişli geostrateji mövqeyi, Böyük İpək Yolunun üzərində yerləşməsi, həmçinin zəngin ticarət və sənətkarlıq mərkəzi olması qədim zamanlardan sərnişin və yükdaşıma nəqliyyatının təşəkkülünə səbəb olub, bu xidmət növü əsrdən-əsrə formalaşıb. Məhz bu baxımdan beynəlxalq əhəmiyyətli nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Naxçıvan əlverişli nəqliyyat sisteminə malikdir. Bu da Naxçıvanın qonşu ölkələrlə qarşılıqlı səmərəli iqtisadi əlaqələrin həyata keçirilməsinə əlverişli şərait yaradır. Məlumdur ki, nəqliyyat vasitələri olmadan yollar əhəmiyyətsiz olur, yollar keyfiyyətsiz olduqda isə nəqliyyat vasitələrinin səmərəli istismarı qeyri-mümkündür.

Başqa sözlə desək, nəqliyyat sisteminin və onun mühüm infrastrukturlarından biri olan yolların vəziyyətini yaxşılaşdırmadan arzuedilən inkişafa nail olmaq mümkün deyil. Naxçıvanda da məhz nəqliyyatın inkişafı sahəsində mühüm işlər görülüb. Bunun nəticəsidir ki, iqtisadi inkişafın və sosial tərəqqinin təmin olunmasında mühüm rol oynayan nəqliyyat sektoru da hərtərəfli qayğı ilə əhatə olunub, məqsədyönlü tədbirlər həyata keçirilib, müasir avtomobil yolları salınıb, hava və dəmir yolu nəqliyyatının infrastruktur təminatı yaxşılaşdırılıb. Naxçıvanın əsas magistral yollarından olan, beynəlxalq yük və sərnişin daşımalarında mühüm rol oynayan Naxçıvan-Sədərək, Naxçıvan-Culfa magistral avtomobil yolları və Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolu yenidən qurularaq istifadəyə verilib. Babək rayonunun isə 13 yaşayış məntəqəsini birləşdirən HacıvarVayxır-Sirab avtomobil yolu, 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək şəhəri-Nehrəm qəsəbə-Araz kənd dairəvi avtomobil yolu, Culfa rayonunun 20 kəndini əhatə edən ÇeşməbasarBoyəhməd avtomobil yolu, Kəngərli rayonunun 5 kəndini əhatə edən Naxçıvan-Sədərək magistralıTəzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu və digər avtomobil yolları yenidən qurulmuşdur. Ümumilikdə, 1 yanvar 2011-ci ildən 2020-ci ilin sonuna muxtar respublikada 863 kilometr uzunluğunda avtomobil yolları yenilənmişdir [4].

Bu gün Naxçıvan şəhərində sərnişin daşıma xidməti günün tələbləri səviyyəsində qurulmuş və bununla da, əhalinin marşrutlardan səmərəli istifadəsi üçün hərtərəfli şərait yaradılmışdır. Bu sahənin inkişafı ilə əlaqədar həyata keçirilən tədbirlər, istifadəyə verilən yeni avtobus və mikroavtobuslar yaranan sərnişin sıxlığının aradan qaldırılmasında mühüm rol oynayır.

Naxçıvanda əhaliyə göstərilən taksi xidmətinin səviyyəsinin yüksəldilməsi, eləcə də operativ və keyfiyyətli fəaliyyətin təmin edilməsi məqsədilə innovasiyaya əsaslanan "Elektron taksi xidməti" yaradılıb. Şəhərdaxili və beynəlxalq marşrutda fəaliyyət göstərən avtomobillərin iş qrafikinə və təhlükəsizliyinə nəzarət olunması məqsədilə yeni nəsil texnologiyası olan "Naxtel" 4G GPS monitorinq izləmə sistemi

quraşdırılıb. Hər bir müstəqil ölkədə ən vacib sahələrdən biri də dəmir yolu nəqliyyatıdır. Çünki dəmir yolu nəqliyyatının inkişafı ölkənin müstəqilliyinin və iqtisadi qüdrətinin göstəricisidir. Blokada şəraitində olmasına baxmayaraq muxtar respublikada da dəmir yolu təsərrüfatı qorunub saxlanılmaqla yanaşı, həm də inkişaf etdirilir. Bununla bağlı olaraq, 29 mart 2019-cu il tarixində təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosialiqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar müvafiq görülmüş işlərə əsasən demək olar ki, dəmir yollarının əsaslı təmiri, yenidən qurulması və Türkiyə Respublikasının dəmir yolları ilə birləşdirilməsi məqsədilə Culfa-Sədərək sahəsində yeni ikili dəmir yolunun çəkilməsi istiqamətində müvafiq işlər həyata keçirilmişdir. Nəqliyyat sahəsində davamlı inkişafın təmin olunması məqsədilə həyata keçirilən tədbirlərdən biri də, 2021-ci ilin iyun ayının 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentləri arasında 1921-ci il 13 oktyabr tarixli Qars müqaviləsinə sadiq olduqlarını bildirərək imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" oldu. Ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə davamlı inkişafını təmin edəcək olan bu Bəyannamədə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında dəhlizin açılması və bunun davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisi nəqliyyat-kommunikasiyalarının intensivləşməsinə töhfə kimi dəyərləndirilmişdir. Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə Zəngəzur dəhlizi vasitəsilə birləşdirəcək olan dəmir yolu mühüm əhəmiyyət kəsb edir. Bütün Türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizi həm də Asiyanı Avropa ilə birləşdirən dəhliz olacaq. Dəhlizin açılmasından sonra

Türkiyə ilə quru məsafəsi 400 kilometr qısalacaqdır. Bu strateji layihənin reallaşdırılmasından sonra Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə verəcək. Layihə nəinki bu regionun, bütövlükdə, dünyanın nəliyyat xəritəsini yenidən formalaşdıracaqdır. Zəngəzur dəhlizinin mühüm strateji əhəmiyyətindən biri də Şərqi və Qərbi Zəngəzurun simvolik olsa da birləşməsi, 30 ildir blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının blokadadan çıxarılmasıdır. Zəngəzur dəhlizinin yaradılması Naxçıvanı təkcə blokadadan çıxarmayacaqdır. Bu nəqliyyat dəhlizinin açılmasından sonra muxtar respublika logistik mərkəzə çevriləcəkdir. Azərbaycanın əsas hissəsi ilə quru əlaqəsinin təmin edilməsi Naxçıvanın iqtisadi inkişafına təkan verəcək, bölgəyə investisiya qoyuluşunu stimullaşdıracaq, yeni istehsal müəssisələrinin yaradılmasına, əlavə iş yerlərinin açılmasına səbəb olacaqdır. Yeni yaradılacaq dəhliz muxtar respublikada biznesin inkişafını sürətləndirəcəkdir. Bu həm Naxçıvan, həm də Azərbaycan iqtisadiyyatı üçün böyük əhəmiyyətə malik bir layihə olacaq. Yeni dəhliz vasitəsi ilə azərbaycanlı iş adamları istehsal etdikləri məhsulları Türkiyəyə, oradan da Avropa bazarlarına ixrac edə biləcəklər. Beləliklə də, ölkədə qeyri neft sektorunun inkişafına təkan veriləcək və qeyri-neft ixracatının artması ölkəyə daha çox valyutanın axınına imkan verəcəkdir.

Dəhlizin açılması ilə Türkiyə ilə iqtisadi əlaqələr daha da inkişaf edəcək. Xüsusilə Çin, Orta Asiya ölkələrinin Türkiyə və Avropa bazarlarına çıxışında bu layihə əhəmiyyətli rol oynayacaq. Ölkəmiz ilə Türkiyə arasında iqtisadi əməkdaşlığın daha da genişlənməsinə böyük töhfə verəcək. Çünki Türkiyə öz məhsullarını daha qısa olan Naxçıvan dəhlizi vasitəsilə İrana, Rusiya, eləcə də digər Orta Asiya ölkələrinə ixrac edəcək. Bütün bunlarla yanaşı, regionda səfərlərin sayının artması turizmin inkişafını da sürətləndirəcək. Bir sözlə, yeni nəqliyyat dəhlizinin yaradılması siyasi, strateji və iqtisadi uğurdur. Azərbaycanın mövqeyinin daha da güclənməsinə xidmət edəcək [3].

Naxçıvan ilə quru əlaqələrinin bərpası nəqliyyat sisteminin şaxələndirilməsi və mövcud kommunikasiya infrastrukturuna əhəmiyyətli alternativ təmin edir. 10 noyabr 2020-ci il sazişinə qədər Azərbaycanın digər regionları ilə Naxçıvan arasındakı birbaşa nəqliyyat əlaqəsi sadəcə hava yolları vasitəsilə mümkün idi ki, bu nəqliyyat dəhlizinin açılması ilə bu bahalı nəqliyyat vasitəsinə daha ucuz və daha çox ixrac-idxal həcmi qazandıra biləcək alternativ olan avtomobil və dəmiryolu xətlərinin çəkilməsi üçün imkan yaranacaqdır. Bununla da, Naxçıvan regional nəqliyyat sisteminin şah damarına çevriləcəkdir.

Quru əlaqələrinin bərpası ilə beynəlxalq miqyasda Asiya və Avropa arasındakı çoxtərəfli iqtisadi əlaqələrin inkişafında mövcud olan daha bir problem öz həllini tapacaqdır. Belə ki, sazişə qədər Azərbaycanla quru yolları bağlı olan Naxçıvan MR əhəmiyyətli regional və beynəlxalq tranzit layihələrdən

kənarda qalmışdı. Postblokada dövründə isə Naxçıvan, bu tranzit xətləri öz üzərinə çəkməklə, Xəzər dənizi və Aralıq dənizi arasında körpü rolunu oynayacaq, İpək yolu üzərindəki ölkələr üçün təhlükəsiz, ucuz və sürətli daşınmanı təmin edəcəkdir. Bundan başqa,

Naxçıvan gələcəkdə Şimal-Cənub nəqliyyat dəhlizinə və layihəsi planlaşdırılan Qars-İğdırNaxçıvan dəmiryol xətlərinə inteqrasiya vasitəsilə beynəlxalq yüklərin Avropaya daşınmasında açar mövqeyində olacaqdır. Naxçıvanla nəqliyyat kommunikasiya sisteminin qurulması həmçinin məsafə və dolayısı ilə yüklərin çatdırılma sürəti baxımından böyük əhəmiyyət daşıyır. Gələcəkdə Naxçıvan ərazisindən keçəcək quru yolu xətləri Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin uzunluğundan 1,7 dəfə, təxminən 343 km az olmaqla daşınmaların xərcini və müddətini azaldacaq. Həmçinin Naxçıvan vasitəsilə Türkiyəyə avtomobillə gediş məsafəsi təxminən 343 km qısa olacağı üçün, hər iki ölkə arasında turistlərin ikitərəfli yerdəyişməsində Naxçıvan ərazisindən ölkəyə girişin geniş vüsət alacağı gözlənilir. Ölkəyə girişlərin Naxçıvan vasitəsilə həyata keçirilməsinin genişlənməsi isə dolaylı olaraq, Naxçıvanda turizmin inkişafına müsbət təsir göstərəcəkdir. Naxçıvanla quru əlaqələrinin təmini ilə Naxçıvan MR Azərbaycanın digər regionlarındakı nəqliyyat şəbəkəsinə qoşularaq, öz məhsullarını Azərbaycanın digər bölgələrinə, həmçinin Avropaya və Asiyaya daha rahat imkanlarla çıxara biləcək. Postblokada dövründə nəqliyyat-kommunikasiya sisteminin şaxələnməsi ilə Naxçıvan öz iqtisadi inkişafını daha da sürətləndirərək, idxal üçün çəkiləcək xərclərə qənaət edəcək, ixrac həcmini artıracaq, həmçinin böyük bazarlarda tanınmaqla iqtisadi rayona xaricdən investisiya cəlb edə biləcəkdir. Quru yolunun bərpası ilə layihəsi planlaşdırılan Qars-İğdır-Naxçıvan dəmiryol xətlərinə qoşularaq beynəlxalq yüklərin Avropaya daşınmasında Azərbaycandan Türkiyəyə yükdaşımaları asanlaşacaq. Nəticədə, Azərbaycandan ixrac olunan məhsulların nəqliyyat xərcləri azalacaq və Naxçıvanın beynəlxalq logistika qovşağı olaraq Ağrı, Ərdahan, İğdır və Qars şəhərlərini əhatə edən Türkiyənin Şərqi Anadolu bölgəsi başda olmaqla bütün Türkiyə ilə ticarət əlaqələri daha da genişlənəcək.

Beləliklə, son 20 ildə muxtar respublikada Naxçıvan-Sədərək, Naxçıvan-Culfa, CulfaOrdubad magistral yollarının yenidən qurulması, dəmir yolunun qorunub saxlanılması, dəmir yolu vağzallarının təmir olunmas, Naxçıvan Beynəlxalq Hava Limanının yeni Uçuş Enmə Zolağının inşa olunması, bütövlükdə, nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, muxtar respublikada otellərin, müasir ticarət mərkəzlərinin, restoran şəbəkələrinin yaradılması Naxçıvanın beynəlxalq nəqliyyatlogistika mərkəzinə çevrilməsinin təmin olunmasında mühüm rol oynayacaqdır [2].

## ƏDƏBİYYAT


1. B. Türker Palamutçuoğlu. Dağıtım kanalı ve lojistiğin temelleri. Celal Bayar Üniversitesi, 2012
2. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi, 2016
3. www.auzefkitap.istanbul.edu.tr
4. www.mida.gov.az


## SUMMARY

**Nasrin Aliyeva**

## NAKHCHİVAN AS TRANSPORT AND LOGİSTİCS CENTER

The article discusses the rapid and comprehensive development of the transport sector in Nakhchivan in recent years, its importance, improvement of transport infrastructure, its modernization, the role of transport in the rapid development of Nakhchivan. The article also highlights the strategic importance of the Zangazur corridor for Nakhchivan, unblocking Nakhchivan after its creation, its transformation into a logistics center, and the importance of this corridor for the economy of Nakhchivan and Azerbaijan.

***Key words***: *transport, Nakhchivan, logistics, development, Zangazur corridor, integration*

**РЕЗЮМЕ**

**Насрин Алиева**

## НАХЧЫВАН - КАК ТРАНСПОРТНО-ЛОГИСТИЧЕСКИЙ ЦЕНТР

В статье говорится об ускоренном и всестороннем развитии транспортного сектора, о его значении, об улучшении, усовершенствовании транспортной инфраструктуры, о роли транспорта в ускоренном развитии Нахчывана. В статье также на передний план вынесен стратегическое значение Зангезурского коридора для Нахчывана, выход Нахчывана из блокады после создания коридора, превращение в логистический центр, значимость этого коридора в экономике Нахчывана и Азербайджана.

***Ключевые слова:*** *транспорт, Нахчыван, логистика, развитие, Зангезурский коридор, интеграция.*

**RƏSUL ƏLƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti resulalakberov@hotmail.com*

# ZƏNGƏZUR DƏHLİZİNİN NAXÇIVAN MUXTAR RESPUBLİKASI SƏNAYESİNİN İXRAC POTENSİALININ ARTIRILMASINA YARADACAĞI İNKİŞAF İSTİQAMƏTLƏRİ

*İqtisadi dəhlizlər iqtisadi inkişafı stimullaşdırmaq üçün nəzərdə tutulmuş coğrafi ərazi daxilində inteqrasiya olunmuş infrastruktur şəbəkələridir. İqtisadi dəhlizlər tez-tez avtomobil yolları, dəmir yolları və limanlar kimi inteqrasiya olunmuş infrastruktura malikdir və şəhərləri və ya ölkələri birləşdirə bilər. Zəngəzur dəhlizi daşıma məsafəsini qısaldacağı və daşıma xərclərini azaldacağı üçün Azərbaycan və Türkiyə arasında ikitərəfli ticarəti artıracaq. İxrac potensialı haqqında sənayenin sahə strukturu inkişaf etdikcə ölkənin xarici bazara müxtəlif məhsullar çıxarmaq imkanını artırır. Naxçıvan Muxtar Respublikasında rəqabətqabiliyyətli, alıcı zövqünü oxşayan mallar istehsal olunur. Həmin mallar isə daxili bazarda öz yerini getdikcə möhkəmləndirməklə bərabər, bir sıra xarici ölkələrə də ixrac edilir.*

***Açar sözlər:*** *Zəngəzur dəhlizi, İqtisadi dəhlizlər, İxrac potensialı, Sənaye parkları,*
*Rəqabətqabiliyyətli sənaye, Ümumi daxili məhsul, Regional əməkdaşlıq, İqtisadi üstünlüklər*

Azərbaycan işğal olunmuş ərazilərini azad etməklə bu regionun geosiyasi xəritəsini dəyişdi, təxminən otuz ildir mövcud olan təhlükəsizlik problemlərini aradan qaldırdı və gələcək əməkdaşlıq üçün yeni imkanlar yaratdı. Azərbaycanın müharibədə qələbəsi siyasi üstünlüklərlə yanaşı, həm özünə, həm də region ölkələri üçün əsaslı iqtisadi üstünlüklər yaratdı. Üçtərəfli bəyannamənin 9-cu bəndinə əsasən, regionda bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa olunacaq və Ermənistan

Respublikası Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyinə vətəndaşların, nəqliyyat vasitələrinin və malların hər iki istiqamətdə maneəsiz hərəkətinə zəmanət verir.

Azərbaycanı Gürcüstan üzərindən Türkiyə ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu ilə müqayisədə yeni dəhliz daxilində yol təxminən 343 km qısa olacaq. Bu dəhliz daşıma məsafəsini qısaldacağı və daşıma xərclərini azaldacağı üçün Azərbaycan və Türkiyə arasında ikitərəfli ticarəti artıracaq.

İqtisadi dəhlizlər iqtisadi inkişafı stimullaşdırmaq üçün nəzərdə tutulmuş coğrafi ərazi daxilində inteqrasiya olunmuş infrastruktur şəbəkələridir. Onlar müəyyən coğrafi ərazidə müxtəlif iqtisadi agentləri birləşdirir. İqtisadi dəhlizlər tez-tez avtomobil yolları, dəmir yolları və limanlar kimi inteqrasiya olunmuş infrastruktura malikdir və şəhərləri və ya ölkələri birləşdirə bilər. İstehsal qovşaqlarını, tələb və təklifin yüksək olduğu əraziləri və əlavə dəyərli malların istehsalçılarını əlaqələndirmək üçün dəhlizlər yaradıla bilər. Həyata keçirildikdə, iqtisadi dəhlizlər çox vaxt infrastrukturun inkişafı, viza və nəqliyyat sazişləri və standartlaşdırma daxil olmaqla müxtəlif tədbirlər paketindən biridir.

Praktikada "İqtisadi Dəhlizlər" termini ən çox avtomobil yollarını ifadə etmək üçün istifadə olunmuşdur (məsələn, Şərq-Qərb İqtisadi Dəhlizi və Böyük Mekonq Subregion proqramının (GMS) Cənub İqtisadi Dəhlizi). Çin-Pakistan İqtisadi Dəhlizi həm də bir neçə elektrik stansiyasını əhatə etsə də, nəqliyyat əlaqəsinə də bağlıdır. Daha yeni işlər xətti infrastrukturun (məsələn, yollar) daha geniş, məkan iqtisadi fəaliyyətləri ilə aydın əlaqəsinə ehtiyac olduğunu vurğulayır. Buna nümunə olan dəhliz ABEC-dir (Almatı-Bişkek İqtisadi Dəhlizi)

Nəqliyyat dəhlizləri iqtisadi artım, yoxsulluq, iş yerləri, bərabərlik, ətraf mühitin keyfiyyəti və iqtisadi davamlılıq kimi potensial müxtəlif inkişaf nəticələrinə təsirləri vasitəsilə daha geniş iqtisadi fayda yarada bilər əsas diqqəti yollara, relslərə və su yollarına yönəldir, çünki bu rejimlərə əsaslanan nəqliyyat dəhlizləri, məsələn, hava yollarına nisbətən daha aydın iqtisadi təsir potensialına malikdir.

Zəngəzur dəhlizi regionda davamlı iqtisadi inkişaf və əməkdaşlıq üçün əlverişli şərait yaradacaqdır. Yeni dəhliz iqtisadi üstünlüklərlə yanaşı, regionda davamlı sülhün və təhlükəsizliyin qorunmasına da mühüm töhfə verəcək.

Dünya iqtisadiyyatının aparıcı sahəsi kimi sənaye bir sıra cəhətlərdən öyrənilir. Sənayenin gücünə, şaxələnmə dərəcəsinə, orada baş verən nisbətlər dəyişikliyinə, məhsul buraxılışı müxtəlifliyinə qiymət vermək üçün o struktur cəhətdən öyrənilir. Elmi-tədqiqat işlərində bu üsul struktur üsulu adlanır. Bu üsulun məqsədi öyrənilən obyekti tam şəkildə deyil, onun hissələri şəklində öyrənməkdir. Tam bir obyekti bizim misalda sənayeni struktur cəhətdən öyrənməklə biz iqtisadi araşdırmalar üçün çox mühüm olan əlavə məlumatlar əldə edirik. Sənayenin tərkib hissələrinin ən əsası və ilk həlqəsi iş yerləridir. Məhsuldar qüvvələr inkişaf etdikcə sənaye yavaş-yavaş kənd təsərrüfatından ayrılıb sərbəst sahəyə çevrilənə qədər o özünü iş yerlərində büruzə verirdi (sənaye haqqında fikirləşmədən insan primitiv üsulla bir neçə iş yerində, məsələn, almadan şirə çəkirdi və s.). Sonradan tələbat yüksəldikcə iş yerlərinin sayı artırıldı. Eyni və ya oxşar əməliyyatları yerinə yetirən bir neçə iş yerinin fəaliyyət göstərdiyi yer istehsalın ikinci həlqəsini - müəssisə daxilində istehsal sahəsini təşkil edir. İstehsal sahəsində buraxılan məhsula olan tələbat artdıqca istehsal sahələrinin sayı artır və sexlər, müəssisələr meydana gəlir. Lakin elmin indiki səviyyəsində biz sənayenin sahə strukturu dedikdə, onun ayrı-ayrı sahələrinin sayı, tərkibi və qəbul edilmiş göstəricilərə görə onlar arasında formalaşmış nisbətləri başa düşürük. Elmi-texniki tərəqqi sürətləndikcə, yeni məhsullar meydana gəldikcə, onların istehsalı mənimsənildikcə sənayedə sahə differensiallaşması baş verir. Differensiallaşma obyektiv və daimi bir prosesdir. Əsasını məhsuldar qüvvələrin inkişafı və ictimai əmək bölgüsünün dərinləşməsi təşkil edir. Sənayenin sahəsi bir qayda olaraq bir neçə eyni tipli, oxşar müəssisələrdən ibarət olur. Bu müəssisələrin oxşarlığı istehsal etdikləri məhsulun iqtisadi təyinatlığında, istifadə etdikləri xammal, materiallarda, texnika və texnologiyada, fəhlə və qulluqçuların peşə tərkibində, xüsusi iş şəraitində, istehsalın təşkilində tapır. Lakin müəyyən bir vaxtda bir neçə müəssisənin norması şərti olmadan da sənayenin tərkibində digər sahələrdə istehsal edilməyən məhsul istehsal edən sahə mövcud ola bilir. Məsələn, bu gün dünya sənayesində 700-ə qədər sahələrlə yanaşı, bir bu qədər də ayrıca növ istehsallar fəaliyyət göstərir. Sənayenin sahə quruluşu ölkənin iqtisadi gücünü, onun potensial imkanlarını, istehsalın səmərəliliyini, elmi-texniki tərəqqinin səviyyəsini xarakterizə edə bilir.

İxrac potensialı haqqında sənayenin sahə strukturu inkişaf etdikcə ölkənin xarici bazara müxtəlif məhsullar çıxarmaq imkanını artırır. İnkişaf etmiş ölkələrin dünya bazarına çox, inkişafda olan ölkələrin isə az məhsul çıxara bilmələri də bununla izah edilməlidir

Sahibkarlığın hüquqi bazasının formalaşdırılması nəticəsində ölkədə iqtisadi sərbəstlik üçün geniş imkanlar yaranmış, iş adamlarının normal fəaliyyəti təmin olunmuşdur. İndi muxtar respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilir, texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulur. Məhz bunun nəticəsidir ki, hazırda Naxçıvan Muxtar Respublikasında rəqabət qabiliyyətli, alıcı zövqünü oxşayan mallar istehsal olunur. Həmin mallar isə daxili bazarda öz yerini getdikcə möhkəmləndirməklə bərabər, bir sıra xarici ölkələrə də ixrac edilir.

Naxçıvan Muxtar Respublikası məhsulunun xarici bazara çıxarılması, ixrac imkanlarının genişləndirilməsi məsələsi “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda (birinci, ikinci, üçüncü və dördüncü) və regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş digər sənədlərdə də öz geniş ifadəsini tapmışdır.

Sənayenin yeni modellərin tətbiqi ilə inkişafı xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan sənaye parkları və məhəllələri, aqroparklar kimi mütərəqqi mexanizmlər qeyri-neft sənayesinin intensiv inkişafına, bu sahədə sahibkarlığın daha əlverişli şərtlərlə dəstəklənməsinə, ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, ölkəyə valyuta axınının, investisiyaların artmasına, neft-qaz amilindən asılılığın daha da azaldılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafına, sənayedə yüksəkixtisaslı kadrların artmasına yeni imkanlar açır. Sənayenin müasirləşməsi, qeyri-neft sektorunun şaxələndirilməsi sahəsində məqsədyönlü islahatlar, yeni mexanizmlərin tətbiqi, rəqabətqabiliyyətli və innovativ sənaye məhsulları istehsalı müəssisələrinin yaradılması nəticəsində ölkədə yüksəkkeyfiyyətli və ixracyönümlü məhsul istehsalı artıb, ixrac potensialı yüksəlib.

Bütün bunlarla yanaşı, ölkədə sənaye məhəllələrinin fəaliyyəti regionlarda sənaye sahələrinin mərkəzləşməsini, daha səmərəli fəaliyyət göstərmələrini, yeni müəssisələrin yaradılmasını və

müəssisələrarası istehsal kooperasiyasını təşviq edir. Sənaye məhəllələri həm də kiçik və orta sahibkarlığa, məşğulluğun artırılmasına dəstəkdir. Ölkədə 5 sənaye məhəlləsi - Neftçala, Masallı, Hacıqabul, Sabirabad, Şərur sənaye məhəllələri yaradılıb, Şərur sənaye məhəlləsi istisna olmaqla, digərlərində istehsal fəaliyyətinə başlanılıb.

Respublikada 2021-ci ilin yanvar-oktyabr aylarında 71 milyard 589 milyon manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,9 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,5 faiz artaraq 7148 manata çatmışdır.

Sənaye üzrə 41 milyard 937 milyon 7 min manat dəyərində məhsul istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,2 faiz çoxdur.

Muxtar respublikada 2021-ci ilin yanvar-oktyabr aylarında 2 milyard 355 milyon 837 min 900 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz artaraq 5097 manata çatmışdır.

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur.

Sənaye üzrə 922 milyon 291 min 600 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur.

Azərbaycanın yeni nəqliyyat və enerji layihələri, eləcə də bütün region ölkələrinin iştirakı ilə regional layihələrin sayını artırmaq istəyi daha geniş regional əməkdaşlıq və inteqrasiya istiqamətində yaxşı addımdır. Azərbaycanın regional əməkdaşlıq üzrə təşəbbüsləri nəqliyyat kommunikasiyalarının formalaşmasına nəticə verəcək və regionu daha təhlükəsiz və firavan yerə çevirəcək. Zəngəzur dəhlizi Naxçıvanda istehsal olunan məhsulların xarici bazarlara çıxarılması mühüm əhəmiyyət kəsb edəcək şərait yaradacaq. Zəngəzur dəhlizinin yaradılması region dövlətlərini irəli aparmaq potensialına malikdir. Zəngəzur dəhlizi Cənubi Qafqazdan keçən həm şimal-cənub, həm də şərq-qərb nəqliyyat dəhlizlərinin bir hissəsi ola bilər. Zəngəzur dəhlizi nəinki Naxçıvan Muxtar Respublikası sənayesinin ixrac potensialının artırılmasına, eyni zamanda qonşu dövlətlərin də sənayesinin ixrac potensialının inkişafına şərait yaradacaq.

## ƏDƏBİYYAT

1. *Azərbaycan Respublikası Prezidenti Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında Fərmanı 2014.*
2. Regionların İnkişafına Dair Dövlət Proqramları *(2021) https://azerbaijan.az/related-information/ 276*
3. Sənayedə yeni metodların tətbiqinin əhəmiyyəti *(2021) http://www.in.nakhchivan.az/*
4. *2021-ci ilin yanvar-oktyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı(2021)*http://www.statistika.nmr.az/x_news/index_news.php?par=news/2021/index_35. shtml
5. *2021-ci ilin yanvar-oktyabr aylarında sənaye istehsalı haqqında (2021)* https://stat.gov.az/news/index.php?id=5054

**SUMMARY**

**Rasul Alakbarov**

**DEVELOPMENT DİRECTİONS OF THE ZANGAZUR CORRİDOR TO İNCREASE THE EXPORT POTENTİAL OF THE İNDUSTRY OF THE NAKHCHİVAN AUTONOMOUS REPUBLİC**

Economic corridors are integrated infrastructure networks within a geographical area designed to stimulate economic development. Economic corridors often have integrated infrastructure, such as highways, railways, and ports, and can connect cities or countries. The Zangazur corridor will increase bilateral trade between Azerbaijan and Turkey as it shortens transportation distances and reduces transportation costs. About the export potential As the industry structure of the industry develops, it increases the country's ability to export various products to foreign markets. The Nakhchivan Autonomous Republic produces competitive goods that appeal to buyers. These goods are strengthening their position in the domestic market and are exported to a number of foreign countries.

***Key words:*** *Zangazur Corridor, Economic Corridors, Export Potential, Industrial Parks, Competitive Industry, Gross Domestic Product, Regional Cooperation, Economic Advantages*

**РЕЗЮМЕ**

**Расул Алекбаров**

**НАПРАВЛЕНИЯ РАЗВИТИЯ, КОТОРЫЕ БУДУТ СОЗДАВАТЬ ПОВЫШЕНИЕ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА ПРОМЫШЛЕННОСТИ ЗАНГАЗУРСКОГО КОРИДОРА НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ**

Экономические коридоры - это интегрированные инфраструктурные сети в географической зоне, призванные стимулировать экономическое развитие. Экономические коридоры часто имеют интегрированную инфраструктуру, такую как автомагистрали, железные дороги и порты, и могут соединять города или страны. Зангезурский коридор увеличит двустороннюю торговлю между Азербайджаном и Турцией, поскольку он сокращает транспортные расстояния и снижает транспортные расходы. Об экспортном потенциале По мере развития отраслевой структуры отрасли увеличивается способность страны экспортировать различные продукты на внешние рынки. Нахчыванская Автономная Республика производит конкурентоспособные товары, которые нравятся покупателям. Эти товары укрепляют свои позиции на внутреннем рынке и экспортируются в ряд зарубежных стран.

***Ключевые слова:*** *Зангезурский коридор, экономические коридоры, экспортный потенциал, индустриальные парки, конкурентоспособная промышленность, валовой внутренний продукт, региональное сотрудничество, экономические преимущества.*

**NİHAD MEHBALIYEV**
*Naxçıvan Dövlət Universiteti nihad.mehbaliyev@mail.ru*

# İNNOVATİV SOSİAL-İQTİSADİ İNKİŞAF VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ONUN TƏTBİQ İSTİQAMƏTLƏRİ

*Məqalədə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafından bəhs olunmuş və bu inkişafa innovasiyaların tətbiqinin təsir mexanizmi ortaya qoyularaq təhlil edilmişdir.*

***Açar sözlər:*** *sosial-iqtisadi inkişaf, iqtisadi artım, innovvasiya siyasəti, innovasiya fəaliyyəti.*

Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafını təmin edir. Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş, möhtərəm Cənab Prezident İlham Əliyev tərəfindən müasir qlobal çağırışlar əsasında zəngiləşdirilərək uğurla davam etdirilən milli inkişaf strategiyası ölkəmizin və xalqımızın gələcəyinə böyük nikbinliklə baxmağa imkan verir. Son on il ərzində Azərbaycan dünyada ən sürətli templərlə inkişaf edən dövlət kimi tanınır. Bunun başlıca səbəbi elmi əsaslara söykənən iqtisadi islahatların siyasi islahatlarla tamamlanması və uzlaşdırılmasıdır. Azərbaycanın bu təcrübəsi dünyada maraqla qarşılanır və öyrənilir. Dövlətimizin başçısının qarşıya qoyduğu ən mühüm vəzifələr sırasında sosial-iqtisadi inkişafın innovativ və kreativ vasitələrlə sürətləndirilməsi mühüm yer tutur. İnnovasiya proseslərinin intensivliyinin artması hazırda qlobal iqtisadi sistemdə baş verən dəyişikliklərin mühüm istiqamətlərindəndir. İnnovasiya mühiti üçün əlverişli şəraitin yaradılması prosesi olduqca mürəkkəb və resurs həcmlidir, burada "yaradıcı" rol dövlətə məxsusdur. İqtisadiyyatın inkişaf etdirilməsində innovasiyaların, yeni texnologiyaların tətbiqi ilə yanaşı, iqtisadi münasibətlərin etibarlılığı və sabitliyini təmin edən, cəmiyyətin praktik olaraq əhəmiyyətli məsələlərinin ən effektiv həllinə imkan yaradan hüquqi vasitələr də xüsusi əhəmiyyət daşıyır.

İnkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da innovasiya siyasətinin həyata keçirilməsinə dövlət səviyyəsində çox böyük əhəmiyyət verilir. Nəzərə almaq lazımdır ki, müasir innovasiya siyasəti dövlətin sosial – iqtisadi siyasətinin tərkib hissəsi olmaqla hakimiyyət orqanlarının elm, texnika və elmi-texniki nəaliyyətlərinin həyata keçirilməsi sahəsində apardığı fəaliyyətin məqsədini, istiqamət və formalarını müəyyənləşdirir. Müvafiq siyasətin əsasını elmitexniki inkişafın konseptual hüquqi əsasları təşkil edir. Həmin əsasların işlənib hazırlanması zamanı əsaslandırılmış müddəalar elmin aparıcı sahələrinin inkişaf istiqamətlərinin və texnoloji proseslərin yerləşdirilməsi tədbirlərini əhatə etməlidir. Bu zaman elmi-texniki inkişafın stimullaşdırılması sisteminin təkmilləşdirilməsi, elmin və texnikanın prioritet inkişaf istiqamətlərinin seçilməsi, lisenziya-patent hüquqi, eləcə də intellektual mülkiyyət hüquqlarının qorunması, elmi infrastrukturun yeniləşdirilməsi, elmi kadrların mövcud tələblər səviyyəsində hazırlanması və s. kimi tədbirlər diqqət mərkəzində saxlanılmalıdır. Ümumiyyətlə, dövlətin innovasiya siyasətinin əsas məqsədləri iqtisadi ədəbiyyatlarda aşağıdakı kimi ifadə olunur:

-innovasiya fəaliyyəti üçün iqtisadi, hüquqi və təşkilati şəraitin, yaradılması;

-innovasiya fəliyyətinin stimullaşdırılmaısına, habelə innovasiya sferasında bazar münasibətlərinin və sahibkarlığın inkişafına yardım göstərmək;

- innovasiya fəaliyyətinə dövlət yardımının genişləndirilməsi, innovasiya fəaliyyətinin inkişafına yönləndirilmiş dövlət resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi;

-beynəlxalq bazarlarda milli innovasiya məhsullarının satışının və ölkənin ixrac potensialının inkişafı üzrə tədbirlərin həyata keçirilməsi və s.

Son illər ərzində ölkəmizdə innovasiyaların tiplərinə görə ümumi sənayedə innovasiyalara çəkilən xərclərin strukturunda ciddi dəyişiklik qeydə alınmışdır. Bunun da əsas səbəbi ölkədə dövlət və özəl sektor tərəfindən sənaye sahələrinin inkişafına ayrılan investisiya qoyuluşlarının, istehsal olunan innovasiyalı sənaye məhsullarının rəqabətqabiliyyətinin və ixrac imkanlarının yüksəlməsi, daxili bazarın sənaye məhsullarına olan tələbatının artması və s. hesab olunur.

Ötən dövr ərzində ölkə iqtisadiyyatının inkişafının müxtəlif istiqamətlərinin vahid dövlət proqramları çərçivəsində tənzimlənməsi, iqtisadi inkişafın sürətləndirilməsi, sosial-iqtisadi inkişafda regionların

rolunun yüksəldilməsi, iqtisadiyyatın sahələrinin və regionların kompleks inkişafının təmin edilməsi nəticəsində əhalinin rifah halının və həyat standartlarının təkmilləşdirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

Qeyd olunan ümumi inkişaf fonunda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı və sosial həyatı özünəməxsusluğu ilə fərqlənir. Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının yeni keyfiyyət mərhələsinə yüksəlməsində son on ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası böyük əhəmiyyət kəsb edir. İqtisadi və sosial inkişafda innovasiya amilinin nəzərə alınması son illərdə qəbul edilən mühüm dövlət proqramları və sənədlərində aydın şəkildə ifadə olunur. 29 mart 2019-cu il tarixində təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” iqtisadiyyatın innovasiyalı inkişafını nəzərdə tutan növbəti mühüm dövlət sənədidir. Proqramda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi, yeni texnologiyaların tətbiqi əsasında yerli iqtisadi potensialın gücləndirilməsi, innovativ təsərrüfatçılıq formalarının yaradılması prioritet vəzifələr kimi qarşıya qoyulub.

Muxtar respublikamızda iqtisadi və sosial sahələrdə innovasiyaların tətbiqinə hələ yeni əsrin əvvəllərindən başlanıb. İnnovasiyalar daha təkmil texnoloji proses yaradılması, bazara yeni məhsul çıxarılması, həmçinin sosial xidmətlərə yeni tərzdə yanaşma ilə ifadə olunur. Zaman keçdikcə bütün sahələrdə innovasiyaların artan sürətlə tətbiq olunması muxtar respublikanın sosial-iqtisadi inkişafının müasir mənzərəsini yaradıb. İqtisadiyyatımızın sahə strukturunda mütərəqqi dəyişikliklər, ənənəvi sahələrlə yanaşı texnoloji və elm tutumlu yeni sahələrin meydana gəlməsi, yeni məhsulların istehsalı, mövcud məhsulların yeni növ və modifikasiyalarda bazara çıxarılması ilbəil daha geniş miqyas alıb. İstehsala uzunmüddətli innovativ yanaşmanın nəticəsidir ki, hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Sənayedə və kənd təsərrüfatında müasir texnologiyaların, yeni xammal növlərinin istehsala cəlb olunması texnoloji yönümlü innovasiyaların yayılmasını sürətləndirir.

Muxtar respublikanın bank və maliyyə sektorunda innovasiyaların tətbiqi geniş vüsət alıb. Ən müasir texnologiyaların istifadəsi diqqətdə saxlanılıb, nağdsız ödəniş sistemləri, elektron bankçılıq təşəkkül tapıb və inkişaf etdirilib. Maliyyə xidmətlərinə sürətli, asan və səmərəli çıxışı təmin edən yeni ödəmə texnologiyaları, bankomatlar, ödəniş terminalları istifadəyə verilib, sürətli pul köçürmələri imkanı yaradılıb.

Ticarətin daha müasir, yüksək rahatlığı və funksionallığı ilə seçilən supermarketlər, alış-veriş mərkəzləri, ixtisaslaşdırılmış satış şəbəkələri vasitəsilə həyata keçirilməsi təmin edilib. Muxtar respublikada müxtəlif yarmarkalarının və festivalların təşkili yerli məhsulların tanıdılmasına, ailə təsərrüfatlarında əmtəəlik istehsal və bazar təcrübəsinin inkişafına xidmət edən təşkilati innovasiyalardır. Ailə təsərrüfatları üçün müvafiq sahələr üzrə məsləhət və maarifləndimə xidmətlərinin təşkili, qablaşdırma, etiketlənmə, markalanma dəstəyinin göstərilməsi də bu qəbildən olan yeniliklər kimi diqqətəlayiqdir.

Elm və təhsil müəssisələrində yaradılan müasir informasiya-kommunikasiya infrastrukturunun interaktiv təhsil sisteminə qoşulması kadr hazırlığında yeni dövrün əsasını qoyub. Muxtar respublikanın informasiya-rabitə sistemi tamamilə yeni nəsil texnologiyalar əsasında qurulub, “Elektron hökumət” portalı vasitəsilə əhaliyə 300-ə yaxın elektron xidmətin göstərilməsi təmin edilib. Enerji təsərrüfatı smart texnologiyaların tətbiqi mərhələsinə yüksəlib. Muxtar respublikada istifadəyə verilmiş günəş elektrik stansiyaları dövrümüzün ən qabaqcıl innovasiya nümunəsidir.

Kənd yaşayış məntəqələrində əhalinin bütün zəruri xidmətləri eyni məkanda əldə etməyə imkan yaradan kənd və xidmət mərkəzləri, vətəndaşlara yaşadıqları ərazidə göstərilən səyyar xidmətlər, nümunəvi təsərrüfat və ailə təsərrüfatı layihələri, Ağbulaq turizm istirahət bölgəsi kimi muxtar respublikaya məxsus olan sosial və biznes yönümlü innovasiyalar orijinal ideyası və yüksək səmərəliliyi ilə seçilir.

Azad sahibkarlıq fəaliyyətinin geniş vüsət aldığı muxtar respublikada yerli ehtiyatlar hesabına müxtəlif növdə sənaye məhsulları istehsalının təşkili, aqrar sektorda emal sənayesinin genişləndirilməsi, sosial xidmət sahələrində kiçik və orta sahibkarlığın daha da gücləndirilməsi öz bəhrəsini verməkdədir.

Beləliklə, sadaladığımız sahələr üzrə həyata keçirilən və görülən işlər muxtar respublikanın bütövlükdə sosial-iqtisadi sahələrin inkişafının innovativ və kreativ imkanlarla sürətli şəkildə inkişafını bir daha sübut edir.

Fikrimizcə, Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında müasir innovasiya siyasətinin davam etdirilməsi ölkənin iqtisadi inkişafına müsbət təsir edir. Lakin, bu sahədə beynəlxalq təcrübə nəzərə alınmaqla iqtisadi siyasətin davam etdirilməsi zəuridir. İnkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, innovasiya tələblərinə müvafiq olan borc vəsaitlərinin cəlb edilməsi forması istiqrazların buraxılmasıdır. Onların xarakterik cəhəti uzunmüddətli tədavül dövrünün (bir neçə on il) olmasıdır. İddia etmək olar ki, baxılan proseslər üçün istiqraz borcları əsasında maliyyələşdirmə daha üstün tutulur. Məsələn, bu təcrübənin ölkəmizdə də tətbiqini daha məqsədəuyğun hesab etmək olar.

Ümumiyyətlə, maliyyə resurslarının cəlb edilməsinin növbəti forması xarici mənbələr hesabına şəxsi kapitalın artırılmasıdır. Belə forma xüsusilə yüksək reputasiyaya və şöhrətə malik olan artıq çoxdan ölkəmizdə fəaliyyət göstərən müəssisələr üçün vacibdir. Onlar səhmləri emissiya etmək və bunun hesabına öz kapitalını artırmaq imkanlarına malikdirlər.

Beləliklə, təhlildən də göründüyü kimi, yaxın perspektiv dövr ərzində innovasiya siyasətinin davam etdirilməsi zəruri və məqsədəuyğundur.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası-90. Naxçıvan Muxtar Respublikası Ali məclisi. Əcəmi, 2014
2. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
3. Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
4. Məmmədov Şamil. Naxçıvan 80
5. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı Dövlət Proqramı.
6. Naxçıvan 2003-2013: “hədəflər, inkişaf, nəticələr”
7. www.google.az
8. www.statistika.nmr.az

## SUMMARY

**Nihad Mehbaliyev**

**NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AT THE INNOVATIVE STAGE OF SOCIO-ECONOMIC DEVELOPMENT**

The study covers the socio-economic development of Nakhchivan Autonomous Republic and conducts an analysis of impact mechanism of application of innovations to this development.

***Key words:*** *socio-economic development, economic growth, innovation policy, innovation activity.*

## РЕЗЮМЕ

**Нихад Мехбалиев**

**НАХЧЫВАНСКАЯ АВТОНОМНАЯ РЕСПУБЛИКА НА ИННОВАЦИОННОМ ЭТАПЕ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ**

Исследование изучает социально-экономическое развитие Нахчыванской Автономной Республики и проводит анализ воздействия механизма внедрения инноваций на это развитие.

***Ключевые слова:*** *социально-экономическое развитие, экономический рост, инновационная политика, инновационная деятельность.*

# II BÖLMƏ
# BEYNƏLXALQ TİCARƏT, BEYNƏLXALQ TURİZM VƏ LOGİSTİKA MƏRKƏZİ

**TEYMUR ABBASOV**
*Naxçıvan Dövlət Universiteti prof.teymurabbasov56@mail.ru*

## NAXÇIVANIN NƏQLİYYAT – LOGİSTİKA MƏRKƏZİNƏ ÇEVRİLMƏSİ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ SAHİBKARLIĞIN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

*Elmi məqalədə işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı və ondan səmərəli istifadə edilməsi şərti ilə sahibkarlığın inkişaf istiqamətlərinin müəyyən edilməsindən bəhs olunur. Qeyd edilib ki, işğaldan azad olunmuş ərazilərdə yeni nəqliyyat-logistika əməkdaşlıq formatının yaradılması da respublikamızın önəmini daha da artıracaq. Belə ki, Naxçıvan dəhlizinin açılması həm ölkəmizin, həm də regionun iqtisadi inkişafında böyük rol oynayacaq.*

*Elmi məqalədə xüsusilə sahibkarlığın inkişafı məsələlərinə geniş yer verilmişdir və qeyd edilmişdir ki, işğaldan azad olan ərazilərdə fərdi, mikro, kiçik və orta ölçülü sahibkarlıq subyektlərinin yaradılması, zəngin iqtisadi potensiala malik regionun dinamik sosial-iqtisadi inkişafına, fəal məşğulluğun təmin edilməsinə imkan yaratmış olacaqdır.*

***Açar sözlər:*** *iqtisadi potensial, biznes mühiti, sahibkarlıq subyekləri, inkişaf istiqamətləri, transmilli layihələr, əməkdaşlıq formatı.*

Azərbaycanın əlverişli coğrafi mövqeyi və ölkədə aparılan uğurlu iqtisadi islahatlar Azərbaycanı logistika və nəqliyyat layihəsində Şərq-Qərb, Şimal-Cənub marşrutları üzrə bütün nəqliyyat vəsaitlərinin qovşağına çevirən nəqliyyat-logistika mərkəzinin yaradılmasında mühüm rol oynayır.

Qeyd etmək lazımdır ki, hər bir ölkənin iqtisadi gücünün və siyasi çəkisinin artmasında bir çox digər amillərlə yanaşı, nəqliyyat-logistika məsələləri də mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın Avropanın və Asiyanın qovuşduğu məkanda yerləşir. Məhz bu cür əlverişli məkanda yerləşməsi yüklərin və əmtəələrin daşınmasında ölkəmizə böyük üstünlüklər qazandırır. Son illər aparılan düzgün və praqmatik siyasət Azərbaycanın bu sahədə mövqelərinin möhkəmlənməsinə gətirib çıxarmışdır. Azərbaycan beynəlxalq logistik mərkəzə çevrilir və bu istiqamətdə işlər genişləndirilir. Bu gün Azərbaycanda region və dünya üçün vacib olan bir sıra transmilli layihələr icra olunur. Bunlardan biri də “Şimal-Cənub nəqliyyat dəhlizi”dir.

İşğaldan azad olmuş ərazilərimizdə yeni nəqliyyat-logistika əməkdaşlıq formatının yaradılması respublikamızın bu sahədə önəmini daha da artıracaq. Altılıq formatda əməkdaşlıq nəzərdə tutulan bu layihədə işğalçı Ermənistanın yer alması ən çox onun özünə yarayacaq. İllərlə apardığı işğalçı siyasət nəticəsində blokada şəraitində yaşayan bu ölkənin “qəfəsdən” çıxması üçün Azərbaycanla əməkdaşlıq etməsi ən yaxşı fürsətdir. Qalan region ölkələri – Türkiyə, İran, Rusiya, Gürcüstan ilə yeni əməkdaşlıq formatına keçidlə bağlı heç bir problem yoxdur. Hazırda Naxçıvana dəhlizin açılması ilə bağlı üç dövlətin – Rusiya, Azərbaycan və Ermənistanın baş naziri müavinləri səviyyəsində işçi qrup fəaliyyət göstərir. Türkiyə və Azərbaycan arasında bu yaxınlarda energetika, mədən sənayesi və digər sahələr üzrə 11 bənddən ibarət əməkdaşlıq sazişi imzalandı. Yeni imzalanan sənədlərlə qardaş ölkə ilə münasibərləriniz bütün sahələrdə mükəmməl formaya qalxacaq, strateji əməkdaşlıq çərçivəsində nəqliyyat-logistika sahəsində də ciddi irəliləyişlər əldə olunacaq.

Bu baxımdan Naxçıvan dəhlizinin açılması həm region, həm dünya üçün transmilli layihələrin reallaşmasına geniş imkanlar yaradacaqdır. Qars-Naxçıvan dəmiryolu xəttinin çəkilməsi eyni zamanda Zəngəzur dəhlizinin açılması həm region dövlətlərinin, həm də dünya ölkələrinin iqtisadi inkişafına böyük

imkanlar yaradacaq. Naxçıvan dəhlizinin açılması həm nəqliyyat xərclərinin azaldılmasına, həm də yüklərin tez bir zamanda çatdırılmasına imkan verəcəkdir.

Yuxarıda da deyildiyi kimi, Azərbaycan artıq beynəlxalq logistik mərkəzə çevrilib. Zaman keçdikcə bu zəncirə daxil olan dövlətlərin sayı artacaq, həmin ölkələrin xalqları sülh və barışın yaşandığı bir rifah məkanına qovuşmaqdan böyük məmnunluq duyacaqlar.

Qeyd etmək olar ki, işğaldan azad olan ərazilər zəngin iqtisadi potensiala malikdir və bu ərazilərin bütünlükdə ölkə iqtisadiyyatına inteqrasiyası əsasında yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin ərazilərin bərpası üçün çəkdiyi bütün maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir.

Əminliklə qeyd etmək olar ki, işğaldan azad edilən ərazilərdə yaradılacaq əlverişli biznes mühiti, mikro, kiçik və orta sahibkarlığın formalaşması qeyri-neft sektorunun dinamik inkişafına əsaslı təkan vermiş olacaq və nəticədə idxalı əvəz edən məhsulların yerli istehsal hesabına həcmi və çeşidi artmaqla yanaşı, ixrac yönümlü məhsulların istehsalı da artacaqdır. Bu əminliyin maddi bazasını işğaldan azad edilən ərazilərin təbii ehtiyatları, sosial-iqtisadi bazasını isə öz doğma yurdlarına qayıdan fədakar və məğrur insanlar təşkil edəcəkdir.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin açıqlamalarına görə, işğaldan azad edilən ərazilərdə 167 müxtəlif təyinatlı faydalı qazıntı yatağı mövcuddur. Onlardan 5i sement və soda üçün xammal, 42-si üzlük, mişar və müxtəlif növ tikinti daşları, 19-u gips və gil, 14-ü əlvan və bəzək daşları, 14-ü qum-çınqıl və tikinti qumu, 21-i pemza və vulkan külü yataqlarıdır.

İlkin hesablamalara görə, həmin yataqlarda ehtiyatları təsdiq edilmiş 132,6 ton qızıl; 37,3 min ton qurğuşun, 129,8 milyon kubmetr soda istehsalı üçün əhəngdaşı; 147,1 milyon ton – sement xammalı; 2,1 milyon kubmetr pemza və s. mövcuddur ki, onlar da ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan xammallardır.

İşğaldan azad edilən ərazilər sənaye və tikinti əhəmiyyətli müxtəlif növ materiallarla zəngindir. Eyni zamanda, bu ərazilər zəngin su ehtiyatlarına malikdirlər ki, bu da ölkəmizin sənayesi və kənd təsərrüfatı üçün müstəsna əhəmiyyət kəsb edir. Bölgədə böyük müalicə əhəmiyyəti olan 120dək müxtəlif tərkibli mineral su yataqları vardır. Bütünlükdə Azərbaycanın mineral sularının ümumi geoloji ehtiyatlarının təxminən 40%-i işğaldan azad edilən rayonların payına düşür. Regionun enerji resursları (hidroenerji, günəş, külək və termal enerji potensialı) orada iqtisadiyyatın bütün sahələrinin, eləcə də əhalinin enerjiyə olan gündəlik tələbatının ödənilməsində vacib təminatçı rolunda çıxış edəcəkdir. Bütün bu faktlar onu göstərir ki, həmin ərazilərdə sahibkarlığın müxtəlif mülkiyyət formalarında geniş şəbəkəsinin yaradılması üçün kifayət qədər xammal və enerji resursları mövcuddur. İndiki və gələcək nəslin qarşısında duran başlıca vəzifə həmin resurslardan qənaətlə istifadə etməklə Qarabağın dayanıqlı sosial-iqtisadi inkişafını təmin etməkdir.

İşğaldan azad edilən rayonlarda sahibkarlığın təşkili, idarə olunması və inkişafı üçün müasir dövrün tələblərinə cavab verən, qabaqcıl beynəlxalq təcrübəni özündə əks etdirən, sistemli yanaşmaya əsaslanan kompleks xarakterli hüquqi, təşkilati-iqtisadi, texniki-texnoloji, sosial, ekoloji və s. xarakterli tədbirlərin işlənilməsi və həyata keçirilməsi tələb olunur. Başqa sözlə, ərazilərin bərpası üçün konseptual yanaşmaya üstünlük verilməlidir.

Hesab edirik ki, işğaldan azad edilən rayonlarda müasir texnika və texnologiya ilə təchiz edilən, İKT-dən, yerli xammal, enerji və digər resurslardan səmərəli istifadə etməyə imkanı olan aşağıdakı fəaliyyət sahələri üzrə fərdi, mikro, kiçik və orta ölçülü sahibkarlıq subyektlərinin yaradılması regionun dinamik sosial-iqtisadi inkişafına, fəal məşğulluğun, eləcə də özünüməşğulluğun yüksək səviyyədə təmin edilməsinə imkan yaratmış olacaqdır:

- rayonlarda onların spesifik xüsusiyyətlərinə uyğun aqroparkların və müştərək müəssisələrin (kənd təsərrüfatı məhsullarının, iri və xırda buynuzlu heyvan dərilərinin toplanması və emalı, dərman bitkilərinin tədarükü və emalı, yem tədarükü, süd və süd məhsulları istehsalı, arıçılıq, quru meyvə, meyvə şirələri və kompot hazırlayan müəssisə və s.) geniş şəbəkəsinin təşkili;
- Qarabağda çoxsaylı faydalı qazıntı yataqlarının mövcudluğu Kəlbəcər və Zəngilan rayonlarında müştərək dağ-mədən və əlvan metal istehsal edən müəssisələrin yaradılmasına imkan verə bilər;

- regionda 46 qəsəbənin mövcudluğu, eləcə də şəhərlərin real sənaye potensialıorada 28 sənaye və xidmət məhəlləsinin yaradılması imkanlarını gerçəkləşdirə bilər;

- Şuşada AMEA-nın Şuşa regional Elmi Mərkəzini, AMEA Yüksək Texnologiyalar Parkının filialını yaratmaqla mövcud olan sənaye müəssisələrinin, elm və təhsil ocaqlarının iştrakı ilə müasir texnoparkın yaradılması şəhərin iqtisadi potensialından səmərəli istifadə olunmasına imkan verə bilər;

- Ağdam, Cəbrayıl və Qubadlı rayonlarında “Azərxalça” ASC-nin filiallarının yaradılması, həmin və digər əlverişli şəraiti olan rayonlarda baramaçılığın inkişafı mikro və kiçik sahibkarlığın dinamik inkişafına təkan verə bilər;

- Kəlbəcər, Laçın və Şuşada böyük həcmdə mineral su ehtiyatının olduğunu nəzərə alaraq, orada suların geniş çeşidinin qablaşdırılması və istehlakı üzrə müvafiq sahibkarlıq subyektinin yaradılması da yüksək iqtisadi səmərə verə bilər;

-Füzuli və Cəbrayıl rayonlarının ərazisində sərhəd azad ticarət zonalarının yaradılması regionun ixrac imkanlarını genişləndirmiş olar;

- Şuşa, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında tarixi abidələrin mövcudluğu orada turizmin inkişafına təminat yaratmış olacaqdır;

- Qarabağın hər bir inzibati rayonu çərçivəsində tərtib ediləcək özünüməşğulluq proqramı üzrə kənd təsərrüfatının müxtəlif sahələrində fərdi və mikro-sahibkarlıq fəaliyyətinin təşkili;

- fərdi, mikro və kiçik statuslu sahibkarlar tərəfindən dünyada məşhur olan Qarabağ atlarının sayının çoxaldılması;

- iri və xırdabuynuzlu heyvan dərilərinin aşınması və onlardan geyim əşyalarının və digər xalq istehlakı mallarının istehsalının təşkili yerli əhalinin maddi rifah halının yaxşılaşmasına da imkan verə bilər;

- rayonların dağlıq kənd və qəsəbələrində fərdi, mikro və kiçik sahibkarlıq fəaliyyəti göstərən obyektlərində, eləcə də fərdi yaşayış evlərində qardaş Türkiyənin mövcud və uğurlu iş təcrübəsindən istifadə etməklə alternativ və bərpa olunan enerji növlərindən istifadəyə üstünlük verilməsi faydalı olardı.

Beləliklə, işğaldan azad edilən ərazilərdə sahibkarlıq fəaliyyətinin maliyyə təminatı dövlət büdcəsindən və dövlət neft fondundan, eyni zamanda xarici investisiyalar və s. digər mənbələr ola bilər.

## ƏDƏBİYYAT

1. Nağıyev Ə., Novruzov V., Allahverdiyev H., Əlirzayev Ə. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı: 1998, 388 s.
2. Abbasov T.A. Naxçıvan: Aqrar sektorun resurs potensialı, aqrar bazar və iqtisadi inkişaf. Bakı: 2018, 584 s.
3. Əlirzrayev Ə.Q. İqtisadiyyat, düşüncələr, baxışlar. Bakı: 2002, 465 s.
4. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: 2003 5. M.T.Əliyev. Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri. Bakı: 2003, 380 s.

**ƏŞRƏF ƏLƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti a.ashraf@mail.ru*

## *NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA DAVAMLI İQTİSADİ İNKİŞAF VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİ*

*Məqalədə, müasir iqtisadi inkişaf mərhələsində daha da qlobal mahiyyətə malik olan ərzaq təhlükəsizliyinin strateji əhəmiyyətindən söz açılmış, onun cəmiyyət üzvlərinin artan tələbatları müstəvisində qarşılanması istiqamətləri araşdırma obyektinə cəlb olunmuşdur. Göstərilmişdir ki, hazırda bütün ölkələr özlərinin uzunmüddətli iqtisadi prioritetlərinə digər məsələlərlə birlikdə, həm də ərzaq təhlükəsizliyi sahəsindəki proqramlarını və strategiyalarını da daxil edirlər. Bu sahədə, davamlı iqtisadi inkişafı ilə seçilən Azərbaycan Respublikasının və onun regionlarının iqtisadi potensialları nəzərə alınmışdır. Xüsusilə ölkənin ayrılmaz tərkib hissəsi olaraq, Naxçıvan Muxtar Respublikasının davamlı iqtisadi inkişafı və bu sahədə ərzaq təhlükəsizliyinin artan çəkisindən elmi cəhətdən əsaslandırılmaqla söz açılmışdır. Bu istiqamətdə təbii ehtiyatlardan səmərəli istifadə olunması məsələləri etibarlı nəticələr olaraq təqdim olunur. Gəlinən qənaətlər muxtar respublika iqtisadiyyatının milli iqtisadiyyat üçün önəmliliyini bir daha ortaya qoymuşdur.*

***Açar sözlər:*** *davamlı iqtisadi inkişaf, ərzaq təhlükəsizliyi, regional bazar, iqtisadi tənzimləmə, istehsalın intensivləşdirilməsi*

İstehsal münasibətlərinin inkişafı və cəmiyyət üzvlərinin sosial-iqtisadi mənafelərinin qorunması sahəsindəki problemlərinin öyrənilməsi artan tələbatlar qarşısında təminatqabiliyyətli milli iqtisadiyyatın qurulması proseslərinin aktuallığını daha da artırmışdır. Bu baxımdan da, ölkələr, özlərinin regional və milli iqtisadiyyat sahəsindəki uzunmüddətli prioritetlərini müəyyən edərkən onun sosial mahiyyətinin yüksək olduğu amillərin zəruriliyini də nəzərə almış olurlar. Yəni regionların istehsal və sosial sahələr üzrə infrastruktur təşkilatlanmasını diqqətdə saxlayırlar ki, bunlardan birini də, ərzaq təhlükəsizliyi təşkil etməkdədir. Nəticə etibarlı ilə, bütün regionlar üzrə ərzaq təhlikəsizliyinə şərait yaradacaq strukturlaşma proseslərini təşkil edirlər. Qeyd etmək olar ki, regionlarda ərzaq bazarının tənzimlənməsinin sosial məqsədləri istehlakçıların istehlak etdikləri məhsulların keyfiyyətinin yaxşılaşdırılması, eləcə də, onların kifayət qədər zəruri məhsul əldə etməsi ilə bağlıdır. Bu baxımdan yoxsulluq səviyyəsinin azaldılmasına xüsusi diqqət yetirilir. Təsadüfi deyildir ki, xüsusilə beynəlxalq münasibətlərin qloballaşdığı müasir şəraitdə yoxsulluğun azaldılmasına dünya səviyyəsində kifayət qədər böyük bir problem kimi yanaşılır. Belə ki, əvvəlki dövrlərdə yoxsulluq əsasən əhalinin gəlirləri səviyyəsi və onun ərzaqla təminatı ilə ölçülürdüsə, hazırda bu prosesə daha geniş anlam verilir. Bu gün yoxsulluğun azaldılması istiqamətində həyata keçirilən tədbirlərə kifayət qədər kompleks yanaşılır. Belə ki, əhalinin istehlak səviyyəsinin artırılması ilə yanaşı, eləcə də istehsal potensialından səmərəli istifadə olunması, işsizliyin səviyyəsinin azaldılması, əhalinin təhsil və səhiyyə xidmətlərindən bərabər şəkildə faydalanma imkanlarının təmin olunması, infrastruktur və kommunal xidmətlərdən istifadənin yaxşılaşdırılması və digər bu kimi problemlər insanların həyat şəraitinin yaxşılaşdırılması baxımından önəmli rola malikdir. Bütün bu qeyd olunanlar, eyni zamanda, dövlətin etibarlı sosial siyasətinin çox zəruri ünsürlərini özündə əks etdirməkdədir. Elmi və nəzəri baxımdan isə dövlətin etibarlı sosial siyasəti üzvi surətdə uzlaşan aspektlərə (ideoloji, hüquqi, iqtisadi, mədəni, psixoloji, demoqrafik, etnik, təşkilati, regional, məkan və s) malik olan mürəkkəb strukturlu, inteqral bir anlayışdır (4, s.76). Bu sahədə, əhali gəlirlərinin artım dinamikası, rifah göstəriciləri, məşğulluq səviyyəsinin qorunması və digər amillər nəzərə alınır.

Qlobal iqtisadi inkişaf haqqında dünya bankının hazırladığı məruzəyə əsasən XX əsrin əvvəllərində dünya əhalisinin yarısının 2,8 mlrd nəfərinin gündəlik gəlirinin 2 ABŞ dolları, 1,2 mlrd nəfərinin gündəlik gəliri isə 2 ABŞ dollarından aşağı olduğu göstərilir. Doğulan hər 100 uşaqdan 6sı 1 yaşa, 8-i isə 5 yaşadək tələf olur. Dünya ölkələrinin təcrübəsi göstərir ki, yoxsulluq səviyyəsinin azaldılmasında sosial-iqtisadi sabitliyin təmin olunması və bazar prinsiplərinə əsaslanan iqtisadiyyatın inkişaf etdirilməsi mühüm əhəmiyyətə malikdir (5).

Bu mənada, ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olaraq, Naxçıvan Muxtar Respublikasında ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi həm də onunla bağlıdır ki, muxtar respublikanın əhalisi yerli istehsal hesabında lazımi məhsullarla təmin olunur və onların istehlakının həcmi artır. Bundan əlavə, ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi muxtar respublikada pərakəndə əmtəə dövriyyəsinin genişləndirilməsində mühüm rol oynayır. Təbii ki, bütün bunlar muxtar respublikanın sosial-iqtisadi inkişafını sürətləndirməklə yanaşı, onun ərzaq təhlükəsizliyinin təmin olunmasına və ərzaq müstəqilliyinin qorunub saxlanılmasına əlverişli şərait yaradır. Muxtar respublikanın sosial-iqtisadi inkişafı, onun əhalisinin həyat səviyyəsi, alıcılıq qabiliyyəti aqrar bazarın kompleks inkişafının əsas istiqamətlərini müəyyən edir (1, s.226).

Aparılan araşdırmalar göstərir ki, regionlarda ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasının başlıca faktoru olaraq çıxış edir. Bu baxımdan, istər ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında, istərsə də, ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsində regionların rolu əhəmiyyətli dərəcədə yüksəkdir. Odur ki, istər dövlətin strateji maraqları baxımından, yəni milli aspektdə ərzaq təhlükəsizliyinin təmin olunması baxımından yanaşdıqda və istərsə də, ölkə əhalisinin qida məhsullarına olan ehtiyaclarının ödənilməsi prizmasından diqqət etdikdə regional səviyyədə problemlərin həllinə xüsusi diqqət yetirmək lazımdır. Bu, xüsusilə o dövlətlər üçün xarakterikdir ki, həmin dövlətlərin ərazilərində müxtəlif təbii-iqlim zonaları fəaliyyət göstərir və onların torpaq resurslarından səmərəli istifadə ilə bağlı proseslər reallaşdırılır.

Regionlarda fəaliyyət göstərən ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi üçün ərzaq bazarını formalaşdıran sahələrin davamlı inkişafının təmin olunmasına geniş ehtiyac vardır. Məlum olduğu kimi, ərzaq bazarını əsas etibarilə kənd təsərrüfatının ayrı-ayrı sahələri və o cümlədən, bitkiçilik və heyvandarlıq sahələri, eləcə də emal və yeyinti sənayesi sahələri təşkil edir. Kənd təsərrüfatının istehsal əlaqələrinin yaxşılaşdırılması bütünlüklə, aqrar-sənaye kompleksi sisteminə daxil olan müəssisələrin maddi-texniki resurslarla təmin edilməsindən də çox asılıdır. Odur ki, regionun ayrı-ayrı rayonlarında olan maddi-texniki təhcizat və satış olunmasından, dükanları, yarmarkaları və s. vasitəsilə kənd təsərrüfatı müəssisələrinə maddi-texniki resursların satışı təşkil olunmalıdır (2, s.142).

Yuxarıda qeyd etdiyimiz kimi, makroiqtisadi səviyyədə yanaşdıqda, bütövlükdə ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına səciyyələndirən bir sıra göstəricilər mövcuddur. Ərzaq bazarının formalaşmasında kənd təsərrüfatı sahələrinin rolu böyükdür. Ölkənin kənd təsərrüfatı çoxsahəlidir və əkinçiliyin struktur tərkibi taxılçılığın, tərəvəzçiliyin, kartofçuluğun, meyvəçiliyin, üzümçülüyün, çayçılığın inkişaf etdirilməsi, eləcə də heyvandarlığın struktur tərkibində maldarlığın, qoyunçuluğun, quşçuluğun, donuzçuluğun və arıçılığın inkişaf etdirilməsinə ehtiyac duyulur. Ölkənin regionlarında ərzaq bazarının formalaşmasında və inkişafında kənd təsərrüfatı sahələrinin hər birinin özünəməxsus yeri və əhəmiyyəti vardır.

Ərzaq bazarının seqmentlərinin struktur tərkibində əsas yeri daxili istehsal tutur. Belə ki, halhazırda ölkə əhalisinin illik tələbatının əhəmiyyətli hissəsi daxili istehsal hesabına ödənilir. Nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatına keçid dövrlərində ərzaq bazarlarında idxal kanallarının rolu əhəmiyyətli dərəcədə yüksəkdir. Daha doğrusu, ərzaq bazarlarında idxal kanalları təxminən ayrı-ayrı məhsul növləri üzrə bir sıra hallarda 70-80 faiz hədlərində dəyişir. Bu isə ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına kifayət qədər böyük təhdid kimi çıxış edir.

Ölkədə həyata keçirilən aqrar islahatlar, o cümlədən, kənd təsərrüfatında sahibkarlığın inkişafı və eləcə də çoxukladlı iqtisadiyyatın formalaşdırılması isə ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına, o cümlədən regionlarda ərzaq bazarının formalaşdırılmasında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsinə də əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Xüsusilə kənd təsərrüfatında sahibkarlığın inkişafına yönəldilmiş tədbirlərin həyata keçirilməsi, dövlət tərəfindən sahibkarlığın inkişafı istiqamətində çoxsaylı qanunvericilik aktlarının və müxtəlif proqramların qəbul olunması ərzaq bazarında sahibkarlığın rolunu daha da yüksəltmişdir. Ərzaq bazarının ayrıayrı seqmentlərinin xüsusi çəkisi, daxili istehsalın cəmi yekununun çox böyük intervalı arasında dəyişir. Bununla belə, ərzaq bazarında istehlak olunan əsas növ

ərzaq məhsullarının da xüsusi çəkisində tariflik müşahidə olunur. Hər bir konkret dövrdə idxal və daxildə istehsal olunan məhsulların xüsusi çəkisi təbii ki, cəmi məhsulların tərkibində müxtəlif olur.

Bazar müansibətləri şəraitində ərzaq təhlükəsizliyinin təminat bazası olaraq çıxış edən kənd təsərrüfatının məqsədyönlü dövlət proqramlarının, o cümlədən "Azərbaycan torpaqlarının münbitliyini yüksəltmək", "Azərbaycan çörəyi", "Yem bitkiləri", "Ət-süd", "Tərəvəz və bostan bitkiləri", "Aqrar-sənaye kompleksi və maşınqayırma", "Azərbaycanda üzümçülüyün və şərabçılığın bərpası" və s. proqramların hazırlanması və yerinə yetirilməsinə əsaslanmalıdır.

Azərbaycan torpaqlarının münbitliyinin yüksəltmək proqramları digər tənzimləmələrin əkinçilik və heyvandarlıq istehsalının sabitliyinin təmin olunması üzrə kompleks tədbirlərin yerinə yetirilməsi üçün əsas baza hesab olunmalıdır. Həmin proqrama müvafiq olaraq yerli torpaq-iqlim şəraitinə aqrolandşaftına uyğunlaşan elmi əsaslarla ekoloji cəhətdən təhlükəsiz əkinçilik sisteminin hazırlanmalı və tətbiqi təmin olunmalı, torpağın münbitliyinin qorunmasının yüksəldilməsini təmin edən həcmdə eroziyaya qarşı aqrokimya, meşə qoruyucu, hidromeliorativ tədbirlər yerinə yetirilməli, mineral gübrələrin, əhəng materiallarının, bitkilərin mühafizə vasitələrinin bərpa olunması və artması təmin olunmalı, əmtəələrin istehsalçılarının tələbatının ödənilməsi üçün müasir texnika və avadanlıqlar bazarının formalaşdırılması vacibdir (4, s.65-66).

İstehsalın intensivləşdirilməsi mütərəqqi texnologiyaların tətbiq olunmasını, o cümlədən, yüksək məhsuldarlığa malik olan toxum sortlarının istehsalda tətbiq olunmasını nəzərdə tutur. Halhazırda "Aqrolizinq"ASC vasitəsilə respublikamızın bütün rayonlarına, o cümlədən Naxçıvan iqtisadi rayonuna müxtəlif taxıl sortları gətirilir və həmin sortların rayonlaşdırılması istiqamətində tədbirlər həyata keçirilir. Təhlil göstərir ki, respublikamızda yüksək elit toxum sortlarının yaradılması və onların rayonlaşdırılmasına daha çox ehtiyac duyulur. Bunun üçün isə aqrar elmin ən yeni nailiyyətlərinin tətbiqinə xüsusi diqqət yetirilməlidir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən "Araz Elm İstehsalat Birliyi"nin fəaliyyətinə də xüsusi diqqət artırılır ki, bu da ilk növbədə kənd təsərrüfatında mütərəqqi texnologiyaların tətbiq olunmasının başlıca fundamental istiqamətini təşkil etməlidir.

Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvan Muxtar Respublikasında ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi ərzaq bazarlarının seqmentləri üzrə reallaşmış olmalıdır. Daha doğrusu, ərzaq bazarlarının əsas seqmentləri olaraq, taxılçılıq, toxumçuluq, meyvə və tərəvəzçilik bu regionda kifayət qədər geniş inkişaf potensialına malikdir. Bu baxımdan da, Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişaf etdirilməsinə, eləcə də, meyvə-tərəvəz məhsulları istehsalının artırılmasına və həmin məhsulların bazasında emal sənayesi məhsullarının, daha doğrusu, hazır məhsulların xüsusi çəkisinin yüksəldilməsinə xüsusi diqqət yetirilməlidir.

Respublikamızda olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da aqrar islahatlar nəticəsində kənd təsərrüfatında çoxsaylı xırda əmtəə istehsalçıları formalaşdırılmışdır. Çoxsaylı xırda əmtəə istehsalçıları, əslində ərzaq bazarının mühüm subyektləri olaraq çıxış edir. Lakin bütövlükdə götürdükdə həmin bazar subyektlərinin əhəmiyyətli hissəsi məhsul istehsalını həyata keçirməklə daha çox özlərinin kustar natural tələbatlarını ödəməklə məşğul olurlar. Həmin istehsalçıların ərzaq bazarındakı konkret payını yüksəltmək, onların potensial imkanları xaricindədir. Məhz belə bir şəraitdə əmtəə istehsalçılarının kooperasiyasının inkişaf etdirilməsinə diqqət yetirilməlidir.

Naxçıvan Muxtar Respublikasının ərzaq bazarında yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi ilə bağlı qarşıda duran ən mühüm məsələlərdən biri də kənd təsərrüfatı məhsullarının satışı ilə bağlı problemlərin effektiv şəkildə həllindən ibarət olur. Məlum olduğu kimi, bazar münasibətləri şəraitində məhsul satışı ilə bağlı bütün problemləri əmtəə istehsalçıları özləri həll edir. Daha doğrusu, məhsul satışı, məhsulun hansı istiqamətlərdə hərəkəti və digər bu kimi proseslər bazar münasibətləri şəraitində sərbəst və iqtisadi müstəqillik prinsipinə əsaslanaraq müəyyən olunur. Məhz belə bir şəraitdə kənd təsərrüfatı əmtəə istehsalçıları məhsulun alıcısını özü tapmaq məcburiyyətindədir. Bir sıra hallarda kənd təsərrüfatı əmtəə istehsalçıları tərəfindən istehsal olunan məhsulların xeyli hissəsini ucuz qiymətə alıb və reallaşdırmaq imkanı olmadığından məhsul satışı kifayət qədər çoxsaylı problemlərlə üzləşir. Təbii ki, bu prosesin yuxarıda qeyd etdiyimiz kimi özünəməxsus obyektiv cəhətləri də vardır və bu obyektiv cəhətlərə muxtar

respublikanın iqtisadi blokada vəziyyətində olmasını aid etmək olar. Bununla belə Naxçıvan Muxtar Respublikasında dövlətin məqsədli proqramları çərçivəsində çoxsaylı emal müəssisələri şəbəkəsinin yaradılması proseslərinə davam olunur və həmin məhsullar daha tez xarab olan, həmçinin istehlak xarakterini itirə bilən məhsullar, meyvə-tərəvəz məhsulları üzrə təşkil olunması və həmin hazır məhsulların nəinki Naxçıvan Muxtar Respublikasının daxili bazarında reallaşdırılması və eləcə də, respublikanın daxili bazarında həyata keçirilməsi və onun xarici bazarlara çıxış imkanları təmin olunması diqqətdə saxlanılmalıdır. Təkcə bir faktı qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasının təbiətinin kənd təsərrüfatı üçün əlverişli olması və eləcə də, muxtar respublikada əhalinin sağlamlığı üçün kifayət qədər əhəmiyyət təşkil edən sağlamlıq yönümlü duzlu suların istehsalı mövcuddur. Həmin suların hal-hazırda respublikamızındın daxili bazarlarına da çıxarılması istiqamətində zəruri tədbirlər həyata keçirilir. Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasında istehsal olunan “Badamlı” və “Sirab” müalicəvi sularının xarici bazara çıxış imkanlarının genişləndirilməsi hesabına buraya kifayət qədər vəsait daxil olmasını təmin etmək mümkündür.

## ƏDƏBİYYAT

1. Abbasov T.A. Aqrar bazar və sahibkarlığın regional inkişaf istiqamətləri. Bakı: ADPU-nun mətbəəsi, 2006, 287s.
2. Abbasov T.A. Kənd təsərrüfatının resurs potensialı və ondan səmərəli istifadənin regional problemləri. Bakı: Elm, 2002, 186s.
3. Verdiyev Ə.Ç., Qarayev İ.Ş. Aqrar bazarın formalaşmasının iqtisadi problemləri. Bakı: Şirvannəşr, 2000, 256 s.
4. Əliyev A. Ə., Quliyev A.S. Sosial sferanın iqtisadi və metodoloji əsasları. Bakı: Adiloğlu, 2005, 304 s.
5. Борисенко Е.Н. Продовольственная безопасность России. Проблемы и перспективы. Москва: Экономика,1997, 349 с.

## SUMMARY

**Ashraf Alakbarof**

## SUSTAINABLE ECONOMIC DEVELOPMENT AND FOOD SECURITY IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article discusses the strategic importance of food security, which has a more global significance at the stage of modern economic development, and the directions of its meeting in the context of the growing needs of society. It was noted that all countries now include in their longterm economic priorities, among other issues, their programs and strategies in the field of food security. In this area, the economic potential of the Republic of Azerbaijan and its regions, distinguished by sustainable economic development, has been taken into account. In particular, the sustainable economic development of the Nakhchivan Autonomous Republic as an integral part of the country and the growing weight of food security in this area were scientifically substantiated. In this regard, the issues of efficient use of natural resources are presented as reliable results. The findings have once again highlighted the importance of the autonomous republic's economy for the national economy.

***Key words:*** *sustainable economic development, food security, regional market, economic regulation, intensification of production.*

# РЕЗЮМЕ

**Ашраф Алекперов**

## УСТОЙЧИВОЕ ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ И ПРОДОВОЛЬСТВЕННАЯ БЕЗОПАСНОСТЬ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В статье рассматривается стратегическое значение продовольственной безопасности, имеющей более глобальное значение на этапе современного экономического развития, а направления ее восприятия, в контексте удовлетворения растущих потребностей общества, являются объектом исследования. Было отмечено, что в настоящее время все страны в свои долгосрочные экономические приоритеты, включают в том числе и свои программы и стратегии в области продовольственной безопасности. В этой области учтены экономические потенциалы Азербайджанской Республики и ее регионов, отличающихся устойчивым экономическим развитием. В частности, были научно обоснованы устойчивое экономическое развитие Нахчыванской Автономной Республики как неотъемлемой составной части страны и растущий вес продовольственной безопасности в этой сфере. В связи с этим вопросы эффективного использования природных ресурсов представлены как достоверные результаты. Полученные данные еще раз подчеркнули значение экономики автономной республики в целом для национальной экономики.

***Ключевые слова:*** *устойчивое экономическое развитие, продовольственная безопасность, региональный рынок, экономическое регулирование, интенсификация производства.*

**CAVADXAN QASIMOV**
*Naxçıvan Dövlət Universiteti cavadxan.yusifoglu@mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA YERLİ İSTEHSALIN İNKİŞAFI DAVAMLI MÜQAVİMƏTLİLİYİN ƏSAS DAYAQLARI KİMİ

*Məqalədə Naxçıvan Muxtar Respublikasında yerli istehsal sahəsində həyata keçirilən tədbirlərin məqsədyönlülüyündən söz açılmış, bu sahədə tənzimləyici mexanizmlərdən bəhs olunmuşdur. Göstərilmişdir ki, muxtar respublikada iqtisadiyyatın sahə strukturu, onun sosial dayanıqlılıq üzrə təsiri imkanları ifadə olunmuşdur. Daxili tələbatın ödənilməsində yerli istehsal göstəricilərinin təhlili, onların iqtisadi müqavimətlilik üzrə perspektivləri geniş araşdırma obyektinə cəlb olunmuşdur. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası ölkə iqtisadiyyatının regional xüsusiyyətlərinin səmərəliliyində olduqca əhatəli perspektivlərə malikdir və bu, uzunmüddətli perspektivlərin həyata keçirilməsində strateji amildir. Təbii olaraq, muxtar respublikanın özünün də regional iqtisadi inkişafı bu sahədə çox zəruri hərəkətverici qüvvəyə çevrilmişdir.*

***Açar sözlər:*** *yerli istehsal, davamlı inkişaf, daxili tələbat, ərzaq məhsulları, iqtisadi tənzimləmə.*

Xalqımızın ümummilli lideri Heydər Əliyevin müdrik və həmişəyaşar ideyaları ilə qüdrətlənən ölkə iqtisadiyyatı davamlı inkişafa istiqamətlənən hədəf və məqsədlərini daha da qətiyyətlə gerçəkləşdirməkdədir. Çox mühüm straeji amillərin məcmusundan ibarət olan bu tədbirlər bütün regionlar kimi milli iqtisadi inkişafda hər zaman söz sahibi olması ilə seçilən Naxçıvan Muxtar Respublikasının istehsal potensialının daha da güclənməsinə xidmət etməkdədir. Azərbaycanda iqtisadiyyatın sosiallaşma proseslərinə köklənməsi onun bu istiqamətdəki təsir imkanlarını da artırmışdır. Xüsusilə əsas hədəf kimi müəyyənləşdirilən məqsədlər yerli istehsal hesabına daxili bazarın qorunması və artan tələbatların qarşılanması məsələlərini daha da stimullaşdırmışdır. Bu gün Naxçıvan Muxtar Respublikasında əkinçisindən istehsalçısına, alıcısından satıcısına, zəhmətkeşindən müəlliminə qədər hər kəs əmindir ki, dövlət ona qayğı göstərir, onun ehtiyac və tələbatlarının qarşılanmasında çox qətiyyətlidir. Məhz bu inam insanlarda işləməyə və iqtisadi fəaliyyətin, daha doğrusu, səməərli sahibkarlıq mühitinin bütün sahələrində mövcud olmağa güclü stimul yaratmaqdadır.

Elmi və nəzəri baxımdan sahibkarlıq mühitinin mövcud olması və təşəkkül tapmasına bir sıra amillərin təsirini ifadə etmək olar:

- vətəndaş cəmiyyəti və hüquqi dövlətin meydana gəlməsindən;
- mülkiyyətin dövlət hakimiyyətindən və buna uyğun olaraq, iqtisadi hakimiyyətin sərbəstliyindən;
- həyatın iqtisadi, siyasi və sosial sahələrinin əlahiddələşməsindən;
- bazar iqtisadiyyatının meydana gəlib formalaşmasından və s. amillərin kompleks birliyindən ibarət olan mexanizmlərdən (3, s.115-116).

İqtisadi proseslərin sistemliliyinin və dinamikliyinin davamlı təşəkkül tapdığı Naxçıvan Muxtar Respublikasında istehsalın hədəflənən səviyyəsi qeyd olunanlarla yanaşı, həm də özündə yerli istehsalın fasiləsizliyinin təmin olunmasını və rəqabətədavamlı məhsulların istehsalının stimullaşdırılmasını da daşımaqdadır. Təbii ki, bunun üçün həm də innovasiyalaşan iqtisadiyyatın inkişafını qeyd etmək olar. Mahiyyətinə görə innovasiyalar texnika, texnologiya, əməyin təşkili və idarəetmə sahəsində elmi nailiyyətlərə və qabaqcıl təcrübəyə əsaslanan yeniliklər, həmçinin bu yeniliklərin fəaliyyətin ən müxtəlif sahələrində tətbiq olunmasını da ifadə etməkdədir (2, s.227).

Burada mövcud istehsal müəssisələrinin işləkliyinin təmin edilməsi, yenilərinin açılması yalnız və yalnız fasiləsiz istehsal amilinə xidmət etməkdədir. Sosial-iqtisadi sahələrdə səmərəli tənzimləmə siyasətinin həyata keçirilməsi, qanunvericiliklə müəyyən edilən təşəbbüslərin dəstəklənməsi, iqtisadi idarəetmənin ən çevik və aparıcı qüvvəsi olan sahibkarlıq fəaliyyətinin inkişafı muxtar respublikada istehsalın tələbat qarşısındakı dayanqılığını daha da artırmışdır. 2018ci ilin yanvar-iyun aylarında muxtar

respublikasında istehsal edilən ərzaq və qeyri ərzaq məhsullarından ibarət istehsal potensialının formalaşması qeyd etdiklərimizi ifadə etməkdədir. Bunu aşağıdakı şəklin məlumatlarından da görmək olar:




***Şəkil 1. Naxçıvan Muxtar Respublikasında ümumi məhsul növlərinin istehsalı haqqında məlumat (növ)***

Bu bir həqəqətdir ki, bütün inkişaf etmiş ölkələr tələbatların dolğun qarşılanmasına yönələn məqsədləri gerçəkləşdirə bilən iqtisadiyyat formalaşdırmaqda, onu inkişaf etdirməkdədirlər. Məhz bu baxımdan da qeyd edə bilərik ki, müasir dövrün hətta dünya üzrə aktuallaşan məsələləri içərisində maddi və qeyri-maddi istehsal sahələrinin davamlı inkişafı məqsədləri əsas yer tutmaqdadır. Bu, Azərbaycan Respublikasının da prioritetləri içərisində özünə mühüm yer tutan amil olaraq qeyd edilə bilər. Bu mənada regionların sosial-iqtisadi inkişafına dövlət siyasətinin çox zəruri tərkib hissəsi olaraq yanaşılır. Təhlillər göstərir ki, muxtar respublikada son 10 ildə ümumi ərzaq məhsullarının istehsal həcmi 1,3 dəfə artmışdır. Bu artım dinamikası ümumi qeyri-ərzaq məhsullarının istehsal həcmində 1,7 dəfə, bütün növlər üzrə istehsal olunan məhsulların istehsal həcmində 1,5 dəfə təşkil etmişdir.




***Şəkil 2. Naxçıvan Muxtar Respublikasında ümumi məhsul növləri istehsalının artıması haqqında məlumat (dəfə)***

Qeyd etmək olar ki, 2021-ci ilin yanvar oktyabr aylarının statistik məlumatlarının təhlilinə əsasən muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaqməhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına təmin olunur (6).

Qeyd olunanlar bir tərəfdən, real istehsal proseslərinin fasiləsizliyini və təminatlılığını göstərirsə, digər tərəfdən də, istehsalın idarəolunmasını ifadə etməkdədir. İstehsalın idarəolunması anlayışında isə optimal texniki-iqtisadi nəticələr əldə etmək üçün müxtəlif üsullar (iqtisadi, inzibatitəşkilati, ictimai-psixoloji və tərbiyəvi) və vasitələrin köməyi ilə həyata keçirilən fasiləsiz məqsəduyğun ictimai-iqtisadi və təşkilati –texniki proseslər sisteminin yer aldığını görməkdəyik (5, s.311).

Bu mənada demək olar ki, həmin potensial, eyni zamanda, səmərəli istehsal idarəetməsinin bir meyarı olmaq, etibarı ilə, özündə ölkə iqtisadiyyatının prioritetlərinə aid olmaqla, bir sıra strateji xüsusiyyətləri də ifadə etməkdədir. Bu da məhz:

- regionların istehsal gücünün artırılması və bu sahədə davam edən islahatların perspektivliyinin diqqətdə saxlanılması ilə;
- ölkə iqtisadiyyatındakı yaradıcı təşəbbüslərin dayanıqlı bazasının daha da gücləndirilməsinə dəstəklə;
- səmərəli regional iqtisadi siyasətin məhsuldarlığa söykənən nəticələri ilə;
- ardıcıl dövlət proqramlarının icrası fonunda səmərəli məşğulluq siyasətinin müəyyənləşdirilməsilə;
- təbii ki, blokadanın təhdidləri və təsirlərinin minimuma endirilməsilə daha da aktuallaşmaqdadır.

Bütün bunlar isə həmçinin, dövlətin daxili siyasətinin əsas hissəsi olaraq, onun sosial proqramlarında ifadə olunan, təcrübədə həyata keçirilən, mahiyyət etibarı ilə əhalinin sosial qruplarının mənafeyi naminə və maraqları vasitəsilə cəmiyyətə olan münasibətləri tənzimləyən sosial siyasətin (2, s.66) mühüm ifadəsini təşkil etmiş olur.

Sadalananların hər birini özündə dolğun əks etdirən Naxçıvan Muxtar Respublikasının sosialiqtisadi inkişafındakı göstəricilərin əsas xüsusiyyətlərindən olan və hazırkı dövrdə çox yüksək mahiyyəti ilə fərqlənən tədbirlərdən biri kimi yerli imkanlar hesabına istehsalın fasiləsizliyini, davamlılığını və təşəkkülünü qeyd edə bilərik. Bu, iqtisadiyyatın dayanıqlığının, ərzaq təhlükəsizliyinin təmin edilməsinin, iqtisadi proseslərin pozitivliyinin göstiricisi olaraq çıxış etməkdədir. Bunu aşağıdakı şəklin məlumatları da göstərməkdədir:




***Şəkil 3. Naxçıvan Muxtar Respublikasında daxili imkanlar hesabına istehsal olunan məhsul növləri haqqında məlumat (növ)***

Şəkildən də göründüyü kimi, muxtar respublikada yerli imkanlar hesabına istehsalın təşkili və idarə olunması istiqamətində mühüm potensial mövcuddur və bu, strateji mahiyyət kəsb etməkdədir. Tərtib olunan şəkildə də bir daha, muxtar respublikada əhalinin yaşam tərzinin, onun firəvanlığının və dövlət qayğısı ilə əhatə olunmasının ən gerçək ifadəsi öz əksini tapmışdır. Yəni sosiallaşan iqtisadiyyat üçün resurs bolluğu var. 2008-2018-ci illər üzrə artım dinamikasının müqayisəsini aparanda aydın olur ki, yerli imkanlar hesabına ərzaq məhsullarının istehsalı 1,3 dəfə, qeyri-ərzaq məhsullarının istehsalı 1,7 dəfə, bütün növlər üzrə məhsul istehsalının həcmi isə 1,6 dəfə artmışdır. Bu dinamika bir daha göstərir ki, dünyada cərəyan edən siyasi, iqtisadi, hərbi sahələr də daxil olmaqla, çoxistiqamətli böhranlar ölkəmizin sosial-iqtisadi inkişafına öz neqativ təsirlərini göstərə bilməmiş və bu gücdə muxtar respublikamızın da böyük istehsal təsiri hesabına formalaşan təkmil regional iqtisadi siyasətinin yüksək əhəmiyyəti vardır.

Təhlillər də göstərir ki, hal-hazırda Naxçıvan Muxtar Respublikasının iqtiadiyyatı özündə birbirilə qarşılıqlı əlaqədə olan iqtisadiyyatın müxtəlif sahələrini və sferalarını, müəssisələri, təşkilatları və idarələri birləşdirir. Bununla əlaqədər olaraq, idarəetmə obyekti olaraq, bazarın və təsərrüfatın subyektinin sistemli xarakterini, eyni zamanda, idarəetmə məsələlərinə sistemli yanaşmanın vacibliyini şərtləndirir. Yalnız belə

yanaşma, müxtəlif xüsusiyyətlərə malik olan sistemlər arasında mütənasibliyi aşkar etməyə və onu öyrənməyə imkan yaratmış olur (1, s.83).

Beləliklə, Naxçıvan Muxtar Respublikasında milli iqtisadiyyatın perspektivləri üçün zəruri olan bütün addımlar yüksək səviyyədə atılmaqdadır. Sosiallaşma proseslərinin səmərəli təşkilində, iqtisadi dayanıqlığın və müqavimət gücünün artırılmasında çox mühüm əhamiyyətə malik olan bu proseslər güclü istehsal potensialının formalaşdırılmasında olduqca zəruridir.

## ƏDƏBİYYAT

1. Əhmədov N.H. Regional ərzaq bazarı və onun formalaşması istiqamətləri. Bakı: ADPU-nun mətbəəsi, 2005, 163 s.
2. Əliyev A. Ə., Quliyev A.S. Sosial sferanın iqtisadi və metodoloji əsasları. Bakı: Adiloğlu, 2005, 304 s.
3. Məmmədli O. Q., İsmayılov F. İ. İqtisadi nəzəriyyə. Bakı: MBM, 2007, 800 s.
4. Qasımov F.H., İsmayılov İ.H., Qasımova L.F. Sahibkarlığın əsasları. Dərs vəsaiti. Bakı: Milli Aviasiya Akademiyasının nəşriyyatı, 2008, 605 s. 5. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. Dərslik. Bakı: Qərənfil, 2006, 591 s.
6. http://www.statistika.nmr.az/x_news/index_news.php?par=news/2021/index_35.shtml
7. http://www.in.nakhchivan.az/

## SUMMARY

**Javadkhan Gasimov**

## DEVELOPMENT OF LOCAL PRODUCTION IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AS A MAIN SUPPORT OF SUSTAINABLE RESISTANCE

The article spoke about the expediency of measures taken in the field of local production in the Nakhchivan Autonomous Republic, and discussed regulatory mechanisms in this area. It was noted that the sectoral structure of the economy in the autonomous republic, its impact on social sustainability. Analysis of local production indicators in meeting domestic demand, their prospects for economic resilience are the subject of extensive research. It was noted that the Nakhchivan Autonomous Republic has very comprehensive prospects for the effectiveness of regional features of the country's economy, and this is a strategic factor in the implementation of long-term prospects. Naturally, the regional economic development of the autonomous republic itself has become a much-needed driving force in this area.

***Key words:*** *local production, sustainable development, domestic demand, food products, economic regulation, etc.*

## РЕЗЮМЕ

**Джавадхан Касымов**

## РАЗВИТИЕ МЕСТНОГО ПРОИЗВОДСТВА НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ КАК ГЛАВНАЯ ПОДДЕРЖКА УСТОЙЧИВОГО СОПРОТИВЛЕНИЯ

В статье говорилось о целесообразности мер, принимаемых в сфере местного производства в Нахчыванской Автономной Республике, а также обсуждались механизмы регулирования в этой сфере. Было отмечено, что отраслевая структура экономики автономной республики, ее влияние на социальную устойчивость. Анализ показателей местного производства при удовлетворении внутреннего спроса, их перспективы экономической устойчивости являются предметом обширных исследований. Было отмечено, что Нахчыванская Автономная Республика имеет очень всесторонние перспективы эффективности региональных особенностей экономики страны, и это является стратегическим фактором реализации долгосрочных перспектив. Естественно, что региональное экономическое развитие автономной республики стало столь необходимой движущей силой в этой сфере.

***Ключевые слова:*** *местное производство, устойчивое развитие, внутренний спрос, продукты питания, экономическое регулирование и т.д*

**FLORA KƏRİMOVA**
*Naxçıvan Dövlət Universiteti flora.kerimova.80@ mail.ru*

# KƏLBƏCƏRİN TƏBİİ RESURSLARININ TURİZM-REKREASİYA CƏHƏTDƏN QİYMƏTLƏNDİRİLMƏSİ

*Qədim yaşayış məskəni olan, Qarabağın qala qapısı sayılan Kəlbəcərdə mağaralar, qaya təsvirləri, çöp şəkilli qədim türk əlifbası nümunələri aşkar edilmişdir. Qədim dövrün abidəsi olmaqla yanaşı, bu yerlərdə çox zəngin flora və fauna mövcuddur. Kəlbəcərin mineral, şirin sulu çayları, müalicəvi İstisuyu, dağçılıq və alpinizm turizmin gəlmə turizm inkişafında böyük əhəmiyyətə malikdir. Kəlbəcər qədimliyinə və tarixi-mədəni abidələrinə, təbiətinin zənginliyinə görə ekoturizm, etnoturizm zonası kimi inkişaf edəcək və dünyanın ən cəlbedici turizm məkanlarından biri kimi turistlərin üz tutacağı region olacaq.*

***Açar sözlər:*** *turizm, rekreasiya, iqtisadiyyat, sosial-mədəni inkişaf, təbiət abidələri, Kəlbəcər*

Azərbaycan Respublikasının cənub – qərb bölgəsinin zirvəsi, Qarabağın qala qapısı sayılan gözəl Kəlbəcər diyarı dəniz səviyyəsindən 3616 – 3724 metr hündürlükdə yerləşir.

Ən qədim insan məskəni olan Kəlbəcərdə ibtidai insanın təşəkkül tapması və formalaşması dörd milyon ildən artıq bir tarixə malik olan dördüncü geoloji dövrlə bağlıdır.

Kəlbəcər rayonunda 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri - Zar mağarası və 6 min il yaşı olan qaya təsvirləri, çöp şəkilli qədim türk əlifbası numunələri aşkar edilib. Zarda tapılan tağbənd ev damlarında ev əşyaları və əl vuranda ovulub külə dönən yorğan – döşək, qalaq – qalaq insan sümükləri buranın ən qədim insan məskəni olduğundan xəbər verir.

İnsan qohumlarına qanı ilə bənzədiyi kimi, qayaüstü rəsmlər də öz cizgiləri ilə qohumu

Qobustanın cizgilərinə bənzəyir. Burada olanda Qobustanı xatırlayırsan. Burada “Türk qəbirstanlığı” adı ilə tanınan bir neçə məzarlıq var ki, bunların da ən böyüyü Zar və Turkeşəvənd kəndlərinin ərazisindədir.

Antik dövrün abidəsi olmaqla yanaşı ,bu yerlər çox zəngin flora və faunaya da malikdir.

Torpağın üstünü min bir bəzəklə cilalayan, gözəllikdə heç nəyi əsirgəməyəyən İlahi burada yerin tərkini də zəngin yaratmışdır. Bu yerlərdə 77 növ mineral, 30 – a yaxın şirin sulu çaylar var [1] .

Tez- tez yağıntı düşdüyündən havanın temperaturu, hava şəraiti gün ərzində bir neçə dəfə dəyişir. Bəlkə də, buna görədir ki, rayonun qoynunda yerləşdiyi dağ “Dəlidağ” adlanır. Hər tərəfdən dağlarla əhatə olunan rayon ərazisi üçüncü və dördüncü dövrün vulkanizm lava axınına məruz qalıb. Tərtər çayı sol axını boyunca möhtəşəm qayalıqlarda gözəl təbii mənzərələr yaratmışdır. Bu da sonraki dövrlərdə aşınmaya məruz qalaraq tikinti materialları olan çınqıllara dönmüşdür.

*Abidələri, qaya təsvirləri və qalaları.* Dünyada hər şeyə ad qoyan Dədə Qorqud əşya və ya insanlara ad qoyarkən onun funksiyasına, oxşarlığına və səciyyəsinə görə ad qoymuşdur. Ən qədim insan məskənlərindən biri olan Kəlbəcər antik dövrün canlı abidəsi kimi özündə ən qədim türk əlifbası nümunələrini, alban mədəniyyətini əks etdirən qayaüstü təsvirləri, eradan əvvəl üçüncü minilliyə aid gil qabları, dən daşlarını, dəvəgözu və çaxmaqdaşından hazırlanmış bıçaqları qoruyub saxlayırdı. Burada 1976-cı ildə divarının qalınlığı 2 m, diametri 20 mm olan dairəvi tikili qalığı tapılmışdır ki, bu da ilk insan məskəni kimi sübuta yetirilmişdir. Bazalt daşına həkk edilmiş çoxlu sayda qədim heyvan təsvirlərindən, ov səhnələrindən, yallıya bənzər oyunlardan ibarət olan qayaüstü təsvirlər Şərcəli dağ,Qurbağalıçay, Gəlin qayası, Soltan Heydər (Şah İsmayılın atası Soltan Heydər hər yay burada dincəlirmiş), Ayı çınqılı, Zolxa gölü, Dəvəgözu dağı adlanan yerlərdə tapılmışdır. Bu təsvirlərin 3500 – dən çoxu Kəlbəcər Tarix – Diyarşünaslıq muzeyində qeydə alınmış və çoxlarının şəkilləri çəkilərək muzeydə təşkil edilmiş guşədə saxlanılırdı.

VI – VII əsrlərdə Alban kınyazı tərəfindən heç bir ağac materialından istifadə olunmadan tikilən Xudavəng qalası və eləcə də Laçınqaya, Lev, Uluxan, Qaraçanlı, Qalaboynu və Comərd qalaları da qədim alban abidələrindəndir.

Xudavəng abidə kompleksi Kəlbəcərin 29 kilometrliyində, Tərtər çayının sol sahilində yerləşir. Deyilənə görə, Xaçın Arsax hökmdarı Həsən Cəlali bu abidəni XIII əsrdə qızı Arzu xatunun şərəfinə tikdirib. Bu binaların üstü tağbənd – gunbəz şəklində hörülmüş və heç bir ağacdan istifadə olunmamışdı. Xudavəng abidəsində olan yazıları və şəkilləri hələ o zamanlar ermənilər imkan düşdükcə balta ilə yonaraq izlərini itirməyə çalışırdılar. Sonra isə çəkdikləri filmlərdə onlara erməni kilsəsi adı verərək çox ustalıqlauydurmalar fikirləşirdilər [2].

Bu beş qala bir-birlərini işarələrlə başa salan əhalinin karvan yollarını qorumaq üçün inşa edilmişdir. Hətta Laçınqayanin sağ sahillərindəki çınqıllıqdan çaya enən bir yeraltı yol var. Comərd qalasının duz qurtaracağında dairəvi, möhkəm bir tikili var idi ki, onun da başında dibi görünməyən bir quyu vardır. Yuxarıdan atılan daşın hara düşdüyünü eşitmək olmurdu.

Kəlbəcər ərazisində Çaykənd, Çərəkdar, Bağlıpəyə, Yuxarı Qamışlı, Yuxarı Şurtan və Zəylik kəndlərində çay üzərində qurulmuş çoxlu tağbənd, daş körpülər də vardır ki, onların da bir neçəsi son zamanlara qədər saxlanılırdı.

Kəlbəcər Tarix-Diyarşünaslıq muzeyinin həyətinə gətirilmiş 28 ədəd yazılı və şəkilli daşlar, nəinki Kəlbəcərin, həm də bütün Azərbaycan torpağının qədim insan məskəni olduğunu sübut edir. Ona görə də alimlərimiz hələ o zamanlar Kəlbəcəri ciddi nəzarətə alıb, qorumağı tələb edirdilər.

Kəlbəcərdə yerləşən “Löh”qalasının beli dəvə boynuna oxşayırdı. “Löh” qalasının başında dərinliyi 3-5 metr olan daşdan yonulan quyular var idi. Burada qida məhsulları, ərzaq və su saxlanılırdı. Həmin quyuların içərisindən bitib çıxan palıd ağacının birinin diametri 30-40 sm idi [1].

Kəlbəcər qalalarının içərisində ən hündürü Comərd və Nəcəfalılar kəndi yaxınlığında yerləşən Comərd qalası idi. Bu qalaya maşınla, atla nə qədər yaxınlaşsan da, yenə də ən azı 500 metr yuxarı piyada qalxmaq lazım idi. Qalanın sıldırım qayalardan ibarət olan bir tərəfinə isə quşdan başqa heç bir canlı ayağı dəyməzdi.

*Dağların Möcüzəsi – İstisu.* İlahinin Kəlbəcərə bəxş etdiyi min bir nemətdən biri də dünyada məşhur olan loğman suyu,dirilik suyu – İstisudur. Dəniz səviyyəsindən 2225 m hündürlükdə, silsilə dağ yamaclarında, Kəlbəcərdən 25 km – lik yolda yerləşən bu möcuzəli bulaq öz tərkibinə görə, hətta Çexoslovakiyada yerləşən məşhur Karlovı – Varidən yüksək keyfiyyətə malikdir.

Azərbaycan SSR Nazirlər Sovetinin sədri Həsən Seyidov Çexoslovakiyada dincələrkən həkimi ona Kəlbəcərdəki İstisuyun daha keyfiyyətli olduğunu demişdir. O zamanın məşhur alimləri, akademikləri bu bulağın tərkibini öyrənmiş və çox müalicəvi, həm də zəngin tərkibli olduğunu sübut etmişlər. Bir litr suyun tərkibində 6 – 7 qram mineral olmaqla, litium, brom, mərgümüş, fosfor, sink, med, nikel, maqnezium, dəmir və s. kimyəvi maddələr vardır. İstisudan ildə 3 milyard 963 min litr su çıxırdı. Sudolduran sexlərdə isə cəmi 800 min litrdən istifadə edilirdi. Qalan hissəsi havayı axıb gedirdi. [3]

1138-ci ildə zəlzələ zamanı yerin qabarması, çatlaması nəticəsində yaranan bu bulağın suyunun tərkibi karbon qazlı, hidrokarbonatlı, xloritli, sulfatlı, natriumludur. Sərtliyi – 5.5.M4, 9 Co7, 1HCo353, C134So41Na75, Ca14.Temperaturu 61 dərəcə C – dir.

İstisu mineralı Kəlbəcər rayonundakı İstisu kurortunun adındandır. Bu mineral tərkibli sudan həm içmək, həm də müalicəvi vanna qəbul etmək məqsədilə istifadə edilirdi. Nəticədə minlərlə xəstə İstisu kurortunda mədə - bağırsaq xəstəliyindən, maddələr mubadiləsi pozğunluğundan, sinir sistemi, hərəkət orqanları, ginekoloji, uroloji, xroniki, qəbizlik, qaraciyər, öd kisəsi, qastrit və s. xəstəliklərdən şəfa tapmışdır.

İstisuda müalicə - istirahət zonasının yaranması 1925-ci ildən Azərbaycan hökumətinin diqqət mərkəzində olmuşdur. Sonralar burada istirahət – müalicə tikintilərinin aparılmasına Azərbaycan Kommunist Partiyası MK – nin birinci katibi M.C.Bağırov şəxsən nəzarət etmiş, 1930-cu ildə isə özü İstisuda olmuş və tikinti işləri ilə maraqlanmışdır.

1980 – ci illərdə İstisu qəsəbəsində 1 və 2 nömrəli İstisu sanatoriyaları tikilib istifadəyə verilmişdir. Hər il burada 50 min nəfər müalicə alır və istirahət edirdi. 1964-cu ildən tikilməyə başlamış pansionat binasının tikintisi başa çatmamış, binanın qarşısındakı qaldırıcı kran isə pas atıb çürüyür. İstisuyun 17 kilometrliyindən Ermənistanın kurort şəhəri Cermuxa qaz çəkildiyi halda, İstisuda hələ də təbii qaz yox idi.

*Kəlbəcərin işğalı.* Kəlbəcər 1993-cü ilin aprel ayının 2-dən Ermənistan ordusu tərəfindən işğal olundu. İşğal müddəti ərzində Kəlbəcərin təbii resursları və faydalı qazıntıları vəhşicəsinə istismar olundu. Lixtenşteyndə qeydiyyatda olan və Ermənistanın Vallex Qrupunun tərkibinə daxil olan Base Metals şirkəti 2002-ci ildən etibarən Kəlbəcərin Heyvalı kəndi yaxınlığında Qızılbulaq mis-qızıl yatağını qanunsuz olaraq istismar edib. Vəhşicəsinə istismar nəticəsində yatağın resursları tükənib.

2007-ci ildən etibarən GeoProMining şirkətinə daxil olan GPM Gold şirkəti Kəlbəcər ərazisində Soyudlu qızıl yatağını istismar edib. Kəlbəcər ərazisindən keçən Vardenis-Ağdərə yolunun çəkilişi Kəlbəcər rayonu daxil olmaqla, işğal olunmuş ərazilərdən təbii sərvətlərin Ermənistana və beynəlxalq bazarlara daşınmasına xidmət edib.

Kəlbəcərin təbii mineral resurslarının istismarı nəticəsində ətraf mühitə ciddi zərər yetirilib. 15 noyabr 2020-ci il tarixində Kəlbəcər rayonu işğaldan azad edildi. Bəyanata əsasən 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılsa da Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadılmışdır. Buna səbəb olaraq isə ərazi relyefinin mürəkkəb olması, ərazinin böyüklüyü göstərilmişdir. Məğlubiyyətlə barışa bilməyən erməni əhalisi bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişdir. Ərazini tərk edən ermənilər evləri ilə yanaşı meşələri də yandırmışdır.

Nəhayət 25 noyabr 2020-ci il tarixində noyabr ayının 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən Kəlbəcər rayonu işğaldan azad edilmiş, Azərbaycan Respublikasının Silahlı Qüvvələri rayona daxil olmuş və nəzarəti ələ almışdır.

Bu, qürurverici tarixdir. Ona görə ki, ordumuzun, komandanlığımızın qətiyyət və rəşadəti ilə düşmən böyük sahəsi olan ağır relyefli ərazilərimizi döyüşsüz təslim etməli olub. Razılaşmaya əsasən ermənilərin bu torpaqlardan çıxışı qısa zaman ərzində baş verməli idi. Ancaq Azərbaycan yenə bir humanizm nümayiş etdirdi. Düşmənə torpaqlarımızı tərk etmələri üçün əlavə zaman verildi. Düşmən yenə öz xainliyindən qalmadı, bədnam niyyətini ortaya qoydu. Onlara verdiyimiz bu zaman ərzində təbiətimizə, yaşayş məntəqələrinə çox sayda ziyan vurdular.

Kəbəcərdə yol boyu demək olar ki, bütün ağaclar kəsilmiş, düşmən apara bildiklərini aparmış, dağıda bilmədiklərini yandırmışdı. Evlərin tavanlarını belə sökmüşdülər. Adi işıq xətlərinin sütunlarını kəsib-doğramışdılar. Kəlbəcərdə yollar naqillərlə dolu idi. Elektrik stansiyalarının hamısı partladılmışdı. Yəni onlara verilən zaman kəsiyində mümkün qədər, maksimal dərəcədə Kəlbəcərə ziyan verməyə çalışmışdılar.

Bu bir il ərzində Kəlbəcərdə çox maraqlı və geniş miqyaslı işlər görülüb. Təkcə Ömər Aşırımını götürsək, yolda genişlənmə, bərkidilmə işləri aparılıb. Dağ relyefi olmasına baxamayaraq, orada bu bir il ərzində ağır işlər aparılıb. 12 kilometrdən artıq uzunluğu olan tunelin inşasına başlanılıb. Yolun bir hissəsi demək olar ki, yekunlaşmaq üzrədir. Bir neçə elektrik stansiyaları işə salınıb. Daşkəsən rayonu ərazisindən oraya əlavə elektrik xətti çəkilib. Bir il ərzində sıfırdan yol infrastrukturu qurulub. İnanırıq ki, bir neçə ilə ora tam abadlaşdırılacaq, məskulaşma başlayacaq. İnanırıq ki, gələn yaydan Kəlbəcərin o möhtəşəm turizm və kənd təsərrüfatı potensialı reallaşacaq.

Məqalədən belə bir nəticəyə gələ bilərik ki, Qarabağda infrastruktur yeniləndikdən və demoqrafik məsələlər həll olunduqdan sonra turizmin təşkili üçün kompleks layihələr həyata keçiriləcəkdir. Bu platformada dövlət, özəl sektor və alimlərin birgə səyi sayəsində Qarabağın turizm potensialı işlənib hazırlanmalı, təbii və antropogen turizm resursları nəzərdən keçirilməlidir. Kəlbəcər əsasən dağlıq ərazi olduğundan, dağçılıq və alpinizm turizmini xüsusi qeyd etmək istərdim.

Fikrimizcə, Kəlbəcərin təbiətinin zənginliyinə, qədimliyinə və tarixi-mədəni abidələrinə görə ekoturizm, etnoturizm zonası kimi inkişaf edəcək. Dünyanın ən gözəl turizm məkanlarından biri kimi turistlərin üz tutacağı region olacaq.

Qarabağda turizmin inkişafı ilə yanaşı, ermənilər tərəfindən saxtalaşdırılan abidələrin də öz tarixlərinə qovuşması həllini gözləyən vacib məsələlərdəndir. Fikrimcə, erməni faşizminin, vandalizminin izlərini bəşər tarixində maddiləşdirmək üçün işğaldan azad olunmuş rayonlarımızın hər birində dağıdılmış, xarabalığa çevrilmiş binaların nümunələri tarixi eksponat kimi saxlanmalıdır. Ermənilərin işğalçılıq

siyasətlərinin saysız-hesabsız cinayətlərinin tarixi sübutları kimi bu eksponatlar gələcək nəsillərə, dünyadakı soydaşlarımıza, ümumən dünya ictimaiyyətinə erməni faşizminin mahiyyətini əyani surətdə açıqlayacaq.

İşğaldan azad edilmiş ərazilərdə, o cümlədən Kəlbəcərdə yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir. Bu ərazilərin bərpası ilə çoxlu sayda yeni iş yerləri açılacaq. Belə ki, yeni infrastruktur layihələrinin həyata keçirilməsi vətəndaşlarımızın işlə təminatına müsbət təsir göstərəcək. İqtisadiyyatın inkişafı yeni iş yerlərinin açılmasına zəmin yaradacaq.

Müzəffər ordumuzun qələbəsi qeyri-neft sektorunun böyüməsinə, Azərbaycan iqtisadiyyatının daha da çiçəklənməsinə təkan verəcək.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Milli ensiklopediyası
2. Azərbaycanın fiziki coğrafiyası, Museyibov.M.A
3. Beynəlxalq turizmin coğrafiyası, Məmmədov C.A, Soltanova H.B, Rəhimov S.H


## SUMMARY

**Flora Karimova**

## ASSESSMENT OF THE NATURAL RESOURCES OF KALBAJAR FROM A TOURISM-RECREATION POINT OF VIEW

Once security is ensured in Karabakh, infrastructure is renewed and demographic issues are resolved, it seems realistic to implement complex projects for the organization of tourism. Thanks to the joint efforts of the state, the private sector and scientists, the tourism potential of NagornoKarabakh should be developed from scratch, and natural and anthropogenic tourism resources should be considered. Since Kalbajar is mainly a mountainous area, I would like to emphasize mountaineering and mountaineering tourism. I think that Kalbajar will develop as a zone of ecotourism and ethnotourism due to the richness of nature, antiquity, and historical and cultural monuments. It will be one of the most beautiful tourist destinations in the world.

Along with the development of tourism in Karabakh, one of the important issues awaiting resolution is the inclusion of monuments falsified by Armenians in their history. In my opinion, in order to materialize the traces of Armenian fascism and vandalism in the history of mankind, the samples of destroyed and ruined buildings in each of our liberated regions should be kept as historical exhibits. As historical evidence of the innumerable crimes of the Armenian occupation policies, these exhibits will clearly reveal the essence of Armenian fascism to future generations, our compatriots around the world and the world community in general.

The new economic value to be created in the liberated territories will many times exceed the financial costs of the Azerbaijani state. The restoration of these areas will create many new jobs. Thus, the implementation of new infrastructure projects will have a positive impact on the employment of our citizens. Economic development will create new jobs.

The victory of our victorious army will give impetus to the growth of the non-oil sector and the further prosperity of the Azerbaijani economy.

***Key words:*** *Tourism, recreation, economy, socio-cultural development, natural monuments, Kalbacar*

**РЕЗЮМЕ**

**Флора Каримова**

**ОЦЕНКА ПРИРОДНЫХ РЕСУРСОВ КАЛЬБАДЖАРА С ТУРИСТИЧЕСКО-РЕКРЕАЦИОННОЙ ТОЧКИ ЗРЕНИЯ**

После того, как в Карабахе будет обеспечена безопасность, обновлена инфраструктура и решены демографические вопросы, представляется реальным реализовать сложные проекты по организации туризма. Благодаря совместным усилиям государства, частного сектора и ученых туристический потенциал Нагорного Карабаха следует развивать с нуля, а также учитывать природные и антропогенные туристические ресурсы. Поскольку Кельбаджар в основном горный район, я хотел бы выделить альпинизм и альпинистский туризм. Думаю, что Кельбаджар будет развиваться как зона экотуризма и этнотуризма благодаря богатству природы, древности, памятникам истории и культуры. Это будет одно из самых красивых туристических мест в мире.

Наряду с развитием туризма в Карабахе, одним из важных вопросов, ожидающих решения, является включение в свою историю фальсифицированных армянами памятников. На мой взгляд, для материализации следов армянского фашизма и вандализма в истории человечества образцы разрушенных и разрушенных построек в каждом из наших освобожденных регионов должны быть сохранены как исторические экспонаты. Как историческое свидетельство бесчисленных преступлений армянской оккупационной политики, эти экспонаты ясно раскроют суть армянского фашизма будущим поколениям, нашим соотечественникам во всем мире и мировому сообществу в целом.

Новая экономическая ценность, создаваемая на освобожденных территориях, во много раз превысит финансовые затраты Азербайджанского государства. Восстановление этих территорий создаст много новых рабочих мест. Таким образом, реализация новых инфраструктурных проектов положительно скажется на занятости наших граждан. Экономическое развитие создаст новые рабочие места.

Победа нашей победоносной армии придаст импульс росту ненефтяного сектора и дальнейшему процветанию экономики Азербайджана.

***Ключевые слова:*** *Туризм, рекреация, хозяйство, социально-культурное развитие, памятники природы, Кальбаджар.*

**İRADƏ BAĞIROVA**
*Naxçıvan Dövlət Universiteti iradebagirova@yahoo.com*

# AZƏRBAYCANIN BEYNƏLXALQ LOGİSTİK İNFORMASİYA DƏHLİZİNƏ İNTEQRASİYASINDA "ZƏNGƏZUR DƏHLİZİ"NİN ROLU

*Təqdim olunan məqalədə ölkəmizin regional və beynəlxalq logistika sahəsində həyata keçirməkdə olduğu fəaliyyətlər araşdırılmışdır. Xüsusilə son zamanlarda ölkədə bu sahədə aparılan iqtisadi islahatlar ətraflı təhlil olunmuşdur. Burada, həmçinin Naxçıvan və Şərqi Zəngəzur regionlarının iqtisadi potensialları analiz edilmişdir. Zəngəzurun regional və qlobal geosiyasətdə rolu çox böyükdür.*

*Məqalədə regionlarda biznesə yeni başlayan kiçik və orta sahibkarlara yaradılan imkanlardan da bəhs edilir. Burada əhalinin məşğulluğunu təmin etmək üçün yeni investisiya qoyuluşları həyata keçirilir.*

***Açar sözlər***: *informasiya inteqrasiyası, informasiya cəmiyyəti, iqtisadi islahatlar, informasiya mübadiləsi, "Naxçıvan dəhlizi", "Zəngəzur dəhlizi", strateji hədəflər*

XX əsrin sonlarında digər sahələrdə olduğu kimi informasiya logistikası və nəqliyyat logistikası sahələrində də uğurlu addımlar atılmağa başlanıldı. Logistika material və informasiya axınlarının minimum vaxt və resurs sərf etməklə fəaliyyətin icra edilməsi və arzu edilən nəticələrin əldə edilməsi məqsədi ilə bu fəaliyyət sahələrinə inteqrativ yolla nail olmağa əsaslanır. Logistika hər şeydən öncə istehlakçılara yönəldiyindən, onların tələbatının maksimum ödənilməsinə xidmət edir. İnformasiyalaşmış cəmiyyətdə istehsalla məşğul olan müəssisələrin fəaliyyət prosesi köklü surətdə dəyişir [6].

Müasir iqtisadiyyatda logistikanın tətbiqi və inkişaf xüsusiyyətlərinə Azərbaycanda bu gün mövcud olan dinamik sosial-iqtisadi inkişaf, siyasi arenada əldə etdiyimiz uğurlar, işğaldan azad olunan torpaqlarımızın böyük iqtisadi potensialları, "Naxçıvan dəhlizi" və "Zəngəzur dəhlizi"nin gətirəcəyi uğurlar, eləcə də düşünülmüş və sürətli iqtisadi islahatların həyata keçirilməsi mexanizmi də müsbət mənada çox böyük təsir edəcəkdir.

Azərbaycanda daxili sahibkarlıq və biznes mühitinin formalaşması yeni logistik ideyalara malik sahibkarların, menecerlərin, marketoloqların və mühəndis-texniki kadrların yetişməsinə imkanlar yaradır.

Qərb ölkələrində logistika sahəsində fundamental mövqeyə malik mübadilə sferasının rolu artıq ölkə iqtisadiyyatında da qiymətləndirilməkdədir.

Azərbaycanda müasir elektron kommunikasiya sistemlərinin, elektron şəbəkələrin, rabitə və informasiya sistemlərinin mal mübadiləsinin, topdansatış ticarət formalarının həyata keçirilməsi, informasiya logistikasının təşkili, istehsal müəssisələrinin zəruri xammal və materiallarla optimal təmin edilməsi kimi zəruri məsələlər artıq sürətlə öz həllini tapmaqdadır.

Ölkəmizin geopolitik mövqeyinin yaratdığı tranzit potensialının üstünlüklərindən geniş istifadə edilməsində "Naxçıvan dəhlizi" və "Zəngəzur dəhlizi"nin çox böyük önəmi olacaqdır. Zəngəzurun regional və qlobal geosiyasətdə rolu çox böyükdür. Burada beynəlxalq normaların tələbləri baxımından vahid nəqliyyat sisteminin yaradılmsından söhbət gedir. Belə ki, bu nəqliyyat sistemi tək Azərbaycanla Naxçıvanı, Azərbaycanla Türkiyəni deyil, həmçinin də Avropa ilə Asiyanı birləşdirən əsas nəqliyyat sistemi olacaqdır [4].

20 % torpaqların işğaldan azad edilməsi nəticəsində yaranan yeni reallığa uyğun olaraq, Azərbaycanın əsas hissəsi ilə və Naxçıvan Muxtar Respublikasını birləşdirəcək Zəngəzur dəhlizi regionun tranzit-logistika potensialını artıracaqdır və beləliklə Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi"nin açılması region üçün zəruri bir faktora çevrilməkdədir. Azərbaycan Respublikasının prezidenti İ.Əliyevin də qeyd etdiyi kimi " ... Zəngəzur dəhlizi həm tarixi aspektdə, həm müasir geosiyasi reallıqlar prizmasından, həm də Cənubi Qafqazda sülh, barış və əməkdaşlığın bərpa olunmasında prinsipial əhəmiyyət daşıyır. Bu məsələ ərafında baş verən hadisələr göstərir ki, o, çoxparametrli, müxtəlif sahələri əhatə edən faktorlarla əlaqəlidir. Burada geosiyasi, siyasi, ideoloji, coğrafi, iqtisadi, sosial-mədəni, hüquqi və təhlükəsizlik məqamları bir-biri ilə

çulğaşıb. Məhz həmin səbəbdən Zəngəzur dəhlizinin işə salınması adi hadisə deyil - onun arxasında müxtəlif vacib faktorlar dayanır” [4].

Mən xüsusi ilə Zəngəzur dəhlizinin əhəmiyyətini vuğulamaq istəyirəm. Zəngəzur Dəhlizi Şərqdən Qərbə hər bir dövlətin istifadə edəcəyi ortaq dəhliz olacaqdır. Zəngəzur dəhlizi Azərbaycanı nəqliyyat və logistika mərkəzinə çevirir. Belə ki, Azərbaycanın tranzit ölkə kimi əhəmiyyəti artır və siyasi çəkisi artmağa başlayır. Beynəlxalq arenada Azərbaycan etibarlı partnyor kimi hamının iş görmək üçün müraciət edəcəyi etibarlı bir ölkəyə çevrilir. Qeyd edildiyi kimi həm kommunikasiyaların bərpa edilməsi, həm də Zəngəzur dəhlizinin istifadəyə verilməsi Türkiyə ilə Naxçıvan arasında dəmir yolu xəttinin çəkilməsi və bütövlükdə regionda dəmir yolu xətlərinin bərpa edilməsi bir tərəfdən türk dünyasını birləşdirəcək bir dəhliz olacaq, hansı ki, söhbət 1.1 trilyon dollarlıq nominal ümumi daxili məhsulu olan türkdilli ölkələrdən gedir, eyni zamanda bu region ölkələri üçün də olduqca vacibdir. Bu isə ölkəmizin iqtisadi yüksəlişi baxımından əlbəttə ki, çox faydalı olacaqdır. Çünki, bildiyimiz kimi, iqtisadi inkişafda yol əsas faktordur və işğaldan azad edilən torpaqlarımızda “Zəfər yolu”nun çəkilişi artıq tamamlanmışdır. Avropa İttifaqı, Afrikanın şimalı, Ərəbistan yarımadası və eləcə də regionda olan Orta Asiya və digər ölkələr üçündə ən əlverişli yük daşıma, nəqliyyat və kommunikasiya sisteminə çevriləcəkdir. Çünki, bu yolun açılışı müəyyən dərəcədə İran üzərindən nəqliyyat dəhlizinin olmasında maraqlı olmayan Qərb ölkələri üçün də ən cəlbedici, ən cazibədar yol olacaqdır. İpək yolu üçün də Çinlə Avropa İttifaqı arasındakı əlaqələrdə ən əhəmiyyətli və alternativ yollardan birinə çevriləcəkdir, çünki, yolun maştağından çox şey asılıdır. Eləcə də Rusiya üçün də çox əlverişli yoldur, bu Rusiyanın İrana, Fars Körfəzinə çıxışı baxımından faydalıdır, həm də bütövlükdə Ermənistanla və Türkiyə ilə quru əlaqələrinin qurulması baxımından əlahiddə əlverişli bir yoldur. Zəngəzur dəhlizinin Ermənistan üçün də əhəmiyyəti böyükdür, bu ölkənin səfalətdən, iqtisadi böhrandan yeganə çıxış yolu məhz bu dəhlizdən keçir. Bu yol açılarsa Ermənistan həm İrandan, həm də Rusiyadan daşımaları həyata keçirə biləcək. Eyni zamanda Türkiyə və Azərbaycanla iqtisadi əlaqələr qurmaq və bu əlaqələri genişləndirmək şansı əldə edəcəkdir. Bu proseslərə kompleks yanaşdıqda Gürcüstan üzərindən daşımalarda da azalma olacaqdır və əsas ağırlıq bu dəhlizin üzərinə düşəcəkdir. Rusiyanın bölgəyə bu cür yanaşması Rusiya-Gürcüstan münasibətlərinin də yumşalmasına şərait yarada bilər. Qeyd edək ki, Zəngəzur dəhlizi Zəngilanla Naxçıvanı birləşdirən 40 km.lik bir yoldur və bu dəhlizin açılması Azərbaycan-Ermənistan-Rusiya arasında imzalanan 10 noyabr 2020-ci il Bəyanatında ayrıca bənddə göstərilmişdir.

Naxçıvanla qərb rayonlarımız arasında birbaşa nəqliyyat dəhlizinin açılması muxtar respublikanın iqtisadi inkişafına hərtərəfli dəstək olacaq. 470 minə yaxın əhalisi olan muxtar respublikada sənayeləşmə sürətlə inkişaf etməkdədir. Belə ki, hazırda Naxçıvanda 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarından ibarət 384 növ məhsul istehsal olunur ki, əhalinin 108-i ərzaq, 242-si isə qeyri-ərzaq olmaqla 350 növdə məhsula olan tələbatı bilavasitə yerli imkanlar hesabına ödənilir. Kiçik Qafqaz sıra dağlarının yamaclarında yerləşən digər regionlarımız kimi Naxçıvan da yetərincə faydalı qazıntı yataqlarına malikdir. Muxtar respublika ərazisində 21 filiz yatağı aşkarlanıb. Aparılmış axtarış-kəşfiyyat işlərinin nəticəsi olaraq 5 filiz yatağı ehtiyatlar balansında qeydə alınıb. Bunlardan Parağaçay molibden, Gümüşlü və Ağdərə polimetal və Darıdağ mərgümüş yataqları sənaye mənimsənilməsinə cəlb olunub, Qapıcıq yatağı ehtiyatda saxlanılıb. Digər 16 yataqda ilkin qiymətləndirmə işləri aparılıb. Məhz sözügedən nəqliyyat dəhlizi bu yataqların hasilatdan sonra növbəti emal proseslərində işğaldan azad edilmiş ərazilərimizdə olan yataqlarla birgə işlənməsi üçün iri emal kompleksinin yaradılmasına imkan verəcəkdir.

Bu nəqliyyat dəhlizi təkcə faydalı qazıntıların işlənməsində inteqrasiyanı deyil, eyni zamanda iqtisadiyyatın digər sahələrində də çoxşaxəli inteqrasiyanı təmin edəcəkdir.

Muxtar Respublika bu nəqliyyat dəhlizi vasitəsilə işğaldan azad edilmiş rayonlarımızın yenidən qurulmasına öz töhfəsini verə bilmək üçün yetərincə xammal baxımından dəstək göstərə biləcək. Eyni zamanda azad edilmiş rayonlarımızda yaradılacaq yeni iqtisadi inkişaf konsepsiyasında özünəməxsus yer tutaraq bundan faydalanacaq.

Bu dəhliz türk dünyasının inteqrasiya problemlərinin həllində çox önəmli rol oynayacaq. Belə ki, Türkiyə Orta Asiya ölkələrinin iqtisadi sabitliyini dəstəkləsə, iqtisadi əlaqələri genişləndirməyə çalışsa da,

qərb bu işdə Türkiyəyə maneə olmağa çalışıb və Qarabağ faktorundan istifadə edərək Ermənistanı bufer zona kimi türk dünyasını dekordinasiya etməyə çalışmışdı.

Daha dəqiq desək, Türkiyənin Orta Asiyaya çıxışı Naxçıvan ərazisində qapadılırdı. Lakin türk coğrafiyasında güclü və dərin inteqrasiya üçün dövlətlər arasında güclü bir iqtisadi asılılıq formalaşdırılmalı və bir-birilərinin bazarlarına çıxış əldə etməli idilər. Türkiyənin 2019-cu ildə ümumi ixracının həcmi 171 milyard dollar, idxalı isə 200 milyard dollardan çox olmuşdu. Elə həmin il təkcə Rusiya ilə ticarət dövriyyəsi 22 milyard dollara çatsa da, Orta Asiya ölkələri ilə ümumi ticarət həcmi cəmi 8.5 milyard dolları ötə bilməyib. Göründüyü kimi, bu, elə də qənaətbəxş rəqəm deyil.

Deməli, bu nəqliyyat dəhlizi eyni zamanda Türkiyənin Orta Asiyaya çıxışını təmin etmiş olacaq. Bununla da təkcə ticarət dövriyyəsi deyil, böyük iqtisadi əlaqələr sistemi yaradılacaqdır. [5] Qardaş ölkənin Naxçıvan vasitəsilə Orta Asiyaya çıxışı isə qeyd-şərtsiz muxtar respublikanın iqtisadi inkişafına öz töhfəsini verəcək. Türkiyə və Orta Asiya iqtisadi əlaqələrinin ən əlverişli marşrutu üzərində olmaq Naxçıvanı bu axına qoşacaqdır.

Qeyd edək ki, həm Azərbaycan, həm də Türkiyə üçün xüsusən də ixracatın şaxələndirilməsi çox vacibdir. Təbii ki, konkret istiqamətlər var, bildiyiniz kimi 2021-ci il mart ayının 1-dən etibarən Azərbaycan və Türkiyə arasında yeni artıq sadələşdirilmiş ticarət rejimi qüvvəyə mindi və bu 15 əsas mal qrupları üzrə həm kvotaların, həm də rüsumların sıfırlanmasına gətirib çıxardı və təbii ki, bu iki ölkə arasında ticarət dövriyyəsinin genişləndirilməsi, artırılması baxımından çox vacib idi. Nəzərə alsaq ki, Türkiyə Azərbaycanın İtaliyadan sonra ən böyük ticarət tərəfdaşıdır və Azərbaycanla Türkiyə arasındakı ticarət dövriyyəsi artıq 4.5 milyard dollardır və qeyd edək ki, artıq İtaliya ilə olan ticarət dövriyyəsi təxminən 6 milyard dollardır. Türkiyə bir tərəfdən Azərbaycanın ümumi ticarət dövriyyəsində ikinci ən böyük tərəfdaşıdır və digər tərəfdən isə Türkiyə Azərbaycanın qeyri-neft ixracatının ən böyük tərəfdaşıdır. Azərbaycanın orta hesabla 2 milyard dollar illik qeyri-neft ixracatının təxminən 35 %-i Türkiyənin payına düşür. Nəqliyyat dəhlizinin digər bir böyük faydası onun bütün dəhlizlərdə olduğu kimi ənənəvi faydası, yəni daşımaçılıq - logistik faydasıdır. Odur ki, bu yol istər yük, istərsə də sərnişin daşımaçılığı sahəsində kifayət qədər vacib əhəmiyyətə sahib olacaq. Sirr deyil ki, paytaxtımızdan və digər ərazilərimizdən Naxçıvan Muxtar Respublikasına gediş-gəliş nə qədər zaman və maddi sərfiyyat hesabına başa gəlirdi. Lakin bu dəhliz yüklərə və insanlara həm ucuz, həm də qısa zamanda mənzil başında olmağa imkan verəcəkdir.

Yekun olaraq qeyd edim ki, işğaldan azad olunmuş ərazilərin bərpasının sosial-iqtisadi konsepsiyası hazırlanıb və genişmiqyaslı yenidənqurma işlərinə dövlət büdcəsindən 1,3 milyard ABŞ dolları ayrılmışdır. 2022-ci ildə də bu işlərə ən azı eyni məbləğdə vəsaitin ayrılacağı gözlənilir. "Ağıllı kənd təsərrüfatı" layihəsi tələb olunan insan əməyini optimallaşdıraraq məhsulların həcmini və keyfiyyətini artırmaq məqsədilə müasir informasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadə edən yeni bir sistem olacaqdır. Bildiyimiz kimi, işğaldan azad olunmuş ərazilərdə böyük şirkətlər üçün azad iqtisadi zonalar yaradılması planlaşdırılır ki, rəqəmsal infrastruktur quruculuğu aparıla, İKT potensialının artırılması üçün data mərkəzlər yerləşdirilə bilsin ki, bu da həm azad olunmuş ərazilərin, həm də bütün Qarabağ regionunun inkişafı üçün yeni imkanlar açacaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) /məqalələr toplusu, Bakı: "Poliart" MMC, 2017, 904 s.
2. "Azexport.az Made in Azerbaijan" ixrac icmalı. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, 2017/oktyabr №7
3. Vavilova Y.V., Borodulina L.P., (2008), Beynəlxalq ticarət. Dərs vəsaiti / rus dilindən tərcümə, Bakı: İqtisad Universiteti, 336 s.
4. http://newtimes.az/az/processestrends/7444/
5. https://azertag.az/xeber/
6. T.İmanov. Logistikanın əsasları. Bakı: 2005.

**SUMMARY**

**Irada Bagirova**

**TO THE INTERNATIONAL LOGISTIC INFORMATION CORRIDOR OF AZERBAIJAN THE ROLE OF THE NAKHCHIVAN CORRIDOR IN INTEGRATION**

The article examines the activities of our country in the field of regional and international logistics. In particular, the recent economic reforms in this area in the country have been analyzed in detail. It also analyzes the economic potential of Nakhchivan and East Zangazur regions. The role of Zangazur in regional and global geopolitics is great.

The article also discusses the opportunities created for small and medium entrepreneurs in the regions. New investments are being made here to ensure employment.

***Key words:*** *information integration, information society, economic reforms, information exchange, “Nakhchivan corridor”, “Zangazur corridor”, strategic goals.*

**РЕЗЮМЕ**

**Ирада Багирова**

**В МЕЖДУНАРОДНЫЙ ЛОГИСТИЧЕСКИЙ ИНФОРМАЦИОННЫЙ КОРИДОР АЗЕРБАЙДЖАНА РОЛЬ НАХЧИВАНСКОГО КОРИДОРА В ИНТЕГРАЦИИ**

В статье рассматривается деятельность нашей страны в сфере региональной и международной логистики. В частности, подробно проанализированы недавние экономические реформы в этой сфере в стране. Также анализируется экономический потенциал Нахчыванского и Восточного Зангезурского районов. Роль Зангезура в региональной и глобальной геополитике велика.

В статье также рассматриваются возможности, созданные для малого и среднего предпринимательства в регионах. Сюда вкладываются новые инвестиции для обеспечения занятости.

***Ключевые слова:*** *информационная интеграция, информационное общество, экономические реформы, обмен информацией, «Нахчыванский коридор», «Зангезурский коридор», стратегические цели.*

**NİGAR BABABƏYLİ**
*Naxçıvan Dövlət Universiteti oguzturan82@mail.ru*

# DÜZƏNLİK QARABAĞIN ARAZBOYU HİSSƏSİNİN LANDŞAFTLARININ EKOTURİZM CƏHƏTDƏN QİYMƏTLƏNDİRİLMƏSİ

*Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, eləcə də onun ekoturizm mərkəzlərindən sayılan Qarabağda son 30 ildə heç bir coğrafi tədqiqatlar aparılmamışdır. Məqalədə zəngin təbii potensiala malik düzənlik Qarabağın landşaft kompleksləri müasir aerokosmik metodlarla araşdırılmış, alınan nəticələr ümumiləşdirilmiş, ərazinin əlverişli landşaft kompleksləri turizm baxımından qiymətləndirilmişdir. Nəticədə təklif və tövsiyyələr verilmişdir.*

***Açar sözlər:*** *ekoturizm, landşaft kompleksləri, məsafəli tədqiqatlar, yarımsəhralar, quru çöllər, qrunt suları, bitki örtüyü*

Qarabağın, eləcə də onun cənub Arazboyu hissəsinin olduqca mürəkkəb və zəngin landşaft kompleksləri mövcuddur. Bu zənginliyin başlıca səbəbi ərazinin oroqrafik quruluşu, iqlim formalaşdıran amillərin müxtəlifliyi, bitki və torpaq örtüyünün müxtəlifliyidir.

Tədqiqat obyektinin landşaft kompleksləri araşdırılarkən çoxzonalı aerokosmik tədqiqatlarla yanaşı bu sahədə aparılan ənənəvi araşdırmaların nəticələrindən istifadə edilmişdir (Востокова Е.А., Абрасимов И.К. 1977), (Виноградов Б.В. 1984), (Bababəyli N.S., Qurbanov Ə.K. 2021).

Kiçik Qafqaz təbii vilayətinin cənubunda yerləşən Qarabağın Arazboyu düzənlikləri Qarabağ silsiləsi və Qarabağ vulkanik yaylasının cənubunda yerləşən Həkəri fiziki-coğrafi rayonunun ərazisində yerləşir. Ərazinin təbii şəraitinin və landşaftının müxtəlifliyi eyni zamanda təbii ehtiyyatların, xüsusilə landşaftın aparıcı indiqatorları olan bitki və torpaq örtüyünün zənginliyinə səbəb olmuşdur. Burada regional iri oroqrafik vahidlərlə yanaşı bir sıra nisbətən aşağı dərəcəli tirələr, platolar və çökəkliklər də nəzərə çarpır.

Kür dağarası çökəkliyi təbii vilayətinin, eləcə də, Qarabağın landşaftı son illərdə qismən M.C.İsmayılov, M.İ.Yunusov və başqaları tərəfindən araşdırılmışdır (M.C.İsmayılov, M.İ.Yunusov, E.Ş.Məmmədbəyov, S.Y.Quliyeva. 2015).

Ərazinin müsbət oroqrafik vahidləri ilə yanaşı, onun landşaftını formalaşdıran mənfi relyef formaları da geniş yayılmışdır. Bu relyef formalarından ən böyüyü uzunluğu 80 km-ə çatan Arazboyu çökəklikdir. Allüvial-prolivüal çöküntülərdən ibarət çökəkliyin dibi yastı akkumlyativ terrasların formalaşması ilə səciyyələnir. Cənub-qərbdən şimal-şərqə doğru uzanan çökəkliyin şimal, şimalqərb, eləcə də qərb hissəsində yerləşən dağ silsilələri və onların cənub, cənub-şərqə doğru uzanan çıxıntıları, xüsusilə Qarabağ silsiləsinin cənub qurtaracağında yerləşən Göyən düzü özünəməxsus landşaft xüsusiyyətləri ilə seçilir. Burada yerləşən komplekslərin formalaşmasında Qarabağ silsiləsindən və Qarabağ yaylasından ayrılan Köndələn, Bazarçay, Həkəri, Oxçuçay, Qozluçay, Quruşay, İnciçay və digər kiçik çayların da rolu olduqca böyükdür.

Azərbaycanın nisbətən uzun çaylarından sayılan və uzunluğu 113 km-ə, hövzəsinin sahəsi isə 2570 $km^2$-ə çatan Həkəri özünə Şalva və Qoçsu çaylarını qataraq Bazarçayla birləşir. Çay hövzəsinin əsas hissəsi dağlıq yaylada yerləşdiyi halda onun az bir hissəsi dağətəyi düzənlikdədir. Çay hövzəsinin əsas landşaftı tipik dağ-meşə qəhfeyi, karbonatlı və şabalıdı torpaqlar üzərində yerləşən kol və çoxillik otlar landşaftından ibarətdir. Hövzənin zəngin ekoturizm potensialı vardır. Belə ki, düzənliyin şimalında onun ərazisindən kənarda yerləşən hündürlüyü 2725 m olan Böyük Kirs dağı, həmçinin hövzəni əhatə edən İşıqlı (3552 m), Qızılboğaz (3584 m), Dəlidağ (3618 m), Şiştəpə (3413 m), Qollu (2536 m) və Allaqaya (2583 m) zirvələri ekzotikliyi ilə seçilir. Burada turizmin müxtəlif növlərinin, xüsusilə alpinizm, qayalara dırmanmaq, dağ-xizək idmanı inkişaf etdirilməsi üçün əlverişli imkanlar vardır.

Düzənlik Qarabağın Arazboyu hissəsinin digər mühüm çayı uzunluğu 82 km olan Quruçaydır. (şəkil 1) Çay hövzəsinin əsas hissəsi Fizuli rayonu ərazisində yerləşməkdədir. Həkəridən fərqli olaraq, çay bir neçə müxtəlif landşaft tipindən keçir. Çox qısa məsafədə landşaft qurşaqlarının birbirini əvəz edməsi landşaftın ümumi mənzərəsini daha da gözəlləşdirir.



***Şəkil 1. Quruçay çayı orta axarlarda. (Kosmik foto)***

Ərazinin böyük çaylarından biri olan Köndələnçay 102 km uzunluğa, 536 $km^2$ su toplayıcı hövzəyə malikdir. Çaxmax sıra dağlarından başlayan çay, Qarabağ silsiləsinin şərq yamaclarından qidalanaraq okean səviyyəsindən 90 m yüksəklikdə Araz çayına tökülür.

Ərazinin landşaft kompleksləri dörd əsas iqlim tipində formalaşmışdır. Onlardan birincisi Cəbrayıl-Zəngilan xətti üzrə Araz çayı arasında yerləşən mülayim-isti, yayı quraq keçən yarımsəhra və quru-çöl iqlimidir. Bu iqlim tipinin cənub -qərbində qışı quru mülayim-isti və yayı quru mülayimisti iqlim tipləri formalaşmışdır. Göründüyü kimi, Azərbaycanda mövcud 9 iqlim tipinin 4-ü, eləcə də Azərbaycana təsir göstərən 8 tip hava kütləsinin hamısı landşaftın formalaşmasına təsir göstərməkdədir.

**Yarımsəhra landşaftları** ərazinin iqliminin aridliyi ilə əlaqədar olub, qeyd olunduğu kimi, Arazboyunun allüvial, allüvial-proluvial düzənliklərini tutur. Bu landşaft tipinin yarnması iqlimlə bərabər həm də ərazinin eko-geomorfoloji şəraiti ilə bağlıdır. Azərbaycan Respublikası ərazisinə yağıntı verən əsas hava kütlələri şimaldan və qərbdən daxil olur. Düzənliyin şimalında və qərbində yerləşən dağlar göstərilən hava kütlələrinin daxil olmasının qarşısını alır və bu səbəbdən səhra elementlərinin üstün olduğu yarımsəhra landşaftları formalaşır.

Yarımsəhra komplekslərində dördüncü dövrün çay və sel mənşəli çöküntüləri geniş yayılmışdır. Burada buxarlanmanın miqdarı təxminən 300 mm-ə çatır. Havanın orta illik temperaturu 14 ilə 14,5 ℃ arasında dəyişir. Maksimum temperatur isə 40℃ -yə yaxınlaşır. Bu göstəricilərin hər ikisi burada balneoloji turizm xüsusilə ağciyər xəstəliklərinin müalicəsi üçün mərkəzin yaradılmasına imkan yaradır. Landşaft tipinin əsas bitki formasiyaları yovşan, yovşan-efemer, yovşan-şoranotu bitkiləridir. Bu komplekslərin məhsuldarlığı aşağı olub torpaq səthinin yalnız 2530, bəzi yerlərdə isə 70%-ni təşkil edir. Sellərin yaratdığı yarğanların gilli yamacları bitki örtüyündən tamamilə məhrumdur. Bitki qruplaşmalarında yovşan (*Artemisia Hanseniana*) dominiondur. Bundan başqa, qırtıc (*Poa bulbosa*), buğdayı ot (*Aegilops*), quramit (*Lolium*) və b. geniş yayılmışdır.

Qurşağın Arazboyu hissəsində qrunt sularının səthə yaxın olduğu yerlərdə yulğun kolları geniş olmayan olduqca dar zolaq yaratmışdır. Yarımsəhra landşaft kompleksinin şimal-şərq hissəsində torpaq-bitki örtüyünün zəif inkişaf etdiyi yerlərdə şoranlıqlar nəzərə çarpır (şəkil 2).



**Şəkil 2. Şoranlıq**

Landşaftın əsas torpaq tipləri şoran və şorakətli torpaqlardır. Yarımsəhra landşaftının bitki örtüyü vegetasiya xüsusiyyətləri ilə də digər landşaftlardan fərqlənir. Birillik bitkilər vegetasiya dövrünü yazın axırı və yayın əvvələrində başa vururlar. Yalnız şoran və quru kol bitkiləri isti dövrdə payızın sonuna qədər inkişaf edirlər. Bəzi efemerlər torpaqda rütubətin artdığı və havaların isindiyi payız və qış aylarında bəzən yenidən intensiv inkişaf edə bilirlər. Qeyd etmək lazımdır ki, digər landşaft kompleksləri kimi son dövrlərdə burada da antropogenləşmə və antropogen landşaftların inkişafı xeyli güclənmişdir. 2020-ci ilin sonlarında Qarabağda başlanan 44 günlük Vətən Müharibəsi təbii landşaftın deqradasiyasına səbəb olmuşdur. Bu prosesə əvvəllər geniş istifadə olunan suvarma əkinçiliyi və bununla əlaqədar şumlanması landşaftın təkrar şorlaşmasına şərait yaratmışdır. **Quru çöl landşaftları** yarımsəhra landşaftı ilə sərhədlənib ondan daha hündürdə yerləşir. İkinci landşaft mərtəbəsini təşkil edən bu landşaft qurşağı Arazboyu düzənliyin yuxarı hissəsini, alçaq dağlığın aşağı kəsimlərini əhatə edir. Bu landşaftın əsas torpaq tipi birinci landşaftda olduğu kimi, açıq boz, boz və ibtidai boz, çəmən boz torpaqlardan ibarətdir. Eləcə də daha yuxarı kəsimlərdə boz-qəhvəyi torpaqlara rast gəlinir. Bu torpaqlar yuxarıya doğru tünd şabalıdı torpaqlarla əvəz olunur. Eləcə də 800-1000 m hündürlüyə qədər sahələrdə şabalıdı torpaqların digər növlərinə rast gəlinir. Qərb hissədə Həkəri, Bazarçay, Oxçuçay çay hövzələrində dağ-meşə qəhvəyi torpaqları, eləcə də dağ şabalıdı karbonatlı torpaqlar üzərində kol fraqmentləri və tək-tək ağaclara rast gəlinir. Bu landşaft qurşağı cənub-qərb hissədə yarımsəhra landşaft qurşağını çox ensiz bir sahədə kəsib keçərək Araz çayı ilə birləşir. Ərazinin oroqrafik quruluşundan, iqlim şəraitindən və maili düzənliyi təşkil edən süxurların litoloji tərkibindən və onların sututumundan, sukeçirmə qabiliyyətindən, eləcə də oroqrafik maneələrin yerləşməsindən asılı olaraq bu landşaft tipi özündən altdakı və üstdəki landşaftlara müxtəlif yerlərdə fərqli ölçüdə daxil olur. Bu ərazini kəsib keçən çay dərələri geomorfoloji şəraitdən, xüsusilə yamacların meylliliyindən və dellüvial-proluvial şleyflərin ölçüsündən, coğrafi yerləşməsindən asılı olaraq görünüşü dəyişir.

Dağətəyi düzənliyin quru-çöl landşaftı yayı quraq keçən mülayim isti iqlim tipində yay aylarında orta temperatur 22-26 ℃ arasında dəyişir. Hündürlüyə doğru havanın istilik tutumunun dəyişməsi ilə əlaqədar bir neçə dərəcə azalır. Ən soyuq ayın orta temperaturu isə -2, +2 ℃ arasında tərəddüd edir. Havanın mütləq maksimal temperaturu 37 ℃, mütləq minimum isə -22 ℃ olmuşdur. Bu göstərici cənub-qərbdən şimal-şərqə doğru dəyişir. Landşaftın əsas torpaq tipləri açıq şabalıdı, şabalıdı və tünd şabalıdı torpaqlardır. Bu torpaqları bir-birindən fərqləndirən əsas cəhət humusun miqdarının dəyişməsidir. Belə ki, bir qayda olaraq bütün düzənlik boyu hündürlüyün artması ilə humusun miqdarı da artmış olur.

Yarımsəhra landşaftına nisbətən bitki aləmi zəngindir. Bitki örtüyünün əsas tərkibi yovşan (*Artemisia absinthium*), topal yovşan (*Festuca sp.*), qaratikan (*Paliurus spina-christi*), lalə (*Papaver*), eləcə də arid meşə bitkiləri, meşə, kollar və arid kolluqlardan ibarətdir (şəkil 3).



***Şəkil 3. Quru çöldə meşə-kolluqlar***

Quru çöllərin təbii iqlim şəraiti və relyefi suvarma üçün su mənbələrinin zənginliyi, istilik ehtiyyatlarının çoxluğu burada kənd təsərrüfatının müxtəlif sahələri ilə yanaşı turizm- istirahət bazalarının yaradılmasına imkan yaradır. Nisbətən yüksək maili düzənliklərin quru çöl komplekslərində meşə zolaqlarının və areallarının təşkili, su təminatının yaxşılaşdırılması nəticəsində buranı Azərbaycanın füsunkar turizm mərkəzlərindən birinə çevirmək olar.

**Dağətəyi düzənlik meşə landşaftı** düzənliyin qərb hissəsində Qarabağ yaylasının cənub davamını təşkil edən sıra dağ ətəyində formalaşır.

Yarımsəhra və quru çöl landşaftları ilə əhatələnən bu landşaft kompleksində hidrogeoloji və mezoiqlim şəraitinin əlverişli olması ilə əlaqədar düzənlik meşələri və çəmən meşələri formalaşmışdır. (şəkil 4)

Yayı quraq keçən yarımsəhra və quru çöl iqlimi şəraitində uzunluğu çox da böyük olmayan çay dərələrində qrunt sularının bolluğu, eləcə də hövzənin yuxarı hissəsində atmosfer yağıntıları və qar sularının nisbətən çoxluğu meşələrin imkişafına müəyyən şərait yaradır. Burada ağacların əsas tərkibi şərq və Araz palıdıdır. Meşələrin qırılması nəticəsində onların yerində kolluqlar və seyrək meşəli çəmənlər yaranmışdır. Landşaftın deqradasiyasına müharibənin nəticələri də səbəb olmuşdur. Müdafiə məqsədi ilə hərbi istehkamların və yolların çəkilişi, torpaqların azad edilməsi zamanı ətraf mühitdə tarazlığın pozulması landşaftda ekoloji gərginliyin kəskin artmasına səbəb olmuşdur. Bəzi yerlərdə ekoloji şəraitin dəyişməsi rütubətsevən kolların quraqlığa daha davamlı qaratikan (*Paliurus spina-christi*), yemişan (*Crateagus L.*), itburnu (*Rosa canina*) kolları ilə əvəz olunmasına şərait yaratmışdır. Bəzi yerlərdə isə əksinə qırılmış meşələrin yerində əmələ gəlmiş kolluqlar ağaclarla əvəz olunmuşdur.

Bu meşələrin bərpa edilməsi və genişləndirilməsi yollarından biri süni meşələrin salınması və bu zaman ağacların növ tərkibinə yəni landşafta uyğun növlərin seçilməsinə xüsusi fikir verilməlidir. Yeri gəlmişkən bizim fikrimizcə salınacaq bu meşələrdə ərazi üçün səciyyəvi olmayan qoz (*Iuglaus* ), Qafqaz xurması (*Diospyros Lotos*), akasiya (*Acacia*), nisbətən quraq yerlərdə isə iydə (*Elacagnus*) ağaclarının salınması məqsədəuyğun olardı. Salınacaq meşələrin növ tərkibinin zənginliyi eyni zamanda turizm baxımından bu meşələrin ekzotikliyini artırmış olacaqdır.



*Şəkil 4. Həkəri hövzəsində düzənlik-meşə landşaftı*

**Çala və çala-çəmən landşaftı** düzənlik daxilində lokal xarakter daşıyır. Çalalarda uzun müddət rütubətin saxlanılması torpaqların şorakətli olmasına və ya şorlaşmasına səbəb olmuşdur. Vaxtilə otlaq kimi istifadə olunan bu landşaft özünü təbii olaraq bərpa etmişdir. Kompleksin əsas bitki örtüyü qarğı (*Arundo donax*) ilə yanaşı, dəvətikanı (*Alhagi pseudoalhagi*), biyan (*Glycyrrhiza glabra*), dəvəqulağı (*Limanium meyer*), soviç yovşanı (*A.Sovitsiana*), süsən (*İris klattii*) və başqalarıdır.

Landşaft komplekslərinin özünəməxsus zəngin heyvanlar aləmi olmuşdur. Bunlardan canavar (*Canis*), gəmiricilərlə qidalanan kürən və qırmızı rəngli xırda tülküyə landşaft tiplərinin hər yerində rast gəlmək olur. Gəmiricilər əsasən yarımsəhra və quru çöllər üçün səciyyəvidir. Onlardan porsuq (*Meles meles*), çöl siçanı (*Microtus arvalis*) və müxtəlif növ siçanlarla yanaşı ərəb dovşanına rast gəlinir. Quşlardan kəklik (*Alectoris kakelik*), torağay (*Alaudidae*), ağbaş kərkəz (*GYPS FULVUS HABL.),* ev yapalağı (*Bubo*), sığırçın (*Sturnus),* ağ leylək (*Ciconia ciconia*) və s. yayılmışdır.

Sürünənlərə (*Reptilia*) hər yerdə rast gəlinir. Bunlardan təlxə (*Platyceps*), gürzə (*Vipera*), kərtənkələ (*Lacerta agilis*), tısbağa (*Testudines*), buğumayaqlılardan əqrəb (*Astrologiya*), qaraqurd

(*Latrodestus*) rast gəlinir. Vaxtilə daha çox müşahidə olunan və müəyyən zamanlarda Araz çayı dərəsinə qədər enən dağ keçilərindən Dağıstan dağ keçisi (*Capra*), bezuar keçisi (*Capra aegagirus*), eləcə də muflon (*Ovis musimon*) -dağ qoyunlarının kökü demək olar ki, ərazinin uzun müddətli işğal zamanı məhv edilmiş və ya onların bir hissəsi öz yerlərini tərk etmişlər. Onları mühafizə etməklə çoxaltmaq və Böyük Qafqaz vilayətində olduğu kimi, planlı ovçuluq turizmi inkişaf etdirmək mümkündür. R.M.Məmmədovun qeyd etdiyi kimi, respublikamızda landşaftın potensialı hərtərəfli, eləcə də turizm baxımından qiymətləndirilməli və ondan səmərəli istifadə olunmalıdır. Bizcə, bu problem ilk növbədə Qarabağın işğaldan azad olunmuş ərazilərində həyata keçirilməlidir.

Beləliklə, landşaftlar daxilində biomüxtəlifliyi qorumaq eyni zamanda təbiəti mühafizə tədbirlərini artırmaqla düzənlik daxilində qoruq və ya milli parkların yaradılması təşkil edilməli, bu qoruq yasaqlıq və milli parklarda elmi tədqiqat işləri aparmaqla yanaşı, ərazini Azərbaycanın turizm mərkəzlərindən birinə çevirmək mümkündür.

## ƏDƏBİYYAT


1. Bababəyli N.S.,Qurbanov Ə.K. Quruçay çayının fiziki-coğrafi şəraitinə dair. Beynəlxalq konfransın materialları. BDU, oktyabr 2021, səh. 48-54
2. İsmayılov M.C., Yunusov M.İ., Məmmədbəyov E.Ş., Quliyeva S.Y. Kür dağarası çökəkliyi təbii vilayətinin fiziki-coğrafi səciyyəsi. Azərbaycan Respublikasının coğrafiyası, III cild Regional Coğrafiya səh. 230-262
3. Məmmədov R.M., İsmayılov M.C. Azərbaycanda landşaftların təbii ehtiyyat potensialının qiymətləndirilməsi və ondan səmərəli istifadə edilməsi. ACC. Bakı: 2013.
4. Виноградов Б.В. Аэрокосмический мониторинг экосистем. Москва: Наука, 1984, 320 с

5. Востокова Е.А. , Абрасимов И.К. Ландшафтная индукация природных процессов по материалам сьемки из космоса. Геодезия и картография. 1977 с.58-62
6. Рустамов С.Г., Джафаров Б.С., Гаджибеков Н.Г. Водный баланс бассейнов рек Малого Кавказа. Баку: Элм, 1969, 209 с.

**SUMMARY**

**Nigar Bababayli**

**ECOTOURISM ASSESSMENT OF LANDSCAPES OF THE ARAZ REGION OF KARABAKH PLAIN**

In the territories of the Republic of Azerbaijan liberated from occupation, as well as in Karabakh, which is considered an ecotourism center, no geographical research has been carried out over the past 30 years. In the article the landscape complexes of lowland Karabakh, possessing a rich natural potential, have been investigated by modern aerospace methods, the results obtained are generalized, and favorable landscape complexes of the territory have been assessed. As a result, relevant suggestions and advice were issued.

***Key words:*** *ecotourism, landscape complexes, remote sensing, semi-deserts, dry steppes, unconfined ground water, vegetation cover.*

**РЕЗЮМЕ**

**Нигяр Бабабейли**

**ОЦЕНКА ЛАНДШАФТОВ ПРИАРАКСИНСКОЙ ЧАСТИ РАВНИННОГО КАРАБАХА С ЭКОТУРИСТИЧЕСКОЙ ТОЧКИ ЗРЕНИЯ**

На освобожденных от оккупации территориях Азербайджанской Республики, а также в Карабахе считающемся экотуристическим центром, за последние 30 лет не производились никакие географические исследования. В статье современными аэрокосмическими методами исследованы обладающие богатым природным потенциалом ландшафтные комплексы равнинного Карабаха, полученные результаты обобщены, а также были оценены благоприятные ландшафтные комплексы территории. В результате были выданы соответствующие предложения и советы.

***Ключевые слова:*** *экотуризм, ландшафтные комплексы, дистанционные исследования, полупустыни, сухостепи, грунтовые воды, растительный покров.*

**ÜLKƏR HƏSƏNZADƏ**
*Naxçıvan Dövlət Universiteti ulker.hasanzade89@gmail.com*

# ŞUŞANIN TURİZM İMKANLARININ DƏYƏRLƏNDİRİLMƏSİ

*Son illər Azərbaycanda turizmin inkişafı istiqamətində böyük işlər görülsə də, bu sahədə ən böyük potensiala malik olan Qarabağ və ətraf rayonlar işğala görə prosesdən kənarda qalıb. Dörd fəsildə füsunkar təbiəti, təmiz havası, şəfalı suları, tarixi abidələri ilə qonaqları heyran edən bu diyar artıq ermənilərdən azad edilib. Bu gün gündəmin əsas mövzularından biri də işğaldan azad edilmiş torpaqlarımızda, xüsusilə Şuşa şəhərində turizmin inkişafıdır. Şuşa şəhərinin zəngin mədəni, tarixi irsi var ki, bu istiqamətdə də müvafiq turizm marşrutlarının qurulması planlaşdırılır.*

***Açar sözlər:*** *turizm, rekreasiya, sosial-mədəni inkişaf, tarixi abidələr, işğal, Şuşa*

Şuşa təbiətlə mədəniyyətin mükəmməl birləşdiyi məkandır. Qarabağ xanlığının paytaxtı olmuş Şuşa Kiçik Qafqaz dağlarının yaratdığı gözəlliklərin qoynunda yerləşir. Təbiətin öz möcüzələrini əsirgəmədiyi bu şəhərin yetişdirdiyi şairlər, rəssamlar, memarlar, musiqiçilər ölkənin tarixi-mədəni irsinə öz töhfələrini vermişdir. Bu səbəbdən də, Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir.

Azərbaycanın ədəbi, mədəni və ictimai həyatında xüsusi iz buraxmış görkəmli şəxsiyyətlərin arasında şuşalılar az deyil. Sonuncu Qarabağ xanı Mehdiqulu xanın qızı Xurşidbanu Natəvan təkcə gözəl şeirlər müəllifi və rəssam kimi deyil, həm də xeyriyyəçilik fəaliyyəti ilə ad çıxarmışdı. Natəvan Şuşaya su kəməri çəkdirmiş və bu bulaq "Xan qızı bulağı" kimi tanınmışdır.

Şuşa buranın səfalı havası və bulaqlarının suyu ilə böyümüş məlahətli səs sahibləri və dahi musiqiçilərin vətəni olduğu üçün onu "Şərqin konservatoriyası" da adlandırırlar. Azərbaycan peşəkar musiqi sənətinin banisi və Şərqin ilk operasının müəllifi, dahi bəstəkar Üzeyir Hacıbəyli, musiqi mədəniyyətimizdə silinməz izlər buraxmış Xan Şuşinksi, Seyid Şuşinski, Bülbül, Niyazi, Cabbar

Qaryağdı oğlu, Qurban Pirimov, Seyid Şuşinski, Rəşid Behbudov, Fikrət Əmirov, Süleyman Ələsgərov Şuşanın yetişdirdiyi görkəmli musiqiçilər sırasındadırlar.

Tanınmış yazıçılar Sülyeman Sani Axundov, Əbdürəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, şairə Xurşudbanu Natəvan, şair Qasım bəy Zakir, rəssam Toğrul Nərimanbəyov, heykəltaraş Cəlal Qaryağdi və başqaları bu şəhərdə doğulmuşdur.

Əsası XVIII əsrin ortalarında Pənahəli xan tərəfindən qoyulan şəhər-qala ilk illərdə Pənahabad, sonralar isə bu yerin qədim adı ilə Şuşa adlandırılıb. Şuşa şəhərinin salınmasının qədim izləri bu gün də öz əzəmətini saxlayır. Onların arasında şəhərin tarixi mərkəzini əhatə edən qala divarlarının qalıqları xüsusilə seçilir. Şuşa Qarabağ xanlığının süqutuna, yəni 1822-ci ilə qədər xanlığın paytaxtı olmuşdur.

Şuşanın turizm tarixinə nəzər salsaq görərik ki, Şuşa şəhərində turizm fəaliyyətinin rəsmi təşəkkülü 1935-1936-cı illərə təsadüf edir. Şuşada ilk istirahət evi 1936-cı ildə istifadəyə verilib. Oradakı pansionat isə 1964-cü ildə yaradılıb, 1970-ci ildən sanatoriyaya çevrilib. Sanatoriya mədəbağırsaq xəstəliklərinin müalicəsi üzrə ixtisaslaşıb. Bütün keçmiş SSRİ-də məşhur olan Şuşa Turşsu turist bazası isə 1970-ci ildən fəaliyyətə başlayıb və tez bir zamanda SSRİ məkanında məşhurlaşıb. 1971-ci ildə fəaliyyətə başlamış Xankəndi Səyahətlər və Ekskursiyalar Bürosu (SEB) və 1972-ci ildə istifadəyə verilmiş Şuşa "Şəfa" Turist Bazası da bu obyektlər sırasındadır. Turizm və Ekskursiyalar Şurası Qarabağda turizm təyinatlı obyektlərin tikintisini, bütövlükdə bölgənin turizm potensialından istifadə olunması prosesini sonralar yüksələn xətlə davam etdirib. Ardıcıl olaraq 1984-cü ildə Şuşa Səyahətlər və Ekskursiyalar Bürosu, 1986-cı ildə Ağdam Səyahətlər və Ekskursiyalar Bürosu, 1988ci ildə isə Ağdam "Şahbulaq" Turizm Bazası məhz bu şuranın balansında yaradılıb.

Şuşada respublika və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə tabeli 17 pioner düşərgəsi, respublika üzrə 1 ixtisaslaşmış uşaq sanatoriyası yerləşirdi. Ən böyük şəhərlərdə belə bu sayda məktəb düşərgələri olmayıb. Şuşanın təkrarsız təbiəti, təmiz havası düşərgə layihələrinin buraya salınmasında əhəmiyyətli rol oynayıb. XXI əsrdə "Ev turizmi" anlayışı Azərbaycanın bölgələrində yeni-yeni təşəkkül tapsa da, Şuşada "Ev turizmi" hələ ötən əsrin ortalarından mövcud olub. Şuşa şəhəri, eləcə də rayonun

Xəlfəli və Turşsu kəndlərində təxminən 2 min ailədən artıq rayon sakini mənzillərini turistlərə kirayəyə verirmiş.

Şuşa bütün SSRİ-nin əsas turizm mərkəzlərindən biri idi. Şuşanın infrastrukturu elə qurulmuşdu ki, gələn turist orada hərtərəfli istirahətini təmin edə bilirdi. Şəhərdə geniş yay kinoteatrı fəaliyyət göstərirdi. Təbii ki, Şuşaya həm də müalicə məqsədilə gəlirdilər. Şuşanın quru və saf havası ağciyər, astma, nəfəs borusu xəstəliklərindən əziyyət çəkənlər üçün əvəzsiz idi. O cümlədən, şəhərin mərkəzinə yaxın Turşsu müalicəvi suyu Şuşaya gələnlərin sevimli yeri idi. Şuşanın əsas gəlir mənbəyi də turizm biznesi hesab olunurdu. Bu da bədxah erməniləri həmişə qıcıqlandırırdı. Çünki Dağlıq Qarabağda mənzərəli yerlər çox olsa da, Şuşa öz qədimliyi və təmiz havası ilə bütün SRRİnin əsas turizm mərkəzlərindən biri hesab olunurdu.

Şuşa dağlarında xüsusi gözəlliyi olan bir gül var. Bu gül dünyanın heç bir yerində bitmir.

Təbiətin Şuşa dağlarında yaratdığı bu möcüzə xarı bülbül adlanır. Gülün üst tərəfi elə formadadır ki, sanki gülün üstünə bülbül qonub və oradaca donub qalıb.

Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, əfsanəvi “Cıdır düzü” yerli camaatın və oraya təşrif buyuran qonaqların ən sevimli yeri idi. Turşsu istirahət və müalicə zonası kimi tanınırdı. Şuşadan 40 km. aralıda – Laçın yolunun üstündə yerləşir. Sol tərəfdən isə Daşaltı çayı axır. Turşsu şəfalı və müalicəvi vannaları ilə məşhur idi.

Daşaltı dərəsinin heyrətamiz gözəlliyinin əhatəsində yerləşən Çətir şəlaləsinin adı onun əmələ gətirdiyi çətirəbənzər forma ilə bağlıdır. Mamırla örtülmüş daş mağaranın üstündən axan suyun yaratdığı mənzərə və şəlalənin səsi insanı ovsunlayır. Bu səbəbdən də şəlalənin ətrafı şuşalıların və Şuşaya qonaq gələnlərin sevimli istirahət məkanlarından biri olub.

Şuşanın gəzməli görməli yerlərindən biri də Yuxarı Daşaltı idi. Xalq arasında bu istirahət yerinə Şəmilin bağı da deyirdilər. Bu yerin özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, istirahət guşəsi Daşaltı çayının üstündə, “Ağzıyastı kaha” yerləşən Üçmıx dağının düz altında, çeşmə ətrafında yerləşir.

Təbiəti ilk baxışdan adamı valeh edən Şuşanı seyrə çıxarkən hər tərəfdə bir təbiət möcüzəsinə rast gəlmək mümkündür. Şəhərin cənub tərəfində yerləşən Cıdır düzünün gözəlliyini isə sözlə təsvir etmək mümkün deyil. Cıdır düzündən 200 metr aşağıda axan Daşaltı çayı dərəsinə və Kiçik Qafqaz dağlarına açılan möhtəşəm mənzərəni seyr etmək olar. Qədim dövrlərdən bu düzənlik cıdır yarışlarının, çövkən oyununun, Novruz bayramı şənliklərinin keçirildiyi məkan olmuşdur. Sanatoriya və istirahət evlərində dincələn turistlər daim həmin yerlərə gəzintilərə çıxır, təbiətin Şuşaya bəxş etdiyi gözəllik qarşısında öz təəccüblərini gizlədə bilmirdilər. Əhalinin və turistlərin əsas istirahət yerlərindən biri olan “Cıdır düzü”ndə hər il may ayında “Xarı-bülbül” mahnı festivalları keçirilirdi.

Şuşa şəhəri işğaldan azad olunduqdan sonra 2021-ci ilin may ayında Cıdır düzündə uzun illərdən sonra yenidən “Xarı bülbül” musiqi festivalı təşkil edilmişdir.

Şuşa işğal edilərkən, bu quldurlar tarixi abidələrimizi vəhşicəsinə dağıtmış və yerlə yeksan etmişdir.

Erməni silahlı qüvvələri Şuşanı işğal edərkən 15 ədəd etnoqrafik nümunə, 5 ədəd mis məmulatı, 2 ədəd gümüş xəncər, 1 ədəd daş qazan, 20 ədəd daş-qaşla bəzədilmiş müxtəlif əşya və digər qiymətli əşyaları Şuşa şəhər muzeyindən; 5 ədəd qiymətli qədim xalçanı, 4 ədəd kilimi, 5 ədəd xurcunu, 1 ədəd qiymətli nadir çırağı, Üzeyir Hacıbəyovun portretini və çoxsaylı digər qiymətli tarixi əşyaları Qarabağ tarix muzeyindən, Mir Möhsün Nəvvabın və Bülbülün ev muzeyindən olduqca çoxlu qiymətli və nadir əşyaları qarət etmişlər. Şuşa muzeylərinin qiymətli sərvətləri - rəsm və heykəltəraşlıq əsərlərini, xalça və xalça məmulatlarını, xalq tətbiqi sənət nümunələrini, arxeoloji tapıntıları, çox gərəkli sənədləri, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyalarını, digər qiymətli materialları Ermənistana aparmışlar.

Şuşa şəhərinin ərazisi qədim abidələrlə zəngin idi. Ümumiyyətlə, şəhərdə 549 qədim bina, ümumi uzunluğu 1203 metr daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. O cümlədən, 72 mühüm sənət və tarixi abidələri, dövlət xadimlərinin və başqa tanınmış şəxslərin evləri olmuşdu. Şuşanı məşhurlaşdıran qədim memarlıq və incəsənət

abidələrinin hamısını sadalamaqla qurtarmaz. Burada təkcə rəsmən qeydə alınmış 170 memarlıq abidəsi və 160 incəsənət abidəsi vardır.

Abidələrin çoxu XIX əsrdə yaşamış memar Kərbəlayı Səfixan Qarabağı tərəfindən tikilmiş və həmin dövrün ən məşhur nəqqaşı Kərbəlayı Səfərəli tərəfindən bəzədilmişdir.

Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi,

İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı

Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə..Haqverdiyevin, Q.Zakirin, M.M.Nəvvabın, S.Axundovun, N.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri, Realni məktəbinin binası, Qız məktəbi və s. əsas tarixi mədəniyyət nümunələridir.

Ötən əsrin yetmişinci illərində Azərbaycan hökuməti iki tarixi qərar qəbul etmişdi. Həmin qərarların yerinə yetirilməsi Şuşanın sosial və mədəni inkişafında böyük əhəmiyyət kəsb etmişdir. Şəhərdə yeni sənət ocaqları yaradılmış, bərpa, tikinti və yaşıllaşdırma işlərində yüksək nailiyyətlər qazanılmışdır. Bir sözlə, hər ötən il şəhərdə dərin iz qoymuşdu. Tarixi-memarlıq və şəhərsalma abidəsinin yüksək bədii əhəmiyyəti nəzərə alınaraq 1977-ci ildə Şuşa tarixi-memarlıq qoruğuna çevrilmişdi.

Şəhərin əsas tarixi abidələri arasında memarlığı ilə seçilən qədim məscidlər xüsusi yer tutur. Onlardan Yuxarı Gövhərağa və Aşağı Gövhərağa məscidləri öz görkəmi ilə fərqlənirlər. Hər iki məscid XIX əsrdə İbrahimxəlil xanın qızı Gövhərağanın sifarişi ilə Qarabağda əksər məscidlərin memarı olmuş Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir. Yuxarı Gövhərağa məscidinin minarələrinin naxışlarını isə digər qarabağlı məşhur Mir Möhsün Nəvvab işləmişdi. Memarlıq üslubu və minarələri ilə diqqət çəkən məscidlər erməni təcavüzü nəticəsində dağıntıya məruz qalmışdı.

2021-ci ilin may ayında Şuşada təməli qoyulan yeni məscidin ümumi görünüşü şəhərin azad olunduğu günün – 8 noyabr tarixinin şərəfinə səkkiz rəqəmini, minarələri isə on biri xatırladacaq.

Azərbaycan xalçaçılıq sənətinin qədim mərkəzi olan Şuşada Qarabağın əsrarəngiz təbiətindən ilhamlanaraq toxunan parlaq rəngli, zərif naxışlı xalçaların şan-şöhrəti uzaq ölkələrə qədər yayılmışdır. Şuşada ötən əsrin 80-ci illərində Qarabağ xalçaçılıq ənənələrinin yaşadılması məqsədilə general Səməd bəy Mehmandarova məxsus XVIII əsr abidəsi olan malikanədə xalça muzeyi yaradılmışdır. Təəssüf ki, Şuşanın işğalı zamanı muzeydə qorunan eksponatların yalnız bir qismini xilas etmək mümkün olmuşdur. Uzun müddət Bakıda Azərbaycan Xalça Muzeyində saxlanılan bu eksponatlar artıq öz doğma evinə qaytarılır.

XVIII əsr Azərbaycan ədəbi mühitində xüsusi yer tutan Molla Pənah Vaqifin (1717-1797) yaradıcılığının böyük hissəsi məhz Şuşa ilə bağlı olmuşdur. Öz lirikasında realizmə, xəlqiliyə, nikbinliyə geniş yer verən Vaqif həmçinin İbrahimxəlil xanın vəziri vəzifəsinə də yüksəlmişdir. Vaqifin ədəbi və ictimai fəaliyyətini əbədiləşdirmək üçün 1982-ci ildə məşhur Cıdır düzündə, şairin həlak olduğu və dəfn edildiyi qayalı təpədə ucaldılmış məqbərə Şuşanın görkəmli tikililərindən hesab olunur. Birinci Qarabağ müharibəsi illərində dağıdılmış məqbərədə hazırda təmir işləri aparılır.

Azərbaycan hakimiyyətinin işğaldan azad olunmuş Şuşa şəhərində tarixi mədəniyyət abidələrinin bərpası istiqamətində apardığı genişmiqyaslı tədbirlər, bərpa-quruculuq işləri və ən yüksək standartlara uyğun olan mehmanxanaların açılması Azərbaycanın mədəniyyət paytaxtının həm də turizm mərkəzi olacağından xəbər verir.

Turist marağı baxımından dünyada çox populyar olan Xarıbülbülü turistlər Şuşada müşahidə

edəcək. Hazırda Şuşada yenidən qurulan Park oteldə işlər başa çatdıqdan sonra otel qonaqlarını müasir səviyyədə qarşılaya biləcək. Eyni zamanda, bu şəhərdə "Otel və Konfrans Mərkəzi"nin təməli qoyulub. Şuşada keçirilən Vaqif Poeziya Günləri və "Xarıbülbül" festivalı, bərpa olunan tariximədəniyyət abidələri turistlərin böyük marağına səbəb olacaq. Həmçinin qədim mədəniyyət paytaxtında beynəlxalq və regional miqyasda müxtəlif tədbirlər də təşkil ediləcək.

Türkiyə və Azərbaycanın illərin sınağından keçən dostluq və qardaşlığının bəhrəsi olan "Şuşa bəyannaməsi" regionun hərtərəfli inkişafına yönəlib. Şuşada canlı olaraq seyr etmək Qarabağın turizm cazibədarlığını xüsusi olaraq artırır. Vaxtilə Şuşada yerləşən məşhur "Şuşa", "Gülablı" sanatoriyaları, Şuşanın istirahət evləri, məktəblilərin yay tətilində dincəlməsini təmin edən düşərgələr görülən yenidənqurma işlərindən sonra öz füsunkar görkəmlərini tamamilə dəyişəcəkdir. Azərbaycan mədəniyyətinin incisi Şuşa şəhərinin tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verir. Bu tədbirlər planının bir hissəsi olaraq mayın 12də Şuşada "Xarıbülbül" hotelinin, avqustun 29-da isə "Qarabağ" hotelinin yenidənqurmadan sonra açılışı olmuşdur. Hotellər qonaqların qalması və rahat istirahət etməsi üçün bütün zəruri infrastrukturla təchiz olunub. Bu cür obyektlərin istifadəyə verilməsi Şuşanın turizm potensialının möhkəmləndirilməsində çox mühüm rol oynayacaq.

Azərbaycan hakimiyyətinin işğaldan azad olunmuş Şuşa şəhərində tarixi mədəniyyət abidələrinin bərpası istiqamətində apardığı genişmiqyaslı tədbirlər, bərpa-quruculuq işləri və ən yüksək standartlara uyğun olan mehmanxanaların açılması Azərbaycanın mədəniyyət paytaxtının həm də turizm mərkəzi olacağından xəbər verir.

## ƏDƏBİYYAT

1. Qarabağ turizm məkanına çevriləcək -https://www.respublica-news.az › news › qarabagturiz...
2. Qarabağın zəngin turizm potensialı var- https://xalqqazeti.com › news
3. Çoxşaxəli turizm potensialı-https://ikisahil.az › post › 239986-choxshaxeli-turizm-p...

## SUMMARY

**Ulker Hasanzade**

## ASSESSMENT OF SHUSHA TOURISM OPPORTUNITIES

Although great work has been done in Azerbaijan in recent years to develop tourism, Karabakh and the surrounding regions, which have the greatest potential in this area, have been left out of the process due to the occupation. This land, which amazed visitors with its charming nature, fresh air, healing waters and historical monuments in four seasons, has already been liberated from Armenians. One of the main topics on the agenda today is the development of tourism in our liberated lands, especially in the city of Shusha. Shusha has a rich cultural and historical heritage, and it is planned to build appropriate tourist routes in this direction.

***Key words:*** *tourism, recreation, socio-cultural development, historical monuments, occupation, Shusha*

## РЕЗЮМЕ

**Улкер Гасанзаде**

## ОЦЕНКА ТУРИСТИЧЕСКИХ ВОЗМОЖНОСТЕЙ ШУША

Несмотря на то, что в последние годы в Азербайджане была проделана большая работа по развитию туризма, Карабах и прилегающие районы, которые обладают наибольшим потенциалом в этой области, остались вне процесса из-за оккупации. Эта земля, поражавшая посетителей своей очаровательной природой, чистым воздухом, целебными водами и историческими памятниками в течение четырех сезонов, уже освобождена от армян. Одна из главных тем повестки дня сегодня - развитие туризма на наших освобожденных землях, особенно в городе Шуша. Шуша имеет богатое культурно-историческое наследие, и в этом направлении планируется построить соответствующие туристические маршруты.

***Ключевые слова:*** *туризм, отдых, социокультурное развитие, исторические памятники, род занятий, Шуша.*

**HƏBİB ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti habib.zeynalov085@gmail.com*

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN TURİZM DƏYƏRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

*Məqalədə Qarabağ regionun coğrafi mövqeyi və relyefindən, turizmin növlərindən və turizmrekreasiya ehtiyatlarından, həmçinin turizm marşrutlarından söz açılmışdır. Göstərilmişdir ki, işğal altında olan zaman turizm infrasturukturu və turizm sənayesi mənfur düşmən tərəfindən yararsız hala salınmışdır. Qeyd olunmuşdur ki, işğaldan azad olunandan sonra Qarabağda bütün sahələr kimi turizm sektorunda da müəyyən olunan prioritet istiqamətlər dəqiqləşdirilmişdir. Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanan Fərman və Sərəncamlar azad olunan ərazilərin turizm əhəmiyyətinin qiymətləndirilməsi, bu sahədə davamlı inkişaf strategiyası hazırlanması məsələlərini sürətləndirmişdir.*

*Həyata keçirilən çoxistiqamətli tədbirlərin tərkib hissəsi olaraq nəqliyyat infrasturkturun lahiyyələndirilməsi və gerçək nəticələrin ifadəsi olaraq islahatların da əhəmiyyətindən bəhs olunmuşdur.*

***Açar sözlər:*** *turizmin xüsusiyyətləri, turizmin növləri, turizm marşrutları, Qarabağda turizm, Qarabağda turizmin inkişafı*

Qarabağın mühüm coğrafi mövqeyə, qədim tarixə və mədəniyyətə, yeraltı və yerüstü sərvətlərə, nadir təbii iqlim xüsusiyyətlərinə, münbit torpağa, zəngin flora və faunaya sahib olan, turizm potensialı kifayət qədər geniş olan bu region, ölkəmizdə turizm sənayesinin inkişafına yeni imkanlar yaradır. İşğaldan azad olunmuş ərazilər zəngin resurslarına görə ölkəmizdə turizmin çiçəklənməsində rolu olan qabaqcıl regionlarından biri sayılır.

Zəngin turizm potensialına malik olan Qarabağ regionunda mövcud turizm ehtiyyatları və yeni infrasturkturların təmin olması nəticəsində reginonda turizm kompleksinin yaradılması üçün xüsusi imkanlar var. Burada turizmin çox növləri - tarixi-mədəni turizmi, müalicə-sağlamlıq turizmi, diniziyarət turizmi, kənd turizmi, ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi və digər növlərin inkişafı üçün bütün imkanlar vardır.

Qarabağ regionu işğal altında olduğu müddətdə bu regionda turistləri yerləşdirmə obyektləri, xidmətlə təminat səviyyəsi, eskursiya və əyləncə xidməti haqqında məlumat vermək təbii ki, mümkün deyildir. Yalnız Tərtər rayonunda turizmlə əlaqədar bəzi göstəriciləri qeyd etmək olar. Tərtər rayonunda mehmanxana və mehmanxana tipli müəssisələrdə nömrələrin sayı 15-dir. Bu müəssisələrin istismarından əldə olunan gəlir 2005-ci ilin statistikasına əsasən 2,7 min, 2014-cü ilin statistikasına əsasən isə 10,1 min manat olmuşdur.

Murovdağ silsiləsinin yüksək zirvələri bəzən il boyu qarlı olur. Bu qış turizmi üçün əlverişlidir.

Azərbaycanda yeganə olan vulkan mənşəli göllər Laçın və Kəlbəcər rayonları ərazisində yerləşir. Turizm-rekreasiya sərvəti kimi əhəmiyyəti böyük olan Böyük və Kiçik Alagöllər, Qaragöl, eyni zamanda mineral bulaqlar, iqlim-balneoloji şəraiti və yerləşdiyi ərazinin təbiətinin cəlbediciliyi və işğaldan azad olunmuş ərazilərdə kurort-rekreasiya məqsədləri üçün əlverişli təbii amillərdir.

Bu regionda zəngin mineral su ehtiyatları mövcuddur. Qarabağ vulkanik yaylasında mövcud olan mineral su ehtiyatları müxtəlif kimyəvi tərkibdə olurlar. Müalicə əhmiyəti olan mineral sular bölgənin yeraltı və yerüstü sərvətlərindən biri sayılır. Burada mövcud mineral bulaqların sayı 120-dən çoxdur. Ən mühüm mineral su mənbələri Şuşa rayonu ərazisində yerləşir, hansı ki, bunlara Turşsu, Şırlan, İsa bulaqlarını qeyd edə bilərik. Şuşa şəhərindən 17 km-lik məsafədə yerləşən Turşsu mineral bulağı kəmər vasitəsi ilə Şuşa şəhərinə axıdılırdı. Mineral su mənbələrinin iri yataqları Kəlbəcər rayonunda Yuxarı İstisu və Aşağı İstisu, Turxun, Keşdək, Qoturlu, Vəng, Zülfüqarlı, Laçın da Minkənd soyuq su tipli mineral bulağı və başqa aternativi olmayan İstisu bulaqları müalicəvi əhəmiyyətə malikdir və eyni zamanda kurort-sağlamlıq təsərrüfatının inkişafına imkan açan bir sıra amillər daxil idi ki, bu da regionda Şuşa və Ağdam rayonlarında balneoloji dağ-iqlim kurortu, istirahət zonası üçün fəaliyyət göstərən "Şuşa", "Gülablı"

sanatoriyaları, Şuşanın istirahət evləri var idi ki, uzun illər ərzində Şuşada fəaliyyət göstərmiş dağ-iqlim kurortunda komfort iqlim, mineral sular insanların müalicə və istirahətinin səmərəli keçməsinə imkan yaradırdı və 1990-cı illərədək burada İstisu kurort-müalicə sanatoriyası fəaliyyət göstərirdi.

Bu region tarixi-mədəni abidələrlə zəngindir. Regionda dünya əhəmiyyətli memarlıq və arxeoloji abidələr vardır. Dünya əhəmiyyətli memarlıq abidələrinə Ağdam rayonunun Xaçın Türbəli kəndində türbə, Cəbrayıl rayonunda 11 tağlı və 15 tağlı Xudafərin körpüləri; dünya əhəmiyyətli arxeoloji abidələrə Füzuli rayonunda Azıx, Tağlar mağaraları, Ağdam rayonunun Əfətli kəndində Çalağantəpə yaşayış yeri, Quzanlı qəsəbəsində Leylantəpə yaşayış yeri, Ağdam şəhərində

Üzərliktəpə yaşayış yeri, Tərtər rayonunda Borsunlu kurqanları, Xocalı rayonunda Xocalı kurqanları, Cəbrayıl rayonunun Xubyarlı kəndində Niftalı kurqanları aid edilir. Regionda ölkə və yerli əhəmiyyətli tarix və mədəniyyət abidələri mövcuddur. Regiona nəzər yetirsək qeyd edə bilərik ki, ölkə əhəmiyyətli memarlıq abidələrindən alban məbədləri ilə Xocavənd (16 alban məbədi), Xocalı (6 alban məbədi) rayonları daha zəngindir. Xocavənd rayonunda ən qədim tarixə malik alban məbədi IV-VI əsrlərə aid edilir (Süsənlik kəndi). Kəlbəcərin Çıldıran, Qarnakar, Qocaqot, Həsənriz kəndlərində alban məbədləri, ilk və orta tunc dövrünə aid yaşayış yerləri, nekropollar; Qubadlı rayonunun Əliqulu uşağı kəndində Göy qala, mağara məbədi, Dəmirçilər kəndində türbələr, Balalıhəsənli kəndində sığınacaqlar; Laçın rayonunda Cicimli kəndində türbələr, kurqanlar, Qoçaz kəndində mağara məbədi, Zəngilan rayonunun Əmirxanlı kəndində Qız qalası, Yenikənd və Şərə fan kəndlərində sərdabələr, Məmmədbəyli kəndində səkkizguşəli türbə aid edilir. Cəbrayıl, Füzuli, Ağdam rayonlarının tarixi kəndlərində çox sayda qala, məscid və digər inanc yerləri vardır. Əfsuslar olsun ki, bölgənin bütün sərvətləri, o cümlədən turizm-rekreasiya ehtiyatları erməni işğalçıları tərəfindən istismar edilmiş və dağıdılmışdır.

Turizm mərkəzi olan Şuşada XVIII əsrdə yaşamış xanların evləri, sarayları, qəsrləri, məscidlər, türbələr çoxdur. Şəhərin coğrafi mövqeyinin xüsusiyyəti, təbiətinin gözəlliyi və tarixi abidələrinin zənginliyi rus diyarşünası V.İ. Seqalın yazılarında, Vereşaq Genin və Timin rəsmlərində əks edilmişdir. Şuşada qədim tarixə malik olan qala divarları, Qarabağ xanlarının iqamətgahları, X.Natəvanın ev muzeyi, M.P.Vaqifin məqbərəsi, Daşaltı dərəsi, Xəzinə Qala mağarası, Alban kilsələri olmasıyla yanaşı Qafqaz konservatoriyası adlandırılan Qarabağ Azərbaycanın xalq musiqisi və poeziyası diyarıdır. Turşsu və İsa bulağı Qarabağın poeziya və musiqi məclislərinin təşkilində mühum yer kimi tanınırdı. Ölkəmizdə yeganə olaraq Şuşa rayonu ərazisində bitən nadir Xarı bülbül çiçəyi Qarabağın musiqi və gözəllik rəmzinə çevrilmişdir və uzun illər Şuşa sanatoriya dağ kurort birliyi, Şəfa turizm kompleksi, 9 mərtəbəli Qarabağ mehmanxanası turistlərin ixtiyarında olmuşdur. İşğalda olan zaman bu obyektlərin böyük əksəriyyəti və rayonlarda uzun illər fəaliyyət göstərən vahid nəqliyyat-kommunikasiya sistemi mənfür düşmənin təcavüzü nəticəsində dağıdılmışdır.

Turistlərin diqqətini cəlb edən və dünya ölkələrində populyarlığı ilə seçilən “Xarıbülbülü” Qafqaz konservatoriyası adlandırılan Şuşada canlı olaraq seyr etmək Qarabağ regionunda turizmin canlanmasında mühim rolu vardır. Azərbaycan mədəniyyətinin incisi olan Şuşa şəhərinin tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına şərait yaradır. Bu layihələr planının bir hissəsi olaraq 12 may tarixində Şuşada “Xarıbülbül” otelinin, 29 avqust tarixində isə “Qarabağ” otelinin yenidənqurmadan sonra açılışı olmuşdur. Otellər səyahət edənlərin gecələməsi və rahat istirahətinin təmin olunması üçün bütün önəmli infrastrukturla təchiz olunub və bu cür turist obyektlərin istifadəyə verilməsi Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın turizm potensialının möhkəmləndirilməsində mühüm yol açacaqdır.

Hər rayonun özünəməxsus zəngin turizm - rekreasiya ehtiyyatlarının olması regionun turizm potensialından bəhs edir. Onu qeyd etmək olar ki, turistlərin diqqətini cəlb edəcək, qədim tarixə söykənən və tarixi yaşayış məskənlərindən biri olan “Azıx mağarası” Füzuli rayonun Quruçay vadisi yaxınlığında yerləşir. Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdən Kəlbəcər və Laçın rayonlarını qeyd etmək olar ki, onların unikal ərazi quruluşunun fərqliliyi həmin yerlər üçün qış-yay, tarixi-mədəni, dini, müalicəvi və digər turizm növlərinin regionda inkişafına böyuk imkanlar yaradır. Bununla yanaşı, qədim tarixi və musiqi

incisi olan Şuşada tarixi-mədəni abidələrin, resursların tanıtımı, festivalların keçirilməsi və Ağdam rayonunda işgüzar turizm imkanlarının araşdırılması və mövcud planlar əsasında həyata keçirilməsi turizmin inkişafına yol açan amillərdir.

İşğaldan azad olunmuş ərazilərin zəngin yaşıllıqlara və unikal təbii iqlim xüsusiyyətlərinə malik olması Qarabağ regionunda aqroturizmin və kənd-yaşıl turizmin inkişafına şərait yaradır. Qarabağ regionu işğaldan azad edildikdən sonra burada yeni turizm lahiyyələrinin hazırlanması və nəqliyyat xətlərin açılması və yenidən qurulması, kəndlərdə infrastrukturun yaradılması və sürətlə genişlənməsi və bütün zəruri şəraitin yaradılması regionun kəndləri turistlər üçün istirahət məkanları olacaqdır. Mənfur düşmən bu regionu işğal altında olan zaman Qarabağ və ətraf rayonları dağıdaraq, infrastrukturu məhv etmiş vandallıq nümayiş etdirmişlər. Bütün bunlara baxmayaraq, yaxın gələcəkdə Qarabağ Azərbaycanın əsas turizm istiqamətinə çevriləcək.

Qarabağ regionunda yeni otellərin tikilməsindən öncə həmin ərazilərin təhlükəsizliyin təmin edilməsi, vacib infrastrukturlarla təchiz olunması və bu regionun sakinlərinin geri qayıdışının təmin edilməsi qarşıda duran əsas məsələdir. Bu regiona turizm marşrutlarına uyğun olaraq, ilk marşrut "Yolumuz Ağdamadır" devizi altında təşkil olunur, daha sonra "Yolumuz Qarabağadır" konsepsiyası ilə marşrutlar qurulur və həmin marşrutlar daxili turistlərin istifadəsinə veriləcək".

*Dövlət başçımız hələ ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş videokonfransdakı çıxışında bildirmişdir: "Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Ona görə indidən turizm marşrutları işlənib hazırlanmalıdır ki, artıq həyat bu bölgəyə qayıdandan sonra vaxt itirmədən turizm sektoru da inkişaf etsin. İndidən beynəlxalq turizm sərgilərində - pandemiyadan sonra bu sərgilər bərpa ediləcək. Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstərilməlidir ki, biz bu bölgəni, doğrudan da, dünya üçün çox cəlbedici bölgə kimi təqdim edək. Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək".*

Qarabağ regionunu 44 günlük zəfərimizdən, qələbəmizdən sonra həmin ərazilərin bütövlükdə sosial-iqtisadi inkişafı məqsədilə, o cümlədən turizmlə bağlı xüsusi layihələr həyata keçirilib və bu layihələrdən nəqliyyat infrasturturun da mühüm askeptlərdən olan "Zəngəzur dəhlizinin" açılması və regionda Füzuli hava limanının istifadəyə verilməsi və Azərbaycan Respublikası Prezidentinin Sərəncamı əsasında Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi Füzuli, Xocavənd və Şuşanın turistlər üçün əlverişli olmasını təmin edəcəkdir. Bununla yanaşı, Kəlbəcər-Laçın istiqamətinə Göygöl rayonundan başlayaraq magistral yol salınması nəzərdə tutulmuşdur. Bölgəyə turistlərin əlçatanlığının təmin edilməsi üçün dəmir yol xətlərinin bərpası mühüm hesab edilir və bununla bağlı ümumi uzunluğu 45 kilometr olan Bərdə-Ağdam dəmir yol xəttinin bərpası üzrə işlər həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı turizmin və turizm klasterlərinin inkişafı, təşviqedici və tənzimləyici siyasət mexanizmlərinin işlənilməsi, innovativ texnologiya alətlərinin tətbiqi, turizm infrastrukturu, dövlət-özəl əməkdaşlıq və digər prioritet istiqamətlər əsasında Qarabağ Turizm Strategiya layihə sənədi hazırlanıb və təqdim olunmuş bu layihə nəin ki, Qarabağ regionun, həttda ölkəmiz üçün böyuk potensiallı turizmin inkişafına sahib olacaqdır.

## ƏDƏBİYYAT

1. H. Soltanova.Azərbaycan Respublikasında turizm və onun inkişafı. Dərs vəsaiti. Bakı: 2015.
2. Ə.T.Əsgərov, B.Ə.Bilalov, Ç.G.Gülalıyev. Ekoloji turizm. Dərs vəsaiti: Bakı: 2011.
3. M.Abadov. Azərbaycan turizmi və onun inkişaf problemləri. Dərs vəsaiti. Bakı: 2014.
4. https://azertag.az/xeber/Turizm_ve_rekreasiya_zonalarinin_yaradilmasi_uchun_Qarabagda_muhum_turizm_potensiali_movcuddur-1897937
5. http://www.serqqapisi.az/index.php/humanitar/m-d-niyy-t/28655-ishghal-sonras-garabaghigtisadiyyat-vae-turizmin-inkishaf.html
6. https://www.respublika-news.az/news/qarabag-turizm-mekanina-cevrilecek
7. https://www.gununsesi.info/qarabagin-turizm-plani
8. https://xalqqazeti.com/mobile/az/news/91889
9. https://ikisahil.az/post/239986-choxshaxeli-turizm-potensiali-qarabagin-shohretini-daha-daartiracaq

**SUMMARY**

**Habib Zeynalov**

**ASSESSMENT OF THE TOURISM VALUE OF THE LIBERATED TERRITORIES**

The article discusses the geographical position and relief of the Karabakh region, types of tourism and tourism-recreation resources, as well as tourist routes. It was stated that during the occupation, the tourism infrastructure and tourism industry were rendered useless by the hated enemy. It was noted that after the liberation of the occupation, the priority areas identified in the tourism sector, as well as in all areas of Karabakh were clarified. Decrees and Orders signed by the President of the Republic of Azerbaijan have accelerated the assessment of the importance of tourism in the liberated areas and the development of a sustainable development strategy in this area. The importance of reforms in the design of transport infrastructure and the expression of real results was also discussed as part of the multifaceted measures taken

***Key words:*** *Features of tourism, types of tourism, tourist routes, tourism in Karabakh, development of tourism in Karabakh.*

**РЕЗЮМЕ**

**Хабиб Зейналов**

**ОЦЕНКА ТУРИСТИЧЕСКОЙ ЦЕННОСТИ ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЙ**

В статье рассматриваются географическое положение и рельеф Карабахского региона, виды туризма и туристско-рекреационные ресурсы, а также туристические маршруты. Было заявлено, что во время оккупации туристическая инфраструктура и индустрия туризма были приведены в негодность ненавистным противником. Было отмечено, что после освобождения оккупированных территорий были уточнены приоритетные направления, определенные в туристической сфере, а также во всех районах Карабаха. Подписанные Президентом Азербайджанской Республики указы и распоряжения ускорили оценку важности туризма в освобожденных районах и разработку стратегии устойчивого развития в этой сфере. Важность реформ в проектировании транспортной инфраструктуры и выражения реальных результатов также обсуждалась в рамках принятых разноплановых мер.

***Ключевые слова:*** *Особенности туризма, виды туризма, туристические маршруты, туризм в Карабахе, развитие туризма в Карабахе.*

**ÜLVİYYƏ ƏLİYEVA**
*"Naxçıvan" Universiteti ulviyye9393@gmail.com*

# XXI ƏSRDƏ OTELÇİLİYİN İNKİŞAFI

*Otel turistlərə gecələmə imkanı yaratmaq və bunun yanında yemək, əyləncə və sair xidmətləri göstərmək məqsədi ilə qurulmuş, onların müvəqqəti yaşayacağı obyektdir. Günümüzdə işlətdiyimiz (d-hotel) ifadəsi fransız kökənli olub, Latınca hospitium ya da hospes sözlərindən törəmişdir və hospitality qonaqpərvərlik deməkdir. Sənaye inqilabı XXI əsrin ortalarına qədər, səyahətlər, ümumiyyətlə, iş və ixtisaslar üzrə həyata keçirilirdi. 1850 ilə 1950-ci illər arasındakı yüz il müddətində, iş xaricində səyahət edənlərin sayında böyük artım olmuşdur. Bu yeni dövürdə səyahət səbəblərinin ən başlıca tələbi "tətil etməkdir". Müasir otel formalarının yaranması XVIII əsrdə baş versə də, ilk böyük otellərin və otel sənayesinin quruluşu XXI əsrdə gərçəkləşmişdir. XX əsrin ortalarından etibarən isə, dünayının iqtisadi baxımdan inkişaf etmiş ölkələrində (ilk olaraq Şimali Amerika və Avropada) böyük həcmdə, hər sahədə avtomobil və digər nəqliyyat vasitələrinin inkişafı səyahətlərin geniş sürətdə yayılmasına təkan vermişdir. Günümüzdə otelçilik fəaliyyəti, yerli və beynəlxalq olmaq üzrə qabaqcıl iqtisadi hadisə sayılır.*

***Açar sözlər**: otel, dünya otelləri, yeni dizayn otellər, orbital otellər*

Turizmdə otellərin həm dolayı, həm də birbaşa yerli əhalinin gəlirlərinə və kapital qoyuluşunun genişləndirilməsində böyük payı vardır. Xidmət sektorunda inkişaf etmə istiqamətli bir çox qonağın ehtiyaclarını qarşılamaq üçün, yeni, fərqli, yaradıcı yollara əl atırlar. "Xidmətdə sərhəd yoxdur" ifadəsiylə hərəkət edən sahibkarlar və turizmimçilər, otel idarəçiləri bu fikri öz təcrübələrinə əks etdirərək, müştərilərə təklif olunan xidmətləri yaxşılaşdırmağa, ehtiyaclarını ödəməyə və eyni zamanda insanların yerləşmə təcrübələrini hərtərəfli nəzərdən keçirərək, bu təcrübənin qonaqlar üçün yadda qalan, daha keyfiyyətli olması üçün cəhd edirlər. Bu şəkildə, turizm sektorundakı təcrübələr, gətirdikləri yeniliklərlə fərdlərin və ehtiyacların müxtəlifliyini nəzərə alır və qonaqlara unudulmaz bir təcrübə bəxş edərək xidmət keyfiyyətini artırır. Həm qonaqlar, həm də xidmət təminatçıları üçün müsbət nəticələr verən bu təcrübələr, istehlakçı ilə istehlakçı arasında əməkdaşlığın və əlaqələrin inkişafına və beləliklə həm sosial səviyyədə, həm də sektor bazasında sülh və harmoniyanın yayılmasına kömək edir [2, s. 56].

Bu bölmədə vurğulanması vacib olan otellərin xüsusiyyətlərinə misal gətirək:

- Mühəndislik və memarlıq xüsusiyyətləri;
- Dizayn;
- Yerləşdirmə;  Tarixi xüsusiyyətlər;
- Təbiət və açıq hava.

Bu xüsusiyyətlər beş başlıq altında müzakirə edilir. Bu otellərə fərqli sahələrdə müxtəlif və yenilikçi tətbiqlər daxil olsa da, ən görkəmli xüsusiyyətləri nəzərə alınaraq təsnif edilmişdir.

Mühəndislik və memarlıq xüsusiyyətlərinə şəxsi otellər:

**Dockside Crane Otel:** Dockside Crane Hotel, Hollandiyanın Harlingen şəhərində bir kranın üzərinə qurularaq iki mərtəbəli sahəyə çevrilmişdir. Mühəndislik baxımından zəhmətli bir səy tələb edən otelə giriş xarici pilləkənlərin və onların yerini tutan liftlərin köməyi ilə təmin edilir. Kranın magistral hissəsindəki köhnə mühərrik otağı, bir çox lüks otel ilə eyni standartlara malik müasir dizaynlı bir yataq otağına çevrildi. Otel menecerləri müşahidə pəncərələrini və təbii atmosferi saxlayırdılar, amma istilik, rahatlıq və LCD, səs sistemi və s. əlavələr ilə fantastik bir məkan təmin etdilər. Səhər yeməyi, birbaşa yataq otağına gedən krana yerləşdirilən liftlərin köməyi ilə oteldə də verilir. Dockside Crane oteli, 12 il əvvələ qədər limanda kran olaraq istifadə edilsə də, bölgədə yeni və daha böyük bir ticarət limanının qurulması ilə dayandırıldı. Yataq otağının yerləşdiyi otelin gövdə bölməsi, sıfırdan bənzərsiz bir yer təqdim edir. Otelin içərisində böyük bir çarpayı, iki Charles Eames stulu, bir masa və rəngli işıqları olan bir vanna otağı var. Vincin içərisindəki kiçik bir nərdivan, kranın diksiya kabinəsinə aparır. Oteldə olan qonaqlar idarə kabinəsinə girib kranı hərəkət etdirə və istədikləri istiqamətə hərəkət etdirə bilərlər. Kran oteldən, Wadden dənizi və mayaklara

baxmaq mümkündür. Otelə çevrilən kran ilk dəfə 1967-ci ildə inşa edilmiş, Rusiya və Skandinaviyadan ağac və taxta boşaltmaq üçün istifadə edilmiş 2001 -ci ildə hazırki sahiblərinə təhvil verilmişdir. Dockside Crane Otelə ayrıca bir qüllə mühərriki, izolyasiya, havalandırma və istilik sistemi və bir teras daxildir [4, s.101].

**Marques de Riscal oteli:** Bu otel, köhnə və ənənəvi şərab fabrikləri ilə müasirliyin və yeniliyin inteqrasiyasına yaxşı bir nümunədir. 11suiti olan 43 otaqlı otel, Kanadalı memar Frank O. Gehry tərəfindən dizayn edilmişdir. Bu otel kompleksinə Riojanın ən qədim şərab zavodu, həmçinin "şərab terapiyası olan spa otağı", restoran və konfrans zalı daxildir. Marques de Riscal otelinin çərçivəsinə uyğun bir görünüşə malikdir və üsdü titanla örtülmüşdür. Oteldəki şərab spa otağında masaj və müalicəvi üz terapiyaları təklif edir. Otel kompleksi daxilində, Marques de Riscal şərablarının alınacağı və şərabların dadına baxmaq imkanı təmin edən mağazalar var.

**Burj Al Arab oteli**: dünyanın ən lüks və yeniliçi otellərindən biri olaraq tanınan Burj Al Arab, fərqli suit növləri ilə Dubai-də xidmət göstərir. Burj Al Arab möhtəşəm bir mühitdə, keyfiyyətli, diqqətli və həssas xidmət anlayışı ilə dünyanın ən lüks otelləri sırasındadır. Burj Al Arab Ərəb körfəzindəki Jumeriah Pilyajından 280 m, insan əli ilə yaradılmış suni bir adada yerləşir. İç dizaynın da Ərəb mədəniyyətini əks etdirən, canlı rənglər və çox sayda fərqli materiyaldan istifadə edilmişdir. Burj Al Arab dünyada otel olaraq istifadə edilən ən yüksək tikililərdən biridir və hündürlüyü 321 mdir. Tikintisinə 1994-cü ildə başlanılan otel 650 millyon dollara başa gəlib və memar Tom Wright tərəfindən tikilmişdir. Binanın tikinti mərhələsi çox mürəkkəb bir mühəndis biliyi tələb edirdi. İnsan gücü ilə bir suni ada da inşa edilən otelin təməli böyük qayalardan ibarətdir. Bu böyük qaya blokları, otelin təməlini eroziyadan qoruyur. Otelin eni 169-780kvadrat metr arasında dəyişən, ümümi yataq tutumu 202 olan xüsusi suitləri vardır. Burj Al Arab-in fərqli xüsusiyyətlərindən454 biridə otelə çatdırılma və yerləşmə məqamında qonaqlara fərqli variantlar təklif edirlər. Burj Al Araba gələrkən 15 dəqiqə çəkən vertaliyotla gəlmə seçimi verilir. Bundan əlavə, özəl şöferli Royce Rolls ilə otələ gəlmə imkanı vardır. Qonaqlar otelə çatdıqdan sonra, baqajlarının açılması və yerləştirilməsi üçün kömək lazım olub-olmadığı soruşulduqdan sonra onalrın rahatlığı üçün hər şərait yaradılır. Qonaqlara oteldən əlavə şəxsi bir yaxda, ona daxil olan spa salonu və şəxsi xidmətçilərdə verilir. Burj Al Arab, qonaqlarına həm yerləşdiyi bölgə yer, həmdə verdiyi keyfiyyətli xidməti ilə bir çox fəaliyyət imkanı sunur. Qonaqlar Burj Al Arab da milli ərəb mədəniyyətini yaxından tanış ola bilər, qolf dərslərində iştirak edəbilər, səhrada safariyə çıxa bilər və yoqa dərslərində iştirak edəbilərlər [7, s.21].

**Dog Bark Park İnn:** Dog Bark Park Inn, İdaho da it şəklində dizayn edilmiş bir oteldir. Yalnız gecələmə və səhər yeməyi xidməti təklif edən otel London Times tərəfindən 20 ən maraqlı və həyəcanlı yerlərdən biri olaraq göstərilmişdir. Dog Bark Park Inn in ikinci mərtəbəsi qonaqlara aid olub yataq otağı, vanna otağı və mətbəği mövcuddur. İt şəklində olan tikilinin baş bölməsində yataq otağı və kitab oxuma otağı mövcuddur. Səhər yeməyi self-servisdir. İt şəklindəki bu otel, Dennis Sullivan Frances Cunkulin tərəfindən dizayn edilmişdir. Bu otel maşından istifadənin en popilyar olduğu zaman da Amerikada yol kenarında ucaldılan dizaynı ilə fərqlənən tikililərindəndir. Apreldən noyabr ayına qədər fəaliyyət göstərən Dog Bark Park İnn otelinin içidə it temalı dizayın edilmişdir. Dog Bark Park İnn 2003-cü ildə açılmış, o zamandan bəri qonaqlarının sayı artmaqdadır. İt formasında olan otelin uzunluğu 10 metr, qulaqları 3-4 metr olub, küləkdə hərəkət edə bilən xalçalardan düzəldilmişdir.  Dizayn otellər:

**The Five Hotel:** Parisdə fəaliyyət göstərən The Five Oteli adını memarın beş hiss etmə orqanından müraciət etmə məqsədini daşıyan dizayınından alır. The Five Hotelin nömrələri özünə xas rəngləri və dizaynı ilə digər otellərdən fəqlənir. Otel 5 fərqli hiss etmə xüsusiyyətimizə görə qonaqlara ilk olaraq iyi bilməyə görə fərqli gözəl qoxulara malik otaqları müştərilərinə təqdim edir. Toxunaraq hiss edə biməyə görə, fəqli materialdan hazırlanmış; müxtəlif xalçalar, məxmər, keramika məmulatları, və Çin cilası ilə səmimi və isti bir atmosfer yaradılır. Otaqların bəzədilməsində istifadə olunan optik lif işığı və şüşə masalar,

ulduzlarla bəzədilmiş tavanların, işıq effektlərinin yaratdığı cazibədar parlaqlığın yaratdığı əsl irreal təcrübə, görmə hissinə xitab etmək üçün yaradılmışdır.

**Kapsul otel:** Yaponiyada kapsul kimi tanınan bir çox kiçik yataq otağından ibarət bir otel növüdür. Kapsül otellər, daha ənənəvi otellərin təklif etdiyi daha böyük, daha bahalı otaqlara ehtiyacı olmayan və ya ala bilməyən qonaqlar üçün ucuz, əsas gecələmə təmin edən otel növüdür. Dünyadakı ilk kapsul otel, Kisho Kurokawa tərəfindən dizayn edilmişdir. İlk kapsul otel, 1979-cu ildə Osakanın

Umeda bölgəsində açılan Capsule Inn Osaka olmuşdur[1, s.45].

**Bubble otellər:** Otelə məxsus 18 otağın hamısı meşəlik ərazidə yerləşdirilmiş qızdırılan günbəzlərdən ibarətdir. Qonaqlar İslandiyanın cənub sahilindəki meşə yerini və ya daha şimalda Qızıl Dairə boyunca podsları seçə bilərlər. Oteldə gecələmək şanslı olanlar, Bubble Hotelin niyə “5 Milyon Ulduzlu Otel” adlandırıldığını öyrənəcəklər. Hətta gecə şimal şəfəqini də görə bilərlər.

 Yerləşdirmə:

**İce Hotel:** "Buz oteli" ideyası bir qrup xarici turistin gecəni igloda yuxu tulumlarının keçirmək qərarına gəldiyi zaman başladı. Ice Hotelin inşasında dünyanın hər yerindən memarlar, dizaynerlər və rəssamlar rol oynamışlar. Mehmanxananın tikintisinə noyabrın ortalarında başlanılmış və poladdan qəliblərdən istifadə edilmişdir. Qarlarla iri polad lövhələrin üzərini örtmüşlər və nəticədə dondurmuş, Buz" oteli əmələ gətirmişdir. Sonra isə, Thorne çayından toplanmış buz blokları otaqlara köçürüldü və rəssamlar bu buz blokları üzərində işləməyə başladılar. Başqa sözlə, "Ice" oteli qabaqcıl mühəndis üsulu ilə tikilib və təbii materiallardan istifadə edilib. İncəsənət, Ice Hotel-in əsas tikinti bloklarından biridir. Ice Hotel qonaqlara, buz, qar ilə unikal təcrübə təklif edir və bu fərqli mühit qonaqlara qeyri-soyuq xatirələr bəxş edir. Buz otelinin daxilində kilsə və bar var. Oteldə istifadə olunan bütün əşyalar buzdan hazırlanmışdır. Ice Hotel həmçinin müxtəlif yaşayış variantları təklif edir. Ice Hotel 5-dən 8-ə qədər temperatura malik buzla hazırlanmış otaqlarda mövcuddur. Bu otaqlarda gecəni yuxu tulumlarında keçirirsiniz. Bundan əlavə, normal otaqlarda qala biləcəyiniz bölmələr də seçim kimi mövcuddur. Ice Hotel-də yerləşən restoranlar həm buzdan düzəldilmiş, həm də normal restoran kimi isti və rahat atmosfer təklif edir [8, səh.69].

**Yeraltı otel:** İkinci Dünya müharibəsi zamanı istifadə edilən soba 2000-ci ildə ətraf mühitin mühafizəsi ilə bağlı yeni qaydalara görə bağlanıb. Transformasiya 2006-cı ildə Shimao Group otel tikmək üçün dərin çuxurdan istifadə etmək qərarına gəldilər. Tikinti 12 il çəkdi. 18 mərtəbəli otelin, 2 mərtəbəsinin dərinliyi 10 metrdən çox olan akvariumun içərisində, 2 mərtəbəsi isə yerin üstündədir. Martin Jochman tərəfindən Atkins və Studio JADE+QA ilə birgə dizayn edilmiş otel, həmçinin bir çox innovativ mühəndislik həllərini özündə birləşdirir. Yeraltı otaqlardan başqa bütün otaqlarda karxananın divarlarından tökülən şəlaləyə baxan eyvan var. Yeraltı mərtəbələrdə qonaqlar üçün otaqlar, restoran, akvarium, hovuz və su idmanı mərkəzi var. Otelin sıldırım çuxurda yerləşməsindən istifadə edərək, bungee-jumping və dırmaşma imkanları təklif olunur. Bütün bunlara əlavə olaraq, otelin gündəlik enerji ehtiyacını öz geotermal və günəş enerjisi qaynaqları ilə qarşılaması planlaşdırılıb.

**Poseidon Resorts:** Fici laqununda yerləşən Poseidon Undersea Resorts dünyada dəniz yatağı üstündə inşa edilən ilk oteldir və dənizaltı yaşayış üçün ən lüks və rahat variantdır. Otelə çatmaq üçün liftdən istifadə olunur. Bu lift okeanın dərinliklərini tədqiq etmək istəyən macəraçılara dalğıclara həyəcanlı mənzərə təklif edir. Burada hər bir qonağın müəyyən müddət qalacağı 3 növ yaşayış variantı mövcuddur. Bunlar sahildə şəxsi çimərlik, su üzərində yaşayış və sualtı yaşayış yerləridir. Otel 24 sualtı suiti ilə lüks otellərin rahatlığında xidmət təklif edir. Bu suitlər suyun səthindən 21 metr aşağıda yerləşir və suitilərə giriş liftin köməyi ilə təmin olunur. Sualtı suitlərin daxili hissəsi mərmər və dəridən istifadə edilməklə hazırlanıb. Otaqların təqribən 70% -i 100 millimetrlik şəffaf akrillə örtülüdür. Bu yolla suitilərdən mərcan rifləri və okeana baxmaq mümkündür.

**Sala Silvermine:** Dünyanın ən yaxşı qorunan şaxtalarından biri və tarixi əhəmiyyətə malik olan Sala Silvermine yerin 155 metr altında yerləşir. Qaranlıq, rütubətli və soyuq mühitdə və maraqlı atmosferdə yerləşən Su Nan Sala Silvermine dünyanın ən böyük 5 şaxtası arasındadır. Şaxtanın iki nəfərlik suiti, mövcuddur. Bu süit gecələmə və səhər yeməyi xidməti təklif edir, eləcə də 1920-50-ci illərdə xidmət göstərən Gurvfrun dekorunu əks etdirir. Bu otel yeraltı göllər, küləkli keçidlər və mağaralar arasında yerləşir, 18 dərəcəyə qədər qızdırılır və qonaqlara iki qalın əlavə yorqan təqdim edir. Qonaqların suitdə qalması zamanı qonaqlardan biri şaxtadan kənarda gözləyir. Qonaqlara verilən daxili telefon sayəsində qonaqlar, xaricdən istədikləri insanla ünsiyyət qura və ehtiyaclarını bildirə bilərlər. Sala Silvermine-də ən maraqlı məşğuliyyətlərdən biri bələdçi ilə səyahətidir. Bu səfərlər zamanı gümüş mədənin əhəmiyyəti və onun unikal tarixi haqqında məlumat almaq və saysız-hesabsız işçinin səyi nəticəsində yaradılmış mağaraları görmək mümkündür. Bu mədən müasir texnoloqların köməyi ilə tarixi yaxından tanımaq və yaşatmaq imkanı yaradır. Şaxtanın qalan hissələrinin tədqiq edilməsi və qonaqlara səyahət və dalğıclıq imkanının verilməsi üçün layihə həyata keçirilir. Təcrübəli dalğıclar 2 dərəcəlik sel sularının altında yerin 318 metrelik altına qədər mağaranın içinə üzə biləcəklər. Sala Silverminenin kəşfinə1998-ci ildə bir qrup peşəkar dalğıc tərəfindən mədən sənayesinin qalıqlarını tapmaq üçün təşəbbüs edilmişdir. 2006-cı ildə Sala Silvermine iki lifdin köməyi ilə bələdçilərin rəhbərliyində turlar təşkil olunmaya başlanmışdır. Bunlarla yanaşı, hazırlanan böyük boş otaqlarda konsert və konfranslar təşkil olunur [12, s. 21].  Tarixi xüsusiyyətlər:

Dörd Mövsümlü Otel Sultanahmet: Osmanlı İmperiyası dövründə 1918-1919-cu illər arasında türmə kimi inşa edilən bina hal-hazırda Four-Seasons Hotel Sultanahmetə çevrilmiş və türk mədəniyyətini və memarlığını əks etdirən otel kimi fəaliyyət göstərir. Oteldə ümumilikdə 65 otaq var, onlardan 11-i suitdir və qapalı həyətin ətrafında yerləşir. Otelin yerləşdiyi yer incəsənət tarixi baxımından əhəmiyyətli olan Topkapı sarayı və Sultanəhməd Məscidi kimi binalara çox yaxındır. Travel Leisure tərəfindən Avropanın ən yaxşı oteli seçilən otelin interyer dizaynı mərmər, taxta və kirəmitlərin istifadəsi ilə tamamlanır. Tarixi bina olan otel, türk mədəniyyətini və müasir memarlığı özündə birləşdirən bir quruluşdur [9, s. 225].

 Təbiət və açıq havada fəaliyyət:

**Kosmos otellər:** Yolun başlanğıcında olan kosmik turizmin bəşəriyyətin hədsiz marağı və araşdırmaq istəyi ilə daha sürətli inkişaf edəcəyini qabaqcadan görmək çətin deyil. Dünyanın ilk kosmik otelinin 2027-ci ildə açılması planlaşdırılır. Kaliforniyada yerləşən The Gateway Foundation BD-də iştirak edən Orbital Assembly Corporation (OAC) tərəfindən hazırlanan Voyager Station, dünyanın ilk kosmik otelini qəbul etməyə hazırlaşır. İlk müştərilərinə 2027-ci ildə ev sahibliyi etməyi planlaşdıran otel 3 günə 5 milyon dollara başa gələcək. Bu yaxınlarda şirkət 2025-ci ildə dünyanın ilk kosmik otelinin inşasına başlamaq planlarını açıqladı. 2027-ci ildə istifadəyə verilə biləcək yeni kosmik stansiya inşa edəcək şirkət, otel, restoran və kinoteatr kimi yerləri stansiyanın içərisinə yerləşdirəcək. Özünü dünyanın ilk genişmiqyaslı inşaat şirkəti olaraq elan edən şirkət, quracağı orbital tənzimləmənin 11.600 kvadrat metrdən çox yaşayış sahəsinə malik olacağını söyləyir. Hər biri 12 metr diametrində və 20 metr uzunluğunda 24 moduldan ibarət kosmik stansiyada hər modul 3 mərtəbədən ibarət olacaq və 500 kvadrat metr yaşayış sahəsi olacaq. Kosmik stansiyanın ən azı 12 modulunun otel otaqlarından ibarət olacağı planlaşdırılır. Burada 126 kvadrat metr lüks suitlər, 62 kvadrat metr lüks otaqlar və 30 kvadratmetr standart otaqlar olacaq. 400 nəfərlik oteldə bir spa da olacaq. Oteldə insanların qala və məkanı seyr edə biləcəkləri pəncərələr olacaq. Kosmik otel hər 90 dəqiqədə Yer ətrafında səyahətini tamamlayacaq

Bu bölmədə müzakirə olunan bütün otel və restoran nümunələri, fərqli sahələrdə yenilikçi tətbiqlər tətbiq etmiş və xidmət keyfiyyətini artırmağı hədəfləyən müəssisələrdir. Fövqəladə təcrübələr təqdim edən bu müəssisələr, müştəri ehtiyaclarını qarşılamaq və öz müştərilərinə məhdudiyyətsiz və fövqəladə bir təcrübə təqdim etmək üçün hərəkət edir, eyni zamanda bir çox müəssisələri yenilik etməyə təşviq edir.

## ƏDƏBİYYAT


1. Dərgahov V.S. Rekreasiya – turizm ehtiyatları. Bakı: Elm, 2008.
2. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı: 2011.
3. Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı: 2010.
4. Əlirzayev Ə.Q., Aslanova S.İ. Turizmin inkişafının sosial – iqtisadi problemləri, Bakı: Adiloğlu, 2006.
5. Ə.Cabbarov. Turizmin inkişafının regional problemləri. Naxçıvan: 2008.
6. Qurbanov F. Turizmin əsasları. Bakı: 2007.
7. Qurbanzadə A.A. Ekologiya: sosial – iqtisadi əsasları. Bakı: 2010.
8. Məmmədov C.A., Bilalov B.Ə. Azərbaycanda gəlmə turizm və onun inkişafı yolları. Bakı: 2004.
9. Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası. Bakı: 2002.
10. Məmmədov Z.S. Təbiətdən istifadənin iqtisadiyyatı. Bakı: 2010.
11. Rəhimov S.N. Turizm – ekskursiya işinin təşkili. Bakı: 2004.
12. Soltanova H.B., Ağakərimov M.M., Babazadə S.İ. Mehmanxana təsərrüfatı. Bakı: 2005.
13. Doç. Dr. Abdulla Karaman (Otelin İdarəolunması-2016)
14. Prof. Dr. Meryem Akoğlan Kozak (Oteldə nömrə xidməti-2017)
15. Prof. Dr. Metin Kozak (Ümumi Turizm-2017)
16. Memmedov C.A., Rəhimov S.H. (Beynəlxalq Turizmin Coğrafiyası-2002)

**İnternet resursu**

1. www.wttc.org
2. www.wikipedia.org
3. http://tourism.edu.az
4. www.tourism.ru
5. http://www.eco-tourism.aznet.org/
6. https://az.wikipedia.org/wiki/Qalaalti_llotel_%26_SPA
7. http://www.uecs.ru/uecs-38-382012/item/1042-2012-02-16-08-41-18


## SUMMARY

**Ulviya Alieva**

## DEVELOPMENT OF HOTEL INDUSTRY IN THE XXI CENTURY

Hotels provide tourists with the opportunity to spend the night, as well as with the chance to try their food, entertainment etc. It is a place built for the purpose of providing services to people who live temporarily. The term (Hotel) we use today is of French origin, derived from the Latin words hospitium or hospes, and hospitality means hospitality. Until the middle of the IXX century of the industrial revolution, travel was generally carried out as a of job requirement. Transportation was provided in horse-drawn carriages and in overnight motels. Between 1850 and 1950, there was a great increase in the number of people traveling beside work purposes. In this new era, the main requirement of travel is "vacation". Although the emergence of modern hotel forms took place in the XVIII century, the structure of the first large hotel and the hotel industry took place in the IXX century. Since the middle of the twentieth century, in the economically developed countries of the world (primarily North America and Europe), the development of large-scale automobiles and other means of transport in all areas has given impetus to the widespread use of travel. Today, hospitality is a leading economic event, both locally and internationally.

***Key words***: *hotel, world hotels, new design hotels, orbital hotels*

**РЕЗЮМЕ**

**Ульвия Алиева**

**РАЗВИТИЕ ГОСТИНИЧНОЙ ИНДУСТРИИ В XXI ВЕКЕ**

Отели предоставляют туристам возможность переночевать, а также попробовать еду, развлечения и многое другое.Зачастую это объекты временного размещения, предназначенные для оказания услуг. Термин (Отель), который мы используем сегодня, имеет французское происхождение, и берет корни от латинских слов Hospitium или hospes,что означает гостеприимство. До середины IXX века промышленной революции путешествия в основном осуществлялись по работе. Транспортировка осуществлялась в конных экипажах и ночлежках. Между 1850 и 1950 годами резко увеличилось количество людей, путешествующих вне работы. В эту новую эпоху главная цель путешествий - «отдых». Хотя появление современных гостиничных форм произошло в XVIII веке, формирование первых крупных отелей и гостиничной индустрии произошло в IXX веке. С середины двадцатого века в экономически развитых странах мира (прежде всего в Северной Америке и Европе) развитие крупногабаритных автомобилей и других транспортных средств во всех областях дало толчок к широкому распространению путешествий. Сегодня гостиничный бизнес является одним из основ экономики государства, как на местном, так и международном уровнях.

***Ключевые слова:*** *гостиница, мировые отели, новые дизайн-отели, орбитальные отели.*

**ASİF ABDULLAYEV**
**FATMAXANIM ƏHMƏDLİ**
*Naxçıvan Dövlət Universiteti*

# QARABAĞA "BÖYÜK QAYIDIŞ" KONTEKSTİNDƏ TURİZMİN İNKİŞAFI

*Azərbaycanın Vətən müharibəsində qələbəsindən sonra "Böyük Qayıdış" konsepsiyasına uyğun olaraq, ərazinin bərpa və yenidənqurması, bölgənin dirçəldilməsi və məcburi köçkünlərin öz yurd-yuvalarına qaytarılması istiqamətində işlər sürətlə davam etdirilir. Ali Baş Komandan, prezident İlham Əliyevin də qeyd etdiyi kimi, azad edilmiş ərazilərimizdə salınacaq "ağıllı şəhər", "ağıllı kənd" layihələri əsasında aparılan yenidənqurma işləri "Böyük Qayıdış"ın keyfiyyətcə yeni bir həyata qayıdış olacağını göstərir.*

***Açar sözlər:*** *turizm, rekreasiya, "Böyük Qayıdış", iqtisadiyyat, inkişaf, mədəniyyət, sosialmədəni xidmət, infrastruktur, Dark turizm*

Azad edilmiş Qarabağ torpaqları bütün imkanları ilə Azərbaycanın ən vacib regionlarından biridir. Yeraltı və yerüstü sərvətlərlə zəngin olan Qarabağın turizm potensialı kifayət qədər genişdir. Burada turizmin bir çox növləri – ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar mövcuddur.

Tarixi qələbəmizlə başa çatan 44 günlük Vətən müharibəsindən artıq bir il ötüb. Münaqişə geridə qalıb və indi qarşıda duran əsas vəzifə düşmənin 30 ilə yaxın bir müddətdə viran qoyduğu ərazilərimizi yenidən qurmaq, qayıdış üçün əlverişli zəmin formalaşdırmaqdır. Artıq xeyli yol qət edilib, rabitə-kommunikasiya xətləri çəkilib, kilometrlərlə yeni yollar salınıb, dağıdılan binaların, tarixi-mədəni abidələrin bir hissəsi bərpa olunub. Bir tərəfdən Qarabağın tarixi görkəmi özünə qaytarılır, digər tərəfdən yaşayış üçün ən müasir infrastruktur qurulur.

Həm coğrafi yerləşmə baxımından, həm tarixi-mədəni, nadir təbii-iqlim xüsusiyyətlərinə, həm də zəngin flora və faunasına görə Qarabağ regionu ölkənin turizm sənayesinin inkişafı üçün də yeni qapılar açır. İşğaldan azad edilən ərazilərimizdə elə şəhər və rayonlarımız var ki, onlar Cənubi Qafqazda turizm baxımından rəqibsizdir: "Məsələn, Şuşanın, Kəlbəcərin adını çəkmək olar. Burada yay-qış fəsillərində turizm xidmətləri göstərmək mümkündür. Nəqliyyat və logistika müasir standartlarla qurulub. Həmçinin, Füzulidə beynəlxalq aeroport tikilib. Bu, turistlərin daha rahat şəkildə ərazilərimizə səfər etməsinə imkan yaradır. Statistikaya nəzər salsaq, görərik ki, pandemiyadan əvvəl, 2019-cu ildə Azərbaycana 3,2 milyon turist gəlib. Bu, ondan xəbər verir ki, Azərbaycanın böyük daxili turizm potensialı var və işğaldan azad olunan ərazilərimiz də buna öz töhfəsini verəcək". Digər tərəfdən bölgədə son 30 ildə iki müharibənin baş verməsi, ermənilərin işğal boyunca yaşayış sahələrini, abidələri vəhşicəsinə dağıtması, xalqımızın başına gətirilən müsibətlər Qarabağda eyni zamanda dark turizmi inkişaf etdirməyə də imkan verir. Ağdamda dağıdılmış binaların bəzilərini olduğu kimi saxlamaq fikrindədirlər: "Şəhərin müəyyən hissəsində dağıdılmış binalardan bir kvartal saxlayacağıq. Bu, həm xarici turistlərin marağını cəlb edər, həm də gələcək nəsillər üçün bir xatırlatma olar. Tariximizi unutmamalı, keçmişimizdən dərs çıxarmalıyıq" [1].

***Bəs dark turizm nədir?***

Bu termin ilk dəfə 1996-cı ildə Böyük Britaniyanın Qloskov Kaledonian Universitetinin alimləri Con Lennon və Malkolm Foley tərəfindən irəli sürülüb. Dark turizm adından da göründüyü kimi qaranlıq, hüzn turizmidir. Bu turizmə maraq göstərənlər isə dark (qara) turist adlandırılır. Son illər turizm sektorunda baş verən dəyişikliklər alternativ turizm növlərinə olan marağı artırır. Dark turizm də gün keçdikcə populyarlığı artan alternativ növlərdəndir. Turizmin təbiətinə xas olaraq istirahət etmək, əylənmək və yaxşı vaxt keçirməkdən çox fərqli olan dark turizm tarixi mənada ölüm və tragediyalarla bağlı yerlərə edilən səyahət növüdür. Tarixdə yaşanmış faciələr, baş vermiş müharibələrin yaratdığı çətinliklər, fəlakətlər dark turizmin konseptini təşkil edir. Əslində, ölkəmizdə fərqində belə olmadan hər birimizin getdiyi bir nöqtə var - Şəhidlər Xiyabanı. Bakımızın ən gözəl yerlərindən birində yerləşir və dark turizm obyekti sayılır. Həmçinin, Qubadakı toplu məzarlığı da bura aid etmək olar. Dark turizm digər tərəfdən təbliğat vasitəsidir.

Burada həm ümumbəşəri, həm də sırf bir millətin maraqları qoruna bilər. Qarabağda dark turizm üçün kifayət qədər resurs var: "Dark turizm dünya praktikasında önəmli yer tutur. Biz beynəlxalq təcrübəni Qarabağda da tətbiq edə bilərik. İnfrastruktur layihələri bitdikdən sonra orada dağıdılmış binaların bir hissəsini bərpa etmədən saxlayıb, düşmənin törətdiyi barbarlığı gələn turistlərə göstərmək olar. Həmçinin, dağılmış vəziyyətdə qalan müxtəlif hərbi texnikaları olduğu yerdə şüşə vitrin altında sərgiləmək mümkündür. Yəni turistlər görsün ki, burada tarixin hansı səhifələri yazılıb və müzəffər ordumuz hansı yollardan keçərək ərazilərimizi işğaldan azad edib. Bundan başqa, döyüşdə iştirak etmiş şəxslərin videolarını da həmin ərazidə muzey yaradıb nümayiş etdirmək olar. Düşünürəm ki, bu, müharibənin bütün incəliklərini dünyaya çatdırmaq baxımından yaxşı vasitə olar.

Eyni zamanda, turizm baxımından da potensiallı bir növdür. Azərbaycanda hazırda bu turizm növü o qədər də inkişaf etməyib". Qarabağda dark turizmin inkişafı bütövlükdə ölkə turizminin inkişafına böyük təkan verə biləcək. Qarabağda qanlı döyüşlər gedib, şəhidlər verərək bu əraziləri geri qaytarmışıq. Mediadan əldə etdiyimiz məlumatlara görə, məhz müəyyən həlledici döyüşlərin olduğu yerlərdə açıq hava muzeylərinin yaradılması nəzərdə tutulub. Həmçinin, dağıntıların nümunə kimi saxlanması da planlaşdırılır. Hesab edirəm ki, bu, həm yerli, həm də xarici turistlər üçün maraqlı olar. Avstraliyanın "1cover.com.au" adlı tanınmış turizm portalında da ötən il Ağdamın dark turizm potensialından bəhs olunub. Məlumatda qeyd olunub ki, 1993-cü ildə, Birinci Qarabağ müharibəsi zamanı Ağdam Ermənistan tərəfindən işğal olunub və təxminən 100 min insan buranı tərk etmək məcburiyyətində qalıb. Bu gün üfüqə qədər uzanan xarabalıqları ilə Ağdam dünyanın ən böyük dark turizm destinasiyalarından biri olmağa davam edir. Təkcə Ağdamda yox, Qarabağın hər yerində erməni vəhşiliyinin nümunələrinə rast gəlmək olar. Bu gün Şuşada tarixi şəxsiyyətlərimizin bərpa olunan heykəllərinin yanında güllələbaran edilmiş əvvəlki abidələri də qoyulur. Bu da bir növ tariximədəni turizm daxilində dark turizm məhsulu ola bilər [2].

İşğaldan azad edilmiş ərazilərin təhlükəsizliyi təmin olunduqdan və əsas magistral yollar çəkildikdən sonra Qarabağa böyük yerli turist axınının olacağı gözlənilir. Hazırda Qarabağımızın potensial 10 milyon nəfər yerli turisti var.

Qarabağın əlverişli iqtisadi-coğrafi mövqeyi, çox zəngin ehtiyyatlara, nadir təbii-iqlim xüsusiyyətlərə malik oması, münbit torpağı, zəngin flora və faunası ölkə turizm sənayesinin inkişafı üçün açılan yeni üfüqlər deməkdir. Həmin ərazilərə sərmayə yatırılması bu sahənin iş adamlarına geniş imkanlar yaradacaq və bu yatırımların nəticə etibarı ilə ölkə büdcəsinə kifayət qədər gəlir gətirəcəyi reallıqdır. İşğaldan azad edilmiş torpaqlarımızın mineral və termal su mənbələri ilə zəngin olması da bölgənin turizm imkanlarının artırılmasında mühüm faktordur. Qarabağ torpağı, həm də xalqımızın böyük mədəni irsinin mühüm daşıyıcısı hesab olunur. Bu bölgəmiz istedadlı şairləri, yazıçıları, musiqiçiləri ilə də məşhurdur. Qarabağın Azərbaycan musiqisinin beşiyi olması özünü çoxdan təsdiq etmiş həqiqətdir.

Dəniz səviyyəsindən 1400 metr hündürlükdə yerləşən Azərbaycan mədəniyyətinin incisi Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verir. Mənəvi dünyamızın tərcümanı olan bu şəhər mülayim iqlim şəraitinə, mineral suları isə müalicəvi xüsusiyyətlərə malikdir. Bunlar da turizm üçün çox yararlı istiqamətlərdir. Sahə mütəxəssisləri bu fikirdədirlər ki, yaxın gələcəkdə Qarabağ bölgəsinin turizm infrastrukturunun yaradılması və inkişafı üçün keçmiş ənənələr də əhəmiyyətli rol oynaya bilər. Hələ postsovet məkanında insanlar Qarabağ bölgəsinə davamlı axın edirdilər. Azıx mağarası (doğrudur, erməni vandalları bu dünya miqyaslı tarixi abidəni də dağıdıblar) bəşəriyyət üçün unikal abidədir. Bu mağara dünyada 7 möcüzədən biri hesab olunur. Bizim Qarabağ bölgəsində UNESCO-nun irs siyahısına düşəcək abidələrimiz var. Orada quruculuq-bərpa işlərinin keçirilməsi müəyyən zaman alsa da, Qarabağın turizm potensialından istifadə Azərbaycana iqtisadi baxımdan böyük qazanc gətirəcək. Qarabağın işğaldan əvvəlki dövrdə fəaliyyət göstərmiş mədəni və səhiyyə obyektlərini yenidən dirçəltmək də bu mənada önəmlidir. Vaxtilə Şuşa və Ağdam rayonlarında yerləşən məşhur “Şuşa sanatoriyası”, “Gülablı sanatoriyası”, Şuşanın istirahət evləri, məktəblilərin yay tətilində dincəlməsini təmin edən düşərgələr və bu kimi turizm məskənləri ayrıca seçilirdi. Bu turizm və müalicə obyektləri Azərbaycan xalqının milli-tarixi dəyərlərini dünyaya tanıtmaqla yanaşı dövlət büdcəsinə külli miqdarda gəlir gətirirdi.

Ölkəmizin hər yerində olduğu kimi burada da Böyük Zəfərimizin imkanlarından istifadə edərək bu ərazilərdə möhtəşəm turizm obyektləri inşa etmək olar.

Yaxın perspektivdə bu istiqamətdə böyük irəliləyişə nail omaq tamamilə mümkündür. Bununla da Qarabağda turizmin inkişafı özü ilə bərabər otelçilik sektorunu da irəli aparmağa imkanlar yaradacaq.

Mütəxəssislər hesab edirlər ki, Qarabağda turizmin inkişafı üçün bir sıra kadrların əməyindən istifadə edilməlidir. Onlar Qarabağın həm təbii, həm də antropogen turizm resurslarını nəzərdən keçirməlidirlər. Turizmçilər bu fikrdədirlər ki, təbiətinin zənginliyinə görə Qarabağın gələcəyi daha çox ekoturizmə bağlı olacaq. Bundan məharətlə istifadə etsək, Qarabağı dünyada mühüm ekoloji turizm məkanlarından birinə çevirəcəyik.

Qarabağda turzimin inkişafı, həm də bu istiqamətdə yeni marşrutların açılması, yol infrastrukturunun genişləndirilməsi deməkdir. Xudafərin körpüsü və başqa tarixi abidələrə də gələcəkdə turist marşrutu ola bilər. Mədəni-tarixi incilərimizin əksəriyyəti dağıdılsa da, onların bərpasından sonra həmin istiqamətlərə turların təşkili mümkündür. Sahə mütəxəssisləri ümid edirlər ki, qonşu İran İslam Respublikası ilə bu sahədə əməkdaşlıq olacaq.

Məlumdur ki, Türk birliyinin müasir İpək yolu layihəsi mövcuddur. Azərbaycana daxil olmaq üçün Qars-İğdır-Naxçıvan marşrutu, İran ərazisindən dəmir yolu xəttinin çəkilməsi mümkün görünür. Bundan yalnız ölkəmizin vətəndaşının yox, bütün mədəni sivilizasiyanın qazanacağı şəksizdir. İşğaldan azad etdiyimiz ərazilərin çoxu dağlıq ərazi olduğundan, bu bölgəyə nəzər yetirsək, həmin ərazilərdə dağçılıq və alpinizm turizminin inkişafı üçün təbii şəraitin olduğunu görərik.

Bununla bərabər, Qarabağın gəzməli-görməli yerlərinə gəzintilər təşkil etmək, həmin ərazilərdə aktiv və ekstremal turizmi inkişaf etdirmək də turizmin inkişafına töhfə verə bilər. Qarabağda turizmin müxtəlif növlərinin yaradılması və inkişafı üçün unikal imkanlar olduğunu beynəlxalq sərgilərdə nümayiş etdirsək, onun reklamını dünya səviyyəsində təşkil edə bilsək, həmin sahənin bölgədə daha da irəli getməsinə böyük təkan vermiş olarıq. Məsələn, təkcə Zəngilanda çoxlu sayda termal su mənbəyinin mövcudluğu, həm də Qarabağda müxtəlif istiqamətli turizm xidmətlərinin yaradılması üçün münbit şərait deməkdir. Təqdirəlayiq haldır ki, Qarabağın turizm potensialı ilə bağlı dövlət əhəmiyyətli tədbirlərin coğrafiyası sürətlə genişlənir. 2020-ci il 23-24 noyabr tarixində Azərbaycan Turizm Bürosu (ATB) Dubayda keçirilən "Gulf Travel Show" sərgisində iştirak edib. Bu Beynəlxalq sərgidə Qarabağ və onun turizm potensialı tanıdılıb. Pandemiya səbəbilə virtual formada təşkil olunan sərgiyə Yaxın Şərq, Afrika, Asiya, Avropa və Amerikadan olan 1000-dən çox iştirakçı qatılıb. Sərgi çərçivəsində ATB əməkdaşları 35-dən çox görüş keçiriblər.

Görüş iştirakçılarına işğaldan azad edilmiş Qarabağ bölgəsinin turizm potensialı haqda və müvafiq tədbirlərdən sonra bölgənin yeni turizm destinasiyaları sırasına daxil ediləcəyi barədə məlumat verilib. Xarici tur operatorlar Azərbaycana böyük maraq göstərdiklərini və səfərlərin təşkilinə davam etmək üçün sərhədlərin açılmasını gözlədiklərini diqqətə çatdırıblar. Qarabağda muzeylərin, memorial komplekslərin yaradılması tarixi yaddaş kimi bu bölgəmizin "həyat güzgüzü"nə çevrilə bilər. Bu, gələn tursitlərdə Qarabağ haqqında daha dolğun məlumat və təsəvvürlər yaratmağa kömək edər. Digər tərəfdən, bölgə turizmində cəlbedici obyektlərdən biri kimi öz rolunu oynamış olar. Sözsüz ki, işğaldan azad olunmuş ərazilərə vətəndaşlarımızın geri qayıtması, yaşayışın və infrastrukturun bərpası, orada təhlükəsizliyin təmin olunması gərəkdir.

Təəssüflər olsun ki, erməni vandalları torpaqlarımızın işağlı dövründə Qarabağın dağlıq hissəsində və ətraf rayonların əksər yerlərində maddi-mədəniyyət abidələrimizi, tarixi yerlərimizi dağıdıblar, bölgənin ekosisteminə böyük ziyan vuraraq infrastrukturu məhv ediblər. Bununla da öz yırtıcı, barbar xislətini nümayiş etdiriblər. Amma zaman öz axarındadır. Xalqımızın fitrətində olan qurub-yaratmaq eşqi yenidən bu yerlərə həyat verəcək, əzəli torpaqlarımızı dirçəldəcək. Yaxın gələcəkdə Qarabağ Azərbaycanımızın əsas turizm bölgəsinə çevriləcək. Bu da ölkəmizin istər mədəni, istərsə iqtisadi həyatında əhəmiyyətli rol oynayacaq [3].

Nəticə olaraq deyə bilərik ki, Qarabağ və Şərqi Zəngəzurla bağlı planlar artıq müəyyənləşib. Burada iki yanaşma var: birincisi klaster yanaşmasıdır. Yəni turizm məhsullarının və potensialının cəmləşdiyi

yerlərdə görüləcək işlərə başlanmasıdır. Digər yanaşma dəhlizlər üzrə yanaşmadır. Həmin ərazilərdə əsas dəhlizlər olacaq və bunun üzərində yeni turizm layihələri, infrastruktur, marşrutlar və turizm məhsulları qurulacaq. Bölgənin turizm potensialı çox genişdir. Qarabağda yeni otellər tikiləcək. Amma bundan öncəki mərhələlər təhlükəsizliyin təmin edilməsi, infrastrukturun qurulması və insanların buraya qayıdışıdır. Həmçinin turizm yönlü insan resurslarının, kadrların hazırlanmasına artıq başlanıb. Əhali öz yurdlarına qayıdandan sonra turizmi inkişaf etdirmək olar. Çünki bu sahə insan potensialı tələb edir və yeni iş yerlərinin açılması deməkdir. İşçi qüvvəsini yerli əhalinin arasından seçmək mümkündür. Turizmlə bağlı xarici investorların cəlb olunması labüddür, amma bu o zaman daha cəlbedici olur ki, yerli əhali də fayda götürə bilsin. Belə olarsa, investorlar da əlavə xərclərdən, daşınma, yerləşdirmə kimi qayğılardan azad olurlar. Böyük əksəriyyət hesab edir ki, insanlar oraya qayıdarsa, bölgəyə giriş və çıxış daha rahat olacaq. İnfrastrukturun qurulması prosesində, tikinti və infrastruktur işlərində materialların yerində istehsalı onun daşınmasından daha rahat və ucuz başa gəlir. Bütün bunları maneəsiz həyata keçirmək üçün təhlükəsizlik məsələsi tam həllini tapmalıdır.

## ƏDƏBİYYAT

1. tourism.gov.az
2. www.dark-tourism.com
3. www.virtualkarabakh.az

## SUMMARY

**Asif Abdullayev, Fatmakhanim Ahmadli**

## DEVELOPMENT OF TOURISM IN THE CONTEXT OF THE "GREAT RETURN" TO KARABAKHA

Plans for Karabakh and East Zangazur have already been determined. There are two approaches here: the first is the cluster approach. That is, the start of work to be done in places where tourism products and potential are concentrated. Another approach is the corridor approach. There will be major corridors in these areas, and new tourism projects, infrastructure, routes and tourism products will be built on them. The tourism potential of the region is very wide. New hotels will be built in Karabakh. But the previous steps are to ensure security, build infrastructure and get people back. Also, the training of human resources and personnel for tourism has already begun. Tourism can be developed after the population returns to their homes. Because this field requires human potential and means the creation of new jobs. The workforce can be selected from the local population. It is necessary to attract foreign investors in tourism, but it is more attractive if the local population can also benefit. In this case, investors are also free from additional costs, such as transportation and accommodation. The vast majority believe that if people return there, entry and exit to the region will be easier. On-site production of materials in the process of infrastructure construction, construction and infrastructure works is more convenient and cheaper than its transportation. In order to do all this without hindrance, the issue of security must be fully resolved.

***Key words:*** *tourism, recreation, "Great Return", economy, development, culture, sociocultural services, infrastructure, Dark tourism*

**РЕЗЮМЕ**

**Асиф Абдуллаев, Фатмаханим Ахмадли**

**РАЗВИТИЕ ТУРИЗМА В КОНТЕКСТЕ «БОЛЬШОГО ВОЗВРАЩЕНИЯ» В КАРАБАХУ**

Планы по Карабаху и Восточному Зангезуру уже определены. Здесь есть два подхода:

первый - кластерный. То есть начало работы надо делать там, где сконцентрированы туристические продукты и потенциал. Другой подход - коридорный. В этих областях будут крупные коридоры, и на них будут построены новые туристические проекты, инфраструктура, маршруты и туристические продукты. Туристический потенциал региона очень широк. В Карабахе будут построены новые гостиницы. Но предыдущие шаги заключались в обеспечении безопасности, создании инфраструктуры и возвращении людей. Также уже началась подготовка кадров и кадров для туризма. Туризм можно развивать после того, как население вернется в свои дома. Потому что эта область требует человеческого потенциала и означает создание новых рабочих мест. Персонал может быть выбран из местного населения. В туризм необходимо привлекать иностранных инвесторов, но это более привлекательно, если местное население также может получить выгоду. В этом случае инвесторы также освобождаются от дополнительных расходов, таких как транспорт и проживание. Подавляющее большинство считает, что если люди вернутся туда, въезд и выезд в регион будет проще. При строительстве инфраструктуры, строительстве и инфраструктурных работах изготовление материалов на месте удобнее и дешевле, чем их транспортировка. Чтобы все это делать беспрепятственно, необходимо полностью решить вопрос безопасности.

**ELŞƏN NƏSİROV**
*Naxçıvan Dövlət Universiteti enasirov@inbox.ru*

## NAXÇIVANIN LOGİSTİK GEOSTRATEGİYASI

*Azərbaycanın müzəffər milli ordusunun cəmi 44 gün çəkən İkinci Qarabağ Müharibəsində əldə etdiyi inamlı qələbəsi nəticəsində Cənubi Qavqaz regionunun inkişafında yeni tarixi bir səhifə açılmışdır. Bu, ilk növbədə, regionun nəqliyyat sistemində kardinal, köklü dəyişikliklər və ümumiyyətlə, regional logistik infrastrukturun mütərəqqi inkişafı ilə səciyyəvi olacaqdır. Sözsüz ki, bu dəyişikliklər nəticəsində uzun illər geosiyasi və geoiqtisadi blokadaya düçar qalmış Naxçıvan Muxtar Respublikasının da mütərəqqi inkişafına önəmli təsir göstərmiş olacaq. Bu nöqteyi-nəzərdən elmi məqaləsi olduqca aktual bir xarakter daşıyır.*

*Elmi məqalədə Naxçıvan Muxtar Respublikasında logistik infrastrukturun inkişaf aspektləri araşdırılmış və bir sıra dəyərli iqtisadi proqnozlar verilmişdir.*

*Elmi məqalədə Zəngəzur nəqliyyat dəhlizinin istismarı aspektləri xüsusi yer almışdır və bu dəhlizin yaxın gələcəkdə muxtar respublikaya gətirə biləcəyi siyasi və iqtisadi dividentlərin retrospektiv analizi aparılmışdır.*

*Elmi məqalədə, həmçinin Zəngəzur dəhlizinin istifadəyə verilməsilə Azərbaycanın Türkiyə ilə iqtisadi əlaqələrinin daha da inkişaf edəcəyi, xüsusilə də Çin, Orta Asiya ölkələrinin Türkiyə və Avropa bazarlarına çıxışında bu dəhlizin əhəmiyyətli rol oynayacağı vurğulanmışdır.*

***Açar sözlər:*** *Zəngəzur dəhlizi, idxal, ixrac, iqtisadiyyat, kommunikasiya, ticarət, Bakı-Tbilisi-*

*Qars dəmir yolu, iqtisadi blokada, nəqliyyat infrastrukturu, dəmiryolu, yük daşımaları, magistral xətlər.*

Naxçıvan Muxtar Respublikasının yerləşdiyi siyasi və iqtisadi coğrafiya onun proqressiv logistik potensiala malik olmasına dəlalət edir. Bu potensial maksimum şəkildə realizə olunacağı halda, muxtariyyət öz inkişafında xeyli irəliləyə bilər. Bu “irəliləyiş” muxtar dövləti hətta dünyanın ən aparıcı dövlətləri ilə eyni proyeksiyaya gətirə bilər. Bu gün buna çox çətinliklə inanan və ümumiyyətlə, inanmayanların sayı az olmaz. Lakin, əgər biz əsrlərin sınaqlarından keçmiş iqtisadi nəzəriyyənin elmi postulatlarını rəhbər tutsaq, belə bir iddianın həyata keçirilə biləcəyini iddia edə bilərik.

Qardaş Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürk hələ 100 il öncə Naxçıvanı

“Türk qapısı” adlandıraraq, Türkiyənin bu bölgəyə verdiyi strateji önəmi ifadə etmişdir. Bu qapı Türkiyənin Azərbaycana və Orta Asiyaya, Rusiyaya açılan qapısı kimi dəyərləndirilə bilər. 2020-ci il, noyabrın 10-da Ermənistanın kapitulyasiyasını rəsmiləşdirən sənəd isə iki qardaş ölkənin əlaqələri və bölgənin inkişafı baxımından muxtar respublikanın tarixində yeni bir səhifə açmışdır. Muxtar Respublikanı Azərbaycanın əsas hissəsinə birləşdirəcək dəmir yolunun bərpası ilə bağlı ölkə Prezidenti tərəfindən müvafiq göstərişlər verilmişdir. Yeni avtomobil yolunun çəkilməsi planlaşdırılmışdır. Hal-hazırda Türkiyə Respublikası Bakı-Tbilisi-Qars dəmir yolunu Naxçıvana bağlayacaq Qars-İğdır-Naxçıvan xətti ilə bağlı real addımlar atmaqdadır. Bütün bunlar indiyə qədər beynəlxalq nəqliyyat magistrallarından kənarda qalan Naxçıvanı onların mühüm halqasına çevirəcək, tranzit imkanlarını xeyli artıracaq.

Sözsüz ki, Naxçıvanla nəqliyyat əlaqələrinin bərpa olunması Azərbaycan-Türkiyə starateji əməkdaşlığında yeni imkanlar yaradacaq. Bu kommunikasiya xüsusilə, iki ölkənin kiçik və orta biznesinin inkişafında mühüm rol oynayacaq. Naxçıvan Muxtar Respublikası ilə kommunikasiyaların bərpası Azərbaycanla Türkiyə arasında Gürcüstandan keçən yolla müqayisədə 343 kilometr daha qısa alternativ dəmir yolu və avtomobil yolu imkanı yaradacaq. Bu isə təkcə iki ölkə arasında deyil, həm də Türkiyə ilə Mərkəzi Asiya dövlətləri, hətta Avropa ilə Asiya arasındakı yükdaşımaları sərfəli edəcək. Bununla da Mustafa Kamal Atatürkün böyük önəm verdiyi, ümummilli lider Heydər Əliyevin daima qayğı və diqqət göstərdiyi Naxçıvanın tarixində yeni inkişaf mərhələsi başlayacaq. Düz 100 ildir ki, qədim Azərbaycan torpağı Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvanın Azərbaycanın digər əraziləri ilə quru əlaqəsi

kəsilmişdi. İkinci Qarabağ savaşının – Vətən Müharibəsinin Qələbə ilə başa çatması nəticəsində Azərbaycan ilə Naxçıvan arasında quru sərhəd bərpa olacaq.

Sovet dövründə Zəngilanın Mincivan qəsəbəsi vasitəsilə dəmir yolu xətti var idi. 30 il idir ki, Naxçıvan blokada vəziyyətinə salınmışdı. İndiyədək Naxçıvanda yaşayan, fəaliyyət göstərən sahibkarlar istehsal etdikləri məhsulları ya hava yolu, ya da İran ərazisindən istifadə etməklə ölkənin digər şəhər və rayonlarına çatdırırdılar. Təbii ki, bu, əlavə xərc, vaxt itkisi, əzab-əziyyət deməkdir. Yeni yaradılacaq dəhliz isə ilk növbədə Muxtar Respublikada biznesin inkişafını sürətləndirəcək. Bu həm Naxçıvan, həm də Azərbaycan iqtisadiyyatı üçün böyük əhəmiyyətə malik bir layihə olacaq. Layihənin əhəmiyyəti bununla yekunlaşmır. Belə ki, bu layihənin daha böyük, daha qlobal əhəmiyyəti var. Çünki, Azərbaycan beynəlxalq nəqliyyat dənizlərinin qovşağında yerləşir. Həm şimal-cənub, həm də qərb-şərq nəqliyyat dəhlizləri məhz Azərbaycandan keçir. Yeni dəhliz vasitəsi ilə azərbaycanlı iş adamları istehsal etdikləri məhsulları Türkiyəyə, oradan da Avropa bazarlarına ixrac edə biləcəklər. Qeyri-neft ixracatının artması ölkəyə daha çox valyutanın axınına imkan verəcək. Eyni zamanda şimal-cənub nəqliyyat dəhlizinin reallaşmasında Azərbaycanın xüsusi töhfəsi var. Bu isə Azərbaycanın tranzit yük daşınmalardan gəlirlərinin artmasına imkan verəcək.

Zəngəzur dəhlizinin istifadəyə verilməsilə Azərbaycanın Türkiyə ilə iqtisadi əlaqələr daha da inkişaf edəcək. Xüsusilə, Çin, Orta Asiya ölkələrinin Türkiyə və Avropa bazarlarına çıxışında bu layihə əhəmiyyətli rol oynayacaq. Ölkəmiz ilə Türkiyə arasında iqtisadi əməkdaşılığın daha da genişlənməsinə böyük töhfə verəcək. Çünki, qardaş ölkə öz məhsullarını daha qısa olan Naxçıvan dəhlizi vasitəsilə İrana, Rusiya, eləcə də digər Orta Asiya ölkələrinə ixrac edəcək. Bütün bunlarla yanaşı, regionda xarici səfərlərin sayının artması, yuxarıda qeyd etdiyimiz kimi, turizmin inkişafını da sürətləndirəcək. Yeni nəqliyyat dəhlizinin yaradılması siyasi, strateji və iqtisadi uğurdur. Azərbaycanın mövqeyinin daha da güclənməsinə xidmət edəcək tarixi uğurlardan pay alan qədim diyar Naxçıvan xeyli dəyişəcək, inkişaf edib çiçəklənəcək.

Azərbaycanın müzəffər qələbəsini özündə ehtiva edən, Azərbaycan, Rusiya və Ermənistan tərəfindən imzalanan bəyanatda Naxçıvan Muxtar Respublikası ilə iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi haqqında bir müddəa yer almışdır. Razılaşmanın bu bəndi regionda nəqliyyatkommunikasiya sisteminin bərpası və beynəlxalq nəqliyyat-logistika sistemində Azərbaycanın mövqeyinin güclənməsinə təkan verəcək. Belə ki, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması haqqında Azərbaycan Respublikasının Prezidenti, Ermənistanın baş naziri və Rusiya Federasiyasının Prezidentinin birgə bəyanatının 9-cu maddəsinə istinadən aşağıdakı müddəalar qəbul edilmişdir:

1) Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa olunur;

2) Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və

Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir;

3) Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Bu maddə, nəqliyyat dəhlizinin nəzərdə tutulması ilə Azərbaycanla birbaşa quru əlaqəsi olmayan Naxçıvan Muxtar Respublikası və Azərbaycan üçün böyük iqtisadi əhəmiyyət kəsb edir. **Nəqliyyat sisteminin şaxələndirilməsi**

Bir ölkənin nəqliyyat və logistika sisteminin inkişafı, xarici və daxili daşınmalar üçün alternativlərin çox olması bu ölkənin iqtisadi inkişafında, idxal və ixrac əməliyyatlarının təhlükəsiz həyata keçirilməsində önəmlidir. Bu baxımdan ölkənin digər bölgələri ilə quru yolu mövcud olmayan Naxçıvan Muxtar Respublikasının ölkədaxili regionlar ilə iqtisadi əlaqələri əlavə vaxt və xərc yaradırdı. Naxçıvan ilə quru əlaqələrinin bərpası ilk növbədə nəqliyyat sisteminin şaxələndirilməsi və mövcud kommunikasiya infrastrukturuna əhəmiyyətli alternativlər vədd edir.

10 noyabr 2020-ci il sazişinə qədər Azərbaycanın digər regionları ilə Naxçıvan arasındakı birbaşa nəqliyyat əlaqəsi sadəcə hava yolları vasitəsilə mümkün idi ki, bu nəqliyyat dəhlizinin açılması ilə bu bahalı

nəqliyyat vasitəsinə daha ucuz və daha çox ixrac-idxal həcmi qazandıra biləcək alternativ olan avtomobil və dəmiryolu xətlərinin çəkilməsi üçün imkan yaranacaqdır. Bununla da

Naxçıvan regional nəqliyyat sisteminin şah damarına çevriləcəkdir.

**Xəzər dənizini Aralıq dənizinə birləşdirən körpü**

Quru əlaqələrinin bərpası ilə beynəlxalq miqyasda Asiya və Avropa arasındakı çoxtərəfli iqtisadi əlaqələrin inkişafında mövcud olan daha bir problem öz həllini tapacaqdır. Belə ki, sazişə qədər Azərbaycanla quru yolları bağlı olan Naxçıvan Muxtar Respublikası əhəmiyyətli regional və beynəlxalq tranzit layihələrdən kənarda qalmışdı. Postblokada dövründə isə Naxçıvan, bu tranzit xətləri öz üzərinə çəkməklə, Xəzər dənizi və Aralıq dənizi arasında körpü rolunu oynayacaq, İpək yolu üzərindəki ölkələr üçün təhlükəsiz, ucuz və sürətli daşınmanı təmin edəcəkdir. Bundan başqa,

Naxçıvan gələcəkdə Şimal-Cənub nəqliyyat dəhlizinə və layihəsi planlaşdırılan Qars-İğdır-Naxçıvan dəmiryol xətlərinə inteqrasiya vasitəsilə beynəlxalq yüklərin Avropaya daşınmasında açar mövqeyində olacaqdır.

**Məsafənin qısalması**

Naxçıvanla nəqliyyat kommunikasiya sisteminin qurulması həmçinin məsafə və dolayısı ilə yüklərin çatdırılma sürəti baxımından böyük əhəmiyyət daşıyır. Gələcəkdə Naxçıvan ərazisindən keçəcək quru yolu xətləri Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin uzunluğundan 1,7 dəfə, təxminən 343 km az olmaqla daşınmaların xərcini və müddətini azaldacaq və Naxçıvan nəqliyyat qovşağı BakıTbilisi-Qars dəmiryolu xəttinə qoşulmaqla, Mərkəzi Asiya və Avropa arasında körpü rolunu oynayacaqdır. Həmçinin Naxçıvan vasitəsilə Türkiyəyə avtomobillə gediş məsafəsi təxminən 343 km qısa olacağı üçün, hər iki ölkə arasında turistlərin ikitərəfli yerdəyişməsində Naxçıvan ərazisindən ölkəyə girişin geniş vüsət alacağı gözlənilir. Əvvəlki illərdə Türkiyə ilə Naxçıvan arasındakı Dilucu sərhəd keçid məntəqəsindən istifadə edən sərnişinlərin sayı 5-7,5 min nəfər idi. Naxçıvanla quru yolu bərpa edildikdən sonra Azərbaycanın digər bölgələrinə getmək istəyən turistlərin də bu yoldan istifadə etməsi ilə bu rəqəmin daha da artacağı proqnozlaşdırılır. Ölkəyə girişlərin Naxçıvan vasitəsilə həyata keçirilməsinin genişlənməsi isə Naxçıvanda turizmin inkişafına müsbət təsir göstərəcəkdir.

**Naxçıvanın iqtisadi blokadadan çıxarılması**

Quru əlaqələrinin olmaması səbəbindən Naxçıvan, Azərbaycanın iştirak etdiyi bütün regional və beynəlxalq tranzit layihələrindən kənarda qalırdı. Bu isə muxtar respublikanın bu layihələrdən yararlana bilməməsinə və iqtisadi blokadada olmasına gətirib çıxarırdı. İqtisadi blokada zamanı həll yolu hava nəqliyyatı və üçüncü ölkələrin ərazisindən keçməklə əlaqələrin təmin olunması idi ki, bu da əlavə vaxt və xərc tələb edirdi. Naxçıvanla quru əlaqələrinin təmini ilə Naxçıvan Muxtar Respublikası Azərbaycanın digər regionlarındakı nəqliyyat şəbəkəsinə qoşularaq, öz məhsullarını Azərbaycanın digər bölgələrinə, həmçinin Avropaya və Asiyaya daha rahat imkanlarla çıxara biləcək. Postblokada dövründə nəqliyyat-kommunikasiya sisteminin şaxələnməsi ilə Naxçıvan öz iqtisadi inkişafını daha da sürətləndirərək idxal üçün çəkiləcək xərclərə qənaət edəcək, ixrac həcmini artıracaq, həmçinin böyük bazarlarda tanınmaqla iqtisadi rayona xaricdən investisiya cəlb edə biləcəkdir. Blokadanın bitməsi ilə Naxçıvanın Azərbaycanın digər bölgələri ilə əlaqələri daha da möhkəmlənəcək, Muxtar Respublika əkinçilik və heyvandarlıq başda olmaqla qeyri-neft sektoruna öz töhfəsini daha çox verəcəkdir.

**Türkiyənin cənub-şərq şəhərləri ilə əlaqələrin güclənməsi**

Quru yolunun bərpası ilə layihəsi planlaşdırılan Qars-İğdır-Naxçıvan dəmiryol xətlərinə qoşularaq beynəlxalq yüklərin Avropaya daşınmasında Azərbaycandan Türkiyəyə yükdaşımaları asanlaşacaq. Nəticədə, Azərbaycandan ixrac edilən məhsulların nəqliyyat xərcləri azalacaq və

Naxçıvanın beynəlxalq logistika qovşağı olaraq Ağrı, Ərdahan, İğdır və Qars şəhərlərini əhatə edən Türkiyənin Şərqi Anadolu bölgəsi başda olmaqla bütün Türkiyə ilə ticarət əlaqələri daha da genişlənəcək.

Prezident İlham Əliyev Zəngilan rayonuna səfəri zamanı Mincivan qəsəbəsində olmuş və buradakı dəmir yolu stansiyasının yerləşdiyi əraziyə baxmışdır. Dövlət başçısı bölgənin strateji əhəmiyyətini vurğulayaraq Zəngəzur dəhlizinin açılması istiqamətində görülən işlərə bir daha diqqət çəkmişdir: “Birinci

Qarabağ müharibəsindən sonra ermənilər bütün dəmir yolunu söküb aparmışlar. O relslərin bir hissəsini satmışdılar, bir hissəsindən isə tank əleyhinə istehkamlar qurmuşdular. Biz indi yenidən dəmir yolunu çəkəcəyik. Bu işlərə start verildi. Mən bir müddət əvvəl Horadiz qəsəbəsində Horadiz-Ağbənd dəmir yolunun təməl daşını qoydum. Bu dəmir yolu Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə Zəngəzur dəhlizi vasitəsilə birləşdirəcəkdir. Əslində, Zəngilan rayonu coğrafi baxımdan Şərqi Zəngəzur mahalında yerləşir və Şərqi Zəngəzuru Qərbi

Zəngəzurla birləşdirib Naxçıvana dəmir yolu açacağıq və həmçinin avtomobil yolu açılmalıdır".

Zəngəzur dəhlizinin açılması sayəsində Avropanın bir sıra ölkələri Türkiyə vasitəsilə Şərq regionunda illik dövriyyəsi təxminən 3 milyard dollar olan bir bazara daxil ola biləcəklər. Layihə nəinki bu regionun, bütövlükdə, dünyanın nəliyyat xəritəsini yenidən formalaşdıracaqdır.

Zəngəzur dəhlizinin mühüm strateji əhəmiyyətindən biri də Şərqi və Qərbi Zəngəzurun simvolik olsa da birləşməsi, 30 il boyunca sərt blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının blokadadan çıxarılmasıdır. Ona görə də, dövlət başçısı bu dəhlizin açılmasında israrlıdır və bunun üçün maksimum səylərin göstərilməsini zəruri hesab edir. Təsadüfi deyil ki,

Prezident İlham Əliyev bu yaxınlarda Azərbaycan televiziyasına müsahibəsində Zəngəzur dəhlizinin yaradılmasının bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verdiyini vurğulamışdır:

"Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq".

Məlum olduğu kimi, 1920-ci ildə Zəngəzurun zorla Ermənistana birləşdirilməsindən sonra Naxçıvan blokadaya salınmışdır və bunula da Azərbaycanın əsas hissəsindən təcrid olunmuş vəziyyətdə yaşamağa məcbur edilmişdir. Naxçıvanlılar 30 ildən çoxdur ki, öz həyatlarında blokadanın çətinliklərini hiss edirlər. 1990-cı illərin əvvəllərində Naxçıvanda yaşayanlar blokadanın nə demək olduğunu yaxşı bilir. Həmin dövrdə görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvanda olması muxtar respublikanı blokada məngənəsində boğulmaqdan xilas etdi.

Qüdrətli dövlətimiz naxçıvanlılara hər nə qədər blokadanın çətinliklərini hiss etdirməməyə çalışsa da, ömründə bircə dəfə İran ərazisindən keçib Bakıya gələn muxtar respublika sakinləri, yaxud əzizinin dəfnində iştirak etmək üçün Naxçıvana təyyarə bileti tapa bilməyənlər blokadanın ağrı-acısını iliklərinə qədər hiss ediblər. Ona görə də Zəngəzur dəhlizi Naxçıvan üçün olduqca mühüm bir əhəmiyyət kəsb etməkdədir.

Zəngəzur dəhlizinin istifadəyə verilməsi Naxçıvanı təkcə blokadadan çıxarmayacaqdır. Bu nəqliyyat dəhlizinin açılmasından sonra muxtar respublika logistik mərkəzə çevriləcəkdir. Azərbaycanın əsas hissəsi ilə quru əlaqəsinin təmin edilməsi Naxçıvanın iqtisadi inkişafına təkan verəcək, bölgəyə investisiya qoyuluşunu stimullaşdıracaq, yeni istehsal müəssisələrinin yaradılmasına, əlavə iş yerlərinin açılmasına səbəb olacaqdır.

Təbii ki, burada belə bir sual da yarana bilər ki, Naxçıvan Muxtar Respublikası Azərbaycanın Zəngəzur dəhlizindən gözləntilərinin reallaşdırılmasına, regionda ölkəmizin logistik mərkəzi funksiyasını yerinə yetirməyə nə dərəcədə hazırdır? Prezident İlham Əliyevin Naxçıvana illərdir, xüsusi diqqətinin, həssas münasibətinin nəticəsidir ki, bu suala hal-hazırda birmənalı cavab vermək mümkündür. Belə ki, muxtar dövlətdə son 20 ildə cərəyan edən hərtərəfli quruculuq işlərini nəzərə alsaq, muxtar respublikanın bu funksiyanı yerinə yetirməyə tam hazır olmasını iddia edə bilərik. Son 20 ildə muxtar respublikada Naxçıvan-Sədərək, Naxçıvan-Culfa, Culfa-Ordubad magistral yollarının yenidən qurulması, dəmir yolunun qorunub saxlanılması, dəmir yolu vağzallarının təmir edilməsi, Beynəlxalq Hava Limanının yaradılması, bütövlükdə, nəqliyyat infrastrukturunun müasirləşdirilməsi bugünkü dövrə hesablanmış tədbirlərdəndir. Muxtar respublikada 3, 4 və 5 ulduzlu otellərin, müasir ticarət mərkəzlərinin, restoran şəbəkələrinin yaradılması Naxçıvanın beynəlxalq nəqliyyatlogistika mərkəzinə çevrilməsini təmin edəcək amillər sırasındadır.

Müasir dövrdə hər hansısa bir bölgənin logistik mərkəz ola bilməsi üçün informasiyakommunikasiya texnologiyalarının tələb edilən səviyyədə inkişafı da əsas məsələlərdəndir. Prezident İlham Əliyevin tapşırığı ilə Naxçıvanda bu istiqamətdə də mühüm işlər görülüb. Hazırda ölkəmizdəki mobil operatorların Naxçıvan ərazisində fəaliyyəti təmin edilib, muxtar respublikanın özünün "Naxtel" mobil operatoru yaradılıb. 2005-ci ilin iyun ayında Naxçıvan Trans-Asiya-Avropa fiberoptik magistral xəttinə qoşulmaqla informasiyanın daha sürətli axınını təmin etmək imkanı əldə edib, muxtar respublikada internetə çıxış imkanları yaxşılaşdırılıb.

Sədərəkdən Ordubada qədər uzanan magistral yolların kənarında yanacaqdoldurma məntəqələri, Naxçıvan şəhərində yeraltı və yerüstü avtomobil dayanacaqları, avtomobil təmiri mərkəzləri istifadəyə verilib. Bunlar Naxçıvandan tranzit kimi istifadə edəcək yük və minik avtomobillərinin sürücülərinə 24 saat xidmət göstərəcəkdir.

Naxçıvanın beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi fəaliyyət göstərə bilməsi üçün müasir gömrük sistemi də olmalıdır. Ona görə ki, beynəlxalq ticarətin davamlılığının təmin edilməsində, asanlaşdırılmasında gömrük orqanlarının üzərinə mühüm vəzifələr düşür. Prezident İlham Əliyevin tapşırığı, daimi nəzarəti ilə Naxçıvan bu məsələnin də həllinə nail olub. Beynəlxalq standartlar və yerli şərait nəzərə alınmaqla 2007-ci ildə Culfa, 2009-cu ildə Şahtaxtı, 2012-ci ildə isə Naxçıvan Şəhər Gömrük idarələri üçün qurulan gömrük kompleksləri, gömrük laboratoriyası, 2014-cü ildə

Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi üçün istismara verilən inzibati bina, 2015-ci ildə

"Naxçıvanterminalkompleks" Birliyi üçün tikilib istifadəyə verilən yeni inzibati bina və anbar kompleksi ən yüksək standartlara cavab verir. Hazırda inşası davam etdirilən Sədərək gömrük-keçid məntəqəsi üçün yeni kompleks istifadəyə verildikdən sonra muxtar respublikanın gömrük orqanlarının tamamilə müasirləşdirilməsi prosesi başa çatdırılacaqdır.

Göründüyü kimi, Zəngəzur dəhlizi açıldıqdan sonra Naxçıvan Muxtar Respublikasının nəqliyyat-logistik mərkəzə çevrilə bilməsi üçün əvvəlcədən bütün lazımi tədbirlər həyata keçirilibdir.

Bununla belə, hələ də görüləsi işlər vardır. Məsələn, Şərur, Culfa və Ordubad şəhərlərində ən azı hostel tipli qonaqlama məntəqələrinə gələcəkdə ciddi ehtiyac olacaqdır. Bundan başqa, Sədərəkdən Ordubada qədər uzanan magistral yolun kənarlarında kiçik kafelərin, restoranların tikilməsi də məqsədəuyğundur.

Heç şübhə yoxdur ki, çox cüzi çatışmazlıqlar Zəngəzur dəhlizi açılana qədər öz həllini tapacaqdır. Və yaxın gələcəkdə Naxçıvan Muxtar Respublikası nəinki ölkəmizin, bötövlükdə, regionun inkişaf etmiş bölgəsinə, nəqliyyat-logistik mərkəzinə çevriləcəkdir.

## ƏDƏBİYYAT

1. T. İ. İmanov. Logistikanın əsasları. Bakı: 2005.
2. Mikhail Yakovlevich Postan. Logistics: Freight transport, Intermodal systems. Kiev: 2020.
3. Lin Crase, Geoffrey R. Durden. Organizational Logistics, Asia Home Publishing. 2008.
4. Алесинская Т. В. Основы логистики. Изд-во ТРТУ, 2005.
5. Алесинская, Т. В. Функциональные области логистического управления. Таганрог: 2010.
6. Кузьбожев, Э. Н. Логистика-Электронный ресурс КНОРУС, 2010.
7. Лавриков И. Н. Экономика автомобильного транспорта: учебное. Тамбов: 2011.
8. Лавриков И. Н. Экономика отрасли: метод. Указания, Изд-во ФГБОУ, 2013.
9. Н. В. Пеньшин. Транспортная логиситка. Москва: 2020.
10. Сток Д. Р., Стратегическое управление логистикой. Омск: 2016.
11. Б. А. Аникина, Т. А. Родкина. Логистика. Москва: 2018.
12. Аникин Б. А. Практикум по логистике. Учебное пособие. Москва: 2007.

## SUMMARY

**Elshan Nasirov**

## LOGİSTİCS GEOSTRATEGY OF NAKHCHİVAN

As a result of the convincing victory of the victorious national army of Azerbaijan in the Second Karabakh War, which lasted only 44 days, a new historical page was opened in the development of the South Caucasus region. This will be characterized, first of all, by cardinal, radical changes in the transport system of the region and, in general, the progressive development of regional logistics infrastructure. Undoubtedly, as a result of these changes, it will have a significant impact on the progressive development of the Nakhchivan Autonomous Republic, which has been under geopolitical and geoeconomic blockade for many years. From this point of view, Elshan Nuraddin Nasirov's scientific article "Logistics geostrategy of Nakhchivan" is very relevant.

The scientific article examines aspects of the development of logistics infrastructure in the Nakhchivan Autonomous Republic and gives a number of valuable economic forecasts.

The scientific article focuses on the operational aspects of the Zangazur transport corridor and provides a retrospective analysis of the political and economic dividends that this corridor could bring to the autonomous republic in the near future.

The scientific article also stressed that the opening of the Zangazur corridor will further develop Azerbaijan's economic relations with Turkey, in particular, this corridor will play an important role in the access of China, Central Asian countries to the Turkish and European markets.


***Key words:*** *Zangazur corridor, Great Silk Road, import, export, economy, communication, trade, Baku-Tbilisi-Kars railway, economic blockade, transport infrastructure, railway, cargo transportation, highways.*


## РЕЗЮМЕ

**Эльшан Насиров**

## ЛОГИСТИЧЕСКАЯ ГЕОСТРАТЕГИЯ НАХЧЫВАНА

В результате убедительной победы победоносной национальной армии Азербайджана во Второй Карабахской войне, продолжавшейся всего 44 дня, открылась новая историческая страница в развитии региона Южного Кавказа. Эта историческая победа будет способствовать, прежде всего, кардинальными, радикальными изменениями транспортной системы региона и позитивному развитию региональной логистической инфраструктуры. Вне всякого сомнения, что эти изменения окажут существенное влияние на созидательное развитие Нахчыванской Автономной Республики, которая на протяжении многих лет находится под геополитической и геоэкономической блокадой. С этой точки зрения, научная статья Эльшана Нураддин оглы Насирова «Логистическая геостратегия Нахчывана» является весьма актуальной.

В научной статье рассматриваются аспекты развития логистической инфраструктуры в Нахчыванской Автономной Республике и дается ряд ценных экономических прогнозов. Кроме того, в научной статье рассматриваются аспекты эксплуатациии Зангезурского транспортного коридора и дается ретроспективный анализ политических и экономических дивидендов, которые этот коридор может принести автономной республике в ближайшем будущем.

В научной статье также подчеркивается, что открытие Зангезурского коридора будет способствовать дальнейшему развитию экономических отношений Азербайджана с Турцией и делается особый акцент на то, что этот коридор сыграет важную роль в доступе Китая, стран Центральной Азии на турецкий и европейские рынки.


***Ключевые слова:*** *Зангезурский коридор, Великий Шёлковый путь, импорт, экспорт, экономика, связь, торговля, железная дорога Баку-Тбилиси-Карс, экономическая блокада, транспортная инфраструктура, железная дорога, грузоперевозки, автомобильные дороги.*

# III BÖLMƏ
# BEYNƏLXALQ MÜHASİBAT UÇOTU STANDARTLARI

**NURİYYƏ İBRAHİMOVA**
*Naxçıvan Dövlət Universiteti nuriyyeibrahimova@mail.ru*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA BEYNƏLXALQ TİCARƏT ƏLAQƏLƏRİNDƏ MƏHSUL İSTEHSAL VƏ SATIŞININ TƏHLİLİ

*Məqalədə şərh edilmişdir ki, təsərrüfat fəaliyyətinin təhlili məhsulların istehsalı və satışının öyrənilməsindən başlanır, çünki məhsul istehsalı və satışı təsərrüfat subyektlərinin fəaliyyətinin ən mühüm aspektləridir. Belə ki, məsrəfləri, mənfəəti, rentabelliyi, rəqabət qabiliyyəti və bazarda fəallığı buraxılan və realizə edilən məhsulun həcmindən, çeşidindən və keyfiyyətindən asılıdır.*

*Qeyd edilmişdir ki, muxtar respublikanın dinamik inkişafı, ən əsası yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir. Bu baxımdan səmərəli məşğulluq imkanlarının yaradılması əhalinin alıcılıq qabiliyyətini yüksəltmiş, əmtəə dövriyyəsinin həcmini genişləndirmişdir.*

***Açar sözlər**: ticarət, istehsal, təhlil, məhsul, müəssisə, dinamika*

Məlum olduğu kimi, təsərrüfat fəaliyyətinin təhlili məhsulların istehsalı və satışının öyrənilməsindən başlanır, çünki məhsul istehsalı və satışı təsərrüfat subyektlərinin fəaliyyətinin ən mühüm aspektləridir. Belə ki, məsrəfləri, mənfəəti, rentabelliyi, rəqabət qabiliyyəti və bazarda fəallığı buraxılan və realizə edilən məhsulun həcmindən, çeşidindən və keyfiyyətindən asılıdır.

Məhsul (iş və xidmət) istehsalı və satışının məqsədləri aşağıdakı əsas məsələlərin həlli ilə əlaqədardır:

- müəssisənin istehsal edə biləcəyi məhsulların seçilməsi;
- müəssisə üçün ən perspektivli məhsul növlərinin müəyyən edilməsi, malların bazarda hərəkətinin və reklamının təşkili;
- sifarişlər portfelinin formalaşdırılması və istehsalın həcmi üzrə planların əsaslandırılması;
- məhsulun satışı bazarının və yayılma üsullarının axtarılıb tapılması;
- satışın zərərsizliyi səviyyəsinin qiymətləndirilməsi;
- məhsulun keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsi tədbirləri haqqında qərarların qəbul edilməsi;
- müəssisənin qiymət siyasətinin seçilməsi.

İşlənib hazırlanmış və sistemləşdirilmiş informasiya əsasında aparılan təhlil həmin məsələlərin həllini təmin etməlidir.

Məhsulların alıcıları ilə bağlanmış təsərrüfat müqavilələri təhlil üçün mühüm ilkin sənədlərdir. Həmin sənədlərə nomenklaturası, həcmi, keyfiyyəti, komplektliliyi qablanması, qiyməti, müqavilənin məbləği, göndərmə qaydası və müddətləri, hesablaşmalar və çatdırılma qaydası, müqavilənin müddətləri, şərtlərin pozulmasına görə sanksiyalar haqqında informasiya daxildir.

Hər bir müəssisə müqavilələr əsəasında məhsulun həcmi və nomenklaturası üzrə sifarişlər portfeli formalaşdırır və özlərinin istehsal imkanlarını nəzərə almaqla məhsulun istehsalının həcmini planlaşdırır, onun anbara verilməsi və alıcılara göndərilməsi qarfiklərini tərtib edir.

Struktur dəyişilmələrinin məhsulun həcminə təsiri nəticəsində məhsul istehsalı və satışı həcminin təhlili, bir qayda olaraq, təhlil edilən dövr ərzində planın yerinə yetirilməsi dərəcəsinin və dəyər ifadəsində ümumi və əmtəəlik məhsulun göstəricilərinin dinamikasının qiymətləndirilməsindən başlanır. Bu zaman dövr ərzində göstəricilər üzrə mütləq kənarlaşmalar, onların inkişafı və artım templəri, planın yerinə yetirilməsi səviyyəsi müəyyən edilir.

Ümumi, əmtəəlik və realizə edilmiş məhsulun planlaşdırılması və uçotu planda qəbul topdan satış qiymətlərilə və müəssisənin qüvvədə olan topdan satış qiymətlərilə həyata keçirilir. Bu göstəricilərin tərkibində konkret müəssisədə sərf edilmiş canlı əmək məsrəfləri deyil, həm də istifadə edilmiş materialların, alınan yarımfabrikatların, kpomplektləşdirici məmulatların, yanacağın, enerjinin, amotizasiya olunan qeyri-maddi aktivlərin və əsas fondların dəyərinin bir hissəsi şəklində maddiləşmiş əmək məsrəfləri nəzərə alınır.

***İstehsal edilmiş məhsulun həcmi üzrə illik planın yerinə yetirilməsinin təhlili***

| Göstəricilər | | Plan | Hesabat | Plandan fərqlənmə | Planın yerinə yetirilməsi faizi |
|---|---|---|---|---|---|
| A | B | 1 | 2 | 3 | 4 |
| Müəssisənin planda qəbul edilmiş topdan satış qiymətləri ilə realizə edilmiş məhsulu, min man. | 1 | 51000 | 52530 | +1530 | 103.0 |
| Müəssisənin planda qəbul edilmiş topdan satış qiymətləri ilə əmtəəlik məhsulu, min man. | 2 | 50700 | 52660 | +1960 | 103.87 |
| Normativ xalis məhsul (sabit normativlərdə), min man. | 3 | 21500 | 23220 | +1720 | 108.0 |
| Əmtəəlik məhsulun tərkibində sabit normativlər üzrə material xərcləri (amortizasiya daxil olmaqla), min man. | 4 | 29250 | 29520 | +270 | 100.92 |
| Normativ əmək haqqı (vahid sosial vergi üzrə ayrılmalarla birlikdə), min man | 5 | 15050 | 161120 | +1070 | 107.11 |
| Normativ mənfəət, min man. | 6 | 6450 | 7100 | +650 | 110.08 |

Əmtəəlik və realizə edilmiş məhsullar üzrə planın yerinə yetirilməsi səviyyəsi müxtəlifdir(103,87%) və (103%). Bu istehsal və realizə edilmiş məhsulun fiziki həcmlərin eyni olmaması ilə izah edilir və realizə edilməmiş malların qalığının dəyişilməsində təzahür edir.

Realizə edilmiş məhsulun planda nəzərdə tutulmuş həcmi plan üzrə əmtəəlik məhsulun həcmindən çoxdur, deməli, planda realizə edilməmiş məhsul qalıqlarının dövrün əvvəlinə nisbətən sonunda azalması nəzərdə tutulmuşdur. Faktiki olaraq bu alınmamışdır. Realizə edilmiş məhsulun həcmi üzrə planın yerinə yetirilməsi səviyyəsi məhsul buraxılışı planının yerinə yetirilməsindən 0,87% aşağıdır, deməli realizə edilməmiş məhsul qalıqları artmışdır və müəssisə satışın həcminin artması imkanlarından tam istifadə etməmişdir.

Planda nəzərdə tutulmuş topdansatış qiymətləri ilə əmtəəlik məhsul istehsalı planı 103,87%, normativ xalis məhsulun istehsalı planı isə 108% yerinə yetirilmişdir. Əmtəəlik və normativ xalis məhsul istehsalı planlarının icra səviyyəsində belə fərqlənmə buraxılmış məhsulun çeşid strukturunda planla müqayisədə topdan satış qiymətlərində material xərclərinin səviyyəsi orta hesabla bütün məhsul üzrə aşağı olan məmulatların xüsusi çəkisinin yüksəlməsi ilə izah edilir. Sabit normativlər üzrə material xərcləri planının yerinə yetirilməsi faizi (100,92%) də bunu sübut edir.

Təssərüfatın maliyyə vəziyyəti, onun fəaliyyətinin maliyyə nəticələri, ödəmə qabiliyyəti satışın həcmindən çox asılıdır. Satışın həcminin təhlili prosesində məhsulun satışı üzrə planın yerinə yetirilməsi səviyyəsini müəyyən etmək, onun dəyişilməsinə təsir edən amilləri aydınlaşdırmaq, müqavilə öhdəliklərinin yerinə yetirilməsinə qiymət vermək lazımdır.

Məhsulun satışı planının yerinə yetirilməsinin və onun dinamikasının təhlili müqayisə metodu ilə həyata keçirilir. O, faktiki göstəricilərin hesabat dövrünün plan və əvvəlki dövrlərin faktiki göstəriciləri ilə

müqayisə edilməsindən ibarətdir. Bu zaman mütləq kənarlaşmalar, artım templəri, planın yerinə yetirilməsi faizləri hesablanır.

***Məhsul satışı həcminin dəyişməsi amillərin təhlili, min man.***
(müəssisənin plan üzrə topdan satış, qiymətləri ilə)

| Sıra sayı | Göstəricilər | Baza dövrü | Hesabat dövrü | Müxtəlif amillərin satışının həcminə təsiri |
|---|---|---|---|---|
| 1 | İlin əvvəlinə anbarda hazır məhsul qalıqları | 125 | 140 | 15 |
| 2 | Əmtəəlik məhsul buraxılışı | 5440 | 5800 | 360 |
| 3 | İlin sonuna anbarda hazır məhsul qalıqları | 130 | 120 | 10 |
| 4 | Məhsul satışı (b.1+b.2--b.3) | 5435 | 5820 | 385 |

Amillərin təsiri nəticəsində hesabat dövründə baza dövründən 385 min man. məbləğində artıq məhsul realizə edilmişdir. Satışın həcminin dəyişilməsinə aşağıdakı amillər təsir göstərmişdir: əmtəəlik məhsul buraxılışının artması (+360 min man.), ilin əvvəlinə anbarda hazır məhsul ehtiyyatlarının artımı (+15 min man.), ilin sonuna anbarda hazır məhsul qalıqlarının azalması (+10 min man). Muxtar respublikada iqtisadi və sosial sahələrdə qazanılmış uğurlar 2021-ci ilin yanvarsentyabr aylarında da qorunub saxlanılmış, çoxşaxəli iqtisadiyyatın formalaşdırılması və sosial sahənin inkişafı üzrə mühüm tədbirlər həyata keçirilmişdir.

Cari ilin doqquz ayının ən mühüm hadisələrindən biri ölkə başçısı cənab İlham Əliyevin muxtar respublikaya səfəri olmuşdur. Ölkə başçısı səfəri zamanı Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının, Əlahiddə Ümumqoşun Ordunun Hərbi Aerodrom Kompleksinin, “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının, Naxçıvan Qarnizonu

Mərkəzi Hospitalının, Süni Mayalanma Mərkəzinin, Culfa-Ordubad magistral avtomobil yolunun,

Ordubad şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin açılışında iştirak etmiş, “ASAN xidmət” Mərkəzinin və Ordubad Su Elektrik Stansiyasının tikintisi, Ordubad Dəmir Yolu Stansiyası ilə tanış olmuşdur. Muxtar respublikada aparılan irimiqyaslı quruculuq tədbirlərini yüksək qiymətləndirən ölkə başçısı demişdir: **“Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır”**.

Cari ilin yanvar-sentyabr aylarında inkişafı xarakterizə edən əsas göstərici kimi ümumi daxili məhsul istehsalı 2 milyard 151 milyon 583 min manat olmuşdur ki, bu da bir il öncəki göstəricidən 1 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 2 faiz artaraq 4656 manat olmuşdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27,7 faizlik payla sənaye sahəsi tutmuş və maddi istehsalın payı 57 faiz təşkil etmişdir.

2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2021-ci ilin yanvar-sentyabr aylarında sənaye məhsulu 1,3 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,1 faiz, kənd təsərrüfatı məhsulu 3,5 faiz, nəqliyyat sektorunda yük daşınması 0,7 faiz, informasiya və rabitə xidmətləri 7 faiz, pərakəndə əmtəə dövriyyəsi 0,5 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər 0,3 faiz artmışdır.

**Makroiqtisadi göstəricilər**

| Müqayisə predmeti | 2021-ci ilin yanvar-sentyabr ayları, faktiki | 2021-ci ilin yanvarsentyabr ayları 2020-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|
| Ümumi daxili məhsul, min manat | 2 151 583,5 | 101,0 * |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manat | 4 656,1 | 102,0 |
| Sənaye məhsulu, min manat | 855 755,4 | 101,3 * |
| Əsas kapitala yönəldilən vəsaitlər, min manat | 806 538,3 | 101,1 |
| Kənd təsərrüfatı məhsulu, min manat | 409 830,3 | 103,5 * |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 12 354,0 | 100,7 |
| İnformasiya və rabitə xidmətləri, min manat | 45 663,5 | 107,0 |
| o cümlədən mobil rabitə, min manat | 34 385,1 | 101,4 |
| Pərakəndə əmtəə dövriyyəsi, min manat | 1 310 326,9 | 100,5* |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat | 172 244,0 | 100,3* |
| Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı, manat | 544,2** | 103,1 |

*) *müqayisəli qiymətlər üzrə*
***) yanvar-avqust ayları göstəricisi*

***Pərakəndə əmtəə dövriyyəsi, min man.***




2020-ci ildə muxtar respublikanın istehlak bazarında əhaliyə 1 milyard 981 milyon 244 min manat dəyərində istehlak malları satılmış və ödənişli xidmətlər göstərilmişdir. Satılmış istehlak mallarının 96,3 faizi pərakəndə ticarət dövriyyəsinin payına düşmüşdür.

Bir nəfərə düşən pərakəndə ticarət dövriyyəsinə və məişət xidmətlərinə görə Naxçıvan Muxtar Respublikası ölkənin digər iqtisadi rayonları arasında ilk yerdədir. Səmərəli məşğulluq imkanlarının yaradılması əhalinin alıcılıq qabiliyyətin yüksəltmiş, əmtəə dövriyyəsinin həcmini genişləndirmişdir.

Muxtar respublikanın dinamik inkişafı, ən əsası yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir.

2020-ci ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 510 milyon 547 min ABŞ dolları təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 428 milyon 520 min ABŞ dollarını ixrac, 82 milyon 27 min ABŞ dollarını idxal təşkil etmiş və 346 milyon 493 min ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

Muxtar respublikada sığorta sisteminin inkişafı istiqamətində həyata keçirilən tədbirlər 2021ci ildə də davam etdirilir.

## ƏDƏBİYYAT

1. Əlirzayev Ə.Q., Əliyev K.Q. Sahibkarlığın inkişafının təminatı “İqtisadiyyat və audit”. Bakı: 2002 №2., s.33-34
2. N.Əhmədov. Naxçıvan iqtisadiyyatının prioriterləri, iqtisadi artım, dinamik inkişaf. Bakı: 2008.
3. H.Cəfərli. İqtisadi təhlil. Bakı: 2009.
4. N.İbrahimova. Regionda aqrar sahənin istehsal iqtisadi əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri. Naxçıvan:, 2011, 124 s.
5. http://www.statistika.nmr.az

## SUMMARY

**Nuriyya Ibrahimova**

## ANALYSIS OF PRODUCTION AND SALES OF PRODUCTION IN INTERNATIONAL TRADE RELATIONS IN NAKCHIVAN AUTONOMUS REPUBLIC

The article explains that the analysis of economic activity begins with the study of production and sale of products, because the production and sale of product are the most import as pects of the activities of economic entities. Thus, costs, profits, profitability, competitiveness and market activity depend on the volume, range and quality of the product produced and sold.

It was noted that, the dynamic development of the autonomous republic, especially the diversification of lonel production, had a positive impact on the expansion of foreign trade relations.

***Key words:*** *trade, production, analysis, product, enterprise, dynamic*

**РЕЗЮМЕ**

**Нурия Ибрагимова**

**АНАЛИЗ ПРОИЗВОДСТВА ПРОДУКЦИИ И ЕЁ С БЫТА В МЕЖДУНАРОДНЫХ ТОРГОВЫХ ОТНОШЕНИЯХ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ**

В статье пояснено, что анализ хозяйственной деятельности начинается с производства и сбыта товаров, потому что, это процессы по хозяйственным субъектам являются важными аспектами.

Потому как затраты, прибыль рентабельность, конкурентоспособность и рыночная активность зависит от объема, вида и качества производимый и реализуемый продукции.

Было отмечено, что динамическое развитие автономный республики, а самое главное, диверсификация внутренного производства оказывает положителное войздействие на расширение международных торговых отношений.

С этой точки зрения создана эффективных возможностей по занятости повысило покупательскую вожможность населения, расширяет объем товаробарота.

***Ключевые слова:*** *торговля, производства, анализ, товар, предприятие, динамика*

**MEHRİBAN İMANOVA**
*Naxçıvan Dövlət Universiteti*

# İCTİMAİ SEKTOR ÜÇÜN MÜHASİBAT UÇOTUNUN BEYNƏLXALQ STANDARTLARININ TƏTBİQİ VƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR

*Elmi məqalədə ictimai sektor üçün mühasibat uçotunun beynəlxalq standartlarının tətbiqi və qarşıya çıxan çətinliklər araşdırılaraq əvvəlcə dövlət sektoru təşkilatlarının əsas xüsusiyyətləri müəyyən edilib, hesablama və kassa metodu şərh edilib, İctimai Sektor üçün Beynəlxalq Mühasibat Uçotu Standartlarında qəbul edilmiş hesablama metodunun dövlət sektorunun maliyyə hesabatlarının şəffaflığı və hesabatlılığı məqsədlərinə çox da xidmət etdiyi vurğulanıb. Eyni zamanda elmi məqalədə İctimai Sektor üçün Beynəlxalq Mühasibat Uçotu Standartlarının qəbul edilməsinin üstün cəhətləri və Azərbaycanda İSMUBS-a keçidin mərhələləri müəyyən edilib,*

*İSMUBS-a keçidlə bağlı qarşıya çıxan çətinliklər aşkar edilərək həlli üçün təkliflər verilmişdir.* ***Açar sözlər**: hesabat, mühasibat uçotu, ictimai sektor, hesablama prinsipi, kassa metodu*

Dövlət idarəçiliyində islahatların aparılması ilə hesabatlılığın, şəffaflığın, səmərəliliyin, effektivliyin, cavabdehliyin və qanunun aliliyinin gücləndirilməsi hökumətin ictimai istəklərini uğurla yerinə yetirməsi üçün əsas məqsədlərdir. Buna görə də, əksər mərkəzi hökumətlər mühasibat uçotu sistemlərini təkmilləşdirməklə qabaqcıl maliyyə əməliyyatlarını təqdim etmək üçün əlavə səylər göstərirlər. Uğurlu maliyyə idarəçiliyi iqtisadi tərəqqiyə səbəb ola bildiyindən hazırlanan daha etibarlı və şəffaf maliyyə hesabatlarına ehtiyac günü-gündən artır. Bu təsir qlobal maliyyə böhranlarının təsiri ilə daha sıx hiss olunmağa başlamışdır. Dövlət sektorunun maliyyə hesabatlarının tam, qərəzsiz və mühüm məlumat verməsi və ölkələrarası müqayisəlilik kimi hazırlanmasının yeganə şərti maliyyə hesabatlarının ümumi qaydalar toplusuna tabe olmasıdır. Bu kontekstdə İctimai Sektoda Mühasibat Uçotunun Beynəlxalq Standartlarının (IPSAS) tətbiqi qlobal miqyasda gündəmdədir. Mərkəzi Kanadada yerləşən İctimai Sektor Üzrə Mühasibat Şurası (PSAB) (2011) və IPSASB (2011) tərəfindən dövlət sektoru təşkilatlarının əsas xüsusiyyətləri aşağıdakı kimi müəyyən edilmişdir (7):

1) İctimai məsuliyyət. Hökumətlər demokratik proseslər nəticəsində seçildiklərinə görə, onların ictimaiyyət qarşısında böyük məsuliyyətləri var. İctimai məsuliyyət təqdim olunan bir məsuliyyətdir və buna görə də bu məsuliyyətin yerinə yetirilməsi üçün cavabdehlik tələb edir. Eyni zamanda, bu məsuliyyətin yerinə yetirildiyini müşahidə etmək lazımdır.
2) Çoxsaylı məqsədlə. Bir çox dövlət müəssisələrinin məqsədi mənfəət əldə etmək deyil, xidmət göstərmək, resursların bölüşdürülməsini təmin etmək və ya siyasət hazırlamaqdır.
3) Hüquq və öhdəliklər. Hökumətlərin hüquq və öhdəlikləri onlara fəaliyyət göstərdikləri iqtisadiyyata və cəmiyyətə birbaşa və ya dolayısı ilə təsir etmək səlahiyyəti verir. Hüquq və öhdəliklər hökumət səviyyələrinə görə fərqlənsə də, vergi və fiskal siyasəti müəyyən etmək, cəzalandırmaq, pul siyasətini müəyyən etmək, qanun və qaydalar gətirmək və həyata keçirmək imkanı verir.
4) Mülkiyyət strukturunun olmaması. Dövlət qurumlarının heç bir şəxsi mülkiyyət hüququ yoxdur.
5) Qanunvericiliklə müəyyən edilmiş əməliyyat və maliyyə çərçivəsi. Dövlət sektorunun təşkilatları qanunla tənzimlənən çərçivədə fəaliyyətlərini davam etdirirlər.
6) Büdcələrin əhəmiyyəti və istifadəsi. Büdcələr hökumətlərin növbəti dövr üçün maliyyə planlarının güzgüsü olmaqla, maliyyə idarəetməsi və maliyyə nəzarətinin açarıdır.
7) Təşkilatın strukturu. Dövlət qurumlarında inzibati struktur qanunverici orqan tərəfindən müəyyən edilir və seçilmiş dövlət məmurları tərəfindən həyata keçirilir.
8) Resursların strukturu. Dövlət qurumları üçün resurslar gələcək pul vəsaitlərinin hərəkətini yaratmaq və daha çox xidmət göstərmək məqsədi ilə saxlanılır.

9) Təzminatsız fəaliyyətlər. Vergi, cəza və qanunvericilik kimi hökumətlərin sahib olduğu hüquq və vəzifələr ödənişsiz fəaliyyətlərlə nəticələnir. Dövlət müəssisəsinin əməliyyatlarının böyük bir hissəsi haqqı ödənilməyən əməliyyatlardan ibarətdir.

İSMUBS-lara uyğun olaraq olaraq müqayisə edilə bilən maliyyə hesabatlarının hazırlanması ölkələr arasında maliyyə sərhədlərinin genişləndirilməsində çox faydalıdır. İctimai Sektor üçün Beynəlxalq Mühasibat Uçotu Standartlarında qəbul edilmiş hesablama metodu "güclü mühasibat uçotu və hesabatlılığın" əsas prinsipini təşkil etməklə, maliyyə vəziyyətinin şəffaflığını və etibarlılığını təmin edir və əsaslı şəkildə təqdim olunmasına səbəb olur. Hesablama prinsipinə əsasən, əməliyyatlar və hadisələr nə vaxt yaranacağından asılı olmayaraq, baş verən zaman qeydə alınır. Bu kontekstdə, gəlir hesabı müvafiq maliyyə ili ərzində baş vermiş gəlir əməliyyatlarını, onların nağd şəkildə yığılıb-almamasından asılı olmayaraq göstərir. Xərclər hesabında həmçinin müvafiq maliyyə ili ərzində çəkilmiş xərclərin nağd şəkildə ödənilib-ödənilməməsindən asılı olmayaraq hesabat verilir. Buna görə də, dövlət sektorunun maliyyə hesabatları hesabat dövrü üçün maliyyə əməliyyatlarını tam şəkildə əks etdirir. Hesablama metodunun digər xüsusiyyəti ondan ibarətdir ki, tərtib edilmiş maliyyə hesabatlarına dövlət sektorunun gəlirləri, xərcləri (o cümlədən amortizasiya), aktivlər (maliyyə və fiziki aktivlər, dövriyyə və əsaslı aktivlər), öhdəliklər və digər iqtisadi hərəkətlər tam şəkildə hesabata daxil edilir. Bu metoddan istifadə etməklə hazırlanan dövlət sektoru müəssisələrinin maliyyə vəziyyətinin, maliyyə nəticələrinin və pul vəsaitlərinin hərəkətində dövlət resurslarından səmərəli və qənaətlə istifadə edilib-edilmədiyi aydın görünür (3, s.23).

Kassa metodunda maliyyə əməliyyatları hadisələrin pul vəsaitlərinin daxil olması və ya xaric olması zamanı uçota alınır. Buna görə də, hesablama metodunda olduğu kimi, bu üsulda da əməliyyatlar nəticəsində göstərilən xidmətlər və faydalar baş verdikdə nəzərə alınmır. Bu üsulla tərtib edilən maliyyə hesabatlarında əsasən büdcə gəlirləri və xərclər smetaları, pul vəsaitlərinin daxil olması, pul vəsaitlərinin xaric olması, pul vəsaitlərinin açılması və bağlanması haqqında hesabat verilir. Bu istiqamətdə dövlət mülkiyyətində olan, xüsusilə də maddi sərvətlərin, hesablanmış gəlir və xərclərin kapitallaşdırılması, zəruri aktivlər, dövlət borcları və digər öhdəliklər, öhdəliklər və zəmanətlər üzrə xərclər, aktiv və öhdəliklərlə bağlı qiymət və kəmiyyət dəyişiklikləri qeydə alınmadığı və hesabat verilmədiyi üçün mühasibat uçotu sisteminin əhatə etdiyi əməliyyatlar pul vəsaitlərinin hərəkəti ilə məhdudlaşır. Bu çərçivədə, tam hesablama sistemi ilə müqayisədə o, dövlət sektorunun maliyyə hesabatlarının şəffaflığı və hesabatlılığı məqsədlərinə çox da xidmət etmir (3, s.24). İctimai Sektor üçün Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (İSMUBS) tərəfindən hazırlanmış İSMUBS 42 standartdan ibarətdir. İSMUBS-un hazırlanmasında aşağıdakı prosedurlara əməl edilmişdir:

- Hal-hazırda qüvvədə olan MHBS-larda hərtərəfli və ən uyğun şəkildə əhatə edilməmiş və ünvanlanmamış heç bir MHBS olmadığı və dövlət sektoru problemini göstərən MHBS olmadığı hallarda İSMUBS tərəfindən xüsusi İSMUBS hazırlanmışdır. Məsələn, İSMUBS 22, İSMUBS 23, İSMUBS 24 və İSMUBS 42
- İSMUBS-lar əsasən dövlət sektoruna uyğunlaşdırılmış MHBS-ları təşkil edir. Bu kontekstdə, xüsusi hazırlanmış İSMUBS-lardan başqa standartlarda həm MHBS, həm də dövlət sektoru öz əksini tapır.

İnkişaf etməkdə olan ölkələrdə hökumətin mühasibat islahatları siyasi və idarəetmə dəstəyi tələb edir. Müvəffəqiyyət daha çox hesabatlılıq və şəffaflıq tələb edən siyasi liderlərin dəstəyini səfərbər etmək bacarığından asılıdır. Resurs dəstəyi də mühasibat sahəsində uğurlu dövlət islahatlarını aparmaq üçün çox vacibdir. Proqram təminatı, texniki vasitələrin əldə edilməsi və ixtisaslı kadrların işə götürülməsi üçün kifayət qədər büdcə dəstəyi lazımdır. Bir çox inkişaf etməkdə olan ölkələrdə texniki kadr çatışmazlığı ciddi məhdudiyyətlər qoyur. İslahat dövlət uçotunun siyasət və prosedurlarının dəyişdirilməsini nəzərdə tutur.

İctimai Sektor üçün Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası bütün ölkələri

İSBMUS-u qəbul etməyə çağırır. İSBMUS-u inkişaf etməkdə olan ölkələr üçün uyğunluğu araşdırılır. Baş ofisi İngiltərədə yerləşən Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA) 2017-ci

ildə İSMUBS-ların qlobal tətbiqi ilə bağlı araşdırmasında qeyd olunan standartların qəbulu ilə bağlı müəyyən etdiyi üstünlükləri aşağıdakı kimi bildirdi (6):

- Daha yüksək hesabatlılıq və şəffaflıq səviyyəsi: İSMUBS dövlət sektorunun maliyyə hesabatlarının hazırlanmasında hesabatlılıq və şəffaflıq anlayışlarını ön plana çıxararaq, saxtakarlıq və səhvlərin aşkar edilməsinə mane olan məsələlərə qarşı tədbirlər görməyə şərait yaradır. İSMUBSa uyğun olaraq hazırlanmış maliyyə hesabatları hökumətin nəyi satın aldığını və paylaşdığını, habelə onun nəyə sahib olduğunu və hara borclu olduğunu tam əks etdirir. Bu da təşkilatın əməliyyatları ilə bağlı maliyyə vəsaitlərinin hərəkətinin daha aydın olmasına imkan verəcək.
- Artan səmərəlilik: İSMUBS-un qəbulu maliyyə hesabatları və audit proseslərinin daha effektiv və səmərəli şəkildə həyata keçirilməsinə imkan verir. İSMUBS-dan istifadə maliyyə və mühüm qeyri-maliyyə məlumatlarının inteqrasiyasını artırmaq üçün mühüm vasitədir. Bu, dövlət qurumunun faktiki fəaliyyətinin daha vahid görünüşünü təmin edə bilər. İPSAS-ın dövlət qurumlarına təklif etdiyi standart hesabat sayəsində daha dolğun audit hesabatı ortaya çıxır ki, bu da qərarların qəbulu prosesində mühüm rol oynayır.
- Məlumatların ardıcıllığı: Hesabat prosesinin standartlarla və beləliklə də təqdim edilən əsas məlumatlarla dəstəklənməsi məlumatları təhlil etmək və qərar qəbuletmə prosesini təkmilləşdirmək imkanı yaradır.
- Etibarlı, sağlam maliyyə idarəetməsi: İSMUBS-un qəbulu dövlət qurumlarına bu standartları qəbul etməklə bir sıra maliyyə idarəetmə təcrübəsi üstünlükləri verir. İSMUBS-un tətbiqi həm də təşkilatın daha güclü maliyyə imkanlarına və buna görə də daha yüksək “dəyər”ə malik olduğunun göstəricisidir.
- İstedadın peşəkarlaşdırılması və qiymətləndirilməsi: İSMUBS-un qəbulu təşkilatın mühasibat uçotu-maliyyələşdirmə funksiyası ilə bağlı aparılan işlərin peşəkar şəkildə həyata keçirilməsinin mühüm göstəricisidir. Bu vəziyyət gənc istedadların işin peşəkar şəkildə aparıldığı qurumlarda işləməsinə və ya bu qurumların mühasibat uçotu auditi fəaliyyətini həyata keçirən komandanın bir hissəsi olmağa həvəsləndirilməsi və həvəsləndirilməsi baxımından əhəmiyyətlidir.
- Daha geniş iqtisadi və sosial imkanlara malik olmaq: İSMUBS tərəfindən müəyyən edilmiş standartlara uyğun hazırlanmış maliyyə hesabatları beynəlxalq investorlara inam verir. Beynəlxalq investorlara inam isə daha geniş iqtisadi baxımdan iş imkanları, rifah səviyyəsi və sosial inkişaf baxımından müsbət nəticələr verəcək.
- Hökumətin sabitliyi: İPSAS-ın qəbulu ilə yaradılmış inam mühiti daha sabit hökumətə səbəb ola bilər. Daha yaxşı investisiya mühiti, daha çox iş yerləri və daha yüksək gəlirlər dolayı yolla daha sabit hökumət tərəfindən əldə edilə bilər.
- Beynəlxalq müqayisəlilik: İPSAS-dan ümumi dil kimi istifadə dövlət qurumlarının beynəlxalq platformada bir-biri ilə müqayisə edilməsinə imkan verir. Eyni zamanda, Dünya Bankı və BVF kimi donor qurumların tələb etdiyi əlavə maliyyə hesabatlarının verilməsi öhdəliyi azaldılır. İSMUBS lk növbədə inkişaf etməkdə olan ölkələr tərəfindən qəbul edilmək üçün nəzərdə tutulub. İngilis dilli inkişaf etmiş ölkələrin əksəriyyətində artıq İSMUBS-a oxşar və ya ondan daha ciddi olan dövlət uçot standartları mövcuddur. Bunun üçün Dünya Bankı inkişaf etməkdə olan ölkələrə maliyyə yardımı göstərir. İSMUBS qlobal mühasibatlıq peşəsinin təklif etdiyi ən yaxşı dövlət mühasibat uçotu ideyaları kimi qəbul edilir. Buna görə də İSMUBS inkişaf etməkdə olan ölkələrdə dövlət uçotunun qiymətləndirilməsi və təkmilləşdirilməsi üçün tanınmış meyar halına gəldi. İSMUBS-un ilkin məqsədləri bütün ölkələrdə daha çox hökumət hesabatlılığını, mühasibat uçotu və maliyyə hesabatlarında keyfiyyətin və etibarlılığın yüksəldilməsi, daha yaxşı maliyyə və iqtisadi göstəricilər, daha yaxşı maliyyə idarəetməsini təşviq etmək və hesabat tələblərinin beynəlxalq standartlara uyğunlaşdırılması idi (4, s.11).

İSMUBS-ların yaranma tarixinə qısaca nəzər salsaq Beynəlxalq Mühasiblər Federasiyası (İFAC) yarandığı 1977-ci ildən 1986-cı ilə qədər tərkibində 4 komitə fəaliyyət göstərirdi. İctimai

Sektorun əhəmiyyətliliyin artması ilə bu sahədə mühasibat uçotu məsələləri ilə bağlı müxtəlif nəşrləri öz üzərinə götürən İctimai Sektor Komitəsi 1986-cı ildən fəaliyyətinə başlayır və 2000-ci ildə ilk dəfə

İSMUBS nəşr edilir. Bununla da müxtəlif ölkələrdə ictimai sektorda standartların tətbiqinə başlanıldı. Müxtəlif ölkələrin tətbiqi təcrübəsinin təhlili onu deməyə əsas verir ki, bu proses orta hesabla 10 il çəkir.

Bu günə qədər 30 - a yaxın ölkədə tam keçid həyata keçirilmişdir. Ölkələrin belə mürəkkəb və zəhmətli bir prosesdən keçə bilməməsinin səbəbi maliyyə hesabatının baynəlxalq standartlarının mövcud qanunvericiliklərlə müəyyən ziddiyyətlər təşkil etməsidir.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev "Mühasibat uçotu haqqında" AR

Qanununda dəyişikliklər ilə əlaqədar olaraq, Qanunun tətbiqi və Mühasibat uçotu haqqında"

Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası

Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Fərmanda Maliyyə Nazirliyinə müəyyən tapşırıqlar verdi (2). Dəyişikliyə əsasən İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına keçidin təmin edilməsi məqsədi ilə beynəlxalq standartların Azərbaycan dilində rəsmi mətnlərinin dərc olunmasının təmin edimәsi tapşırıldı.

Azərbaycanda İSMUBS-a keçidi bir neçə mərhələyə bölmək olar:

**1-ci mərhələ:** Beynəlxalq standartlara uyğun olaraq, maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsində mühasibat uçotu subyektlərinin fəaliyyətini tənzimləyən qanunvericilik aktları paketinin qəbul edilməsi, 2004 – 2006 –cı illər.

**2-ci mərhələ:** Azərbaycan qanunvericiliyi ilə müəyyən edilmiş müddətdə mühasibat uçotu subyektləri tərəfindən yeni maliyyə hesabatlarının təqdim edilməsinə dair müvafiq normativ hüquqi aktlarda öz əksini tapmış bir sıra tədbirlərin hazırlanması və həyata keçirilməsi. 2006 – 2009-cu illər.

**3-cü mərhələ:** Mühasibat uçotu subyektləri tərəfindən yeni maliyyə hesabatlarının hazırlanması ilə bağlı lazımi biliklərə yiyələnmək üçün fasiləsiz təlim prosesinin həyata keçirilməsi, bu hesabatların keyfiyyətli və vaxtında təqdim edilməsi üçün xarici və daxili auditin aparılması və proqram təminatının yaradılması. 2009-2015-ci illər.

Bu mərhələdə nəzərdə tutulmuş tədbirlərin icrası zamanı Dünya Bankı və Maliyyə Nazirliyinin "Korporativ və Büdcə Sektorunda Hesabatlılıq Layihəsi"nin xüsusi rolu olmuşdur.

**4-cü mərhələ:** Mühasibat uçotu üzrə qanunvericilikdə dəyişikliklərin edilməsi. Milli

Mühasibat Uçotu Standartlarından imtina və İSMUBS-a tam olaraq keçid. Peşəkar Mühasib Sektifikasiyası üzrə qanunvericilik bazasının formalaşdırılması.

İSMUBS – a keçidlə bağlı qarşıya çıxan çətinliklərə aşağıdakıları aid edə bilərik:

- Mövcud işçi heyətinin yeniliyə qarşı mühafizəkar mövqe göstərməsi;
- Büdcə təşkilatlrında, xüsusilə regionlarda ixtisaslı kadr çatışmamazlığı;
- Büdcə təşkilatlarında proqram təminatına əlçatanlığın qənaətbəxş olmaması;
- Kadr hazırlığı ilə bağlı ali təhsil müəssisələrində müvafiq ixtisasların olmaması. Mövcud problemlərdən biri də ixtisaslı kadr çatışmazlığıdır. MHBS və müasir mühasibat uçotu prinsipləri üzrə tədris və metodiki materiallar yetərli deyil.

İSMUBS-a keçid zamanı ilk növbədə tətbiq ediləcək İSMUBS –un mühasibat uçotu üzrə milli qanunvericilikdən fərqlərini və İSMUBS mövcud sistemə və hesabatlığa qoyduğu yeni tələbləri araşdırmaq, bu layihə ilə məşğul olacaq mütəxəssisləri düzgün seçmək, İSMUBS üzrə təlimləri savadlıə təşkil etmək xüsusi əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi davamlı olaraq bu istiqamətdə təlim və seminar təşkil edərək ümumi məqsədə doğru mühüm addımlar atır.

Büdcə təşkilatlarında İSMUBS-un tətbiqi vəziyyətini müəyyən etməkdə nəzarət tədbirini həyata keçirən orqanların xüsusi rolu olmalıdır. Bu zaman mövcud problemlər müəyyən edilərək təhlil olunmalı və onların aradan qaldırılması üçün müvafiq tədbir görülməlidir.

İSMUBS-un tətbiqinin keyfiyyətini artırmaq üçün büdcə təşkilatlarında mühasibarlıq üzrə işçi heyətinin peşəkar biliklərinin artırılmasına, ali təhsil müəssisələrində İSMUBS üzrə təlimlərin aparılmasına və bu sahə üzrə kadr hazırlığına xüsusi diqqət yetirimәli və büdcə təşkilatları üçün mövcud olan proqram təminatının əhatə dairəsi genişləndirilməlidir.

## ƏDƏBİYYAT

1. “Mühasibat uçotu” haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: 2004
2. “Mühasibat uçotu haqqında” AR Qanununda dəyişikliklər ilə əlaqədar olaraq, Qanunun tətbiqi və Mühasibat uçotu haqqında “Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman
3. R. Fətullayev. İctimai Sektor üçün Mühasibat Uçotunun Əsasları. Bakı: “Nurlar” Poliqrafiya Mərkəzi, 2021, 226 s.
4. R Fətullayev. İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları. Bakı: “Nurlar” Poliqrafiya Mərkəzi , 2021, 135 s.
5. http://www.maliyye.gov.az/static/226/ictimai-sektor-ucun-muhasibat-ucotunun-beynelxalqstandartlari. İctimai Sektor üçün Mühasibat Uçotunun Standartları
6. https://www.accaglobal.com/content/dam/ACCA_Global/Technical/pubsect/pi-IPSASimplementation-current-status-and-challenges.pdf. ACCA (2017), The Association of Chartered Certified Accountants IPSAS implementation: Current Status and Challenges
7. https://www.ifac.org/system/files/publications/files/ipsas-1presentation.pdf. IPSASB (2006), IPSAS 1 Presentation of Financial Statements.

## SUMMARY

**Mehriban Imanova**

## IMPLEMENTATION AND CHALLENGES OF THE INTERNATIONAL STANDARD ACCOUNTING FOR THE PUBLIC SECTOR

First of all, the scientific article identifies the main features of public sector organizations, expands the method of calculation and cash, emphasizes that reporting method adopted in the International Accounting Standards for the Public Sector serves many purposes such as transparency and accountability of public sector financial statements through examining the implementation of the international accounting standards and challenges. At the same time, the scientific article identifies the advantages of adopting the International Accounting Standards for the Public Sector and the stages of the transition to IPSAS in Azerbaijan, finds out the difficulties related to the transition to IPSAS and makes recommendations for their solutions.

## РЕЗЮМЕ

**Мехрибан Иманова**

## ВНЕДРЕНИЕ И ПРОБЛЕМЫ МЕЖДУНАРОДНЫХ СТАНДАРТОВ УЧЕТА ДЛЯ ГОСУДАРСТВЕННОГО СЕКТОРА

В научной статье исследуется применение международных стандартов бухгалтерского учета в государственном секторе и возникающие трудности, сначала определяются основные характеристики организаций государственного сектора, а также дается интерпретация расчетно-кассового метода. Было подчеркнуто, что метод расчета, принятый в Международных стандартах бухгалтерского учета для государственного сектора, служит целям прозрачности и подотчетности финансовой отчетности государственного сектора. В то же время в научной статье определены преимущества принятия Международных стандартов бухгалтерского учета для государственного сектора и этапы перехода на ISMUBS в Азербайджане, определены проблемы, связанные с переходом на ISMUBS и даны рекомендации по их решениям.

**MEHPARƏ MƏMMƏDOVA**
*Naxçıvan Dövlət Universiteti* aliyevamehpara@mail.ru

# KOMMERSİYA TƏŞKİLATLARINDA MÜHASİBAT UÇOTUNUN BEYNƏLXALQ STANDARTLARINA UYĞUN QURULMASI PROBLEMLƏRİ

*Məqalədə son illərdə dünyada beynəlxalq inteqrasiya proseslərinin dərinləşməsi nəticəsində günün tələbinə çevrilmiş beynəlxalq standartların kommersiya təşkilatları tərəfindən tətbiqi, bu sahədə mövcud perspektivlər və problemlərdən bəhs edilmişdir. Xüsusilə Mühasibat Uçotunun və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının Milli Standartların hazırlanmasında əhəmiyyəti, kommersiya təşkilatları tərəfindən tətbiqi, normativ-hüquqi bazanın formalaşdırılması kimi məsələlər təhlil olunmuşdur. Mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən bu standartların tətbiqinin təkmilləşdirilməsi məqsədilə həyata keçirilməsi məqsədəmüvafiq hesab olunan məsələlərə toxunulmuşdur.*

***Açar sözlər:*** *beynəlxalq inteqrasiya, kommersiya təşkilatları, Mühasibat Uçotunun Beynəlxalq Standartları, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, uçot siyasəti*

Son illər bütün dünyada qloballaşma meyllərinin dərinləşməsi, beynəlxalq inteqrasiya proseslərinin intensivləşməsi, beynəlxalq ticarətdə xarici investisiyaların cəlb olunmasına üstünlük verilməsi ölkələrin milli iqtisadiyyatları qarşısında bir sıra tələblər qoyur.

Ölkəmizdə müstəqillik əldə etdikdən sonra hərtərəfli və davamlı iqtisadi inkişafın əldə olunması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirildi. Xüsusilə, sənayenin qeyri-neft sektorunun inkişafı, əlavə dəyər yaradan istehsal sahələrinin yaradılması, idxaləvəzləyici və rəqabətqabiliyyətli məhsul istehsalının artırılması, Azərbaycan məhsullarının dünya bazarlarına ixracı əsas prioritet kimi qarşıya qoyuldu. Son illərdə dövlət-sahibkar münasibətlərində hüquqi bazanın təkmilləşdirilməsi, sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılması, güzəştli dövlət kreditlərinin əlçatanlığı, aqrar sektora subsidiya və güzəştlər vasitəsilə dövlət dəstəyinin göstərilməsi, qəbul olunmuş Dövlət Proqramlarının vaxtında və uğurlu icrası dinamik iqtisadi inkişaf üçün zəmin yaradaraq, Azərbaycanı Cənubi Qafqaz ölkələri arasında iqtisadiyyatına görə liderə çevirib. Bütün bunların nəticəsidir ki, bu gün ÜDM-də özəl sektorun xüsusi çəkisi 80%-i keçib.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılıb, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşmasını təmin edib.

Bu gün artıq ölkənin investisiya cəlbediciliyinin yüksəldilməsi, yerli məhsullarımızın ixrac coğrafiyasının genişləndirilməsi və beləliklə də, dünya iqtisadiyyatına daha çox inteqrasiya edilməsi qarşıya qoyulan ən mühüm vəzifələrdir. Yeni qloballaşma meylləri yerli kommersiya şirkətləri qarşısına yeni tələblər qoyur. Bu isə ilk növbədə beynəlxalq standartlara cavab verən istehsal prosesinin qurulması, məhsul istehsalı, iş və xidmətlərin göstərilməsini tələb edir. Eyni zamanda yeni çağırışlar həm də yerli kommersiya şirkətlərindən müəssisədə mühasibat uçotunun beynəlxalq standartlara uyğun aparılmasını, eləcə də maliyyə hesabatlarının beynəlxalq standartların tələblərinə uyğun hazırlanaraq istifadəçilərə təqdim olunmasını zəruri edir.

Mühasibat uçotunun və maliyyə hesabatlarının dünya səviyyəsində unifikasiyası məqsədilə bir sıra beynəlxalq təşkilatlar fəaliyyət göstərir. İlk dəfə olaraq 1973-cü ildə Maliyyə hesabatının

Beynəlxalq Standartları Komitəsi (MHBSK) Avsrtaliyanın, Kanadanın, Fransanın, Almaniyanın, Yaponiyanın, Meksikanın, Hollandiyanın, Böyük Britaniyanın, İrlandiyanın və ABŞ-ın peşəkar mühasibat təşkilatları arasındakı razılığa əsasən yaradıldı. 1983-cü ildən etibarən bütün peşəkar mühasibat təşkilatları Beynəlxalq Mühasiblər Federasiyasının üzvləri – Komitənin üzvü seçildilər. Hazırda MHBSK-nın işinə bır sıra digər təşkilatlar da cəlb edilmişdir. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları Komitəsi ictimai maraqlar nöqteyi-nəzərindən maliyyə hesablarının beynəlxalq standartlarını (MHBS-İAS) işləyib hazırlayır, təkmilləşdirir, dərc etdirir. Bu sənədlərdə müxtəlif milli qaydalar və uçot sistemləri harmonizə edilir. Getdikcə daha çox ölkələr və iqtisadi əməkdaşlıq təşkilatları özlərinin maliyyə hesabatlarının tərtib və təqdim edilməsində Beynəlxalq Standartları tanıyır və onlardan istifadə edir. Beynəlxalq Standartların

prinsiplərindən istifadə edildikdə, belə düşünmək olar ki, həmin hesabat etibarlıdır, müxtəlif istifadəçilərin etibarlarını daha tam ödəyir və nəhayət onun əsasında qəbul olunan iqtisadi qərarlar daha az riskə məruz qalır. Maliyyə

Hesabatlarının Beynəlxalq Standartları Komitəsi (MHBSK) hazırda da öz fəaliyyətini davam etdirir və nəticədə bütün dünyada maliyyə hesabatlarının tərtib olunması prosesinin təkmilləşdirilməsi və harmonizasiyası prosesinə ciddi təsir göstərir. Bu proseslərə aşağıdakıları aid etmək olar.

- onların əsasında bir çox ölkələrdə (o cümlədən Azərbaycanda) mühasibat uçotunun milli tələblərinə üstünlük verilir;
- standartlar öz ölkələrinin mühasibat uçotuna xüsusi tələblər irəli sürən beynəlxalq istinad rolunu oynayır;
- onlardan fond birjaları da istifadə edir;
- onlar Avropa Komissiyası kimi orqanlar tərəfindən də tətbiq edilir;
- kapital bazarlarının ehtiyaclarını ödəyən sənədlər hazırlandıqda MHBS komitəsinin prinsiplərinə istinad olunur.

Hazırda mühasiblərin daha bir beynəlxalq birliyi – Beynəlxalq Mühasiblər Federasiyası (İFAC) fəaliyyət göstərir. Bu federasiya 1978-ci ildə təsis olunmuşdur. Federasiyanın başlıca məqsədi mühasibat peşəsini inkişaf etdirməkdən və təkmilləşdirməkdən ibarətdir. Hazırda Beyhəlxalq Mühasiblər Federasiyası İFAC-ın tərkibinə 100-dən çox ölkənin 150 peşəkar təşkilatı daxildir. Bütövlükdə həmin peşəkar təşkilatların müxtəlif təsərrüfat subyektlərində (sənaye, tikinti, ticarət, xidmət, bank və s. sahələrdə) 2 milyondan çox mühasib çalışır.

Beynəlxalq Mühasiblər Federasiyası mühasibat uçotu üzrə standartların və metodik göstərişlərin hazırlanması məsələsi ilə də məşğul olur. Belə standartlar və göstərişlər hökumətlərin, nazirliklərin, vergi ödəyicilərinin və reytinq agentliklərinin tələblərini ödəmək üçün nəzərdə tutulmuşdur. Təşkilat 2000-ci ildə dövlət sektoru üçün ilk dəfə beynəlxalq standartları dərc etdirmişdir. Bütün cəmiyyətin maraqlarının qorunması üzrə hazırlanan layihə xüsusi praktika ilə məşğul olan müstəqil peşəkar mühasiblərin hazırlanmasında da öz töhfəsini vermişdir. Hazırda auditor zəmanəti üzrə də beynəlxalq standartlar qəbul edilmişdir. Eyni zamanda, Beynəlxalq Mühasiblər Federasiyasının nəzdində fəaliyyət göstərən Beynəlxalq Auditor Komitəsi peşəkar mühasiblərin tələblərini də hazırlamışdır. Mühasibat uçotunun inkişafının beynəlxalq forumu 1999cu ilin iyun ayında Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) və Dünya Bankının təşəbbüsü ilə təsis edilmişdir. Onun tərkibinə üzvlər və yaxud səlahiyətli müşahidəçilər qismində müxtəlif maliyyə institutlarını, beynəlxalq inkişaf agentliklərini, beynəlxalq səviyyədə tanınan peşəkar mühasibləri və nəhəng beynəlxalq auditor firmalarını təcəssüm etdirən çoxsaylı təşkilatlar daxildir.

Adları qeyd edilən beynəlxalq təşkilatların işi bütün dünya ölkələrində Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS) tətbiqinə yönəldilmişdir. Beynəlxalq Standartlar sözün əsil mənasında mühasibat uçotunun universal dilidir. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS) uçot üzrə normativ aktların hormonizasiyası yolu ilə milli mühasibat sistemləri arasındakı fərqləri azaldır. Beynəlxalq Peşəkar təşkilatlarla yanaşı uçotun beynəlxalq sistemlərinin formalaşmasında milli təşkilatlar da mühüm yer tutur. Məsələn, Honkonq Mühasiblər Cəmiyyəti (Çin); Fransanın Ekspertlər – Mühasiblər Ordeni; Hesablar üzrə komissarların Milli şirkəti (Fransa); Şotlandiyanın diplomlu Mühasiblər institutu; Rusiyanın peşəkar mühasiblər institutu və s.

Ölkəmizdə mühasibat uçotunun beynəlxalq standartlarına və maliyyə hesabatlarının beynəlxalq standartlarına keçidin təmin olunması sahəsində son illər ərzində bir sıra tədbirlər həyata keçirilmiş, normativ-hüquqi baza formlaşdırılmış, institutlar yaradılmış, beynəlxalq təcrübə öyrənilmiş, ictimai sektor və kommersiya təşkilatlarında mühasibat uçotunun təşkilinin beynəlxalq standartlara uyğun aparılması diqqətdə saxlanılmışdır.

Son illərdə yaradılan Azərbaycanın risk və peşəkar mühasiblər İnstitutu, Azərbaycanın milli mühasiblər assosiasiyası və sair bu kimi digər təşkilatların əsas məqsəd və vəzifələri aşağıdakılardır:

- peşə təşkilatlarının fəaliyyətini əlaqələndirmək (mühasibat uçotu, audit, maliyyə menecmenti, iqtisadi təhlil, mühasibat, maliyyə iqtisadi profilli işçilərin ixtisaslarını artırmaq və s. sahələrdə);
- mühasibat uçotu, maliyyə menecmenti sahəsində mütəxəssislərin peşə statusunu gücləndirmək məqsədilə attestasiyaların təşkili və keçirilməsi;
- mühasibat uçotu, iqtisadi təhlil və auditin tənzimlənməsi sahəsində baş verən dəyişikliklərlə bağlı təşkilatın üzvlərini məlumatlandırmaq istiqamətində operativ informasiya sisteminin yaradılması;
- mühasibat uçotu, maliyyə menecmenti, audit və s. sahələrlə əlaqədar işçilərin peşə fəaliyyətinin təkmilləşdirilməsi;
- mühasibat uçotu, maliyyə menecmenti, audit və s. sahələrdə çalışan vicdanlı mütəxəssislər haqqında ictimaiyyət arasında müsbət fikir formalaşdırmaq. Həmin mütəxəssislərin qanunvericilik və icra orqanlarında sosial müdafiələrini təmin etmək;
- maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına, habelə ölkədə həyata keçirilən iqtisadi islahatlara uyğun olaraq, təsərrüfat subyektlərində mühasibat uçotu, audit və iqtisadi təhlil sahəsində yeni forma və metodların tətbiqi.

Mühasibat uçotunun normativ-hüquqi bazasının təkmilləşdirilməsi məqsədilə 2 sentyabr 2004-cü il tarixdə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu, 7 fevral 2005ci il tarixdə isə "Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı qüvvəyə minmişdir. Qeyd olunan Qanun və Fərmana əsasən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının və Milli Mühasibat Uçotu Standartlarının tətbiqi aşağıdakı əsas məqsədləri əhatə edir:

- Qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq korporativ və büdcə sektorları üçün maliyyə hesabatlarının beynəlxalq və milli mühasibat uçotu standartlarına uyğun olaraq hazırlanması;
- Müəssisələrin fəaliyyətinin şəffaflığının və dünya bazarına çıxışının təmin edilməsi;
- Dövlətin mühasibat uçotu sahəsində idarəetmə vəzifəsinin həyata keçirilməsi və islahatların davamlılığının təmin edilməsi üçün institusional inkişafın dəstəklənməsi.

Fərmandan irəli gələn vəzifələrin həyata keçirilməsi ilə əlaqədar Maliyyə Nazirliyi tərəfindən Maliyyə Hesabatlarının və Mühasibat Uçotunun Beynəlxalq Standartları əsasında Kommersiya, Büdcə və Qeyri-hökumət təşkilatları üçün müvafiq Milli Mühasibat Uçotu Standartları və eyni zamanda Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartının tətbiqi üzrə Şərhlər və Tövsiyələr hazırlanaraq təsdiq olunmuşdur. Bununla yanaşı, Milli Mühasibat Uçotu Standartlarına əsasən mühasibat uçotunun avtomatlaşdırılması üçün xüsusi proqram təminatı hazırlanmış, Maliyyə Nazirliyinin saytında (www.maliyye.gov.az) yerləşdirilmiş və büdcə təşkilatlarının həmin proqram təminatının pulsuz və avtomatik rejimdə əldə etməsi üçün şərait yaradılmışdır. Bundan əlavə, Beynəlxalq və Milli Mühasibat Uçotu Standartlarının tətbiqi üçün Maliyyə Nazirliyində müvafiq kadr potensialı formalaşdırılmış və büdcə təşkilatlarının mühasibatlıq işçiləri üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05 iyun 2002-ci il tarixli 91 saylı qərarı ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin İxtisasartırma Kursunun bazasında yaradılmış Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Elm- Tədris Mərkəzi tərəfindən Milli Mühasibat Uçotu Standartları üzrə təlim kurslarının təşkil olunmasına başlanılmışdır.

Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS) Azərbaycanda 2018-ci ildən etibarən tam həcmdə tətbiqi həyata keçirilən iqtisadi islahatların tərkib hissələrindən biridir.

Bu standartlar əsasında 37 adda Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı, 27 adda Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartının tətbiqi üzrə Şərhlər və Tövsiyələr, bundan başqa İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları əsasında 24 adda Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı, 1 adda Qeyri-hökumət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı, habelə "Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları" hazırlanmışdır. Milli standartlar "Mühasibat uçotu haqqında" Qanunun 7-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 avqust 2005-ci il tarixli 250 s nömrəli Sərəncamı ilə yaradılmış Muhasibat Uçotu üzrə Məsləhət Şurası tərəfindən rəy verildikdən sonra təsdiq edilmişdir. Qanunun 6.0.2 və 6.0.3-cü maddələrinə əsasən Milli Mühasibat Uçotu Standartları Maliyyə Hesabatlarının

Beynəlxalq Standartları əsasında hazırlanaraq Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ilə nizamlanan bütün məsələləri əhatə etməlidir. Lakin milli standartlarla beynəlxalq standartlar arasında konseptual baxımdan fərq olmasa da müəyyən texniki fərqlər mövcuddur. Belə ki beynəlxalq standartlarda maliyyə hesabatlarının nümunəvi forması əks etdirilməmiş, yalnız bu hesabatlar üzrə minimum tələblər göstərilmişdir. Ona görə Milli Standartları hazırlayan zaman mühasiblərə kömək üçün maliyyə hesabatlarının tərtibi üzrə lazımi formaların nümunələri hazırlanmış və standartlara əlavə edilmişdir.

Kommersiya təşkilatlarında Milli Mühasibat Uçotu Standartlarına əsasən mühasibat uçotunun təşkilində çətinlik yaradan mələlərdən biri uçotun avtomatlaşdırılması üçün hazırlanmış xüsusi proqram təminatının tətbiqi üçün yerlərdə müvafiq mütəxəssislərin hazırlığı və müəssisələrin

İKT avadanlıqları ilə təminat səviyyələrinin mövcud tələblərə tam uyğun olmaması ilə bağlıdır.

Digər bir məsələ kommersiya təşkilatlarının düzgün formada hesabat hazırlayıb təqdim etmələridir. “Mühasibat uçotu haqqında” Qanunun 10.1-ci maddəsinə uyğun olaraq ictimai əhəmiyyətli qurumlar və kiçik sahibkarlıq subyektləri istisna olmaqla, kommersiya təşkilatları maliyyə hesabatlarını Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib etməlidirlər. Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları Maliyyə hesabatlarının Beynəlxalq Standartlarının əsasında hazırlandığı üçün bu təşkilatlar da yuxarıda adı çəkilən maliyyə hesabatlarını tərtib etməlidir. Eyni zamanda Qanunun 9.0.2-ci maddəsinə əsasən kiçik sahibkarlıq subyektləri öz seçimlərindən asılı olaraq maliyyə hesabatlarını Kommersiya

Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun şəkildə tərtib edə bilərlər.

Bütün bu deyilənləri ümumiləşdirsək, müasir dövrdə kommersiya təşkilatlarında mühasibat uçotunun yeni standartların tələblərinə uyğun təkmilləşdirilməsi məqsədi ilə aşağıda göstərilən tədbirlərin keçirilməsi məqsədəuyğundur:

1. Mühasibat uçotunun hesablar planının tətbiqinə dair təlimatların işlənib hazırlanması;
2. Hər bir Milli Mühasibat Uçotu Standartının şərhinin nəşr edilməsi;
3. Mühasibat (maliyyə) hesabatı formalarının nəşr edilməsi ve onların tərtib edilməsi barədə müvafiq təlimatın işlənib hazırlanması;
4. Müəssisələrdə Milli Mühasibat Uçotu Standartlarının tətbiq edilməsi üçün onlara yüksək ixtisaslı məsləhət xidmətlərinin göstərilməsi yardımının təşkil edilməsi;
5. Yeni uçotu modeli və Milli Mühasibat Uçotu Standartları haqqında tədqiqat işlərinin həvəsləndirilməsi və onlann şərhinə həsr olunmuş əsərlərin nəşr edilməsinin dəstəklənməsi;
6. Lisenziyalaşdırılmış kompyuter mühasibatı proqramlarının ali məktəblərdə tədrisinin təşkil olunması;
7. Mühasib kadrlarının təkmilləşdirilməsi və onlara Beynəlxalq və Milli Mühasibat Uçotu Standartlarının, o cümlədən, kompyuter mühasibatının müəssisədə tətbiq edilməsi qaydalarının öyrədilməsi üçün ixtisasartırma kurslarının təşkil olunması və s.

## ƏDƏBİYYAT

1. Maliyyə hesabatlarının Beynəlxalq Standartları. http:/www.maliyye.gov.az /static/141/maliyyehesabatlarının beynəlxalq standartları. Maliyyə Nazirliyinin çapı
2. Mühasibat uçotunun Beynəlxalq Standartları. http/www.maliyye.gov.az/statik/140 mühasibat uçotunun beynəlxalq standartları. Maliyyə Nazirliyinin çapı
3. Abbasov T.A. İdarəetmə uçotu: Beynəlxalq və Milli Uçot Standartları. Bakı: 2021, 270-287 s.
4. Səbzəliyev S.M. Maliyyə hesabatı. Bakı: ADİU-nin nəş., 2018, 312 s.

## SUMMARY

**Mehpara Mammadova**

**PROBLEMS OF ESTABLİSHİNG ACCOUNTİNG İN COMMERCİAL ORGANİZATİONS İN ACCORDANCE WİTH INTERNATİONAL STANDARDS**

The article discusses the application of international standards by commercial organizations, which have become a requirement of the day as a result of the deepening of international integration processes in the world in recent years, the existing prospects and problems in this area. In particular, the importance of International Accounting and Financial Reporting Standards in the development of National Standards, their application by commercial organizations, and the formation of the regulatory framework were analyzed. Issues considered appropriate to implement these standards by micro, small and medium enterprises in order to improve their application were touched upon.

***Key words***: *international integration, commercial organizations, International Accounting Standards, International Financial Reporting Standards, accounting policy*

**РЕЗЮМЕ**

**Мехпара Мамедова**

**ПРОБЛЕМЫ ПОСТАНОВКИ БУХГАЛТЕРСКОГО УЧЕТА В КОММЕРЧЕСКИХ ОРГАНИЗАЦИЯХ ПО МЕЖДУНАРОДНЫМ СТАНДАРТАМ**

В статье рассматривается применение международных стандартов со сторон коммерческих организаций, ставшее требованием дня в результате углубления международных интеграционных процессов в мире в последние годы, существующие перспективы и проблемы в этой сфере. В частности, проанализировано значение Международных стандартов бухгалтерского учета и финансовой отчетности в разработке Национальных стандартов, их применении коммерческими организациями, формировании нормативно-правовой базы. Были затронуты вопросы, которые считаются целесообразными для внедрения этих стандартов микро, малыми и средними предприятиями с целью улучшения их применения.

***Ключевые слова:*** *международная интеграция, коммерческие организации, международные стандарты бухгалтерского учета, международные стандарты финансовой отчетности, учетная политика.*

**SAMİR HƏZİYEV**
*Naxçıvan Dövlət Universiteti sws1samir@hotmail.com*

# MÜƏSSİSƏ MALİYYƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ METODLARI TƏCRÜBƏDƏ

*Hər hansı təşkilatın idarəetmə sistemində fəaliyyətin məqsədinin həyata keçirilməsinə ən mürəkkəb və birbaşa yönəldilmə təşkilatın maliyyə sisteminin idarə edilməsi ilə bağlıdır, lakin bu alt sistemin məzmunu və funksiyaları avtonomdur. Bazar elementlərinin gücləndirilməsi ilə onlar müəyyən bir müstəqil maliyyə idarəetmə sisteminə çevrilirlər. Bundan əlavə, genişləndirilmiş reproduksiya qaçılmaz olaraq maliyyə resurslarının formalaşmağı, bölüşdürülməyi, yenidən bölüşdürülməyi ilə istifadəsi proseslərinin daimi yenilənməsini nəzərdə tutur.* ***Açar sözlər:*** *müəssisə, maliyyə, resurs, mənfəət, bölgü*

Maddi istehsal sferasında meydana çıxan bütün maliyyə münasibətlərini əhatə etdiyinə görə müəssisə maliyyəsi maliyyə sisteminin tərkib hissəsini və maddi bazarını təşkil edir. Bazar iqtisadiyyatı müəssisə maliyyəsinin möhkəm və sabit olmasını tələb edir. Çünki elmi-texniki tərəqqi, istehsalın səmərəliliyinin yüksəldilməsi və s. ancaq özünü maliyyələşdirmə əsasında mümkündür. Digər müəssisə maliyyəsi maliyyə münasibətlərinin məcmusundan ibarətdir. Müəssisələrdə pulun hərəkəti nəticəsində baş verən aşağıdakı maliyyə münasibətlərini qeyd etmək olar:

• Müəssisə ilə başqa müəssisə və təşkilatlar arasında maliyyə münasibətləri. Bu münasibətlər satıcılar, alıcılar təşkilatlarla alqı-satqı və s. zamanı yaranır;

• Müəssisə daxilində pul münasibətləri. Belə maliyyə münasibətləri müəssisə ilə onun işçiləri arasında əmək haqqı, mükafat və s. ödənildikdə və eyni zamanda müəssisə ilə onun bölmələri, şöbələri və s. arasında yaranır;

• Müəssisə ilə maliyyə sistemi arasında maliyyə münasibətləri. Bu münasibətlər büdcə və büdcədənkənar fondlara vergi və ödənişlər köçürülən zaman meydana çıxır;

• Müəssisə ilə kredit sistemi arasında maliyyə münasibətləri. Müəssisə bankdan kredit aldıqda və kreditlər silindikdə və faizlər ödənildikdə meydana çıxır;

• Müəssisə ilə sığorta təşkilatları arasında maliyyə münasibətləri sığortalanma zamanı meydana çıxır;

• Müəssisə ilə onun idarəsi arasında yaranan maliyyə münasibətləri. Bu münasibətlər baş idarəyə və müəssisələr tərəfindən mərkəzləşdirilmiş fondlara mənfəət, amortizasiya ayrılmaları və s. köçürüldükdə və baş idarə tərəfindən həmin vəsaitlərin yenidən bölüşdürülməsi zamanı meydana çıxır;

• Bazar münasibətlərinə keçid ilə əlaqədar müəssisə ilə fond birjaları arasında səhm, istiqraz və s. qiymətli kağızların alqı-satqısı ilə meydana çıxan maliyyə münasibətləri.

Beləliklə, müəssisə maliyyə münasibətlərində gəlirlərin və yığımın yaradılması, bölüşdürülməsi və istifadəsi proseslərində meydana çıxan pul münasibətlərinin məcmusunu ifadə edir. Bazar münasibətlərinə keçid dövründə dəyər sahələrdə olduğu kimi müəssisələrin də təsərrüfatmaliyyə fəaliyyətində yeni çalarların meydana gəlməsinə, gəlirlərin bölüşdürülməsi və istifadə olunmasında onların müstəqilliyinin genişləndirilməsinə əlverişli şərait yaratmışdır. Belə bir şəraitdə müəssisələrdə maliyyə münasibətlərinin, maliyyə xidmətlərinə daha da təkmilləşdirilməsi vacib vəzifələrdən biri kimi aktuallıq kəsb edir. Bütün bu yuxarıda qeyd olunanlar referatın müəssisə maliyyəsinin tədqiqinə həsr olunmasına sövq etmişdir. Maddi istehsal sferasında meydana çıxan bütün maliyyə münasibətlərini əhatə etdiyinə görə müəssisə maliyyə sosial-iqtisadi maliyyə sisteminin əsas tərkib hissəsini və maddi bazasını təşkil edir. Bazar iqtisadiyyatı müəssisə maliyyəsinin möhkəm və sabit olmasını tələb edir. Çünki elmi-texniki tərəqqi, istehsalın səmərəliyinin yüksəldilməsi və s. ancaq özünü maliyyələşdirmə əssında mümkündür.

Beləliklə, müəssisə maliyyəsi gəlirlərin və yığımın yaradılması, bölüşdürülməsi və istifadəsi proseslərində meydana çıxan pul münasibətlərinin məcmusunu ifadə edir.

Müəssisə maliyyəsinin məzmunu onun yerinə yetirdiyi funksiyalarla təzahür edir. Müəssisənin dedikdə, iqtisadi kateqoriya kimi onun fəaliyyət dairəsi nəzərdə tutulur. Müəssisə maliyyəsi bölüşdürücü

və nəzarət funksiyalarını yerinə yetirir. Bölgü istehsalla istehlak arasında əlaqələndirici həlqədir. Maddi istehsalda məcmu daxili məhsul və milli gəlirin bölüşdürülməsi maliyyə vasitəsilə baş verir. Müəssisə maliyyəsinin bölüşdürücü funksiyası vasitəsilə satışdan daxil olan pul gəliri material xərclərinin, əmək haqqının və s. ödənilməsinə və ümumi gəlirin yaranmasına yönəldilir. Sonuncunun bir hissəsi büdcəyə və büdcədənkənar fondlara ödənilən vergilər və ödənişlər arasında bölüşdürülür, qalan hissəsi isə müəssisənin sərəncamına keçir və iqtisadi həvəsləndirmə fondlarının təşkilində iştirak edir. Beləliklə, müəssisə maliyyəsinin bölüşdürücü funksiyası vasitəsilə gəlirin və yığımın bölüşdürülməsi nəticəsində bütün təsərrüfat subyetlərinin və dövlətin mənafeyini təmin edilir. Bu funksiyalara gəlirin və yığımın bölüşdürülməsi prosesində müəssisə maliyyəsinin öz fəaliyyətini yerinə yetirilməsi başa düşülür. Müəssisə maliyyəsinin ikinci funksiyası nəzarətdir ki, bu funksiya da bölüşdürücü funksiya ilə sıx əlaqədardır. Nəzarət funksiyası məcmu daxili məhsul və milli gəlirin müəssisədə istehsalı və bölgüsünün səmərəli rejiminin tətbiq olunmasında kömək edir. Nəzarət funksiyasının obyektlərinə aşağıdakılar daxildir:

• Məhsul istehsalı və satışının uçotu;
• Gəlirlərin və pul fondlarının formalaşması.

Maliyyə vasitəsilə müəssisələrdə qənaət rejiminin gözlənilməsi və material, pul və əmək resurslarının istifadəsi üzərində nəzarət aparılır. Nəzarət müəssisə daxilindəki müəssisə ilə baş idarə, maliyyə-kredit orqanları və müəssisələr arasında maliyyə münasibətlərinə aparır. Nəzarət müəssisəndə istehsal və bölgünün ən səmərəli rejiminin tətbiqinə şərait yaradır. Müəssisə maliyyəsinin bölüşdürücü funksiyası müəssisədə təsərrüfat maliyyə fəaliyyətinin arası kəsilmədən aparılmasına şərait yaradırsa, nəzarət funksiyası müəssisənin fəaliyyətindəki pozuntuları vaxtında aşkar edib və aradan qaldırılması üçün tədbirlər qəbul etməyə imkan yaradır.

İqtisadiyyatın bütün sahələrində təsərrüfatçılığın təşkilati-hüquqi formalarından asılı olmayaraq, kommersiya fəaliyyəti göstərən müəssisələrdə maliyyənin təşkili aşağıdakı prinsiplərə əsaslanır:

• Təsərrüfat sərbəstliyi;
• Özünü maliyyələşdirmə;
• Maddi maraq;
• Maddi məsuliyyət;
• Maliyyə ehtiyatlarının yaradılması.

Bazar münasibətlərinə keçid şəraitində mülkiyyət formasından asılı olmayaraq kommersiya fəaliyyəti göstərən bütün müəssisələr təsərrüfat və maliyyə sferalarında real sərbəstliyə malikdirlər.

Maliyyə nəzarəti –Bütün iqtisadi subyektlər dövlət, müəssisə və təşkilatların maliyyə fəaliyyəti üzərində qanunverici və icraedici hakimiyyət orqanlarının nəzarətidir. Maliyyə nəzarəti maliyyənin nəzarət funksiyasının reallaşdırma formasıdır. Maliyyə-xüsusi forma və üsul tətbiq etməklə təsərrüfat və idarəetmə obyektlərinin maliyyə fəaliyyətinin və onunla bağlı əməliyyatların yoxlanılması məcmusudur. Maliyyə nəzarətinin təşkili prinsiplərini aşağıdakı kimi qruplaşdrmaq olar.

1. Maliyyə nəzarətinin tam aşkarlıq şəraitində həyata keçirilməsi;
2. Gələcəkdə baş verə biləcək qanunazidd hadisələrin qarşısının alınması tədbirlərinin nəzərə alınması Təftişin əhatəliliyi;
3. Nəzarətin demokratik əsaslarla həyata keçirilməsi.

Maliyyə nəzarətinin planlaşdırılmasını aşağıdakı mərhələlərə bölmək olar:

1. İlkin planlaşdırılma. Bu mərhələdə ilkin yoxlamanın aparılması şərtləri yoxlayıcının vəzifəsi,yoxlama nəticələri və s şərh edilməlidir;
2. Yoxlama aparılacaq təsərrüfat subyekti haqqında məlumatların toplanması. Bu zaman keçmiş illərdə aparılmış yoxlamaların nəticələri ilə tanış olmaq müəssisədə çalışan işçilərlə söhbət aparmaq, materialların nəzərdən keçirmək, yoxlanan subyektin fəaliyyət sahələrinə və xidmət binalarına baxış keçirmək;
3. Nöqsanların ciddiliyinə biznes və təsərrüfatdaxili risqə qiymət verilməklə hüquqi öhdəlikləri müəyyən etmək;

4. Ümumi nəzarət planının və nəzarət proqramının hazırlanması yolu ilə Maliyyə nəzarəti aparılarkən aşağıdakı sənədlər yoxlanılır.

Müəssisənin nizamnaməsi, təsis müqaviləsi, muhasibat və maliyyə hesabatları, hesabatlarda göstərilən məlumatlar. Maliyyə nəzarəti aşağıdakı vəzifələrin yerinə yetirilməsinə xidmət edir:

1. Maliyyə vəsaitlərinə olan tələbatlar vəsaitlərin formalaşması arasında tarazlığın təmin edilməsinə kömək etmək;
2. Dövlət büdcəsi qarşısında maliyyə ödəliklərinin tam və vaxtında təmin edilməsi;
3. Müəssisə və təşkilatların pul vəsaitlərindən səmərəli istifadə olunmasına, uçot və hesabat işlərinin düzgün aparılmasına kömək etmək;
4. Qüvvədə olan qanunvericilik normativ aktlara riaət olunması, o cümlədən təşkilatı-hüquqi formasından asılı olmayaraq müəssisələrin vergiyə cəlb olunması sahəsində nəzarəti həyata keçirmək;
5. Müəssisələrin xarici-iqtisadi fəaliyyətində yüksək faydalığa nail olunmasına köməklik etmək. Maliyyə nəzarəti müxtəlif əlamətlərə əsasən təsnifləşdirilir və formalar seçilir. Onu da qeyd etmək yerinə düşər ki, maliyyə nəzarətinin forma, metod və növlərinin müəyyən edilməsində də iqtisadçılar arasında fikir ayrılıqları mövcuddur. İqtisadçı alimlərdən T.A.Başkatova, E.Y,Qraçeva, A.S.Narinskiy, N.Q.Hacıyev, V.M.Rodionova, V.İ.Şleynikov, N.İ.Silaev, V.A.Piven, S.O.Şoxin həyata keçirilmə zamanından asılı olaraq maliyyə nəzarətini ilkin, cari və sonradan nəzarətə ayırırlar. Digərləri isə maliyyə nəzarətinin həyata keçirilmə zamanı ilə yanaşı, digər kriteriyalar üzrə də formalarını müəyyən edirlər. Məsələn, V.M.Rodionova və V.İ.Şleynikov nəzarətin həyata keçirildiyi materialların xarakterindən asılı olaraq maliyyə nəzarətinin iki formasını: sənədli və faktiki nəzarəti qeyd edirlər. A.S.Narinskiy və N.Q.Hacıyev yoxlamaların əhatə dairəsinin həcmindən asılı olaraq maliyyə nəzarətini tam və qismən maliyyə nəzarətinə ayırırlar. T.A.Başkatova nəzarətin obyektindən asılı olaraq onun aşağıdakı formalarını fərqləndirir: - büdcə nəzarəti; - vergi nəzarəti; - valyuta nəzarəti; - kredit nəzarəti; - sığorta nəzarəti və s. Maliyyə nəzarətinin həyata keçirilmə zamanından asılı olaraq üç formasını qeyd edirlər: ilkin, cari, sonradan nəzarət. İlkin maliyyə nəzarəti müəssisələrin, həmçinin dövlətin maliyyə planlaşdırılması fəaliyyətində çox mühüm əhəmiyyətə malikdir. İlkin maliyyə nəzarəti müəssisələrin maliyyə planlarının, idarə və təşkilatların gəlir və xərc smetalarının, büdcə layihələrinin, müqavilə şərtlərinin və s. sənədlərin tərtib edilməsi və təsdiqi zamanı həyata keçirilir. Belə olan halda ilkin maliyyə nəzarəti maddi, əmək və maliyyə ehtiyatlarının qeyri-səmərəli istifadəsinin qarşısını almağa kömək edir və həmçinin təsərrüfat orqanlarının fəaliyyətlərinin mənfi nəticələrini aradan qaldırmağa imkan verir. Bundan başqa, ilkin maliyyə nəzarətinin köməyi ilə maliyyə planlarının, gəlir və xərc layihələrinin tərtib olunması mərhələsində müəssisələrin əlavə ehtiyatları aşkar edilə bilər ki, bu da maliyyə ehtiyatlarının artırılması və maliyyə vəziyyətlərinə görə müəssisələrin məsuliyyətinin gücləndirilməsi üçün xüsusilə vacibdir. Maliyyə nəzarətinin bu forması qanunların və digər normativ sənədlərin pozulmasını qabaqcadan aydınlaşdırmağa kömək edir. Cari maliyyə nəzarəti təsərrüfat –maliyyə əməliyyatlarının həyata keçirilməsi gedişində maliyyə planlarının icrası zamanı yerinə yetirilir. Bu zaman əmtəə dəyərlilərinin və pul vəsaitlərinin xərclənməsinin normalarını nəzarətdə saxlamaq mümkün olur. Maliyyə nəzarətinin bu forması büdcə ilə hesablaşmaların tam, vaxtında və bütünlüklə həyata keçirilməsi üçün müəssisə və təşkilatların fəaliyyətinin ardıcıl surətdə faktiki materiallar əsasında təhlil edilməsini nəzərdə tutur. Cari maliyyə nəzarətinin təsərrüfatdaxili yığım ehtiyatlarının artmasının araşdırılmasında əhəmiyyəti böyükdür. Sonradan maliyyə nəzarəti hesabat dövrünün və maliyyə ilinin bütövlükdə başa çatmasından sonra həyata keçirilir. Bu nəzarətdə büdcənin icrası, müəssisə və təşkilatların maliyyə planlarının yerinə yetirilməsi zamanı pul vəsaitlərinin səmərəli xərclənməsi yoxlanılır. Sonradan maliyyə nəzarəti ilkin maliyyə nəzarəti ilə qarşılıqlı əlaqədardır və daha doğrusu ilkin maliyyə nəzarətinə əsaslanır. Belə ki, sonradan nəzarət, maliyyə əməliyyatları haqqında verilmiş ilkin nəzarət göstəriciləri əsasında aparılır.

Maliyyə nəzarəti aşağıdakı əlamətlərinə görə təsnifləşdirilir:

1. Mülkiyyət formasına görə: dövlət maliyyə nəzarəti və qeyri-dövlət maliyyə nəzarəti;
2. Həyata keçirilmə vaxtına görə: ilkin nəzarət, cari nəzarət, sonradan nəzarət;

3. Maliyyə fəaliyyəti sahələrinə görə: büdcə, vergi, valyuta-kredit, sığorta, investisiya və pulun tədavülü nəzarəti;
4. Aparılma metoduna görə: yoxlama, müayinə aparma, nəzarət etmə, təhlil, müşahidə, təftiş.

Dövlət maliyyə nəzarəti, öz növbəsində təşkil olunma səviyyəsindən asılı olaraq dövlət maliyyə nəzarəti və yerli maliyyə nəzarətinə ayrılır. Dövlət maliyyə nəzarəti dövlət büdcəsinin və büdcədənkənar fondların büdcələrinin icra olunmasına, pul dövriyyəsinin təşkilinə, kredit ehtiyatlarının istifadəsinə, dövlət daxili və xarici borclarının və dövlət ehtiyatlarının vəziyyətinə, maliyyə, vergi güzəştləri və üstünlüklər verilməsinə edilən nəzarətdir. Dövlət maliyyə nəzarəti – dövlət hakimiyyəti və yerli özünü idarəetmə orqanları, hüquqi və fiziki şəxslər tərəfindən Azərbaycan Respublikası və yerli subyektlərin qanunvericiliyinə riayət edilməsini, dövlətin maliyyə və maddi resurslarının istifadəsinin səmərəliliyinin və effektivliyinin yoxlanmasıdır. Beləliklə, dövlət maliyyə nəzarəti – dövlət orqanlarının qanun çərçivəsində dövlət və yerli hakimiyyət orqanlarının hüquqi və fiziki şəxslərin maliyyə və onunla bağlı təsərrüfat fəaliyyətinin qanunla müəyyən edilmiş hüquq və onların dövlətin maliyyə maraqlarının düşməsinin qiymətləndirilməsi ilə bağlı dövlətin yoxlanması üzrə hüquq, vəzifə və hərəkət sistemini ifadə edən funksiyadır. Qeyridövlət maliyyə nəzarəti təsərrüfat daxili və auditor nəzarətindən ibarətdir. Dövlət və qeyri-dövlət maliyyə nəzarəti həyata keçirilmə forma və metodlarına görə müəyyən ümumi cəhətlərə malik olmasına baxmayaraq son məqsədlərinə görə bir-birindən fərqlənirlər. Belə ki, dövlət maliyyə nəzarətinin son məqsədi dövlət müdcəsinə gəlirlərin maksimum səviyyədə tam daxil olmasını təmin etmək, dövlət xərclərini minimuma endirmək, resurslardan səmərəli istifadə olunmasından ibarətdir. Qeyri-dövlət maliyyə nəzarətinin son məqsədi mənfəətin artırılması üçün müəssisələrin pul vəsaiti fondlarının səmərəli istifadə olunması, israfçılığın qarşısının alınması və mərkəzləşdirilmiş fondların təşkilinə zəruri miqdarda vəsait alınmasından ibarətdir. Həyata keçirilmə vaxtına görə: ilkin, cari və sonradan nəzarət. İlkin nəzarət maliyyə əməliyyatları yerinə yetirilənə qədər həyata keçirilir. Bu proses maliyyə planlarının smetaların, bütün səviyyələrdə büdcələrin və büdcədən kənar fondların maliyyə planlarının tərtibindən əvvəl baş verir. Bu isə vəsaitlərdən daha səmərəli və qənatlə istifadə etməyə zəmin yaradır. Cari maliyyə nəzarəti əməliyyat yerinə yetirilərkən, vəsait bölüşdürülərkən, xərclənərkən bu və ya digər tədbirlərin həyata keçirilməsi üçün büdcədən vəsait ayrılarkən və s. hallarda tətbiq olunur. Sonradan nəzarət maliyyə əməliyyatları başa çatdıqdan sonra aparılmaqla maliyyə hesabat və mühasibat sənədlərinin düzgün tədbir edilməsini müəyyən edir. Maliyyə fəaliyyəti sahələrinə görə: büdcə, vergi, valyuta, kredit, sığorta, investisiya və pulun tədavülü nəzarəti. Büdcə vəsaitinin səfərbər edilməsi və istifadə olunması üzərində nəzarət əsasən maliyyə orqanları tərəfindən həyata keçirilir. Ona görə də maliyyə nəzarətinin bu növü büdcə nəzarəti adlanır. Büdcə nəzarəti iqtisadiyyatın inkişafına və dövlət büdcəsinə daxil olan vəsaitin maksimum artırılmasına və optimal maliyyə - büdcə siyasətinin işlənib hazırlanmasına şərait yaradır. Büdcə nəzarəti – hüquqi normalarda müəyyən edilmiş ictimai orqanlar tərəfindən həyata keçirilən nəzarət tədbirlər sistemidir. Bu tədbirlər Azərbaycan Respublikasında həyata keçirilən büdcə fəaliyyətinin qanunvericiliyini və məqsədəuyğunluğunu yoxlamağa istiqamətlənir. Büdcə nəzarətinin özlüyündə də aşağıdakı formaları var. Büdcə nəzarətinin subyektləri:

1. Azərbaycan Respublikası Nazirlər Kabineti;
2. Azərbaycan Respublikasının Hesablama Palatası;
3. Azərbaycan Respublikası Maliyyə Nazirliyi;
4. Baş sərəncamçı və büdcə vəsaitlərinin sərəncamçıları;
5. İcra hakimiyyəti və orqanlarının nəzarət təftiş xidmətləri;
6. Azərbaycan Respublikasının nümayəndə subyektlərinin hakimiyyəti.

Valyuta nəzarəti AR-də valyuta nəzarəti orqanları və onların agentləri tərəfindən həyata keçirilir. AR-da valyuta nəzarəti orqanları Azərbaycan Respublikasının Mərkəzi Bankı və AR-nın Dövlət Gömrük Komitəsidir. Valyuta nəzarəti agentləri AR Mərkəzi Bankı qarşısında hesabat verən müvəkkil banklardır. Valyuta nəzarəti xarici iqtisadi fəaliyyətlə bağlı maliyyə əməliyyatlarını əhatə edir. Valyuta nəzarətinin məqsədi valyuta əməliyyatları aparılarkən valyuta qanunvericiliyinə əməl olunmasını təmin etməkdir.

**ƏDƏBİYYAT**

1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 2003, 216 s.
2. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: ADİU-nun mətbəəsi, 2007, 792 s.
3. Hüseynova İ.M. Müəssisənin iqtisadiyyatı (dərs vəsaiti). Bakı: Elm, 2013, 304 s.
4. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı: Zaman, 2002, 618 s.
5. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. (dərslik). Bakı: Qərənfil, 2006, 591 s.
6. Bağırov M.S. Statistika kursu. Naxçıvan: Əcəmi, 2014, 608 s.
7. İbrahimova N.H. Müasirləşən iqtisadiyyat və təsərrüfat fəaliyyətinin iqtisadi təhlili. Naxçıvan: Əcəmi, 2015, 184 s.
8. Azərbaycan Respublikası DSK-nın rəsmi elektron ünvanı. www.stat.gov.az
9. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. http: //www.economy.gov.az/

## SUMMARY

**Samir Haziyev**

## METHODS OF IMPROVING THE FINANCES OF THE ENTERPRISE IN PRACTICE

The most complex and direct focus on the management of an organization's financial system is related to the management of the organization's financial system, but the content and functions of this subsystem are autonomous. With the strengthening of market elements, they become a certain independent financial management system. In addition, extended reproduction inevitably implies the constant renewal of the processes of formation, distribution and use of financial resources.

***Key words***: *enterprise, finance, resource, profit, distribution*

## РЕЗЮМЕ

**Самир Азиев**

## СПОСОБЫ УЛУЧШЕНИЯ ФИНАНСОВ ПРЕДПРИЯТИЙ НА ПРАКТИКЕ

Наиболее сложное и прямое внимание к управлению финансовой системой организации связано с управлением финансовой системой организации, но содержание и функции этой подсистемы являются автономными. С усилением рыночных элементов они становятся некой независимой системой управления финансами. Кроме того, расширенное воспроизводство неизбежно предполагает постоянное обновление процессов формирования, распределения и использования финансовых ресурсов.

***Ключевые слова***: *предприятие, финансы, ресурс, прибыль, распределение.*

**NİGAR MƏHƏRRƏMOVA**
*Naxçıvan Dövlət Universiteti meherremovanigar98@gmail.com*

## AZƏRBAYCANDA VERGİ PROQNOZLAŞDIRILMASININ HÜQUQİ ƏSASLARI

*Məqalədə Azərbaycan Respublikasının vergi sistemindən bəhs olunmuş, onun müasir tələblər baxımından formalaşdırılması və inkişaf etdirilməsi xüsusiyyətləri, eyni zamanda vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində aparılan islahatlar təhlil olunaraq araşdırılmışdır.*

***Açar sözlər:*** *vergi sistemi, planlaşdırma, proqnozlaşdırma, vergi siyasəti, büdcə gəlirləri, büdcə xərcləri, vergi prinsipləri*

Ölkəmiz XX əsrin sonlarında ikinci dəfə müstəqillik əldə etdi. Bu dövrdə Azərbaycanın xalqı çox çətin bir şəraitdə yaşayırdı, iqtisadi xaos və tənəzzül, siyasi hərc-mərclik baş alıb gedirdi, iqtisadiyyatımız ciddi problemlərlə üz-üzə qalmışdı. Həyata keçirilən sosial-iqtisadi islahatlar bütün sahələrdə olduğu kimi, dövlət büdcəsində də kəmiyyət və keyfiyyət dəyişikliyinə səbəb olmuşdur. Ölkədə müvafiq konsepsiyanın işlənib hazırlanması və həyata keçirilməsi uzunmüddətli sosialiqtisadi inkişaf proqnozların, proqram və modellərin tərtibini tələb edir. Büdcə mərkəzləşdirilmiş ümumdövlət pul vəsaiti fondunun yaradılması, bu fondun istifadə edilməsi və büdcə vəsaitlərinin hərəkətinə nəzarətin həyata keçirilməsi kimi mühüm funksiyaları yerinə yetirməklə cəmiyyətdə baş verən sosial-iqtisadi prosesləri tənzimləyir. Büdcə vergilərdən və qeyri-vergi ödənişlərindən təşkil olunur ki, burada vergilərin xüsusi çəkisi üstünlük təşkil edir.

Vergilər dövlət və yerli hakimiyyət orqanları ilə vergi ödəyiciləri (müəssisə, firma və ev təsərrüfatları) arasındakı qarşılıqlı prosesi əks etdirir.

Müasir şəraitdə Azərbaycan Respublikasının vergi sistemi bazar iqtisadiyyatına keçməyin hüquqi qaydaları əsasında inkişaf edərək formalaşmışdır. Formalaşmış vergi sistemi iki başlıca sosial və iqtisadi funksiyanı yerinə yetirir:

Büdcə gəlirlərinin formalaşmasını təmin olunması;

Ölkə əhalisinin müxtəlif təbəqələrinin gəlirlərinin formalaşması və yenidən bölgü nəzərə alınmaqla, bütövlükdə iqtisadiyyatda və onun ayrı – ayrı sahələrində ictimai istehsalın və istehlakın tənzimlənməsi üçün şərait yaradır.

Müasir şəraitdə ölkəmizin ərazisində yerli vergilər (bələdiyyə vergiləri də) mühüm əhəmiyyəti kəsb edir. Bu vergilərdən istifadə işi müəyyən muxtariyyətə malik olmaqla, yerli qanunlara və şəraitə uyğun olaraq ödənilsə də, onları əsaslandıran qanun və normativ aktlar ümumi dövlət qanunlarına uyğun qaydada həyata keçirilir

Dünyanın İqtisadi cəhətdən inkişaf etmiş ölkələrində vergi sisteminin inkişafının başlıca istiqamətlərini vergiqoyma prosesini tənzimləyən və büdcə gəlirlərinin formalaşmasını qanun və normativ aktlarla təmin edən vəzifələrin yerinə yetirilməsinə daha çox diqqət ayrılır. Hər bir ölkədə vergi intizamının olması, yəni verginin vaxtında və qanun tələb etdiyi qaydada ödənilməsi və büdcə gəlirlərinin formalaşa bilməsi, beləliklə də büdcə öz xərclərini ödəyə bilməsi üçün ölkədə maliyyə vəsaitinin çatışması üçün əvəzedilməz əhəmiyyətə malikdir. Mövcud faktların təhlili göstərir ki, bu sahədə görülməli işlərimiz, yəni vergi intizamının tam formalaşması üçün hələ də çox işlər görülməlidir.

Vergi intizamının pozulması təkcə verginin vaxtlı – vaxtında, lazımi həcmdə ödəməməsi şəklində yox, məsələn, başqa bir ad altında bizneslə məşğul olmaq şəklində də baş verir. İdentifikasiya işinin vaxtaşırı aparmaq lazımdır. Bu və bir sıra başqa metodlarla təsərrüfat subyektlərinin qayda – qanunlara riayət edib - etmədiyi, aşkar edilir. Son illərin vergi toplanması, vergi ödəyicilərinin intizamının yüksəlməsi də bunu sübut edir.

Həm də vergi bazasının genişlənməsi vergiqoyma obyektlərinin ödəyicilərinin vergiyə cəlb edilməsi zamanı ədalətlilik, dəqiqlik və verginin adekvatlığı prinsiplərinə düzgün əməl edilməsini tələb edir.

Yığılan vergilərin 65% dən çoxu vergi orqanlarının, 15 % -dən çoxu gömrük orqanları xətti ilə 20 % -ə qədəri isə sair daxilolmaların üzərinə düşür.

Qeyd etmək lazımdır ki, vətəndaşların vergi ödəmə sahəsində öz boclarını yerinə yetirməsi intizamı xeyli dərəcədə yaxşılaşmışdır. Nəzərə almaq lazımdır ki, yanacağa, enerji daşıyıcılarına qiymətlərin qaldırılması ilə baş verən dəyişiklik zəncirvari şəkildə bütün istehsal sahələrində məhsullara vergi ödənilməsi intizamının pozulmasına və büdcəyə olan borcların artmasına səbəb olmuşdur. Ona görə də vergi siyasətində bu cəhətlər hamısı diqqətlə ölçülüb – biçilməli, nəzərə alınmalıdır.

Hazırki dövrdə vergi ödəmə sahəsində ən çox intizam pozuculuğu əlavə dəyər vergisi (ƏDV) üzrə baş verir. Bu sahədə aparılmış yoxlamalar nəticəsində özünü ƏDV ödəyiciləri kimi göstərən 1436 təşkilatın vergi intizamını pozması aşkar edilmişdir. Azərbaycan Respublikasında 2006-cı ilin fevralından başlayaraq ƏDV – nin ödənilməsi sahəsində onu ödəməmək üçün müxtəlif fəndlər işlədən şəxslərə ödənilməyən ƏDV – nin 100% - i qədər cərimə tətbiq edilməsi qərara alınmışdır.

Qeyd etmək lazımdır ki, ölkə üzrə dövlət büdcəsi layihəsi tərtib edilərkən, vergilərin planlaşdırılan məbləği faktiki vergi yığılması əmsalı nəzərə alınmaqla müəyyənləşdirilir.

Göstərilənlərlə əlaqədar vergi yükünün İqtisadiyyatın sahələri üzrə bərabər bölgüsünün təmin edilməsi, istər büdcəyə vergi daxilolmalarının artırılması, istərsə də bütövlükdə ölkənin maliyyə sisteminin və vergi intizamının sağlamlaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Ölkədə müasir şəraitdəki vergi daxilolmalarının təhlili göstərir ki, son illərdə bu sahədə ciddi müvəffəqiyyətlər qazanılmış, vergi daxilolmaları artmış, borclu ödəyicilərin sayı xeyli azaldılmışdır. Keçirilən identifikasiya tədbirləri və başqa tədbirlər nəticəsində özünü ƏDV və başqa birbaşa vergi ödəyiciləri kimi göstərən, vergi intizamını pozan bəzi hüquqi və fiziki şəxslər aşkar edilmiş, büdcənin çoxlu miqdarda məhrum olduğu pul vəsaiti büdcəyə qaytarılmışdır. Bunlar təkcə birbaşa vergilər yox, dolayı vergilər, xüsusi vergilər və rüsumlar sahəsində də aşkar edilmiş, pozuntuların əsas hissəsi aradan qaldırılmışdır. Bu cür faktklar isə vergi orqanlarının işinin və bunun nəticəsi olaraq vergi ödəyiciləri intizamının yüksəldilməsi işinin düzgün istiqamətdə inkişaf etdiyini göstərir.

Müasir vergiqoyma nəzəriyyəsində ən mühüm problemlərdən biri vergiqoymanın optimallaşdırılması, bunların reallaşmasını müəyyənləşdirən və həyata keçirməyi təmin edən qanunvericiliyi və ona uyğun gələn vergi sisteminin özünü təkmilləşdirmək lazım gəlir.

Son illərdə vətəndaşların vergi ödəmə sahəsində öz boclarını yerinə yetirməsi intizamı xeyli dərəcədə yaxşılaşmışdır. Vergi yığılması və ödənilməsi intizamına nəzarət edilməsi işində başlıca məsuliyyət Vergilər Nazirliyinin üzərinə düşür.

Azərbaycan Respublikasının hər ilin yekununda “Dövlət büdcəsinin icrası haqqında” adlanan dövlət Qanununda büdcə vəsaitlərinin istər sərf olunması, istərsə də formalaşması istiqamətləri göstərilir.

Hazırda Azərbaycan Respublikasında tətbiq edilən Vergi Məcəlləsi vergi sistemin təkmilləşdirmək, vergilərin legitimliyinin əsas məsələlərini tənzimləmək, vergi hüququnun başlıca problemlərinin həllinə kompleks yanaşmanı təmin etmək üçün sistemləşdirilmiş qanunvericilik funksiyasını lazımi dərəcədə yerinə yetirsə də, o hələ yenə də təkmilləşdirilməlidir.

## ƏDƏBİYYAT

1. Azərbaycanın vergi sistemi (xüsusi buraxılış) Azərbaycan Respublikası Vergilər Nazirliyi. Bakı: 2015.
2. T.Abbasov. İdarəetmə uçotu: beynəlxalq və milli uçot standartları. (GAAP və İEFRS) əsasında. Bakı: 2021, 390 s.
3. A.Kərimov. Mühasibat uçotu, vergilər. Bakı: 2009, 544 s.
4. http://anl.az/el/v/vz_db.pdf
5. http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=70
6. https://unec.edu.az/application/uploads/2015/12/229_vergi.pdf
7. https://www.taxes.gov.az/files/2/Vergilere_aid_nesrler/4/4.20.pdf

**SUMMARY**

**Nigar Maharramova**

**THE LEGAL BASİCS OF TAX PREDİCTİON**

In the article, the tax system of the Republic of Azerbaijan was discussed and the reforms, which carried out in the direction of the features of its formation and development in terms of modern requirements, the development of tax legislation and tax administration, were investigated by analyzing.

***Key words:*** *Tax system, the planning, prediction, tax policy, budget income, budget expenses, tax principles*



**РЕЗЮМЕ**

**Нигяр Магеррамова**

**ЮРИДИЧЕСКИЕ ОСНОВЫ НАЛОГОВОГО ПРОГНОЗИРОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ**

В статье рассматривается налоговая система Азербайджанской Республики, особенности ее формирования и развития с точки зрения современных требований, а также проводимые реформы по совершенствованию налогового законодательства и налогового администрирования.

***Ключевые слова:*** *налоговая система, планирование, прогрозирование, налоговая политика, доходы бюджета, расходы бюджета, налоговые принципы*

# MÜNDƏRİCAT

## I BÖLMƏ
## BEYNƏLXALQ İQTİSADİYYATA İNTEQRASİYA VƏ DAVAMLI İQTİSADİ İNKİŞAF

**ELBRUS İSAYEV.** Qitələrarası inteqrasiyasının təmin edilməsində ipək yolunun əhəmiyyəti ..... 3

**ZƏHMƏT ŞAHVERDİYEV** XIX əsrdə Naxçıvan qəzasında ipək istehsalı və ticarəti..... 5

**RƏSUL BALAYEV.** Beynəlxalq logistika şəbəkəsində rəqəmsal texnologiyalardan istifadə perspektivləri ..... 11

**CEYHUN MAHMUDOV.** Naxçıvan Muxtar Respublikası modern ipək yolunun logistika mərkəzlərindən biri kimi ..... 14

**MÜSLÜM CABBARZADƏ**. Regionların inkişafında innovasiya potensialından səmərəli istifadə məsələləri ..... 18

**NAZİM ƏHMƏDOV.** Zəngəzur dəhlizinin işə düşməsi Naxçıvan iqtisadi rayonunun xarici ticarətini genişləndirəcək və güclü logistika mərkəzinə çevirəcək ..... 21

**DİLSUZ QASIMOV** Naxçıvan MR-də logistikanın yaranması üçün görülən işlər və zəruri şərtlər ..... 25

**SARA HACIYEVA.** Naxçıvanda toxuculuq və xalçaçılığın inkişafının ticarət əlaqələrinin genişlənməsinə təsiri ..... 30

**YAŞAR RƏHİMOV**. Şərur rayonunun sənayesi 1950-1980-ci illərdə ..... 34

**BƏHRAM HƏSƏNOV.** Naxçıvan MR-in xarici ticarət əlaqələri və strateji hədəfləri ..... 38

**MAYİSƏ ABBASOVA.** Naxçıvan Muxtar Respublikasının davamlı və dayanıqlı inkişafında beynəlxalq ticarətin rolu ..... 43

**ƏBDÜLHÜSEYN ZAMANOV.** Naxçıvan MR-də xarici ticarət və logistikanın müasir vəziyyəti və problemləri ..... 47

**NƏSRİN ƏLİYEVA.** Naxçıvan nəqliyyat-logistika mərkəzi kimi ..... 52

**RƏSUL ƏLƏKBƏROV.** Zəngəzur dəhlizinin Naxçıvan Muxtar Respublikası sənayesinin ixrac potensialının artırılmasına yaradacağı inkişaf istiqamətləri ..... 56

**NİHAD MEHBALIYEV.** İnnovativ sosial-iqtisadi inkişaf və Naxçıvan Muxtar Respublikasında onun tətbiq istiqamətləri ..... 60

## II BÖLMƏ
## BEYNƏLXALQ TİCARƏT, BEYNƏLXALQ TURİZM VƏ LOGİSTİKA MƏRKƏZİ

**TEYMUR ABBASOV.** Naxçıvanın nəqliyyat – logistika mərkəzinə çevrilməsi işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafının əsas istiqamətləri ........ 63

**ƏŞRƏF ƏLƏKBƏROV.** Naxçıvan Muxtar Respublikasında davamlı iqtisadi inkişaf və ərzaq təhlükəsizliyi ........ 66

**CAVADXAN QASIMOV.** Naxçıvan Muxtar Respublikasında yerli istehsalın inkişafı davamlı müqavimətliliyin əsas dayaqları kimi ........ 71

**FLORA KƏRİMOVA.** Kəlbəcərin təbii resurslarının turizm-rekreasiya cəhətdən qiymətləndirilməsi ........75

**İRADƏ BAĞIROVA.** Azərbaycanın beynəlxalq logistik informasiya dəhlizinə inteqrasiyasında "Zəngəzur dəhlizi"nin rolu ........ 80

**NİGAR BABABƏYLİ.** Düzənlik Qarabağın arazboyu hissəsinin landşaftlarının ekoturizm cəhətdən qiymətləndirilməsi ........ 84

**ÜLKƏR HƏSƏNZADƏ**. Şuşanın turizm imkanlarının dəyərləndirilməsi ........ 90

**HƏBİB ZEYNALOV.** İşğaldan azad olunmuş ərazilərin turizm dəyərlərinin qiymətləndirilməsi ........ 94

**ÜLVİYYƏ ƏLİYEVA.** XXI əsrdə otelçiliyin inkişafı ........ 98

**ASİF ABDULLAYEV, FATMAXANIM ƏHMƏDLİ.** Qarabağa "böyük qayıdış" kontekstində turizmin inkişafı ........ 104

**ELŞƏN NƏSİROV.** Naxçıvanın logistik geostrategiyası ........ 109

## IV BÖLMƏ
## BEYNƏLXALQ MÜHASİBAT UÇOTU STANDARTLARI

**NURİYYƏ İBRAHİMOVA.** Naxçıvan Muxtar Respublikasında beynəlxalq ticarət əlaqələrində məhsul istehsal və satışının təhlili ........ 115

**MEHRİBAN İMANOVA.** İctimai sektor üçün mühasibat uçotunun beynəlxalq standartlarının tətbiqi və qarşıya çıxan çətinliklər ........ 121

**MEHPARƏ MƏMMƏDOVA.** Kommersiya təşkilatlarında mühasibat uçotunun beynəlxalq standartlarına uyğun qurulması problemləri ........ 126

**SAMİR HƏZİYEV.** Müəssisə maliyyəsinin təkmilləşdirilməsi metodları təcrübədə ........ 131

**NİGAR MƏHƏRRƏMOVA.** Azərbaycanda vergi proqnozlaşdırılmasının hüquqi əsasları ........ 136

| | |
|---|---|
| Nəşriyyat direktoru: | Əli Həşimov |
| Mətbəə müdiri: | Vidadi Kazımov |
| Aparıcı redaktor: | Sahilə Abbasova |
| Aparıcı redaktor: | Günel Məmmədova |
| Aparıcı korrektor: | Sitarə Əlizadə |

Yığılmağa verilib: 07.11.2022
Çapa imzalanıb: 20.12.2022
Formatı: 60/90, 32/1, həcmi 9.31 ç/v
Sifariş № 103, sayı 100 nüsxə

**REDAKSİYANIN ÜNVANI:** *7012. Naxçıvan şəhəri,*
*Universitet şəhərciyi,*
*Naxçıvan Dövlət Universiteti,*
*Əsas bina, I mərtəbə,*
*"Qeyrət" nəşriyyatı.*

**TELEFON**: (00994 036) 545-45-59
(00994 036) 544-08-61

**E-mail:** *elmi.hisse@mail.ru*